# AZƏRBAYCAN DİLİ

## DÖVLƏT DİLİ

# 7

METODİK VƏSAİT

 

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Musiqisi* ***Üzeyir Hacıbəylinin,***
*sözləri* ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HƏVVA ABDULLAYEVA,
İRADƏ ƏFƏNDİYEVA,
MƏLAHƏT ƏLƏSGƏROVA

# AZƏRBAYCAN DİLİ 7

Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün
Azərbaycan dili (dövlət dili)
fənni üzrə metodik vəsait

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**kovserneshriyyat@gmail.com** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

"KÖVSƏR"
NƏŞRİYYATI
BAKI – 2018

# MÜNDƏRİCAT


GİRİŞ .......... 4
Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə ümumi təlim nəticələri .......... 6
Məzmun xətləri üzrə əsas və alt-standartlar .......... 7
Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərinin
7-ci sinfi üçün "Azərbaycan dili" dərslik komplekti .......... 8
Dərslərin illik tematik planlaşdırılması .......... 20
Dostum .......... 23
Gözəl təşəbbüs .......... 26
Saqqallı uşaq (I hissə) .......... 29
Saqqallı uşaq (II hissə) .......... 31
Burada nə var ki? .......... 33
Səhərin keşikçiləri .......... 36
İnşa .......... 39
Maraqlı görüş .......... 41
Zəncinin arzuları .......... 43
Qazılıq Qoca oğlu Yeynək boyu (I hissə) .......... 45
Qazılıq Qoca oğlu Yeynək boyu (II hissə) .......... 47
Azərbaycan .......... 50
Hüseynqulu xan .......... 52
Bayrağımız .......... 54
Doğrudan da, fizikdir... .......... 56
Yox, montyor gəlməyəcək .......... 59
Rezin elektriki keçirmir .......... 61
Köməkçi .......... 64
Qızıl payız .......... 66
İlk qabar .......... 68
Dinə bilmədi .......... 70
Saat .......... 73

Ağa Musa Nağıyev ........................................................................ 75
Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev ................................................. 77
Sizinlə işləyəcəm... ........................................................................ 79
Sərv ağacı ........................................................................................ 81
Ayların düzümü ................................................................................ 83
Qırmızı giləli budaqlar ..................................................................... 86
“Koroğluynan Dəli Həsən” qolu (I hissə) ........................................... 88
“Koroğluynan Dəli Həsən” qolu (II hissə) .......................................... 90
Fətəli xanın beşiyi (I hissə) .............................................................. 92
Fətəli xanın beşiyi (II hissə) ............................................................. 95
Zirvə üstə ........................................................................................ 98
Qoçaqlar həmişə ürəkli olur!.. ........................................................ 100
Qələbənin sirri ................................................................................ 102
Mənim dilim ................................................................................... 104
İki dost qaçırdı ................................................................................ 106
Tamaşa baş tutmadı ........................................................................ 109
İki ana ............................................................................................ 111
Novruz yeni gün deməkdir ............................................................... 113
Zəmidə bir turac səslənirdi... .......................................................... 115
Əllamə ............................................................................................ 117
ÖZÜNÜZÜ YOXLAYIN I ................................................................. 120
ÖZÜNÜZÜ YOXLAYIN II ................................................................ 125
ÖZÜNÜZÜ YOXLAYIN III ............................................................... 132
ÖZÜNÜZÜ YOXLAYIN IV ............................................................... 139
Tərcümə üçün nəzərdə tutulmuş çalışma mətnləri ............................ 146
Fənlərarası inteqrasiya ................................................................... 156
Qiymətləndirmə cədvəllərindən nümunələr ....................................... 157

# GİRİŞ

Müstəqil Azərbaycan dövlətinin əsas strateji hədəflərindən biri insan kapitalının inkişafı olduğundan "Müasir təhsil sisteminin formalaşdırılması" ("Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" (7.2) prioritet bir məsələ kimi qarşıya qoyulur. Məlumdur ki, müasir təhsil sisteminin formalaşdırılması isə bir sıra mühüm şərtlərlə yanaşı, ilk növbədə, təhsilin məzmununun yeniləşdirilməsi ilə mümkündür. Bu reallıq əsas tutulduğundandır ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda birinci strateji istiqamətin səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılmasına yönəldiyi qeyd edilmiş, bunun isə təhsilin bütün pillələri üzrə kurikulumların inkişafı kimi vacib hədəfi əhatə edəcəyi göstərilmişdir.

Təhsil strategiyasında "şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud "yaddaş məktəbi"ndən "təfəkkür və düşüncə məktəbi"nə keçidin təmin olunması məqsədi ilə sistemli tədbirlər görüləcəyi" xüsusi vurğulanır. Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması isə şəxsin müasir bilik və bacarıqlara yiyələnməsi üçün vacib şərtdir. Çünki bu, "insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək" imkanı verir.

Azərbaycanda təhsil islahatının başlanmasından keçən dövr göstərdi ki, şagirdyönümlülük və inkişafyönümlülük istiqamətində qurulan və şagird şəxsiyyətinin formalaşdırılmasında nəticəyönümlülüyü hədəf alan hazırkı təhsil islahatı qarşıya qoyduğu əsas məqsədlərə addım-addım yaxınlaşmaqdadır.

Dövlətin təhsil siyasətinin hədəf aldığı nəticələrin reallaşdırılması, qeyd edildiyi kimi, təhsilin məzmun və formasının, qiymətləndirmə mexanizmlərinin yeni əsaslar üzərində qurulmasını şərtləndirir ki, bu isə öz növbəsində kurikulum islahatının təhsilin bütün pillələrində, o cümlədən ümumi orta təhsil səviyyəsində sistemli şəkildə davam etdirilməsini həyata keçirməklə yanaşı, onun inkişafını da zərurətə çevirir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası öz müstəqilliyinin bərpasına nail olduqdan sonra Azərbaycan dili xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında dövlətin rəsmi dili kimi müstəsna əhəmiyyət kəsb etməyə başlamışdır.

Təsadüfi deyildir ki, 23 may 2012-ci il tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamında Azərbaycan dilindən istifadə zamanı bir çox nöqsanlara yol verildiyi, ədəbi dilin tükənməz imkanlarından lazımınca və

düzgün istifadə edilməməsinə diqqət çəkilir və problemin həlli ilə əlaqədar müvafiq qurumların, o cümlədən Təhsil Nazirliyinin qarşısında mühüm vəzifələr qoyulur.

Sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi istiqamətində hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nda da elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrünün Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb etdiyi vurğulanır. Proqramda həmçinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi və azərbaycançılıq məfkurəsi əsasında hərtərəfli inkişafı baxımından gənc nəslin ana dilinə sevgi və hörmət ruhunda tərbiyə olunması, ədəbi dilin normalarına ciddi surətdə əməl edilməsi"nin dövrün tələbi olaraq qaldığına diqqət çəkilir; "dil və nitq mədəniyyətinin yüksəldilməsi" (3.1.9.) əsas vəzifələrdən biri kimi qarşıya qoyulur.

Azərbaycan Respublikası Prezidentinin "Sərəncamı"ında və "Dövlət Proqramı"nda vurğulanan bu məsələlər, göründüyü kimi, bir çox hallarda birbaşa orta ümumtəhsil məktəblərində Azərbaycan dilinin təlimi ilə bağlanır. Bu baxımdan, "Sərəncam" və "Dövlət proqramı" təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dili tədrisinin qarşısında da bir sıra mühüm vəzifələr qoyur.

Bu vəzifələrin yerinə yetirilməsi və qloballaşma şəraitində Azərbaycan dilindən zamanın tələblərinə uyğun istifadənin təmin olunması, "dil və nitq mədəniyyətinin yüksəldilməsi" üçün Azərbaycan dilindən hazırlanan tədris vəsaitlərinin müasir dövrün tələblərinə cavab verməsinə xüsusi diqqət yetirilməli, tədris prosesində öyrənənlərin ehtiyaclarının ödənilməsinə hər cür şərait yaradılmalıdır.

"Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (dövlət dili kimi) kurikulumu" da öz növbəsində bu fənn üzrə ümumi təlim nəticələrində, məzmun standartları, təlim strategiyaları və qiymətləndirmə məsələlərində məhz yuxarıda qeyd olunan imkanların reallaşdırılmasını nəzərdə tutur və ona istiqamətləndirilir.

Fikrimizcə, VII sinif üçün hazırladığımız "Azərbaycan dili" dərslik komplekti (dərslik və metodik vəsait) bu ehtiyacı ödəmək üçün üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələcək və tədris prosesində müəllim və şagirdlərin ən yaxın köməkçisi olacaqdır.

Təlim digər dillərdə aparılan məktəblərin VII siniflərində tədris işini planlaşdıracaq müəllimlərin ehtiyacını nəzərə alaraq burada ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üçün nəzərdə tutulan məzmun standartlarını veririk.

## Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə ümumi təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:***

- dinlədiyi mətnin məzmununu izah edir, ona münasibət bildirir;
- şüurlu və ifadəli oxu bacarıqları nümayiş etdirir;
- müxtəlif formalı rabitəli mətnlər qurur və təqdim edir;
- öz fikirlərini sərbəst, ardıcıl və aydın ifadə edir;
- nitq bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif mənbələrdən istifadə edir, tərcümə bacarıqları nümayiş etdirir.

## 2. Məzmun xətləri üzrə təlim nəticələri

***Ümumi orta təhsil səviyyəsində məzmun xətləri üzrə təlim nəticələri***

**Dinləyib-anlama**

Şagird:

- dinlədiyi söz, ifadə, cümlə və mətnin mənasını anladığını nümayiş etdirir;
- dinlədiyi fikirlərlə bağlı mühakimələr yürüdür.

**Danışma**

Şagird:

- nitqində düzgün tələffüz qaydalarına əməl edir;
- nitqində müxtəlif yardımçı vasitələrdən (uyğun səs tonu, jest, mimika, nitq etiketləri) istifadə edir;
- fikirlərini nitqin müxtəlif formalarında (monoloji, dialoji) ardıcıl ifadə edir.

**Oxu**

Şagird:

- mətndəki söz və ifadələrin kontekstə uyğun mənalarını izah edir;
- elmi-kütləvi və bədii mətnləri düzgün və ifadəli oxuyur;
- elmi-kütləvi və bədii mətnləri məzmun və strukturuna görə təhlil edir.

**Yazı**

Şagird:

- mənbələrdən istifadə etməklə müxtəlif formalı (inşa, esse, hekayə) rabitəli mətnlər yazır;
- özünün və başqasının yazısını təkmilləşdirir;
- yazısında orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq edir;
- əməli yazılar (elan, məktub, teleqram, izahat, ərizə, tərcümeyi-hal, arayış, protokol, hesabat, akt) yazır.

## 3. Siniflər üzrə təlim nəticələri və məzmun standartları
## VII sinif

***VII sinfin sonunda şagird:***

- dinlədiyi mətnin hissələrini müəyyənləşdirir;
- ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir;
- nitqini uyğun səs tonu ilə tənzimləyir;
- müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir;
- mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir;
- mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir, səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur;
- nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır;
- nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir;
- müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır.

### Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Dinləyib-anlama**

Şagird:

1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.

1.1.1. Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir.

1.1.2. Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır.

**2. Danışma**

Şagird:

2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.

2.1.1. Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir.

2.1.2. Nitqini uyğun səs tonu ilə tənzimləyir.

2.1.3. Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir.

2.1.4. Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir.

**3. Oxu**

Şagird:

3.1. Mətni mənimsədiyini nümayiş etdirir;

3.1.1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir;

3.1.2. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur.

3.1.3. Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir.

**4. Yazı**

Şagird:

4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.

4.1.1. Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır.

4.1.2. Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır.

4.1.3. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir.

4.1.4. Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır.

## Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün "Azərbaycan dili" dərslik komplekti

Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün "Azərbaycan dili" dərsliyi dinləyib-anlama, danışma, oxu və yazı məzmun xətlərini özündə birləşdirən 13 alt-standart əsasında ümumi təlim nəticələrinin reallaşdırılması üçün şagirdləri zəruri təlim materialları ilə təmin edir.

7-ci siniflər üçün hazırlanmış "Azərbaycan dili" dərsliyi 68 dərsin reallaşmasını təmin edən 42 mövzudan ibarətdir. Dərslikdəki 3, 4, 12, 14, 15, 16-19, 21, 24, 25, 28, 33-35, 38, 42-ci paraqraflardan hər biri bir, qalan 24 paraqrafın hər biri isə iki dərs saatı üçün nəzərdə tutulmuşdur. Hər bir dərs üçün şagirdlərin yaş səviyyələrinə uyğun bədii və elmi-kütləvi mətnlər, şeirlər, əlavə tədris materialları verilmiş, həmin mətnlər üzrə seçilmiş alt-standartların reallaşdırılmasına istiqamətləndirilmiş rəngarəng çalışmalar tərtib olunmuşdur. 4 dərs summativ qiymətləndirmə üçün (məsələn: 17-ci, 33-cü, 51-ci və 70-ci dərslər) ayrılmışdır. Summativ qiymətləndirmə üçün nəzərdə tutulmuş materiallar isə məqsədli şəkildə dərsliyə daxil edilməmiş, müəllim üçün vəsaitdə verilmişdir.

2 dərs saatı üçün nəzərdə tutulmuş paraqraflar üzərində iş müəllimin şəxsi mülahizəsi əsasında təşkil edilə bilər. Burada diqqət yetirmək lazımdır ki, həmin paraqrafların əksəriyyətində bu və ya digər qrammatik materialla şagirdlərin tanış edilməsi də nəzərdə tutulmuşdur. Həcmcə daha böyük olan mətnlərin isə iki hissəyə bölünərək oxusunun təşkili məqsədəuyğun hesab oluna bilər. Yaxud mətnin oxusu və məzmunu üzərində işi bir dərsdə həyata keçirməklə, sonrakı dərsdə mətnin qavranılması, onun məzmununun nəql edilməsi və digər çalışmalar üzərində işlərlə müvafiq şifahi və yazılı nitq bacarıqların formalaşdırılması üzrə işlər aparıla bilər.

Dərslik şagirdlərin yaş və bilik səviyyələri nəzərə alınmaqla ciddi elmi prinsiplər əsasında tərtib olunmuşdur. Belə ki, dərsliyin metodik sistemində təsadüfi, bacarıq və vərdişlərin reallaşdırılmasına sistemli şəkildə

xidmət etməyən iş forması və ya didaktik material verilməmişdir. Didaktik materialların seçilməsində isə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda vurğulanan tələblərdən birinə (iqtisadi inkişaf məqsədlərinə xidmət edən bilik və bacarıqları, səriştəni aşılayan məzmuna malik) əməl olunmasına səy göstərilmişdir. Bununla yanaşı, bədii parçaların seçilməsində şəxsiyyətin hərtərəfli formalaşdırılmasına müsbət təsiri ola biləcək şeir, tapmaca, hekayə, mətn və s. üstünlük verilmişdir.

Dərslikdəki təlim materialları üzərində şagirdlərin məqsədyönlü işini təşkil etmək üçün ilk növbədə dərsliyin metodik sistemi ilə tanışlıq tələb olunur ki, burada onlardan bəziləri üzərində dayanmağı və müəllimlərin diqqətinə çatdırmağı məqsədəuyğun hesab edirik. Dərsliklə tanışlıq forzas səhifəsindən başlamalıdır. Burada bütün dərslik boyu istifadə olunan şərti işarələr yerləşdirilmişdir. Mühüm əhəmiyyət kəsb etdiyindən müəllim, birinci növbədə, şagirdləri həmin işarələrlə tanış etməli, onların mahiyyətinin qavranılmasına diqqət yetirməlidir.

Dərslikdə bu işarələrdən ən çox sistemli şəkildə istifadə olunanı mətndəki sözlərin üzərində qoyulan ulduz (*) işarəsidir. Bu işarədən dərslik boyu tələffüzü üzərində iş aparılması nəzərdə tutulan sözləri fərqləndirmək üçün istifadə olunmuşdur. Belə ki, artıq şagirdlər əvvəlki siniflərdə sözlərin və söz formaların tələffüzü ilə əlaqədar müəyyən orfoepik qaydalarla tanış olmuş, onlarla həmin qaydaların möhkəmləndirilməsi istiqamətində praktik işlər aparılmışdır. Öyrənilmiş qaydalarla əlaqədar bacarıqların vərdişə çevrilməsi üçün bu istiqamətdə fasiləsiz işlər aparılmalı, bu işlər bir dərs olsa belə, diqqətdən kənarda qalmamalıdır. Odur ki, tələffüz çalışmaları dərslikdə konkret mətn və ya şeirlə, yaxud da hər hansı bir çalışma mətni ilə məhdudlaşdırılmamış, dərsliyin metodik sistemində qırmızı xətt kimi keçərək oxu üçün nəzərdə tutulan bütün tədris materiallarında öz əksini tapmışdır. Yalnız xüsusi məqsəd, yəni bu və ya digər qaydanın möhkəmləndirilməsi üçün dərslikdə üzərində ulduz işarəsi qoyulmuş sözlər əsasında çalışma mətni tərtib edilmişdir. Qalan bütün hallarda üzərində ulduz işarəsi qoyulmuş sözlərin düzgün tələffüzü üzrə zəruri vərdişlərin formalaşdırılması istiqamətində dərsliyin imkanlarından səmərəli istifadə məsələsi müəllimin öhdəsinə buraxılmışdır. Ona görə də dərs ilinin əvvəlində müəllim bu işarənin mahiyyətinin şagirdlər tərəfindən düzgün qavranılmasına, ona şüurlu münasibətin formalaşmasına nail olmalıdır. Təcrübələr göstərir ki, dərsliyin elmi-metodik sistemi bir çox hallarda müəllimin özü tərəfindən dərk edilmədiyindən, dərslərin qarşısında qoyulan metodik prinsiplərə də əməl olunmur və nəticədə qarşıya qoyulmuş məqsədlər reallaşdırılmamış qalır.

Qeyd etməyi lazım bilirik ki, mətn və şeirlərdə ulduz işarəsi ilə fərqləndirilmiş sözlərdən müxtəlif istiqamətli tələffüz çalışmaları kimi istifadə

oluna bilər (dərslikdə belə çalışma nümunələri verilmişdir). Belə ki, eyni bir mətndə ulduz işarəsi ilə fərqləndirilmiş sözlər müxtəlif tələffüz qaydalarını özündə ehtiva edə bilər. Bu da müəllimə fərqli tələffüz qaydalarının praktik tətbiqi istiqamətində qruplarla iş təşkil etməyə imkan yaradır. Tələffüz xüsusiyyətləri baxımından eyni olan sözləri qruplaşdırmaqla şagirdlər onlar arasında oxşarlığı müşahidə edir, onlara aid əlavə misallar söyləməklə fikirlərini əsaslandırır və beləliklə, onlarda düzgün tələffüz bacarığı möhkəmlənərək vərdişə çevrilir. Ola bilər ki, müəllim həmin dərsdə bu sözlərdən yalnız bir qrupu üzərində şagirdləri işlətməyi məqsədəuyğun hesab etsin və ona görə də diqqəti məhz həmin sözlərə yönəltsin. Bütün hallarda unutmaq olmaz ki, düzgün tələffüz bacarığının formalaşdırılması uzun sürən bir prosesdir və onu konkret çalışmalarla həyata keçirmək mümkün deyil. Hər bir mətndə yazılışı və tələffüzü arasında müəyyən fərqlər olan sözlərin xüsusi işarə ilə fərqləndirilməsi, digər tərəfdən, oxu prosesində siqnal rolu oynayır. Belə ki, şərti işarə şagirdlərin göz yaddaşına təsir edir, onların nəzərini cəlb etməklə həm də diqqətlərini fəallaşdırır, həmin sözlərin orfoepik normalar əsasında düzgün tələffüzünə şüurlu münasibətin formalaşmasına xidmət göstərir. Nəticədə oxu prosesində yanlış tələffüz ehtimalı məhdudlaşır ki, bu da müəyyən qədər şagirdlərin tələffüzündə orfoepik normaların pozulması hallarının dərin kök salmasının qarşısını alır. Nitq mədəniyyətini isə düzgün tələffüz bacarığı olmadan təsəvvür etmək çətindir.

Dərsliyin metodik sistemində diqqəti cəlb edən və tez-tez rast gəlinən işarələrdən biri də çalışmalara aid əlavə tapşırıqları fərqləndirən işarədir (✿). Məlumdur ki, sinifdəki şagirdlərin hamısının təlim göstəriciləri və dilə praktik bələdlik səviyyəsi eyni deyildir. Bu səbəbdən çalışmalarda qoyulan tapşırıqların yerinə yetirilməsi də hamı tərəfindən eyni sürətlə baş vermir. Bu boşluğu aradan qaldırmaq və təlim göstəricisi daha yüksək olan şagirdlərin tələbatını ödəmək məqsədilə bəzən dərslikdəki bir çalışma mətni üzərində iki, bəzən hətta üç istiqamətdə işlərin aparılması nəzərdə tutulur. Belə ki, ayrıca götürülmüş bir şagird, yaxud hər hansı bir qrup təqdim edilmiş çalışmaya qoyulmuş əsas tapşırığı yerinə yetirdikdən sonra qalan vaxt ərzində qoyulmuş ikinci tapşırıq üzərində işləyir ki, bu da vaxt itkisinin qarşısını almış olur, şagirdlərin fəallaşdırılmasına şərait yaradır.

Bəzən isə çalışma mətni dil materialı ilə zəngin olduğundan həmin mətn üzərində 2-ci, bəzən hətta 3-cü tapşırığın yerinə yetirilməsi zərurəti qarşıya çıxır. Bu zaman tapşırıq eyni dil faktı üzərində icra olunduğundan 2-ci, 3-cü tapşırıq köməkçi işarə ilə fərqləndirilir, yeni nömrədən istifadəyə ehtiyac duyulmur. Dərslikdən götürülmüş bir neçə nümunəyə nəzər salaq:

Çalışma 9 (səh.18). Mətndə qara şriftlə verilmiş sözləri bağlı olduqları sözlərlə birlikdə dəftərinizə köçürün. Sonra həmin sözlərdəki mənsubiyyət

şəkilçilərini müəyyənləşdirib altından xətt çəkin, hansı şəxsi bildirdiyini, təkdə, yoxsa cəmdə olduğunu söyləyin.

❁ Altından xətt çəkdiyiniz şəkilçilərin şəxsə, yaxud əşyaya aid mənsubluq bildirdiyini faktlarla izah edin.

❁ Qara şriftlə verilmiş sözlərin əlaqələndiyi sözlərin ismin hansı halında işləndiyini müəyyənləşdirin.

Çalışma 16 (səh.20) Mətndə qırmızı rəngdə verilmiş sözləri kök və şəkilçiyə ayırın. Köklərə artırılan şəkilçilərin hal, yoxsa mənsubiyyət şəkilçisi olduğunu müəyyənləşdirin.

❁ Bu tipli sözlərin yazılışı ilə bağlı öyrəndiyiniz orfoqrafiya qaydasını yadınıza salın və sözlərin kökündə baş verən dəyişikliyin səbəbini izah edin.

❁ Bu sözlərin qəbul etdiyi şəkilçilərdən hansıların ismin hal şəkilçiləri olduğunu söyləyin.

Çalışma 8. (səh.27) Necə bilirsiniz, şeirdə qara hərflərlə verilmiş sözləri qrammatik mənalarına görə neçə qrupa bölmək olar? Fikrinizi faktlarla izah edin və sözlərdən hər birinin kontekstə uyğun sinonimini deyin.

❁ Hansı qrupa aid etdiyiniz sözlərdəki əlaməti artırıb, azalda bilərsiniz? Özünüzü sınayın.

❁ "Ağ, ağımtıl, ağımtraq, ağımsov, ağappaq" sözlərini tərcümə edin. Bu sözlərin ifadə etdiyi əlamət bir-birindən nə ilə fərqlənir? Fikrinizi izah edin.

Çalışma 16. (səh.28) "Oğul" sözünü hallandırıb yazın, sonra isə ahəng qanununa uyğun mənsubiyyət şəkilçiləri artırmaqla şəxslərə görə dəyişin.

❁ Hansı hal və mənsubiyyət şəkilçilərini artırarkən sözün kökündə dəyişiklik müşahidə etdiniz? Səbəbini izah edin.

❁ Qruplarla işləyin. Hərəniz bir şəxsdə işlənmiş "oğul" sözünü hallandırıb yazın.

Göründüyü kimi, bu nümunələrdən hər birində eyni dil materialı üzərində üç istiqamətdə iş aparılması nəzərdə tutulur. Əlbəttə, bu tapşırıqların yerinə yetirilməsi, qeyd olunduğu kimi, heç də sinifdəki bütün şagirdlər üçün zəruri hesab edilməyə bilər. Təhsil səviyyəsi yüksək olan şagirdlər isə bu tipli tapşırıqları maraqla yerinə yetirir, onlarda yarış əhvali-ruhiyyəsi yaranmış olur.

Deməli, fərqləndirmə işarəsi ilə vaxtında tanışlıq şagirdlərin öz işlərini düzgün planlaşdırmalarına, tədris ili ərzində istər sinifdə, istərsə də müstəqil işlər zamanı onlarda sürətlə işləmək vərdişlərinin formalaşmasına müsbət təsir göstərir. İşarənin mahiyyəti aydın olmadıqda isə şagirdlər onun fərqinə varmır, öz işlərini əsas tapşırığı yerinə yetirməklə bitmiş hesab edir, digər tapşırıqları yerinə yetirməyə səy göstərmirlər.

Dərslikdə istifadə olunmuş boşluq işarəsi (▭) mətndə və ya çalışmalarda buraxılmış sözlərin yerində işlənir. Əvvəlcədən bu işarə ilə tanışlıq

mətnlərin oxusu və çalışmalar üzərində iş zamanı necə hərəkət etmələrinə şagirdləri hazırlamış olur. Belə ki, oxu prosesində şagirdlər boşluqların yerinə cümlənin məzmunundan doğan sözlər artırmaqla həm özlərini sınamış olur, həm də lüğət ehtiyatında olan sözləri fəallaşdırırlar.

Dərslikdə istifadə olunmuş digər işarələrlə şagirdlər əvvəlki siniflərdən tanış olduqlarından müəllim onları yada salmaqla kifayətlənə bilər.

7-ci sinif üçün müəyyənləşdirilmiş standartların nəzərdən keçirilməsi göstərir ki, müvafiq məzmun xətləri üzrə müəyyənləşdirilmiş alt-standartlar sinifdən sinfə şagirdlərin dilə yiyələnmə bacarıqlarının inkişafını təmin etməyə yönəlmişdir. Belə ki, dinləyib-anlama məzmun xətti üzrə əgər 6-cı sinifdə şagirdlər "dinlədiyi fikirləri dəqiqləşdirmək məqsədilə suallar vermək", "dinlədiyi mətndəki əsas fakt və hadisələri seçə bilmək"lə dinlədiyi mətni anladığını nümayiş etdirirdisə, 7-ci sinifdə müvafiq bacarıq "dinlədiyi mətnin hissələrini müəyyənləşdirmək" və "dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırmaq" şəklində reallaşdırılır.

"Oxu" məzmun xətti 6-cı sinifdə "mətndəki sözlərin düzgün vurğu ilə oxunmasını", "mətnin tərkib hissələrini müəyyənləşdirməyi", "mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah etməyi" nəzərdə tuturdusa, müvafiq məzmun xətti 7-ci sinifdə "mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah etmək", "səs tonu, temp və fasiləni gözləməklə mətni oxumaq", "mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək" bacarığı ilə əvəz olunur.

Göründüyü kimi, müxtəlif məzmun xətləri üzrə 7-ci sinifdə nəzərdə tutulan təlim nəticələrinin reallaşdırılması rabitəli mətnlər üzərində işi zərurətə çevirir. Təcrübələr göstərir ki, məzmun standartlarında nəzərdə tutulmuş bir sıra zəruri bacarıqların şagirdlərdə formalaşdırılması rabitəli mətnlər üzərində işlərlə daha səmərəli reallaşdırılır.

7-ci siniflər üçün hazırladığımız dərslikdəki tədris materialları müxtəlif məzmun xətləri üzrə şagirdlərdə zəruri bacarıq və vərdişlərin formalaşdırılması və inkişafına şərait yaratmaqla yanaşı, tədris prosesini səmərəli təşkil etmək üçün müəllimə imkan verəcək, əlverişli təlim mühitinin yaradılmasını təmin edəcəkdir.

Dərslik tərtib edilərkən, qeyd edildiyi kimi, nitq fəaliyyəti üzrə bütün bacarıqların rabitəli mətnlər əsasında formalaşdırılmasına diqqət yetirilmişdir. Uşaqların praktik dil bacarıqları üçün nəzərdə tutulmuş mətnlər əsas vəzifə ilə yanaşı, onlarda məntiqi, yaradıcı və tənqidi təfəkkürün formalaşdırılmasını da nəzərdə tutur ki, bunlarsız dilin şüurlu mənimsənilməsini həyata keçirmək mümkün deyildir. Bu mətn və şeirlər, eyni zamanda, tərbiyəvi əhəmiyyət daşıyır, şagirdlərdə dövlətçiliyə hörmət və sədaqət aşılanmasına, milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasına, azərbaycançılıq ideologiyasının

mənimsənilməsinə, bir sözlə, şagirdlərin hərtərəfli inkişafına xidmət edir. Mətn və tapşırıqlar həmçinin şagirdlərdə bir sıra əxlaqi keyfiyyətlərin formalaşdırılmasına şərait yaradır, xalqın tarixi keçmişinə maraq oyadır, müstəqil Azərbaycan dövlətinin həyata keçirdiyi islahatlarla onları tanış edir, ölkənin sürətli inkişafı barədə aydın təsəvvür yaradır.

Dərslikdəki hekayələr, süjetli şeirlərin oxusu, həmin mətnlər əsasında tərtib edilmiş çalışmalarda nəzərdə tutulan tapşırıqların yerinə yetirilməsi şagirdlərin dinlədiyi mətnin hissələrini müəyyənləşdirmək, dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırmaq, nitqini uyğun səs tonu ilə tənzimləmək, səs tonu, temp və fasiləni gözləməklə oxumaq, ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz etmək, müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirmək, müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə etmək, mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək, nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl etmək və digər bir sıra bacarıqların formalaşdırılmasına, inkişafına və təkmilləşdirilməsinə imkan verəcək.

Rabitəli mətnlər əlverişli nitq situasiyaları ilə zəngin olduğundan sözün, ifadənin mənasının kontekstdə qavranılması üçün də münbit öyrənmə şəraiti yaradır. Odur ki, dərslikdəki çalışmaların böyük əksəriyyəti məhz mətnlərdə işlənmiş sözlərin leksik və qrammatik mənasının mənimsənilməsini, söz birləşmələri və cümlə qurmaq bacarıqlarının təkmilləşdirilməsini vəhdətdə həyata keçirməyi nəzərdə tutur. Bu isə dilin qrammatik quruluşunun praktik yolla mənimsənilməsini təmin edir.

Təcrübələr göstərir ki, şagirdlər üçün sözün qrammatik və ya leksik mənasının mətndə qavranılması o qədər də çətinlik törətmir və təlimə marağı artırır. Odur ki, dərslik hazırlanarkən mətnlərdəki hər bir imkandan maksimum istifadə edilmiş, hər bir mətn üzrə ən azı 15 çalışma tərtib edilmişdir. Yeri gəlmişkən qeyd edək ki, bəzən çalışmaların sayının çoxluğu müəllimlərdə ciddi narahatçılıq yaradır, onlar həmin çalışmaların hamısının icra edilməsinin mümkünsüzlüyü fikrini irəli sürürlər. Bununla əlaqədar bir daha qeyd etməyi lazım bilirik ki, hər bir sinifdəki şagirdlər dilə praktik bələdlik səviyyələrinə görə müxtəlif olur. Hər bir sinifdə həm bu dilin daşıyıcıları, həm də digər xalqların nümayəndələri təhsil ala bilər. Çalışmaların çoxluğu müəllimə seçim imkanı verir, diferensial yanaşma tətbiq etməyə şərait yaradır. Digər tərəfdən, eyni istiqamətli çalışmaların müxtəlif qruplar tərəfindən yerinə yetirilməsi şagirdlərin müstəqil tədqiqat aparmalarını, ədəbi dilimizin normalarının müxtəlif imkan və yollarla mənimsənilməsini nəzərdə tutur, sinifdə yarış əhvalı-ruhiyyəsi yaradır, şagirdləri fəallaşdırır. Praktik dil bilgisi olan, eləcə də təlimdə mənimsəmə səviyyəsi yüksək olan şagirdlərin ehtiyaclarının ödənməsi, onların təlimə marağının artırılması baxımından da çalışmaların

sayının çoxluğu narahatlıq doğurmaqdansa, təqdir olunmalıdır. Tutaq ki, hər hansı bir mövzuda sözlərin məna imkanları üzərində iş aparmaq üçün 4-5 çalışma verilmişdir. Bu çalışmalar çətinlik dərəcəsinə görə qruplaşdırılmalı və şagirdlərin səviyyəsi nəzərə alınaraq onlara təklif edilməlidir. Bu, səviyyəyə görə qruplar təşkil etməyə də imkan verir. Ola bilər ki, müəllim bu çalışmalardan məsləhət bildiyi hər hansını fərdi qaydada şagirdlərə təklif etsin. Odur ki, hər hansı bir sinifdə dərslikdəki bu və ya digər çalışmanın yerinə yetirilməməsi hələ bu çalışmaların lazımsızlığı anlamına gəlməməlidir.

Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək bacarığının formalaşması məqsədilə dərslikdə istər mətnlər, istərsə də atalar sözləri və tapmacalar əsasında şagirdlər üçün maraqlı çalışmalar hazırlanmışdır. Bu çalışmalarda şagirdlərin əvvəlki siniflərdən öyrəndikləri atalar sözləri və tapmacaların hissələri qəsdən qarışdırılır və şagirdlərdən məzmunca uyğun hissələri əlaqələndirməklə verilmiş atalar sözləri və tapmacaların ilkin şəklini bərpa etmək tələb olunur. Bu tipli çalışmalar vasitəsilə şagirdlərdə müvafiq bacarıqlar inkişaf etdirilməklə yanaşı, eyni zamanda təlimdə varislik təmin olunur. Belə ki, atalar sözləri və tapmacalar üzərində müəyyən tapşırıqları yerinə yetirməklə şagirdlərdə həm məntiqi təfəkkürün inkişafına şərait yaradılır, həm də onların nitqi hazır dil materialları ilə zənginləşdirilir, öyrəndikləri atalar sözləri və məsəllərin unudulmasının qarşısı alınır. Məsələn, 6-cı sinifdə şagirdlər əvvəlki sinifdən öyrəndikləri hər hansı atalar sözündə yol verilmiş səhvin düzəlməsi üzərində işləməklə həmin atalar sözünün nitqdə fəallaşdırılması təmin olunurdusa (Məsələn: 12 Aşağıdakı atalar sözlərində yol verilmiş səhvləri tapıb, düzgün şəklini deyin.)

1) Savadlı adam kor kimidir. 2) Hər oxuyandan Molla Pənah olar. 3) Qələm düz yonulsa da, əyri yazar. 4) Elmli adam meyvəsiz ağac kimidir. 5) Ağıl başda yox, yaşda olar. 6) Ağıl başdan üstün olar. (səh.34)

Verilmiş atalar sözləri əvvəlki siniflərdən sizə tanışdır. Oxuyun, səhvləri tapıb, onların düzgün şəklini yazın.

1) Elə arxalanan igidin arxası yerə dəyər. 2) Torpaq deyər: – Dirilt məni, öldürüm səni! 3) Vətənə gəldim, limana gəldim. 4) Qürbət Vətən olsa, yenə cənnət yaxşıdır. 5) Vətənin min qışı qürbətin yüz baharından yaxşı deyil. 6) Bülbül vətənini sevər, insan – gülü. 7) Gözsüz yaşamaq olar, vətənsiz də yaşamaq olar. (səh. 94) 7-ci sinifdə hissələri bir-biri ilə qarışdırılmış ayrı-ayrı atalar sözlərinin tapılması hissələr arasında əlaqələri müəyyənləşdirmək bacarığının inkişafına şərait yaratmaqla bərabər, atalar sözlərinin şagirdlərin nitqinə daxil olmasını da asanlaşdırır. Məsələn:

14 Cümlələri düzgün tamamlasanız, bir neçə atalar sözü alınacaq. Özünüzü sınayın və alınan atalar sözlərini oxuyun. Necə bilirsiniz, onların

içərisində mətnin məzmunu ilə səsləşəni varmı? Fikrinizi açıqlayın.

**Atalar sözü**

1) Sən saydığını say, ... 2) Böyük ağacın kölgəsi də ... 3) Düşməni dost elə, dostu ... 4) Gördüyünü qoyub eşitdiyinə ... 5) Kiminin əvvəli, ... 6) Örtülü bazar – ... 7) Namərdin çörəyi dizinin ... 8) Qarı düşmən ... 9) Özgə atına minən ...

Köməkçi: dostluğu pozar; böyük olar; dostu düşmən eləmə; kiminin axırı; dizinin üstə olar; gör fələk nə sayır; eşitdiyinə inanma (səh.50)

**10** Aşağıdakı sətirlərdə sizin bildiyiniz altı atalar sözü "gizlənmişdir". Həmin atalar sözlərini tapıb yazın. Necə bilirsiniz, tapdığınız atalar sözlərinin içərisində şeirin məzmunu ilə səsləşməyən varmı? Fikrinizi açıqlayın.

**Atalar sözü**

vətənə gəldim, gözlərimə qan gəldi, vətən həsrəti çəkdim, imana gəldim, qürbətdə xan olunca, öl içində, köçən yurdun qədrini, gözüm vətəndə, el içində, vətənində dilən gəz, özüm qürbətdəyəm, düşən yurdda bilərlər (səh.53)

**18** Aşağıdakı sətirlərdə 7 atalar sözü "gizlənmişdir". Bu atalar sözlərini daha tez tapmaq üçün "Kim daha tez ?.." yarışı keçirin.

**Atalar sözü**

Qocalara hörmət et, cavandan kömək, cavanlıqda daş daşı, dövlətdə dəvə, qocadan demək, sən də qocalacaqsan, qocaya gülən, övladda nəvə, qocalıqda ye aşı, böyüksüz evdə, babanın əlindən xeyir-bərəkət olmaz, nəvə tutar, özünə gülər (səh.82)

**14** Aşağıda sizin bildiyiniz dörd tapmaca verilmişdir. Bu tapmacaların hissələri bir-biri ilə qarışıq düşmüşdür. Diqqətli olsanız, düzgün variantı asanlıqla taparsınız. Özünüzü sınayın.

| | |
|---|---|
| 1) Kiçik-kiçik sandıqlar,<br>Yerə düşər, dillənər. | 2) Göydən gələr millənər,<br>İçi dolu fındıqlar. |
| 3) Otlarda necə otdu<br>Nə dişi var, nə ağzı | 4) Səhər açılar.<br>Dişləyir heyvan kimi. (səh.76) |

Şagirdlərdə haqqında danışılan bacarıqların formalaşdırılması məqsədilə mətnlərin tərkibinə başqa bir mətndən hissə daxil edilməsi və ya mətnin özünün hər hansı bir hissəsinin yerinin dəyişdirilməsi metodundan istifadə olunmuşdur. Şeirlərdə isə oxunan şeirin müəyyən bir parçası çalışma mətni kimi istifadə olunmuş və həmin parçanın şeirdəki yerinin müəyyənləşdirilməsi tələb olunmuşdur.

Dərslikdə qeyd olunan tipli xeyli rəngarəng çalışmalar verilmişdir ki,

bu çalışmalar üzərində düzgün təşkil olunmuş işlər nəzərdə tutulmuş təlim nəticələrinin reallaşdırılmasını təmin etməyə şərait yaradacaqdır.

Dərslikdə atalar sözlərindən müxtəlif bacarıqların formalaşdırılması istiqamətində istifadə olunmuşdur. "Atalar sözü" rubrikası şagirdləri yeni-yeni atalar sözləri ilə tanış etmək məqsədi daşıyır. Ancaq bu rubrikada verilən atalar sözlərindən həm də mətnin ideyasının açılması, yaxud bu və ya digər qrammatik materialın izahı məqsədilə də istifadə olunur ki, nəticədə bir material müxtəlif bacarıqların formalaşdırılmasına xidmət göstərmiş olur.

Atalar sözləri üzərində hər hansı bir tapşırıq yerinə yetirərkən şagirdlər yeni-yeni atalar sözləri ilə tanış olur, dilimizin bu zəngin sərvətinə yiyələnir, yeri gələndə onlardan nitqlərində istifadə edir, bəzi hallarda isə onlar bildikləri atalar sözlərində yol verilmiş səhvləri aşkara çıxarır, onları aradan qaldırmaqla atalar sözlərinin ilkin formalarını bərpa edir, bir hissəsi buraxılmış atalar sözlərini tapıb səsləndirirlər. Bunları hər hansı tapmaca və ya aforizm barəsində də demək olar.

Dərsliyin metodik sistemində diqqəti cəlb edən cəhətlərdən biri də "Hikmət xəzinəsindən" rubrikasıdır. Bu rubrikada verilən aforizmlər daha çox əxlaqi səciyyə daşıyır, şagirdlərin həyata hazırlanmasına, onların mənəvi tərbiyəsinə xidmət edir, tərbiyəvi iş aparmağa vəsilə olur. Bu aforizmlər üzərində aparılan müzakirə və debatlar şagirdlərin şifahi nitq bacarıqlarına yiyələnmələrinə, sərbəst fikir mübadiləsi etmələrinə əhəmiyyətli kömək göstərir. Aforizmlərdən həmçinin qrammatik materialların mənimsənilməsində də bir vasitə kimi istifadə olunmuşdur.

"Bunları bilirsinizmi?" rubrikası ədəbi dilin qrammatik, orfoqrafik, orfoepik normaları ilə şagirdləri tanış etmək və müvafiq dil hadisələrinə onların diqqətini cəlb etmək vəzifəsini yerinə yetirir. Şagirdlər rubrikada təqdim olunan məlumatlarla tanış olur, onların dil hadisələrinə praktik tətbiqi üzərində işləyir, nəticədə nəzərdə tutulmuş təlim nəticələrinin formalaşdırılmasına nail olunur. Əsas nitq hissələri ilə əlaqədar şagirdlərin 6-cı sinifdə əldə etdikləri bacarıqlar 7-ci sinifdə bir qədər də inkişaf etdirilir və təkmilləşdirilir. 7-ci sinifdə həmçinin şagirdlər köməkçi nitq hissələri ilə tanış edilir, onların qrammatik mənasının mənimsədilməsi üzərində işlər aparılır. Bütün bunlarla yanaşı, 5 və 6-cı siniflərdə əsas nitq hissələri ilə bağlı şagirdlərin əldə etdikləri məlumatlar şagirdlərin yaş və bilik səviyyələri nəzərə alınaraq bir qədər də genişləndirilir. Belə ki, dilə praktik bələdlik imkanlarının məhdudluğu 5 və 6-cı siniflərdə bəzi qrammatik kateqoriyalar barədə şagirdlərə məlumat verilməsini çətinləşdirdiyindən həmin materiallarla tanışlıq da 7-ci sinifdə həyata keçirilmişdir.

Çalışma növlərindən biri kimi, sualların mətnin məzmununu əks

etdirmədiyinin əsaslandırılmasına həsr olunmuş tapşırıqların yerinə yetirilməsi şagirdlərin maragına səbəb olur, onlarda fikirlərini fakt və hadisələrlə əsaslandırmaq bacarığını  inkişaf etdirilir. 7-ci sinifdə mətnin qavranılması üçün nəzərdə tutulmuş suallardan və mətn üzrə tərtib edilmiş plandan, eyni zamanda  mətnin hissələri arasında əlaqələrin müəyyənləşdirilməsi, mətndəki ardıcıllığın bərpa edilməsi məqsədilə də istifadə edilmişdir. Belə ki, məsələn, mətn üzrə tərtib edilmiş suallardan bəziləri mətnin məzmununu əks etdirmir, yaxud suallar mətnin ardıcıllığına uyğun gəlmir ki, belə hallarda şagirdlərə təklif olunur ki, suallara cavab verməklə yanaşı, onları həm də mətndəki ardıcıllıq üzrə yenidən sıralasınlar. Bu istiqamətli işlər mətndən götürülmüş cümlələrin mətnin məzmunu əsasında tamamlanmasını nəzərdə tutan çalışmalarla da reallaşdırılır. Şagirdlər əvvəlcə cümlələri mətnin məzmunu əsasında tamamlamalı, sonra onları mətndəki ardıcıllıq üzrə sıralamalı olurlar ki, nəticədə həm də mətnin planı qurulmuş olur.

Dərslikdə istifadə edilmiş çalışmaların bir qrupu xüsusilə şagirdlərin nitqlərində ahəng qanununa uyğun şəkilçi variantlarını düzgün seçmək bacarığının formalaşdırılmasına istiqamətləndirilmişdir. Bu məqsədlə Azərbaycan dilində təklif edilən çalışmalarla yanaşı, daha çox təlim dilindən tərcümə vasitəsilə müvafiq bacarıqların formalaşdırılması məqsədəuyğun hesab edilmiş və demək olar ki, hər paraqrafda tərcümə çalışması verilmişdir. Bu çalışmaların şərti dərslikdə nəzərdə tutulmuş, çalışma mətnləri isə dərsliyin həcmi nəzərə alınaraq müəllim üçün metodik vəsaitdə xüsusi başlıq altında yerləşdirilmişdir. Dərslikdə özünəməxsus sistem təşkil edən  bu tərcümə çalışmaları da bir neçə məqsədə xidmət edir, müxtəlif alt-standartların reallaşdırılmasına şərait yaradır. Belə ki,  şagirdlər təklif edilən mətn parçalarını tərcümə etməklə üzərində iş aparılan mətnlərlə əlaqədar müəyyən əlavə məlumatlar əldə edir, həmin məlumatlardan mətnin müəyyən hissələrində bir nümunə kimi istifadə etmək, onları mətnlə əlaqələndirmək üzrə müvafiq bacarıqlara yiyələnirlər. Bu prosesdə həmçinin tərcümə edilən  fikrin Azərbaycan dilinin qrammatik normalarına uyğun formalaşdırılması, cümlədə sözlərin düzgün əlaqələndirilməsi, ahəng qanununa uyğun şəkilçi variantlarından düzgün istifadə, orfoqrafik normalara əməl olunması tələb olunur ki, bütün bunlar qarşıya qoyulan müəyyən təlim nəticələrinin reallaşmasına imkan yaradır.

Dərslikdə şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi istiqamətinə xüsusi yer ayrılmışdır.  Mətndə işlənmiş müəyyən sözlərin, ifadələrin və söz birləşmələrinin  mənasının izahı üzərində iş mətnin qavranılması ilə paralel aparılır, eyni zamanda, mətnin sözlüyünün daha ətraflı izahı üçün xüsusi çalışmalardan, testlərdən də istifadə olunur. Nəzərə almaq lazımdır ki, artıq şagirdlərin lüğət ehtiyatında müəyyən miqdar söz və ifadələr vardır. Onlar oxuduqlarını başa düşür, anladıqlarını dəqiqləşdirmək üçün sual-

lar verir, fikirlərini istər şifahi, istərsə də yazılı formada ifadə edə bilirlər. Bütün bunları nəzərə alaraq düşünürük ki, üzərində iş aparılan mətnlərin və şeirlərin məzmununun başa düşülməsi üçün artıq onların cümlə-cümlə tərcümə edilməsinə ehtiyac yoxdur. Elə bu səbəbdən də mətndə elə söz və ifadələr fərqləndirilmişdir ki, şagirdlər əvvəlki siniflərdə həmin söz və ya söz birləşmələri ilə tanış edilmişlər. Söz və ifadələrin mətndə xüsusi şriftlər və rənglərlə fərqləndirilməsi sözlərin ifadə etdikləri leksik və qrammatik mənalara bir daha diqqət yönəldir. Bu iş müxtəlif yollarla həyata keçirilə bilər. Belə ki, şagird həmin dil vahidlərinin ifadə etdiyi mənanı başa düşdüyünü göstərmək üçün onu tədris dilinə tərcümə edə, sinonimlərini və ya antonimlərini səsləndirə, yaxud da, sadəcə olaraq, mənalarını təsvir yolu ilə izah edə, həmin söz və ifadələri cümlə içərisində işlədə bilər. Bu yolla həm üzərində iş aparılması nəzərdə tutulan mətnlərin mənası mənimsədilir, həm də şagirdlərin lüğətində olan bir sıra sözlərin mənaları dəqiqləşdirilir və fəallaşdırılır.

Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi və dəqiqləşdirilməsi istiqamətində işlər bununla məhdudlaşmır. Bu istiqamətdəki işlər dərsliyin metodik sistemində özünəməxsus yeri olan "Kəlmələrin dili"ni öyrənək!" rubrikası ilə də həyata keçirilir. Bu rubrikada ilkin mənaları şagirdlərə məlum olan müəyyən sözlər təmsil olunur. Məqsəd dilin lüğət tərkibinin zənginliyinə maraq oyatmaq, həmin sözlərin digər çoxişlək mənalarına, məna çalarlarına şagirdlərin diqqətini cəlb etməklə onların lüğət ehtiyatının genişləndirilməsinə şərait yaratmaqdır.

Bunlardan başqa, məxsusi olaraq şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsinə imkan yaradacaq çoxsaylı rəngarəng çalışmalar da hazırlanmış və dərsliyə daxil edilmişdir. Bu istiqamətli çalışmaların yerinə yetirilməsi, bir tərəfdən, şagirdlərin lüğət ehtiyatını zənginləşdirir, digər tərəfdən isə onların mühakimə bacarıqlarını inkişaf etdirir. Çalışma mətnlərinə daxil edilən belə sözlər əsas tədris mətnlərindən seçilir və mətnin üzərində xüsusi işarələrlə fərqləndirilir. Sözlərin omonim mənaları, sinonimləri, məcazi məna imkanları, çoxmənalılığı, quruluşu, digər sözlərlə əlaqə və münasibətləri şərh yolu ilə mənimsənilir. Dərslikdəki bir sıra çalışmalarda eyni bir kökdən müxtəlif sözlərin düzəldilməsi, verilmiş eyniköklü sözlər arasındakı əlaqə və münasibətlərin müəyyənləşdirilməsi, eyniköklü sözlər cərgəsinin bu və ya digər hitq hissəsinə mənsub sözlər hesabına genişləndirilməsini nəzərdə tutan çalışmalarla da şagirdlərdə lüğət ehtiyatına şüurlu münasibər formalaşdırılır.

Azərbaycan dili dərsliyində ayrı-ayrı dərslər üçün verilmiş tədris materialları bir-birini təkrar etmir, ancaq həmin materiallar qoyulmuş mövzu baxımından bir-birini tamamlayır və şagirdlərin mövzu ilə əlaqədar problemləri müxtəlif tərəflərdən görmələrinə, dərk etmələrinə istiqamətləndirilir. Dinləyib-anlama, danışma, oxu və yazı üzrə zəruri bacarıqların formalaşdırılması işi

forma və məzmunca son dərəcə rəngarəng, üslubca fərqli mətnlər üzrə aparılır. Bu materıalların içərisində bədii, elmi-kütləvi mətnlərlə yanaşı, uşaqların yaş və bilik səviyyələrinə uyğun nəzm nümunələri, xatirələr, aforizmlər, tapmacalar, atalar sözləri və dialoqların olması təsadüfi səciyyə daşımayıb dərslərdə əlverişli öyrənmə mühitini təmin etmək üçün düşünülmüşdür.

Dərslik dəsti hazırlanarkən varislik nəzərə alınmış, əvvəlki siniflərdəki məzmun xətləri üzrə şagirdlərin təlim nəticələri və bunlarla bağlı bacarıqların səviyyəsi təlim materiallarının xarakterində öz ifadəsini tapmışdır.

Müəllim üçün metodik vəsaitdə şagirdlər üçün hazırlanmış təlim materiallarının xarakterik xüsusiyyətləri müəllimlərin diqqətinə çatdırılır, verilmiş tədris materialları üzrə işlərin təşkili yolları barədə müəyyən tövsiyələr verilir.

Kurikulum islahatının həyata keçirilməsi sahəsində məktəblərin və müəllimlərin artıq xeyli təcrübəyə malik olduqlarını nəzərə alaraq, metodik vəsaitdə kurikulumla bağlı anlayışların şərhinə yer verilməsi məqsədəuyğun hesab edilməmişdir.

Metodik vəsaitdə hər bir mövzu üzrə motivasiyanın qurulması nümunəsi verilmiş, müvafiq resurslara diqqət yönəldilmiş, seçilmiş alt-standartların reallaşdırılmasına hansı didaktik materiallarla nail olmağın yolları müəyyənləşdirilmiş və tədris materialları bu baxımdan qruplaşdırılmaqla təqdim olunmuşdur.

Metodik vəsaitin sonunda verilmiş "Özünüzü yoxlayın" rubrikası summativ qiymətləndirmə aparmaq üçün nəzərdə tutulmuşdur. Hər bir təkrar və qiymətləndirmə üçün ən azı 30 tapşırıq nümunəsi verilmişdir ki, müəllimlər bunlardan sinfin səviyyəsinə uyğun şəkildə istifadə edə bilərlər. Qiymətləndirmə üçün tərtib olunmuş materiallar dərslikdə məqsədli şəkildə verilməmişdir. Bəzən şagirdlər həmin materiallarla əvvəlcədən tanış olur və yoxlama formal xarakter daşıyır. Bunun qarşısını almaq və şagirdlərin təlim nəticələrinin obyektiv qiymətləndirilməsini həyata keçirmək məqsədilə yoxlama materiallarının dərslikdə deyil, müəllim üçün vəsaitdə verilməsi qərara alınmışdır. Burada qeyd etməyi lazım bilirik ki, yoxlama məqsədilə tərtib edilmiş bu tapşırıqlardan istifadə etməklə yanaşı, müəllimlər dərs dedikləri hər bir sinfin səviyyəsinə uyğun yoxlama materialları tərtib etməkdə sərbəstdirlər. Müəllimlər metodik vəsaitdə təklif olunmuş yoxlama və təkrar materiallarını dərs dedikləri sinfin səviyyəsinə uyğunlaşdırmaqla da istifadə edə bilərlər ki, bu da hər bir müəllimin məsələlərə nə dərəcədə yaradıcı yanaşmasından asılıdır.

Vəsaitin sonunda həmçinin müəllimlərə kömək məqsədilə ayrı-ayrı fənlər üzrə fənlərarası inteqrasiya yaradılması üçün müraciət edilmiş məzmun standartları da verilmişdir.

## Dərslərin illik tematik planlaşdırılması

| Sıra | Mövzu | Saat | Dərslik (səh.) | Metodik vəsait Səh. | Standart | Fənlərarası inteqrasiya |
|---|---|---|---|---|---|---|
| 1 | Dostum | 2 | 5 | 23 | 1.1.1; 2.1.4; 3.1.2; 4.1.1. | R.d. -2.2.1; |
| 2 | Gözəl təşəbbüs | 2 | 8 | 26 | 1.1.2; 2.1.4; 3.1.1; 3.1.2.; 4.1.3. | R.d.-2.2.3. |
| 3 | Saqqallı uşaq (I hissə) | 1 | 12 | 29 | 1.1.1; 2.1.1; 3.1.1; 4.1.1. | R.d.-2.2.2. Coğ.2.1.3 |
| 4 | Saqqallı uşaq (II hissə) | 1 | 16 | 31 | 1.1.2.; 2.1.4; 3.1.1; 4.1.1. | R.d. -4.1.2; |
| 5 | Burada nə var ki? | 1 | 20 | 33 | 1.1.1; 1.1.2; 2.1.2; 3.1.1; 3.1.2.; 4.1.1; 4.1.2. | Az.t. 3.1.1. |
| 6 | Səhərin keşikçiləri | 2 | 25 | 36 | 1.1.2; 2.1.4. 3.1.1; 4.1.1. | R.d. - 4.1.2 |
| 7 | İnşa | 2 | 29 | 39 | 1.1.2; 2.1.3; 3.1.1; 3.1.2.; 4.1.1. | R.d.- 4.1.2.. |
| 8 | Maraqlı görüş | 2 | 33 | 41 | 1.1.2; 2.1.1; 2.1.4.; 3.1.2; 4.1.1. | R.d.- 4.1.2. |
| 9 | Zəncinin arzuları | 2 | 38 | 43 | 2.1.3; 2.1.4; 3.1.1 ; 4.1.1.; 4.1.3. | R.d.- 4.1.2. |
| 10 | Qazılıq Qoca oğlu Yeynək boyu (I hissə) | 2 | 42 | 45 | 1.1.2; 2.1.1.; 3.1.1; 4.1.1. ; 4.1.3. | R.d. - 4.1.2. Az.t.-3.1.2. |
| 11 | Qazılıq Qoca oğlu Yeynək boyu (II hissə) | 2 | 47 | 47 | 2.1.3; 2.1.4; 3.1.1; 3.1.3.; 4.1.2.; 4.1.3. | R.d.- 4.1.2. Az.t.-3.1.2. |
| 12 | Azərbaycan | 1 | 51 | 50 | 2.1.3.; 2.1.4.; 3.1.1; 4.1.2. | R.d. - 4.1.2. |
| 13 | Hüseynqulu xan | 2 | 54 | 52 | 1.1.1; 1.1.2. 2.1.4; 3.1.1; 4.1.1.; 4.1.3. | R.d.- 4.1.2. Az.t.-3.1.1. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 14 | Bayrağımız | 1 | 58 | 54 | 2.1.1; 2.1.4; 3.1.1; 3.1.3; 4.1.1. | R.d.- 2.2.1; 4.1.2. |
| 15 | Doğrudan da, fizikdir... | 1 | 60 | 56 | 2.1.1; 2.1.4.; 3.1.1.; 3.1.2; 4.1.4. | R.d. - 4.1.2. Fiz. 1.1.1. |
| 16 | Yox, montyor gəlməyəcək | 1 | 64 | 59 | 1.1.1; 2.1.4; 3.1.1; 4.1.3; 4.1.4. | R.d. - 4.1.2. Fiz. 1.1.1. |
| 17 | Rezin elektriki keçirmir | 1 | 67 | 61 | 1.1.1; 2.1.3; 2.1.4; 3.1.1; 4.1.3. | R.d. - 4.1.2. Fiz. 1.1.1. H.b.- 4.2.1 |
| 18 | Köməkçi | 1 | 70 | 64 | 1.1.1; 2.1.1; 2.1.3; 3.1.1; 4.1.1. | R.d. - 4.1.2. H.b.-1.2.1. |
| 19 | Qızıl payız | 1 | 74 | 66 | 1.1.2; 2.1.1; 3.1.1; 3.1.2; 4.1.1. | R.d. - 4.1.2. Biol.-3.2.2. |
| 20 | İlk qabar | 2 | 77 | 68 | 1.1.2.; 2.1.4; 3.1.1; 3.1.3.; 4.1.2; 4.1.3. | R.d. - 4.1.2.; 4.1.4. H.b.-4.1.1. |
| 21 | Dinə bilmədi | 1 | 82 | 70 | 1.1.1; 2.1.1; 2.1.4; 3.1.1; 3.1.2.; 4.1.4. | R.d. - 4.1.4. |
| 22 | Saat | 2 | 85 | 71 | 1.1.2; 2.1.1.; 2.1.3.; 3.1.1; 3.1.3.; 4.1.1. | R.d. - 4.1.2.; 4.1.4. |
| 23 | Ağa Musa Nağıyev | 1 | 89 | 75 | 1.1.2.; 2.1.1. 2.1.4; 3.1.1; 3.1.3; 4.1.1; | R.d.- 4.1.4. Az.t.-3.1.2. |
| 24 | Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev | 1 | 93 | 77 | 1.1.2.; 2.1.4; 3.1.1; 3.1.3.; 4.1.3. | R.d.- 4.1.4. Az.t.-3.1.2. |
| 25 | Sizinlə işləyəcəyəm ... | 1 | 96 | 79 | 1.1.1; 2.1.4.; 3.1.1; 3.1.2; 3.1.3.; 4.1.1. | R.d.- 4.1.4. |
| 26 | Sərv ağacı | 2 | 99 | 81 | 1.1.2; 2.1.4.; 3.1.3.; 4.1.3. | R.d. - 4.1.4. |
| 27 | Ayların düzümü | 2 | 103 | 83 | 1.1.2.; 2.1.3; 3.1.1; 3.1.3.; 4.1.4. | R.d. - 4.1.2. Az.t.-1.1.1. |
| 28 | Qırmızı giləli budaqlar | 1 | 106 | 86 | 1.1.1.; 2.1.1.; 2.1.4.; 3.1.1; 3.1.3. | R.d.- 4.1.2.; 4.1.4.; Biol.-3.2.2. |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 29 | “Koroğluynan Dəli Həsən” qolu (I hissə) | 2 | 109 | 88 | 2.1.3; 2.1.4.; 3.1.1.; 3.1.3; 4.1.1. | R.d. - 4.1.2. Az.t.-3.1.1. |
| 30 | “Koroğluynan Dəli Həsən” qolu (II hissə) | 2 | 113 | 90 | 1.1.2; 2.1.1; 2.1.4.; 3.1.1.; 3.1.2. | R.d.- 4.1.2.; 4.1.3. Az.t.-3.1.1. |
| 31 | Fətəli xanın beşiyi (I hissə) | 2 | 118 | 92 | 1.1.2; 2.1.1; 2.1.4.; 3.1.1; 4.1.3. | R.d.- 2.2.1.; 4.1.4. Az.t.-3.1.2. |
| 32 | Fətəli xanın beşiyi (II hissə) | 2 | 122 | 95 | 2.1.3; 3.1.1.; 3.1.2.; 3.1.3; 4.1.3. | R.d. - 4.1.4. Az.t.-3.1.2. |
| 33 | Zirvə üstə | 1 | 125 | 98 | 1.1.1; 2.1.1; 2.1.4; 3.1.1; 4.1.2. | R.d. - 4.1.2. Az.t.-3.1.1. |
| 34 | Qoçaqlar həmişə ürəkli olur... | 1 | 128 | 100 | 1.1.2; 2.1.3; 2.1.4; 3.1.1.; 3.1.3. | R.d.- 4.1.2. Az.t.- 3.1.2. |
| 35 | Qələbənin sirri | 1 | 132 | 102 | 1.1.2; 2.1.3; 3.1.1; 3.1.3. | R.d.- 4.1.2. |
| 36 | Mənim dilim | 2 | 135 | 104 | 1.1.1; 2.1.3; 2.1.4.; 3.1.1.; 3.1.2.; 4.1.1.; 4.1.3. | R.d. - 4.1.2 |
| 37 | İki dost qaçırdı... | 2 | 138 | 106 | 1.1.2; 2.1.3.; 2.1.4.; 3.1.1.; 3.1.3. | R.d.- 2.2.2.; 4.1.4. Az.t.-3.1.1 |
| 38 | Tamaşa baş tutmadı | 1 | 142 | 109 | 2.1.1.; 2.1.3; 2.1.4.; 3.1.1; 3.1.3. | R.d.- 2.2.3. Az.t.-3.1.2. |
| 39 | İki ana | 2 | 145 | 111 | 2.1.3; 2.1.4; 3.1.1.; 3.1.3.; 4.1.3. | H.b.- 1.2.1. Biol.- 1.1.2.; 4.2.1. |
| 40 | Novruz yeni gün deməkdir | 2 | 148 | 113 | 1.1.1.; 2.1.1; 2.1.4; 3.1.1; 3.1.2.; 4.1.4. | R.d. - 4.1.2. Mus.-1.2.1. |
| 41 | Zəmidə bir turac səslənirdi ... | 2 | 152 | 115 | 1.1.1.; 2.1.4; 3.1.2.; 4.1.3. | R.d. - 4.1.4.; H.b.- 1.2.1. |
| 42 | Əllamə | 1 | 156 | 117 | 1.1.2; 2.1.4.; 3.1.1.; 3.1.3.; 4.1.1. | R.d. - 4.1.2.; 4.1.4. |
| | Təkrar | 4 | | | | |

## Dostum (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Şeirin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d. -2.2.1; |
| 2 | Müvafiq nümunələrdən şeirin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Səs tonu, temp və fasiləni gözləyərək şeiri oxuyur. | 3.1.2. | |
| 4 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi**: İnduktiv.
**Dərsin forması**: Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu**: Beyin həmləsi, müzakirə.
**Resurslar:** Dərslik, kompüter, proyektor.

**Motivasiya**: Müəllim şagirdləri sinif rəhbəri ilə birlikdə məktəbin kitabxanasına aparır. Kitabxana ilə tanışlıqdan sonra şagirdlərə dərsliklər paylayır. Şagirdlər yeni kitablarla sinfə qayıdırlar. Sonra müəllim proyektoru işə salır. Respublika Elmi kitabxanasının (www.csl-az.com), Milli Kitabxananın (ANL.az), F.Köçərli adına Respublika Uşaq Kitabxanasının (Google.com.ru) görüntüləri olan slaydlar elektron lövhədə işıqlandırılır. Şagirdlər oxu, kitab fondu zallarındakı kitabların çoxluğu barədə əyani şəkildə məlumatlandırılır, elektron kitabxana zalı ilə tanış olurlar.

Müəllim sinfə belə bir sualla müraciət edir:

– Kitabxanalarda gördükləriniz sizi kitab oxumağa həvəsləndirdimi?

Şagirdlərin cavabları dinlənilikdən sonra onlara təklif olunur ki, hər kəs dostunun adını bir kağıza yazıb müəllimə təqdim etsin.

**Tədqiqat sualı:** Kitabın insan həyatındakı yeri barədə nə demək olar? Sizcə, kitabı özümüzə dost hesab edə bilərikmi?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Dostum" şeirinin oxusu ilə başlanır. Şeirin oxusu prosesində 3.1.2. alt-standartının reallaşdırılması (səs tonu, temp və fasiləni gözləmək) diqqət mərkəzində saxlanılır. Lazım gəldikdə şagirdlərə praktik kömək göstərilir. Sonra şeirin məzmunu və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. Müəllimin seçib səsləndirdiyi sözlərin mənası şagirdlər tərəfindən izah edilir, cümlə içərisində işlədilir. Şeirin məzmununun daha yaxşı mənimsədilməsi üçün şagirdlər şeiri nəsrə çevirib məzmununu öz sözləri ilə danışırlar.

Dərslikdəki çalışmalarda qoyulmuş tapşırıqların yerinə yetirilməsi seçilmiş alt-standartlar üzrə bacarıqların formalaşdırılmasına şərait yaradır. Mövzuya uyğun tərtib edilmiş 2, 3, 6-cı çalışmalar şeirin oxusundan sonra

onun hissələrini müəyyənləşdirməklə 1.1.1. alt-standartının reallaşdırılmasına istiqamətləndirilmişdir. Bu çalışmaların icrası, eyni zamanda, şagirdlərin müstəqil fikir yürütmək bacarığının inkişafına da təkan verir.

Müvafiq nümunələrdən şeirin hissələrinə uyğun istifadə etmək və 2.1.4. alt-standartı üzrə bacarıqların formalaşdırılmasını təmin etmək məqsədilə 3, 4, 5, 7, 8, 12 çalışmaların yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Bu çalışmalar üzərində işləyərkən şagirdlər şeirdəki müəyyən misraların mənası ilə bağlı fikirlərini yoldaşları ilə bölüşür, müzakirədə və debatda iştirak etməklə insan həyatında müəllimin rolunu inkar etmədən, elmlərin sirlərinə yiyələnməkdə kitabların insana ən yaxın köməkçi olduğunu əsaslandırmağa cəhd göstərirlər: çünki müəllim olmadıqda belə kitablar insanı öyrədə bilir.

Kitabın insan həyatındakı rolunun şüurlu dərk edilməsi və 4.1.1 alt-standartının reallaşdırılması istiqamətində iş dərslikdəki 14-cü çalışma vasitəsilə həyata keçirilir. Bu məqsədlə sinif 4 qrupa bölünür. Hər qrupa çalışmadakı tezislərdən birini seçib müdafi ə etmək tövsiyə olunur. Hər bir qrup tövsiyə olunan tezisi müdafiə etmək üçün fikirlərini nümunələrlə əsaslandırır, digər qrupların üzvləri yoldaşlarının fikirlərini dinləyir, qiymətləndirmə aparırlar. Nəticələrin müzakirəsi kitab oxumağın faydası barədə şagirdlərin fikir birliyinə gəlib çıxmasına şərait yaradır.

Müəllim qrupların işini qiymətləndirə bilər.

Şagirdlərin lüğət ehtiyatlarını zənginləşdirmək, tərcümə etmək bacarıqlarını inkişaf etdirmək məqsədilə 9, 13-cü, çalışmalardan istifadə edilməsi tövsiyə olunur. 3.1.1. alt-standartının reallaşdırılması üzrə işlər şeirdə işlənmiş isimlərin hallarının və feillərin zaman və şəxsinin müəyyənləşdirilməsi istiqamətində qurulur. Şeirdə fərqləndirilmiş feillərin zaman və şəxsini müəyyənləşdirməklə şagirdlər həm də feilin digər qrammatik mənaları üzərində düşünməyə sövq edilir. Bunun üçün seçilmiş 10, 11-ci çalışmaların icrası əsas nitq hissələri ilə əlaqədar şagirdlərin 6-cı sinifdə tanış olduqları qrammatik anlayışları yada salmaqla yanaşı, əldə edilmiş bacarıqların səviyyəsini üzə çıxarmağa da imkan yaradır.

“Hikmət xəzinəsindən” rubrikası şagirdlərin şifahi nitq bacarıqlarının inkişafına şərait yaratmaqla bərabər, həm də tərbiyəvi əhəmiyyət kəsb edir.

Kitabın insan həyatındakı rolunun önəmli olduğu fikri ətrafında müzakirələr dərsin ikinci saatında davam etdirilməli, həmçinin şagirdlərin nümunələrdən şeirin hissələrinə uyğun istifadə etmələrinə şərait yaratmaq məqsədilə “Şanslı balıqçı” mətni dinləmə materialı kimi onlara təqdim olunmalıdır. Sonra mətn üzrə tərtib edilmiş çalışmaların icrası həyata keçirilməli, şagirdlərin mövzü ətrafında fikir mübadiləsinə şərait yaradılmalıdır. Bu işlər tədqiqat sualına cavabın tapılmasına, mövzu ilə bağlı müəyyən nəticələrə gəlməyə gətirib çıxarır.

**Çalışma.** Aşağıdakı hekayəti oxuyun və çıxardığınız nəticə barəsində danışın. Bu əhvalat kitabın insan həyatındakı rolunun nə qədər önəmli olduğuna sizi inandıra bildimi? Fikirlərinizi açıqlayın.

## ŞANSLI BALIQÇI

Bir zamanlar "Diclə balıqçısı" deyilən bir kişi varmış. Bu, uğurlu taleyi ilə məşhur bir adam imiş. Diclə balıq sarıdan zəngin bir yer deyilmiş. Odur ki, balığa çıxanlar elə hey əliboş qayıdarmışlar. Ancaq şansı ilə məşhur olan kişi nə zaman balığa çıxsa, səbətlər dolusu balıqla dönərmiş və balığı satıb bol qazanc əldə edərmiş. Hər kəs ona həsədlə baxar və "nə şanslı adamdır" deyərmiş. Çünki kimsə balıq tuta bilmədiyi halda, o, səbətlər dolusu balıq tutarmış. Deməli, bu adam Allahın sevimli bəndəsi imiş. Adamın şansı beləcə dillərdə dastan olmuşdu. Birinə yaxşı bir şey arzulayanda: "Allah sənə Diclə balıqçısının şansını versin", – demək bir adət olmuşdu. Günlərin birində bu balıqçı xəstələnir və ölür. Cənazəni qaldırmaq üçün gələnlər çaşıb qalırlar: Diclə balıqçısının evi kitablarla dolu imiş. Kitabların çoxu sular və balıqlar haqqında imiş. Tor necə atılır? Hansı saatlarda balıqlar suyun harasında olur?

– Bunlar bu cür suallara aydınlıq gətirən kitablar imiş. O zaman adamın balıq ovundan nədən əliboş dönmədiyi anlaşılır. Demək, balıqçının şansı oxuduğu kitablardan gəlirmiş. Balıqçının yatdığı otağın divarında da bir şeir yazılıbmış.

Bu şeirdə deyilirmiş:
"Əgər düşündüyün bir il sonrasa, toxum ək;
Planlaşdırdığın on il sonrasa, ağac basdır;
Ancaq yüz ildən sonranı düşünürsənsə, xalqa təhsil ver.
O zaman bir dəfə ağac basdırarsan,
On il məhsul alarsan;
Milləti öyrətsən, bu məhsul yüz dəfə artar.
Birisinə bir balıq versən, bir dəfə doyar; balıq tutmağı öyrət ki,
Ömür boyunca doysun".

**Şəngül İxtiyar**

Balıqçının yatdığı otağın divarında yazılmış şeiri yazıçı nə məqsədlə hekayəyə əlavə etmişdir? Debata qoşulun:

1) Bu şeir hekayənin təsir gücünü artırır, onu tamamlayır.
2) Bu şeir vasitəsilə yazıçı öz ideyasını çatdırmaq istəmişdir.

**Çalışma.** Aşağıda verilmiş çin atalar sözünü oxuyun və onun hekayətdən çıxan nəticə ilə üst-üstə düşməsinin səbəbini izah etməyə çalışın.

Planınız 1 illikdirsə – çəltik əkin, 10 illikdirsə – ağac basdırın, 100 illikdirsə – insanlara təhsil verin. (Çin atalar sözü)

❁ Oxuduğunuz hekayət və atalar sözündən şeirin hansı hissələrinə aid nümunə kimi istifadə etmək olar? Fikrinizi əsaslandırın

**Məlumat mübadiləsi:** Şagirdlər tədqiqat apararkən kitabın insan həyatındakı rolu, onun insanın dünyagörüşünün formalaşmasındakı yeri, faydası barədə məlumat əldə edir, seçilmiş alt-standartların reallaşmasına yaxınlaşırlar.

**Nəticə:** Tədqiqat aparan şagirdlər belə nəticəyə gəlirlər ki, həqiqətən də, kitab insanın ən yaxın dostudur. Oxuduğumuz hər bir kitab həyat yolumuzu işıqlandıran çıraqdır. Sadəcə, onları düzgün seçməyi bacarmaq, onlarla səliqə ilə davranmaq lazımdır. Təhsil almağın ən mühum vasitəsi kitab oxumaqdır. Bu fikrin təsdiqi kimi 14-cü çalışmadakı "Şanslı balıqçı" adlı hekayənin, Çin atalar sözünün mənası üzərində düşünülür. Deməli, təhsil almağın faydası, əhəmiyyəti sonsuzdur. Əgər cəmiyyətimizin daha da savadlı, intellektual səviyyəli olmasını istəyiriksə, mükəmməl təhsil almalıyıq. Bu işdə kitablar bizim ən yaxın köməkçimiz, yardımçımız və dostumuzdur. O, böyük sərvətdir, xəzinədir. Şagirdlər 17-ci çalışmadakı kitabın "xahişini" də unutmamalıdırlar. Bilməlidirlər ki, kitab, həqiqətən də, bilik mənbəyidir. Şeirin məzmununun mənimsənilməsi ilə yanaşı, oxu prosesində şagirdlər həm də nitqlərini səs tonu ilə tənzimləmək, uyğun temp və fasiləni gözləməklə şeiri oxumaq, ahəng qanununa uyğun olaraq sözlərə şəkilçiləri düzgün artırmaq bacarıqlarını nümayiş etdirmiş olurlar.

**Yaradıcı tətbiqetmə:** Kitabın həyatdakı rolu haqqında qısa esse yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək. Sözlükdə verilmiş sözləri cümlələrdə işlətmək.

## Gözəl təşəbbüs (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d.-2.2.3. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir, səs tonu, temp və fasiləni gözləyərək mətni oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 4 | Nitq hissələri ilə bağlı yazılış qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qrupla iş.

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab.

**Resurslar:** Dərslik, şəkillər.

**Motivasiya:** Müəllim sinfə A.Şaiqin, A.Səhhətin, M.Ə.Sabirin, C.Məmmədquluzadənin, İ.Krılovun, M.Lermontovun şəkillərini gətirir və şagirdlərə müraciət edir:

– Bu insanlar haqqında nə bilirsiniz?

– Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** Necə düşünürsünüz? Bu sənətkarların adlarının eyni zamanda xatırlanması hansısa bir məna kəsb edirmi? Onlar arasında nə əlaqə ola bilər?

**Tədqiqatın aparılması:** Tədqiqat "Gözəl təşəbbüs" mətninin oxunması ilə başlanır. 3.1.2. alt-standartının reallaşdırılmasını təmin etmək üçün mətn səs tonu, temp və fasilə gözlənilməklə oxutdurulur. Bu zaman şagirdlərin nitqlərini uyğun səs tonu ilə tənzimləməsinə diqqət yetirilir. Mətnin məzmunu və sözlüyün mənimsədilməsi üzrə iş aparılır. 9-cu çalışmanın şərtinə əsasən, mətndə qırmızı rəngdə verilmiş ifadənin mənası izah edilir. Müəllimin tövsiyəsi ilə bəzi sözlər cümlələrdə işlədilir. 2.1.4. alt-standartının reallaşdırılması məqsədilə 1-ci çalışmaya müraciət edilir, şagirdlər mətndə adlarına rast gəldikləri ədiblər haqqında öz fikirlərini yoldaşları ilə bölüşürlər. Mətndə şagirdlərin ilk dəfə rast gəldikləri sözlərə təsadüf olunur. Şagirdlərin nitqlərində az istifadə etdikləri "məftun olmuşam, rəvan, aşina deyiləm, təşviq etdi, təkid edirsiniz" və s. sözlərin mənaları izah edilir. Bu sözlərin işlənmə səbəbinin mətndəki hadisənin baş verdiyi dövrlə bağlı olduğu şagirdlərin nəzərinə çatdırılır. 3.1.2. alt-standartının reallaşdırılması mətnin oxusu prosesi ilə məhdudlaşmır, 1, 2, 3-cü çalışmalarla iş zamanı davam etdirilir.

Mətnin məzmununun qavranılmasına kömək məqsədilə 1.1.1. alt-standartına əsasən 4-cü çalışma üzərində iş aparılır. Bu zaman şagirdlər oxuduqları mətnin hissələrini müəyyənləşdirir, çalışmada qoyulan fikrə münasibətlərini bildirirlər. Şagirdlər 10-cu çalışmanın tələbilə mətni səhnələşdirə də bilərlər. Mətnin məzmununun daha şüurlu mənimsədilməsi məqsədilə şagirdlərin mətnə dair fikirlərini faktlarla əsaslandırmaları, mətnin məzmunu üzrə düzgün suallar seçə bilmələri üçün 1.1.2. alt-standartının tələbinə uyğun olaraq, 2, 3-cü çalışmalara müraciət olunmalıdır. 5-ci çalışmada şagirdlərin mətnə aid suala düzgün cavab vermələri, Lermontov haqqında bildikllərini qısaca danışmaları, 6-cı çalışmada Sabirin "Ata nəsihəti" satirik şeirindən bir parçanın, 7-ci çalışmada isə S.Ə.Şirvaninin

"Sənə hər kimsə elm edə təlim,
Ona vacibdir eyləmək təzim"

aforizminin verilməsi və onlardan dərslikdəki mətnin hissələrinə uyğun istifadə

edilməsi 2.1.4. alt-standartının reallaşdırılmasına xidmət edir.

Müəllim 1.1.2. alt-standartının reallaşdırmaq məqsədilə, 12-ci çalışmada təklif olunduğu kimi, sinfi qruplara bölür. Qruplara çalışmanın şərtindəki tapşırıqlar paylanır. Şagirdlərə fikirləşmək üçün vaxt verilir. Vaxt bitdikdə şagirdlərin cavabları dinlənilərək təhlil edilir, onların düzgün tərcümə etmək, oxuduqları məlumatı ifadə etmək, mətnin məzmunu üzrə suallar tərtib etmək bacarıqları yoxlanılır. Səhvlər düzəldilir, maraqlı cavablar qiymətləndirilir.

13, 14-cü çalışmalar 3.1.1. alt-standartının tələbləri istiqamətində iş aparmaq üçün nəzərdə tutulur. Bu tapşırıqları düzgün yerinə yetirməklə şagirdlər əsas nitq hissələrinin qrammatik mənalarını başa düşdüklərini, dilin qrammatik normalarını mənimsədiklərini, mətndəki feillər üzərində müşahidə aparmaqla, onların şəxsini, zamanını təyin edə bilmələrini nümayiş etdirirlər. 15-ci çalışmadakı təmsil, 16-cı çalışmanın II hissəsi üzərində işləyən şagirdlər isimlərin qəbul etdikləri şəkilçilər üzərində müşahidə aparır, 4.1.3. alt-standartının tələbinə uyğun olaraq, nitq hissələri ilə bağlı düzgün yazılış qaydalarını təkrar etmiş olurlar. 16-cı çalışmada verilmiş suala cavab tapmaqla şagirdlər aşağı sinifdə keçdiklərini xatırlamış olur, nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırırlar. 11-ci çalışma da 4.1.3. alt-standartının tələbinə uyğun tərtib edilmişdir. Burada şagirdlər "o" əvəzliyindən sonra vergül işarəsinin qoyulması barədə qaydanı təkrar edərək fikirlərini əsaslandırmış olurlar.

**Məlumat mübadiləsi:** Şagirdlər oxuduqları mətnin məzmunu və yerinə yetirdikləri çalışmaların köməyi ilə sözlərin qrammatik mənaları, mətnin məzmunu üzərində fikir mübadiləsi aparırlar.

## BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində əşya bildirən sözlərin kimə və ya nəyə (hansı şəxsə və ya şəxslərə) mənsub olduğunu bildirmək üçün xüsusi şəkilçilərdən istifadə olunur. Bu şəkilçilər mənsubiyyət şəkilçiləri adlanır.

**Tək**

I şəxs (mənim) -ım$^4$ (-m) – xalq+ım, ürəy+im, qürur+um, gülüş+üm, ana+m ...
II şəxs (sənin) -ın$^4$(-n) – xalq+ın, ürəy+in, qürur+un, gülüş+ün, ana+n ...
III şəxs (onun) -ı$^4$(-sı$^4$) – xalq+ı, ürəy+i, qürur+u, gülüş+ü, ana+sı, nənə+si, palto+su ütü+sü ...

**Cəm**

I şəxs (bizim) -ımız$^4$ (-mız$^4$) – xalq+ımız, ürəy+imiz, qürur+umuz, gülüş+ ümüz, ana+mız ...
II şəxs (sizin) -ınız$^4$(-nız$^4$) – xalq+ınız, ürəy+iniz, qürur+unuz, gülüş+ünüz, ana+nız ...
III şəxs (onların) -ı$^4$(-sı$^4$) – xalq+ı, ürəy+i, qürur+u, gülüş+ü, ana+sı, nənə+si, palto+su ütü+sü ...

**Nəticə:** Şagirdlər öyrənirlər ki, bütün dövrlərdə Azərbaycan xalqının maariflənməsində əvəzsiz xidmətləri olan ziyalılarımız yaşayıb, fəaliyyət göstərmişlər. M.Ə.Sabir, A.Səhhət, A.Şaiq, F.Köçərli də belələrindəndir. Onlar həm də bizi dünya ədəbiyyatına aid əsərlərlə də tanış etməyi özlərinə borc biləmək, mükəmməl tərcümələr etmişlər. Hər bir ədibin Azərbaycan ədəbiyyatında öz mövqeyi, öz yeri var. Sabir satirik, Səhhət lirik şair olduğu kimi, Köçərli də gözəl ədəbiyyatşünas alim və yazıçı kimi məşhurdur. A.Şaiqin yaradıcılığı isə uşaqlara daha yaxındır. Çünki o, Azərbaycan uşaq ədəbiyyatının yaradıcılarından biridir.

**Yaradıcı tətbiqetmə:** 17-ci çalışmanın şərtinə uyğun, olaraq mətndə adı çəkilən yazıçı və şairlərdən biri haqqında maraqlı təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmağı öyrənmək.

## Saqqallı uşaq (1-ci hissə - 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d.-2.2.2.<br>Coğ.2.1.3 |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantını seçməyi bacarır. | 2.1.1. | |
| 3 | Oxuduğu mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4 | Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab, təqdimat.

**Resurslar:** Dərslik, kompüter, iş vərəqləri.

**Motivasiya:** Müəllim sinfə belə bir sualla müraciət edir:

– Əgər sizi nədəsə təqsirli bilsələr, özünüzün günahsız olduğunuzu necə sübut edərsiniz? Siz özünüz necə kimisə nahaqdan günahkar bilsələr, o adamı müdafiə edərsinizmi?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Sizcə, hər hansı bir hadisənin başvermə səbəbini bilmədən nəticə çıxarmaq olarmı?

**Tədqiqatın aparılması:** Dərslikdəki "Saqqallı uşaq" hekayəsinin I

hissəsinin məzmununun və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı söz və ifadələrin mənası izah edilir. Mətnin oxusu zamanı şagirdlər səs tonunu tənzimləyir, temp və fasiləni gözləyirlər.

1.1.1. alt-standartının tələblərinə uyğun olaraq 1, 3, 4-cü çalışmalar üzərində iş aparılır. Bu zaman şagirdlər suallara cavab verməklə dinlədikləri mətnin hissələrini müəyyənləşdirirlər. 4-cü çalışmada şagirdlərdə mətnin hissələrini düzgün müəyyənləşdirmək bacarığını formalaşdırmaq məqsədilə qəsdən mətndəki ardıcıllığı pozan cümlələr verilmişdir. Şagirdlər bu cümlələri düzgün sıralayıb, mətnin məzmununu tam mənimsəyirlər. Sonra müəllim şagirdləri qruplara bölür. Hər qrupa dərslikdən seçilmiş çalışmalar tapşırılır.

I qrup: çalışma 2;

II qrup: çalışma 13;

III qrup: çalışma 14.

Bu tapşırıqların yerinə yetirilməsi üçün vaxt ayrılır. Vaxt bitdikdə qruplar işlərini təqdim edirlər. Maraqlı cavablar qiymətləndirilir. Şagirdlərin sözlərə ahəng qanununa uyğun şəkilçi variantları seçmək bacarığını inkişaf etdirmək məqsədilə (2.1.1. alt-standartı) 5-ci çalışmanın yerinə yetirilməsi məqsədəuyğun hesab edilir. Şagirdlərin oxuduqları mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah etmələri üçün (3.1.1. alt-standartı) 10, 11, 12-ci çalışmaların yerinə yetirilməsi nəzərdə tutulmuşdur. "Bunları bilirsinizmi?" rubrikasında mənsubiyyət şəkilçili isimlərin neçənci şəxsə aid olmaları və bütün hallarda mənsubiyyət şəkilçisi qəbul etmiş ismin özündən əvvəl gələn və yiyəlik halda işlənən əvəzlik ya da isimlə bağlı olmaları barədə məlumat verilmişdir. Bu qaydanı praktik cəhətdən tətbiq etmək məqsədilə şagirdlər hekayədə qara şriftlə verilmiş sözləri kök və şəkilçiyə ayırır, mənsubiyyət şəkilçilərinin neçənci şəxsə aid mənsubluq bildirdiyini müəyyənləşdirməyə çalışırlar (çalışma 5).

### BUNLARI BİLİRSİNİZMİ?

I və II şəxslərə aid mənsubiyyət şəkilçilərini qəbul etmiş isimlər əşyanın insana mənsubluğunu bildirir: mənim məqsədim, bizim düşmənimiz, sənin dostun ...

III şəxsə aid mənsubiyyət şəkilçisi qəbul etmiş isimlər isə yalnız insana deyil, başqa canlı və cansız əşyalara da mənsubluq ifadə edə bilir: pələngin pəncəsi, torpağın bərəkəti, günəşin işığı, saçın rəngi, meyvənin şirəsi ...

Bütün hallarda mənsubiyyət şəkilçisi qəbul etmiş isim özündən **əvvəl gələn və yiyəlik halda işlənən əvəzlik və ya isimlə** bağlı olur: **sənin** hərəkətin, **sizin** dərsiniz, **gülün** yarpağı, **onun** səsi ...

4.1.1. alt-standartının reallaşdırılması üçün dərslikdə 6, 7, 8, 9-cu çalışmaların yerinə yetirilməsi nəzərdə tutulmuşdur. Bu çalışmaların yerinə yetirilməsi

zamanı şagirdlər hal və mənsubiyyət şəkilçiləri qəbul etmiş isimlər üzərində müşahidə aparır, fikirlərini əlavə misallarla əsaslandırırlar. 9-cu çalışmanın II hissəsi mətnin planının tərtib edilməsinə aiddir. Həmin plan üzrə mətni daha yaxşı mənimsəmək mümkündür. 15-ci çalışma qoşasamitli sözlərin tələffüzü ilə əlaqədar müvafiq qaydanın təkrar edilməsi üçün nəzərdə tutulmuşdur.

**Məlumat mübadiləsi:** Şagirdlər mətnin məzmunu üzərində işləmək və tapşırıqları yerinə yetirməklə əldə etdikləri fikirləri mübadilə və müzakirə edirlər.

**Nəticə:** Hər hansı gözlənilməz və xoşagəlməz hadisə baş verərsə, tez qərar vermək, hadisənin baş verməsində heç bir dəlil olmadan kimisə təqsirli bilmək düzgün deyil. Əgər kimsə, təqsirli bilinərsə də, təmkinli olmaq, təqsirli olmadığını əsaslandırmağı bacarmaq lazımdır. Çünki həyatda heç nə gizli qalmır, gec-tez hər şey üzə çıxır, həqiqət aşkarlanır.

**Yaradıcı tətbiqetmə:** Bu mövzuda kiçik bir ev inşası yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu öyrənmək.

## Saqqallı uşaq (2-ci hissə - 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d. - 4.1.2; |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, sual-cavab.

**Resurslar:** Dərslik, kompüter, proyektor.

**Motivasiya:** Müəllim lövhədə bir neçə hərfin müxtəlif elementlərini çəkir və sinfə sualla müraciət edir:

– Bu xətləri nə üçün çəkdiyimi deyə bilərsinizmi? Onlardan nə düzəltmək olar?

Uşaqlar müxtəlif fikirlər söyləyirlər. Bəziləri bu xətləri birləşdirib hərf düzəldə bilirlər.

**Tədqiqat sualı:** Sizcə, hər cür cızma-qaradan hərf düzəltmək olarmı? Ümumiyyətlə, insanlar hərflərdən istifadə etməyə nə zaman ehtiyac duyurlar?

– Bəs hərfləri bilməməyin, savadsız olmağın aqibəti necə ola bilər?

Bu suallar ətrafında düşünmələri üçün müəllim bir neçə dəqiqəlik proyektoru işə salır, C.Məmmədquluzadənin "Poçt qutusu" hekayəsi əsasında çəkilmiş qısametrajlı filmin bir hissəsini nümayiş etdirir. Sonra sinfə müraciət edir.

– Sizcə, Novruzəlinin gülünc vəziyyətə düşməsinin səbəbi nə idi?

**Tədqiqatın aparılması:**

Tədqiqata mətnin II hissəsinin oxusu ilə başlanır. Mətnin II hissəsinin məzmunu və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır. Mətni oxuyarkən çalışma 8-in tələbinə uyğun olaraq, üzərində ulduz işarəsi qoyulmuş sözlərin tələffüz xüsusiyyətləri nəzərə alınır və həmin sözlərin düzgün tələffüzünə riayət olunmasına diqqət yetirilir. "Sözlük"dəki çətin sözlər izah edilir, lazım gələrsə, cümlələrdə işlədilir.

Mətnin oxusu başa çatdıqdan sonra müəllim şagirdləri 4 qrupa bölür. Mətnin II hissəsinin məzmununun tam mənimsədilməsi üçün dərslikdən mühakimə xarakterli 4 çalışma seçilir və müvafiq qruplara tapşırılır:

I qrup çalışma 1; II qrup çalışma 3; III qrup çalışma 4;

IV qrup çalışma 5. Bu çalışmaların yerinə yetirilməsi əsərdən çıxan nəticəni, hekayənin əsas qəhrəmanının hərəkətlərinin mahiyyətini, hekayədə baş verən hadisənin müasir dövrlə də səsləşə bilib-bilməyəcəyini üzə çıxarır. Şagirdlərə bu fikirlər üzərində düşünmək üçün vaxt təyin edilir. Təyin olunmuş vaxt bitdikdə təqdimatlar dinlənilir, nöqsanlar düzəldilir. Bütün bunlar, eyni zamanda, 1.1.2., 2.1.4. alt-standartlarının da reallaşdırılmasına da təkan verilir.

Dərslikdəki 6, 7, 12, 13-cü çalışmalar da 2.1.4. at-standartının reallaşdırılmasına şərait yaratmaq üçün tərtib edilmişdir.

Qrammatik anlayışların mahiyyətinin şüurlu mənimsədilməsi və sözlərin qrammatik mənalarının düzgün izahı, şəkilçilərin növünün təyin edilməsi, öyrənilən orfoqrafiya qaydalarının yada salınıb təkrar edilməsi üçün 9, 10-cu çalışmalar nəzərdə tutulmuşdur. Bu çalışmaların icrasını müəllim cütlərlə iş şəklində də apara bilər.

Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək məqsədilə 2-ci çalışmanı yerinə yetirmək olar. Bu zaman şagirdlər "Tez çıxdım dalana və gördüm ki, ..." cümləsi ilə başlanan abzasın əhəmiyyətini müəyyənləşdirirlər.

"Hikmət xəzinəsi"ndən rubrikasındakı aforizmlə tanış olmaq üçün şagirdlər aforizmdə yerinə düşməyən sözləri müəyyənləşdirməlidirlər. Bu 4.1.1. alt-standartının reallaşdırılmasıdır. Bunun ardınca şagirdlər aforizmdən çıxan

nəticənin müzakirəsinə qoşulurlar (çalışma 11). 4.1.1. alt-standartının tələbinə görə şagirdlər təqdim olunmuş nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırırlar. Atalar sözlərini oxuyub öyrənməklə onları öyrəndikləri mətnin məzmunu ilə müqayisə edir, uyğunluğunu üzə çıxarır, məcazi mənada işlənmiş birləşmələri təyin edir, verilmiş atalar sözlərinin mənası üzərində düşünürlər.

**Məlumat mübadiləsi:** Şagirdlər hekayənin qəhrəmanı Kəblə Əzimin yazmağı bacarmaması nəticəsində gülünc vəziyyətə düşməsini öyrənirlər. Savadsızlığın insan həyatında vacib amil olduğunu anlayıb fikir mübadiləsi aparırlar.

**Nəticə:** Belə bir nəticəyə gəlirik ki, savadsızlıq insan həyatında bir uçuruma bənzəyir. O, həmişə insanı çətinliklə, maneə ilə üzləşdirir. Hekayənin yazıldığı dövrdə isə savadlı olmaq hər kəsə müyəssər olmurdu. Mirzə Cəlil də bu hekayəni savadsızlığa qarşı mübarizə məqsədilə yazmış, incə bir yumorla savadsız insanın düşdüyü vəziyyətə diqqət cəlb etməyə çalışmışdır.

Müasir dövrdə isə savadsızlığın qarşısı alınmışdır. Dövlətimiz kütləvi surətdə əhalinin maariflənməsi qayğısına qalır. Bütün təhsil ocaqları xalqın ixtiyarındadır. Hətta təhsilalanlar pulsuz dərsliklərlə də təmin olunurlar. İndi təhsil almaq, savadlı olmaq hər kəsin öz əlindədir. Axı Vətənimizin savadlı, intellektual səviyyəli, erudisiyalı vətəndaşlara həmişə ehtiyacı vardır.

**Yaradıcı tətbiqetmə:** Elm, təhsil barədə atalar sözləri toplayıb öyrənmək.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmağı öyrənmək.

## Burada nə var ki? (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir, əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.1.<br>1.1.2. | Az.t. 3.1.1. |
| 2 | Nitqini uyğun səs tonu ilə tənzimləyir. | 2.1.2. | |
| 3 | Əsas nitq hissələrinin qrammatik mənalarını izah edir, səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 4 | Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırır, cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır. | 4.1.1.<br>4.1.2. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab, müzakirə.

**Resurslar:** Proyektor, dərslik, kompüter, iş vərəqləri.

**Motivasiya:** Müəllim elektron lövhədə "Dəli Kür" filmindən Rus Əhmədlə Çernyayevskinin görüş səhnəsini əks etdirən kadrları nümayiş etdirir (www.youtube.com. – "Dəli Kür". Azərbaycanfilm istehsalı). Bu görüş Rus Əhmədin otağında təsvir edilir.

Müəllim sinfə sualla müraciət edir:

– Uşaqlar, kadrlarda gördüyünüz otaq məktəbə bənzəyirmi?

Sonra müəllim filmin digər kadrlarını göstərir. Burada Qori seminariyasında Çernyayevskinin tələbələr arasındakı görüntüləri nümayiş etdirilir.

**Tədqiqat sualı:** Bu şəxsin kim olduğu və Dəli Kürün sahilində yerləşən kəndlərdən birində nə etdiyi barədə fikir söyləyə bilərsinizmi?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Burada nə var ki?" mətninin oxusu ilə başlanır. Müəllim mətnin rollarla oxusunu təşkil edir. Mətn oxunduqdan sonra "Sözlük" və "Söz ehtiyatı" üzərində iş aparılır. Verilmiş sözlərə sinonimlər, antonimlər tapılaraq əlavə cümlə daxilində işlədilir. Mətnin oxusu prosesində şagirdlərin səs tonunu düzgün tənzimləmələri ilə fasiləyə əməl etmələri və nitqin sürəti izlənilir, zəruri hallarda müvafiq tövsiyələr verilir (2.1.2.; 3.1.2. alt-standartları).

Müəllim mətnin məzmununun tam mənimsənilməsi, keçilən qrammatik anlayışların təkrar edilib, yada salınması məqsədilə şagirdləri 3 qrupa bölür.

Qrupların işi üçün 5 və 12-ci çalışmalar seçilir. Hər qrupun birinci tapşırığı 5-ci çalışmada verilən başlığın mətnə uyğunluğunun əsaslandırılması üzərində qurulmuşdur. İkinci tapşırıq üçün 12-ci çalışmada verilən bir aforizmin izahı, üçüncü tapşırıq üçün isə qrammatik mənimsənilmə səviyyəsini müəyyənləşdirmək məqsədilə 12-ci çalışmaya aid verilmiş əlavə tapşırıqlar tövsiyə edilir. Bu çalışmalar 4.1.1. və 3.1.1. alt-standartının reallaşdırılmasına şərait yaratmaq baxımından əlverişlidir. Bu tapşırıqları yerinə yetirmək üçün şagirdlərə müəyyən vaxt təyin edilir. Vaxt bitdikdən sonra şagirdlərin 5-ci çalışma əsasında hazırladıqları təqdimatlar dinlənilir. Şagirdlərin fəaliyyətləri qiymətləndirilir.

Müəllim şagirdlərin söz ehtiyatlarını inkişaf etdirmək məqsədilə böyük qrup şəklində şifahi olaraq 6-cı çalışmanın icrasına keçir. Bu zaman şagirdlər mətndə qara şriftlə verilmiş söz və ifadələrin mənasını izah edərək, onları qarşılıqları ilə əvəz edirlər.

Mətnin məzmunu üzrə işlə əlaqədar böyük qrupla müəliim 16, 18 və 19-cu çalışmaların da icrasını təşkil edə bilər. 1.1.2. və 4.1.1. alt-standartının tələblərinə uyğun olaraq, çagirdlər hekayənin əsas qəhrəmanı Əhmədin xarakterindəki xüsusiyyətlər, A.O.Çernyayevskinin ona münasibəti barədə fikirlər söyləyir, mətnin sonuncu abzasındakı atalar sözünün mənası üzərində düşünürlər.

Şagirdlərin mətnin məzmunu ilə bağlı bilgilərini artırmaq, eyni zamanda, tərcümə etmək bacarıqlarını inkişaf etdirmək məqsədilə böyük qrup 9-cu çalışmaya müraciət edir. Bu iş şifahi şəkildə yerinə yetirilir. Nəticədə, şagirdlər hekayənin qəhrəmanı A.O.Çernyayevskinin prototipi barədə məlumatlandırılır və sürətlə tərcümə etmək bacarıqlarını təkmilləşdirirlər.

Cütlərlə iş qrammatik anlayışların təkrar edilməsi və şagirdlərin mətni mənimsədiklərini nümayiş etdirməsi, rabitəli yazı vərdişlərini inkişaf etdirmələri üçün təşkil edilir. Müəllim sinifdəki şagirdləri cütlərə bölərək, hər cütə 1 tapşırıq verir.

Tapşırıqların icrası üçün vaxt ayrılır. Vaxtın tamamında cütlər yazdıqları tapşırıqlarla sinfi tanış edirlər.

1. 7-ci çalışma – qırmızı rəngdə verilmiş sözlərə aid düzgün olmayan fikrin müəyyənləşdirilməsi;
2. 8-ci çalışma – mənsubiyyət şəkilçili sözlərin müəyyənləşdirilməsi;
3. 11-ci çalışma – sözlərin sifət və ya zərf olduğunu müəyyənləşdirilməsi;
4. 13-cü çalışma – sözlərin kök və şəkilçiyə bölünməsi;
5. 17-ci çalışma – sözlərdəki şəkilçilərin müqayisəsini nəzərdə tutur.

Bu çalışmalar 3.1.1 alt-standartının reallaşdırılmasına xidmət edir.

Müəllim Qori Müəllimlər Seminariyası barədə şagirdlərə əlavə məlumat vermək məqsədilə tədris dilində "Zaqafqaziya Müəllimlər Seminariyası" mətnini də iş vərəqlərində müəyyən parçalara bölərək tərcümə üçün şagirdlərə təqdim edə bilər. Bu, şagirdlərin dünyagörüşünün artmasına və tərcümə bacarığının inkişafına xidmət edir.

**Qeyd.** Mətn tədris dilində verilməlidir.

## Zaqafqaziya Müəllimlər Seminariyası

Bu seminariya Zaqafqaziyada pedaqoji kadrlar hazırlayan mühüm mərkəz idi. 4 illik, ixtisaslaşdırılmış məktəb 1876-1917-ci illərdə Qori şəhərində fəaliyyət göstərmişdir. O, ibtidai sinif müəllimi hazırlayırdı. 1879-cu ildə seminariyanın nəzdində Azərbaycan bölməsi açıldı. Onun ilk inspektoru Aleksey Osipoviç Çernyayevski təyin edildi. Azərbaycan dilində "Vətən dili" adlı ilk dərsliyin meydana gəlməsi də bilavasitə Zaqafqaziya Müəllimlər Seminariyası ilə bağlıdır. 1918-ci ildə Azərbaycan bölməsinin bazasında Azərbaycanın Qazax şəhərində Qazax Müəllimlər Seminariyası təşkil edildi. Seminariyaya ilk direktor Qori Seminariyasının məzunu Firidun bəy Köçərli təyin edildi. Seminariyanın rəsmi açılışı 1918-ci il noyabrın 10-da oldu və həmin gündən dərslər başlandı. 1918-ci ildə seminariyaya 35, 1919-cu ildə isə 24 şagird qəbul edildi.

**Məlumat mübadiləsi:** Çalışma 10-da verilmiş "İnsanlar Vətənə məhəbbətlərini səs-küylə deyil, öz əməlləri ilə sübut edirlər" (V.İvanov) aforizminin müzakirəsi üzərində məlumat mübadiləsi aparılır. Bu mövzuda

şagirdlər debata qoşulur, fikirlərini faktlara istinad etməklə əsaslandırırlar.

**Nəticə:** Elm, təhsil əbədidir. Elmi, təhsili xalqa çatdıran isə müəllimdir. Müəllimlik müqəddəs peşədir. Hər kəsin ağlını işıqlandırır, düzgün yola dəvət edir. H.Zərdabinin dediyi kimi, müəllimlik ən şərəfli peşədir. Hər dövrdə xalqımızın təhsil almasına, maariflənməsinə çalışan ziyalılar olub. Onlar kasıb uşaqlarına yazıb-oxumağı öyrətməklə, onların savadlanması qayğısına qalmaqla xalqın maariflənməsində müstəsna rol oynamışdır. Rus Əhmədin simasında biz XIX əsrin sonu, XX əsrin əvvəllərində xalqımızın maarifləndirilməsini özlərinə vətəndaşlıq borcu bilən ziyalılarımızın ümumiləşmiş obrazı ilə qarşılaşırıq. Doğru demişlər ki, xalqa verilən təhsil itmir. İndi Azərbaycan övladlarının bu cür savadlı, intellektual səviyyəli olmaları təsadüfi deyil. Bu işin təməli, göründüyü kimi, tarixi keçmişimizdə qoyulmuşdur. Bir çin atalar sözündə deyildiyi kimi: “ Planınız 1 illikdirsə – çəltik əkin, 10 illikdirsə – ağac basdırın, 100 illikdirsə – insanlara təhsil verin”.

**Yaradıcı tətbiqetmə:** 14-cü çalışmanın şərtinə əsasən təyin edilir.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** 15-ci çalışmanın şərtinə əsasən “Böyük xidmət” adlı bir mətn tərtib etmək.

## Səhərin keşikçiləri (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Şeirdəki əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d. - 4.1.2. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə

**Resurslar:** Proyektor, elektron lövhə, dərslik.

**Motivasiya:** Müəllim proyektoru işə salır. Elektron lövhədə 1 İyun Uşaqların Müdafiə gününə həsr olunmuş görüntülər canlandırılır. Görüntülərdə

YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, H.Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın da iştirak etdiyi, bayram əhval-ruhiyyəli uşaqların şənləndiyi, rəqs etdiyi, mahnı oxuduğu tədbirlərdən kadrlar göstərilir.

Müəllim sinfə sualla müraciət edir:

– Sizcə, uşaqların üzlərindəki sevinc hislərinin səbəbi nədir?

Uşaqlar müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** Bəs Vətənimizin, cəmiyyətimizin gələcəyi uşaqlardan asılı ola bilərmi?

**Tədqiqatın aparılması:** Dərslikdəki “Səhərin keşikçiləri” şeiri səs tonu, temp və fasiləni gözləməklə oxutdurulur. Çalışmaq lazımdır ki, şeiri qrupdakı bütün uşaqlar oxusunlar. Şairin şeiri nəyə görə belə adlandırması barədə düşünülür (çalışma 1). “Sözlük” və “Söz ehtiyatı”ndakı sözlərin izahı verilir. Şagirdlər həmin ifadələri cümlələrdə işlədirlər. Sonra müəllim şeirin məzmununu mənimsətmək məqsədilə dərslikdəki çalışmalar üzərində iş aparır. Belə ki, seçilmiş standartların tələbləri həm şeirin oxusu üzərində işlə, həm də çalışmalarda qoyulmuş tapşırıqların yerinə yetirilməsi ilə reallaşdırılır.

Müəllim şagirdləri 5 qrupa bölür. Hər qrupa şeirin bir bəndinin izahı tapşırılır. Şairin demək istədiklərini şagirdlər öz sözlərilə şərh edirlər (çalışma 4; 2.1.4. alt-standartı). Əlavə olaraq, hər qrupa 3, 5, 6, 8, 15-ci çalışmaların yerinə yetirilməsi də tapşırılır. Bununla şagirdlər şeirdən konkret nümunələr gətirməklə fikirlərini əsaslandırır, şeirdəki ifadənin mənasını izah edir, başqa bir ifadənin qarşılığını tapa bilir, şeirin misraları ilə səsləşməyən aforizmi tapıb onun şeirin məzmunu ilə səsləşmədiyini əsaslandırırlar. Bütün bunlar 2.1.4. alt-standartının reallaşdırılması üçündür.

Müəllim böyük qrupla işə keçir. Bütün siniflə birgə 7-ci çalışma üzərində iş aparılır. Ümummilli liderimiz H.Əliyevin fikri üzərində düşünülür: “daim müstəqillik içində yaşayacaq Azərbaycanın böyük binasını siz məktəblilər qurursunuz” fikri əsaslandırılır.

Sonra şagirdlər şeirin IV bəndində onlara nəyin tövsiyə edildiyi və gündəlik həyatda müəllimlərindən, valideynlərindən bu tövsiyələri tez-tez eşitmələri barədə fikirlərini yoldaşları ilə bölüşürlər. Dinlədikləri şeirdə əsas fakt və hadisələri qruplaşdırırlar (çalışma 2; 1.1.2. alt-standartı). Dərslikdəki sifətin dərəcələri barədə anlayışdan ibarət olan qrammatik məlumat şagirdlərin nəzərinə çatdırılır və bu anlayışları möhkəmləndirmək məqsədilə dərslikdəki 10, 12, 13-cü çalışmalar yerinə yetirilir (3.1.1. alt-standartı).

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, siz artıq sifətlərin əşyanın əlamət və keyfiyyətini bildirən sözlər olduğunu bilirsiniz. Əlamət və keyfiyyət isə əşyalardan birində normada olduğu halda, başqa bir əşyada normadan az və ya çox ola bilər. Məsələn: **yaşıl** sözündə əlamət normada, **yaşılımtıl**, **açıq-yaşıl** sözlərində normadan az, **yamyaşıl**, **tünd-yaşıl** sözlərində isə normadan çoxdur.

Azərbaycan dilində sifətin üç müqayisə dərəcəsi var: **adi** dərəcə, **azaltma** dərəcəsi, **çoxaltma** dərəcəsi.

Adi dərəcə əlamətin normada olduğunu bildirən dərəcədir: qırmızı, sarı, göy, bərk, yumşaq, təmiz və s. Adi dərəcə digər dərəcələr üçün ölçü hesab olunur.

Keçilmiş qrammatik məlumatları təkrar etmək məqsədilə şagirdlərə cütlər şəklində 9, 12, 16-cı (hərəsi 2-3 hissədən ibarətdir) çalışmaların yerinə yetirilməsi tapşırılır (3.1.1. alt-standartı). Bu çalışmalardan bir neçəsi həm də şagirdlərin tərcümə etmək bacarığını inkişaf etdirir.

Şagirdlərin nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırmaları üçün 4.1.1. alt-standartına uyğun olaraq, 14-cü çalışmaya müraciət edilir. "Çatılmayacaq" və "Salamlayacaq" sözlərini birləşdirən və ayıran cəhətləri üzə çıxarırlar.

**Məlumat mübadilləsi:** "Hikmət xəzinəsi"ndən olan müdrik fikirlərin mənası üzərində fikir mübadiləsi aparılır. Həmin sözlərin şeirin bütöv məzmunu və ya hər hansı bir hissəsi ilə əlaqəsi müəyyənləşdirilir (çalışma 14).

**Nəticə**: Şeirin məzmunu üzrə iş ümummilli liderimiz H.Əliyevin "Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir!" sözlərilə nəticələnir. Həqiqətən də, Vətənimizin gələcəyi uşaqların əlindədir. Uşaqların savadlı, elmli, zəngin dünyagörüşünə malik olmaları çox vacibdir. Çünki onlar bizim sabahkı mühafizəçilərimiz, xoş, asudə həyatımızın təminatçılarıdır. Cəmiyyətdə gənc nəslin sağlam böyüməsi böyük əhəmiyyət kəsb edir. Çünki bugünkü uşaqlar, gənclər sabahın keşikçisi, var-dövlətimizin, mədəni və mənəvi irsimizin qoruyucularıdır. Ona görə də şən və firavan, qayğısız həyat keçirən uşaqları, gəncləri olan Vətən basılmaz!

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə çalışma 17-də verilən tapşırıq üzərində işləmək tövsiyə edilir.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək.

# İnşa (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Oxuduğu mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d.- 4.1.2. |
| 2 | Müzakirədə istirak edir, deyilən fikirlərə münasibət bildirir. | 2.1.3. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | 3.1.2. | |
| 5 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.
**Resurslar:** Proyektor, elektron lövhə, dərslik.
**Motivasiya:** Müəllim elektron lövhədə S.Vurğunun aforizmi yazılmış slaydı nümayiş etdirir. Şagirdlər aforizmi oxuyurlar:

Yalan söz od vurar qəlbə, fəqət haqq söz keçər daşdan,
Yalan söz qan qaraldar ki, küsərsən dostla sirdaşdan.

Müəllim sinfə sualla müraciət edir:
– Bu aforizmin mənasını necə başa düşürsünüz?
Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** – Sizcə, yalan danışmağa haqq qazandırmaq olarmı? Yalan danışmaq dostlar arasındakı münasibətə necə təsir göstərir?

**Tədqiqatın aparılması:**

Şagirdlər tədqiqata "İnşa" mətninin oxusu ilə başlayırlar. Bu zaman şagirdlər 3.1.2. alt-standartının tələbinə uyğun olaraq səs tonlarını tənzimləyərək, temp və fasiləni gözləyirlər (çalışma 1, 3). Mətnin məzmununun daha yaxşı mənimsənilməsi üçün müəllim şagirdləri 4 qrupa bölür. Vaxta qənaət etmək məqsədilə dərslikdəki çalışmalar qruplar arasında bölüşdürülür. Hər qrupa 2-ci çalışmada göstərildiyi kimi, mətnin məzmunu üzrə ən azı yeddi sual tərtib etmək tapşırılır. Əlavə olaraq, qruplar aşağıdakı çalışmaları da icra etməlidirlər:

I qrup: çalışma 5;
II qrup: çalışma 6;
III qrup: çalışma 12;
IV qrup: çalışma 15, 14.

Bu çalışmalar 1.1.2. və 4.1.1. alt-standartlarının reallaşdırılması üçündür. Şagirdlər qrup daxilində bu çalışmaları yerinə yetirərkən mətndəki əsas fakt və hadisələri müəyyənləşdirir, digər qrupun üzvlərinin fikirlərinə münasibət bildirməklə debata qoşulur, hekayənin qəhrəmanlarının hərəkətlərini müzakirə edirlər. Tapşırıqların icrası zamanı hekayənin məzmunu ilə bağlana bilməyən cümlə tapılır, kursivlə verilmiş cümlənin davamı müəyyənləşdirilir və fikirlər əsaslandırılır. Qrupların fəaliyyəti qiymətləndirilir.

2.1.3. alt-standartının reallaşdırılması məqsədilə 7, 8-ci (I hissəsi) çalışmalar üzərində iş böyük qrupla davam etdirilir. Şagirdlər inşanı köçürən şagirdin dostunu pis vəziyyətdə qoyması faktını müzakirə edirlər, fikirlərini yoldaşları ilə bölüşürlər. Şagirdlərin söz ehtiyatlarını artırmaq məqsədilə 13, 14-cü çalışmalar yerinə yetirilir. Sonra şagirdlərin qrammatik biliklərinin yoxlanılması və təkmilləşdirilməsi üzərində iş aparılır. Bu məqsədlə 3.1.1. alt-standartının tələbinə uyğun olaraq, 16-cı çalışma seçilir. Şagirdlər çalışma 17-ni yerinə yetirərkən üzərində iki ulduz işarəsi qoyulmuş sözlərin tələffüz şəklini dəftərlərində yazaraq, orfoepik normaları bildiklərini nümayiş etdirirlər.

"Bunları bilirsinizmi?" rubrikasında şagirdlər sifətin azaltma dərəcəsini düzəldən vasitələrlə tanış olur, nitq praktikasında işlətdikləri formalarla bağlı qrammatik biliklərə yiyələnirlər.

## BUNLARI BİLİRSİNİZMİ?

Sifətin azaltma dərəcəsi əlamətin normadan az olduğunu bildirir. Azaltma dərəcəsini düzəltmək üçün adi dərəcədə olan sifətlərin sonuna **-ımtıl⁴, -raq², -ımtraq (-mtraq), -sov (-ımsov, -ümsov)** şəkilçilərindən biri artırılır: göyümsov, sarımtıl, yaşılımtraq, gödərək, uzunsov, bozumtul ...

Sifətin azaltma dərəcəsini düzəltmək üçün **"açıq, təhər, ala"** sözlərindən də istifadə olunur: açıq-sarı, açıq-qara, sarıtəhər, şirintəhər, ala-çiy, ala-sütül ...

Rabitəli yazı vərdişlərinə yiyələnməklərini nümayiş etdirmək, 4.1.1. alt-standartını reallaşdırmaq məqsədilə şagirdlərə 4, 9, 10, 11, 15-ci çalışmalar təqdim edilir. Müəllim işi "cütlərlə iş" formasında da həyata keçirə bilər. Cütlər müəyyənləşdirildikdən sonra müəllim çalışmaları paylayır. Nəzərə almaq lazımdır ki, sinifdə şagirdlərin miqdarına görə cütlərin sayı çox ola bilər. Bu zaman müəllim eyni çalışmanı 2 cütün işi üçün seçə bilər.

Çalışma 11 şagirdlərin əməli yazı bacarıqlarının səviyyəsini üzə çıxarmaq və bilmədiklərini öyrətmək üçün tərtib edilmişdir. Bu çalışmanın tapşırığı əsasında şagirdlər tərcümeyi-hal nümunəsi ilə tanış olur, öz tərcümeyi-hallarını yazarkən nümunədəki ardıcıllığa riayət etməyə çalışırlar.

"Kəlmələrin "dili"ni öyrənək!" rubrikası "inşa" sözünün izahına həsr olunmuşdur. Bu, şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsi üçün nəzərdə tutulmuşdur.

**Məlumat mübadilləsi:** Mübadilə 8-ci çalışmada verilmiş kəlamların mənalarının izahı ilə keçirilə bilər. Şagirdlər atalar sözlərinin və aforizmlərin mənalarını izah etməklə hekayədəki əhvalata münasibətlərini bildirirlər.

**Nəticə:** Hekayənin əvvəlindəki "Həqiqət hamı üçün birdir"(R.Rollan) fikri şagirdlərin nəzərinə çatdırılır. Belə nəticəyə gəlinir ki, hansı məqam olursa-olsun, insan həqiqəti deməlidir. Çünki "yalan ayaq tutar, yeriməz" demiş müdrik babalarımız. Xüsusən də məktəbdə, təlim-tərbiyə ocağında yalan danışmaq, müəllimi aldatmaq ədəbsizlikdir. Amma söylənilən yalanı sonradan boynuna alıb, olduğunu etiraf etmək islah olmaqdır. Hər kəs çalışmalıdır ki, həmişə doğru danışsın, içərisində yaşadığı cəmiyyətin üzvlərini aldatmasın. Yoxsa insanların bir-birinə inamı itər və insan münasibətləri bundan çox zərər görər.

**Yaradıcı tətbiqetmə:** Oxuduğunuz hekayədəki hadisəyə bənzər hər hansı bir əhvalat, eşitdiyiniz və ya şahid olduğunuz hadisəni yazılı şəkildə təqdim etmək.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Maraqlı görüş (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Oxuduğu mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d.- 4.1.2. |
| 2 | Ahəng qanununa uyğun sözləri düzgün tələffüz edir. Verilmiş nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.1.<br>2.1.4. | |
| 3 | Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | 3.1.2. | |
| 4 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, internetə qoşulmuş kompüter, proyektor.

**Motivasiya:** Müəllim internet şəbəkəsindən istifadə edərək proyektorla lövhədə Səməd Vurğunun Azərbaycan Yazıçılar İttifaqının qurultayındakı və alman faşistlərinə qarşı nifrət oyadan çıxışlarından parçalar səsləndirir. Şagirdlər şairin odlu çıxışlarını dinləyirlər.

Müəllim şagirdlərə müraciət edir:

– Ekranda gördüyünüz  şairi, yəqin ki, tanıdınız. Şair haqqında müxtəlif xatirələr oxumusunuz, şeirlərini əzbər öyrənmisiniz. Bəs gördüyünüz kadrlar şair haqqında sizə nə deyir? Şair bu çıxışları ilə sizdə necə bir təəssürüt oyatdı? Burada S.Vurğun şairdir, yoxsa ictimai xadim? Oxuduqlarınız və eşitdikləriniz əsasında şairin şəxsi keyfiyyətləri barədə nə deyə bilərsiniz?

Şagirdlərin cavabları dinlənilir və nitqlərindəki səhvlər düzəldilir.

**Tədqiqat sualı:** Şair S.Vurğunun şəxsi keyfiyyətləri, ictimai fəaliyyəti haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Müəllim şagirdlərin oxu bacarıqlarını yoxlamaq məqsədilə mətni oxutdurur. Şagirdlər səs tonu və fasiləni gözləməklə mətni rollar üzrə oxuyurlar. “Sözlük” və “Söz ehtiyatı”ndakı çətin sözlər izah edilir və cümlələrdə işlədilərək mənimsədilir. Çalışma 1 mətnlə tanış olmağa xidmət edir. Şagirdlər qruplara bölünür. Mətnin məzmununun mənimsədilməsi, mətndəki fakt və hadisələrin qruplaşdırılması məqsədilə çalışma 3-də verilmiş suallar qruplar arasında bölüşdürülür. Qruplar suallara cavab verməli, həm də özləri əlavə suallar hazırlamalıdırlar.

Çalışma 2, 4, 10 qruplara tapşırılır. Şagirdlər çalışmalarda verilmiş nümunələrdən mətnin hissələrinə uyğun istifadə edərək 2.1.4. alt standartını reallaşdırırlar.

5, 8, 13-cü çalışmalar nitq hissələrinin qrammatik mənasının aydınlaşdırılmasına, sözlərin ahəng qanununa görə düzgün tələffüz edilməsinə və kontekstə uyğun mənalarının izah edilməsinə istiqamətləndirilmişdir. Bu çalışmalar da qruplarla iş formasında yerinə yetirirlər.

## BUNLARI BİLİRSİNİZMİ?

Sifətin çoxaltma dərəcəsi əlamətin normadan çox olduğunu bildirir və  əsasən, aşağıdakı üsullarla düzəlir:

1) M, p, r samitlərinin köməyi ilə: qıpqırmızı, gömgöy, tərtəmiz, yupyumru, ...

3) Adi dərəcədə olan sifətlərin əvvəlinə “daha, ən, lap, çox, tünd, olduqca” sözlərini, “düm”  hissəciyini artırmaqla: daha böyük, ən gözəl, lap uca, çox səmimi, dümağ, tünd-sarı, olduqca nəzakətli, tünd-yaşıl ...

7, 14, 15-ci çalışmalrı yerinə yetirərməklə qruplar dilin normalarına bələdlik səviyyələrini bir daha nümayiş etdirir fikirlərini konkret nümunələrlə əsaslandırırlar.

6, 11, 12-ci çalışmalar şagirdlərə fikirlərini əsaslandırmağa, söylənilən müxtəlif fikirlərə münasibət bildirməyə və sözlərin qrammatik mənalarının izah edilməsinə xidmət edir.

Qruplarla işin müəyyən mərhələsi başa çatdıqdan sonra müəllim qrup üzvlərini qiymətləndirə bilər.

**Məlumat mübadiləsi**: Şagirdlər Səməd Vurğunun tələbələr qarşısındakı alovlu çıxışı ilə tanış olur və ona olan sevginin, bu sevginin nəinki Azərbaycan xalqı, hətta müxtəlif xalqlar tərəfindən olduğunun bir daha şahidi olurlar. Səməd Vurğunun hikmət xəzinəsindən olan aforizmləri ilə tanış olur, onların mənasını aydınlaşdırmaq istiqamətində fikir mübadiləsi aparırlar. Mübadilə zamanı bir daha şairin yaradıcılığı araşdırılır.

**Nəticə:** Azərbaycan ədəbiyyatının inkişafında misilsiz xidmətləri olan çoxlu yazıçı və şairlərimz vardır. Onlardan biri də Səməd Vurğundur. O, Azərbaycanda "Xalq şairi" adına layiq görülmüş ilk şairdir. Ona bu adı qazandıran xalqın məhəbbətidir. Xalq öz oğlunun xatirəsini daima əziz tutaraq hər zaman onu əbədiləşdirməyə çalışır.

**Yaradıcı tətbiqetmə:** Çalışma 9-un şərtini reallaşdıraraq Səməd Vurğunun həyat və yaradıcılığı mövzusunda təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Müvafiq cədvələ əsasən aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Zəncinin arzuları (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | 2.1.3. | R.d.- 4.1.2. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | 4.1.1. | |
| 5 | Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, proyektor, internetə qoşulmuş kompüter.

**Motivasiya:** Müəllim elektron lövhədə "Azad olunmuş Canqo" filmindən kadrlar göstərir (www.google.az "Azad olunmuş Canqo".

Müəllim kadrlardan təsirlənmiş şagirdlərə sualla müraciət edir:

– Gördüyünüz kadrlarda nədən söhbət gedir?

Şagirdlərin fərziyyələri dinlənilir.

**Tədqiqat sualı:** Cənubi və Mərkəzi Afrikada yaşayan zəncilərin həyatı haqqında nə bilirsiniz? VI sinifdə tarix dərsində öyrəndiyiniz biliklərə əsasən onların yaşadığı mühiti necə təsəvvür edirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat "Zəncinin arzuları" şeirinin oxusu ilə başlayır. Oxu zamanı sözlərin orfoepiyası və vurğusuna, düzgün tələffüzünə diqqət yetirilir, nöqsanlar düzəldilir. "Sözlük"də verilmiş çətin sözlərin mənası izah edilir, şagirdlər yeni söz və ifadələri cümlələrdə işlədirlər.

Müəllim şagirdləri qruplara bölür. 3-cü çalışmada verilmiş bəndlər üzərində işləməklə şagirdlər fikirlərini əsaslandıraraq 4.1.1. alt-standartı üzrə bacarıqlarını inkişaf etdirirlər. Ayrılmış vaxt başa çatdıqdan sonra qrupların təqdimatları lövhədən asılır. Cavablar dinlənilir. Nitq səhvləri düzəldilir. Fərqli cavablar qiymətləndirilir.

Şeirin məzmununun mənimsənilməsi üzərində iş 1, 7, 12, 15, 16-cı çalışmalar vasitəsilə həyata keçirilir. Bu çalışmaları yerinə yetirərkən şagirdlər müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir (2.1.3. alt-standartı), şeirdən aforizm kimi deyilən misraları seçir, bəzi misraların mənasına uyğun gəlməyən variantları çalışmada səsləndirir, şeirdə zəncinin vəziyyətinə uyğun olmayan fikirləri qeyd edir, "Vətənsiz də insan olan insan kimi yaşayarmı?" fikri ətrafında debata qoşulurlar. Bu çalışmalar qruplarla iş formasında da yerinə yetirilə bilər.

2, 4, 5-ci çalışmalarda qoyulmuş tapşırıqları yerinə yetirməklə şagirdlərin diqqəti zəncinin yaşadığı mühitə, düşdüyü vəziyyətə yönəldilir. Bu çalışma vasitəsilə şagirdlər müvafiq nümunələrdən istifadə edərək 2.1.4. alt-standartının şərtlərinin reallaşmasına müvəffəq olurlar. Çalışmaların icrası zamanı şagirdlərin şifahi nitqinin inkişafına da şərait yaranmış olur. Çalışmalar yerinə yetirildikdən sonra qrup üzvlərinin fəaliyyəti qiymətləndirilir.

Dərslikdə verilmiş 9, 11, 14, 13, 17-ci çalışmalar şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsinə, sözlərin neçənci şəxsə mənsub olduğunu müəyyənləşdirməyə, o cümlədən əvəzliklərin mənimsənilməsinə, sifətin müqayisə dərəcələri ilə bağlı bacarıqların təkmilləşdirilməsinə, sözlərin həqiqi və ya məcazi mənada işlənməsini aydınlaşdırmağa yönəldilir. Bu zaman 3.1.1. alt-standartının reallaşması həyata keçirilir.

6, 8-ci çalışmada qoyulan tapşırığın icrası şagirdlərin yazılı rabitəli nitqinin formalaşmasına imkan verir, həm də sözlərin yazılış və durğu işarələri qaydalarına əməl olunmasını əks etdirən 4.1.3. alt-standartının yerinə yetirilməsinə imkan verir.

10, 18-ci çalışmaların yerinə yetirilməsi şagirdlərin tərcümə bacarıqlarının üzə çıxmasına xidmət edir. Bu çalışmaların hər birinin icrası məzmunun daha yaxşı qavranılmasına, dilin qrammatik normalarının praktik yolla mənimsənilməsinə, şagirdlərin lüğət ehtiyatlarının zənginləşməsinə şərait

yaradır.

**Məlumat mübadiləsi:** Şagirdlər "Zəncinin arzuları" şeirinin məzmunu ilə tanış olduqdan sonra zəncinin vəziyyəti ilə azad Azərbaycan vətəndaşının vəziyyətini müqayisəli şəkildə müzakirə edirlər. Dərs boyu aparılan işlər nəticəsində tədqiqat sualına tapılan cavablar müzakirə olunur.

**Nəticə:** İllərlə Vətənimiz azadlıq arzusu ilə yaşamışdır. Xalqımız köləliyə qarşı müqavimət göstərərək şəhidlər verdi və nəticədə müstəqillik qazandı. İnsan hüquqlarına hörmət müstəqilliyimizin başlıca amalına çevrildi. Dövlətimiz bu istiqamətdə müvafiq qanunlar qəbul etməklə cəmiyyətin inkişaf yolunu müəyyənləşdirdi. Azərbaycan dövləti üçün onun vətəndaşının hüquqlarının qorunması prioritet məsələ kimi ön plana çıxdı. Nəticədə, Azərbaycan qanunların aliliyi qorunan, özünün hər bir vətəndaşı üçün dinindən, irqindən, etiqadından asılı olmayaraq, onun rahat, azad yaşaya biləcəyi bir məmləkətə çevrildi.

**Yaradıcı tətbiqetmə:** "Azad Vətənimiz" mövzusunda inşa yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeiri nəsrə çevirib danışmaq və bir hissəni əzbərləmək.

## Qazılıq Qoca oğlu Yeynək boyu (1-ci hissə-1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d. - 4.1.2.<br>Az.t.-3.1.2. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir. | 2.1.1. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.1.<br>4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, BİBÖ.

**Resurslar:** Dərslik, proyektor, internetə qoşulmuş kompüter.

**Motivasiya:** Müəllim əlində "Dədə-Qorqud" dastanı sinfə daxil olur. O, kitabı şagirdlərə göstərir və onlara müraciət edir:

– Uşaqlar, bu dastan sizə tanışdır? Onun haqqında nə bilirsiniz? Dastandakı

hansı "boy"ların adını çəkə bilərsiniz?

Şagirdlərin cavabları dinlənilir və səhv tələffüz düzəldilir.

**Tədqiqat sualı:** Kitabi-Dədə Qorqud dastanındakı hər bir boyla tanışlıq bizə nə verə bilər? Dastandan bu günümüz üçün hansı nəticələri çıxarmaq mümkündür? O bu günümüzlə hansı cəhətdən səsləşir?

**Tədqiqatın aparılması:** Dastandan verilmiş boyla tanış olmaq üçün müəllim boyu şagirdlərə oxutdurur. Oxu prosesində şagirdlərin temp və fasiləyə əməl etmələri izlənir, səs tonunun düzgün tənzimlənməsinə diqqət yetirilir, nitq qüsurları düzəldilir. "Sözlük" və "Söz ehtiyatı"nda verilmiş çətin sözlər izah edilir. Şagirdlər həmin sözlərin qarşılıqlarını taparaq cümlələrdə işlədirlər.

Şagirdlərin mətn haqqında biliklərinin möhkəmləndirilməsi və mətnin hissələrinin müəyyənləşdirilməsi məqsədilə (1.1.1. alt-standartı) 1-ci çalışma yerinə yetirilir. Müəllim bütöv siniflə plan əsasında işləyərək mətni uşaqlara danışdırır. Danışıq zamanı sözlərin düzün tələffüzünə fikir verir. Tələffüzlərindəki qüsurları düzəldir.

1.1.2. alt-standartı üzrə mətndə əsas fakt və hadisələrin qruplaşdırılmasını müəllim 2, 3, 4-cü çalışmalar vasitəsilə həyata keçirir. Şagirdlər tapşırıqları qruplarla işləyərək də həyata keçirə bilərlər. Hər qrupa bir çalışma tapşırılır. Şagirdlər beyin həmləsi üsulu ilə verilən sualların mətnin məzmununa aid olub-olmadığını aydınlaşdırır, fikirlərini əlavə faktlarla əsaslandırır, BİBÖ üsulundan istifadə edərək araşdırma aparır və yeni məlumatlar əldə edirlər. Dərslikdəki 6, 7, 8, 10, 16, 18-ci çalışmalar əsas nitq hissələrini qrammatik mənasına görə izah etməyi nəzərdə tutur.

Şagirdlər bu tapşırıqları yerinə yetirərkən sözlərin feillərlə əlaqəsi, isimlərin mənsubiyyətə görə dəyişməsi, xüsusi isimlərin, sayların məna növləri üzərində düşünür, sözlərdən nitqdə məqsədəmüvafiq şəkildə istifadə bacarıqlarını inkişaf etdirirlər.

Şagirdlər 11, 12-ci çalışmaları yerinə yetirərkən ahəng qanununa uyğun şəkilçi variantı seçməklə isimləri düzgün tələffüz edir, sonu "q" samiti ilə bitən sözlərin yazılış və deyiliş qaydalarına istinad edərək, onların tələffüzü ilə bağlı normalara nə şəkildə yiyələndiklərini nümayiş etdirirlər.

17-ci çalışmanın şərtinə uyğun olaraq mətndən seçilmiş sözlərin kontekstə uyğun mənası üzərində müşahidə aparmaq şagirdlərin söz ehtiyatlarının dəqiqləşdirilməsi və fəallaşdırılması baxımından əhəmiyyətlidir.

"Bunları bilirsinizmi?" rubrikası ilə tanış olmaqla şagirdlər miqdar saylarının növləri haqqında məlumat əldə edir, verilmiş nəzəri bilikləri praktikaya tətbiq etməyi öyrənirlər. Bu baxımdan 13, 14-cü çalışmaların yerinə yetirilməsi 4.1.1. alt-standartının reallaşdırılmasına imkan yaradır.

## BUNLARI BİLİRSİNİZMİ?

Miqdar saylarının üç növü vardır:

a) müəyyən miqdar sayları – üç, səkkiz, iyirmi dörd, əlli, yüz, beş yüz otuz ...;
b) qeyri-müəyyən miqdar sayları – az, çox, xeyli, bir az, minlərlə, beş-altı... ;
c) kəsr sayları – onda üç, səkkizdə bir, dörd tam onda iki, yüz tam mində bir...

4.1.3. alt-standartının reallaşdırılması məqsədilə şagirdlər 5, 15-ci çalışmaları yerinə yetirmək, durğu işarələri və orfoqrafiya qaydaları üzərində iş aparmaqla müvafiq praktik bacarıqların tətbiqinə, həmçinin onların vərdişə çevrilməsinə nail olurlar.

**Məlumat mübadiləsi:** Şagirdlər mətn üzərində işləyərək tədqiqat sualına cavab tapmış olurlar. Onlar oğuz igidlərində böyüyə hörmət, valideynə sonsuz məhəbbət barədə müzakirə aparırlar.

**Nəticə:** Şagirdlər fikirlərini dastandakı fakt və hadisələrlə əsaslandırırlar. "Onlar Qazılıq qoca oğlu Yeynək boyu" əsasında öyrənirlər ki, oğuz igidlərində valideynə böyük məhəbbət hissləri ta uşaqlıqdan tərbiyə olunur. Atasını dustaqdan azad edənə qədər Yeynəyə dünya cəhənnəm görünür. Hətta yuxusunda da atasının onu köməyə çağırdığını görür. Yeynəyin igidliyi, qorxmazlığı, sözündə möhkəmliyi gənc nəsillərə bir örnəkdir. Mətnin məzmunu bu günümüzlə səsləşir.

**Yaradıcı tətbiqetmə:** Mətnin məzmununa, kontekstə uyğun bir neçə atalar sözü tapıb dəftərinizə yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Qazılıq Qoca oğlu Yeynək boyu (2-ci hissə – 1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Deyilən fikirlərə münasibət bildirir. | 2.1.3. | R.d.- 4.1.2.<br>Az.t.-3.1.2. |
| 2 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Cümlələr və abzaslar arasındakı əlaqəni müəyyənləşdirir. | 3.1.3. | |
| 5 | Cümlələr və abzaslar arasında əlaqəni gözməklə mətn yazır. | 4.1.2. | |
| 6 | Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Cütlər.

**Dərsin üsulu:** Beyin həmləsi, klaster, müzakirə.

**Resurslar:** Dərslik, proyektor, internetə qoşulmuş kompüter.

**Motivasiya:** Elektron lövhədə müəllim "Dədə-Qorqud" filmindən axırıncı kadrları nümayiş etdirir. Kadrlarda Oğuz igidlərinin düşmənlə döyüş səhnələri təsvir edilir.

Müəllim sinfə müraciət edir:

– Gördüyünüz kadrlarda Oğuz igidlərinin döyüş zamanı göstərdikləri qorxmazlığı, igidliyi, necə təsvir etmək olar?

Şagirdlərin cavabları dinlənilir. Tələffüzdə səhvlər düzəldilir.

**Tədqiqat sualı:** Siz artıq IV sinifdən "Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanları ilə tanışsınız. Bu igidləri siz necə xarakterizə edərdiniz? Onlardakı oxşar və fərqli cəhətlər hansılardır?

**Tədqiqatın aparılması:** Tədqiqatda verilmiş sualın cavablandırılması məqsədilə müəllim şaxələnmə ilə söz assosiasiyası yaradır. Lövhədə Oğuz igidi sözünü yazır. Şagirdlər növbə ilə sözü şaxələndirirlər.




Müəllim uşaqlara nəzarət edir, onları istiqamətləndirir.

Müəllim cütlərə tapşırıq verir. Cütlərin hər biri mətnin hissələrini müəyyənləşdirmək məqsədilə (1.1.1. alt-standartı) 1-ci çalışmanı yerinə yetirir. 2, 3, 5, 8-ci çalışmalardakı tapşırıqların ayrı-ayrı cütlər tərəfindən yerinə yetirilməsi şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalarına şərait yaradır (2.1.4. alt-standartı)

Müəllim mətni şadirdlərə oxutdurur. "Sözlük" və "Söz ehtiyatı"ndakı çətin sözlərin mənasını izah edir. Söz və ifadələrin şagirdlərin lüğətinə daxil edilməsi, fəallaşdırılması məqsədilə ənənəvi qaydada onların cümlələrdə işlədilməsi həyata keçirilir.

2.1.3. alt-standartının reallaşdırılması məqsədilə müəllim 4, 17-ci çalışmaları cütlərə paylayır. Şagirdlər çalışmadakı testin bəndlərindəki fikirlərə münasibət bildirməklə cavablarını faktlarla əsaslandırırlar.

7, 9, 10, 12, 13, 16-cı çalışmalar əsas nitq hissələrinin qrammatik mənasının dərk edilməsi, eyni zamanda, həmin nitq hissələri ilə bağlı düzgün yazılış

qaydaları ilə bağlı bacarıqların təkmilləşdirilməsi üçün hazırlanmışdır (3.1.1., 4.1.3. alt-standartları).

Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək məqsədilə şagirdlər 6, 11-ci çalışmaları icra edir (3.1.3. alt-standartı) və pozulmuş ardıcıllığı bərpa edərək mətni oxuyurlar.

Şagirdləri əvəzliklərin digər məna növləri ilə tanış etmək məqsədilə müəllim onların diqqətini "Bunları bilirsinizmi?" rubrikasında verilmiş məlumata cəlb edir.

14-cü çalışmanın icrası zamanı şagirdlər əvvəlcə verilmiş atalar sözlərini tamamlamalı, sonra isə onların mətnin məzmunu ilə əlaqəsinin olub-olmadığını əsaslandırmalıdırlar. 15-ci çalışmada verilmiş əvəzlikləri cümlələrdə işlətməklə şagirdlər qeyri-müəyyən əvəzliklərin nitqdəki rolu və əhəmiyyətini praktik şəkildə mənimsəyirlər (4.1.1., 4.1.2. alt-standartları).

**Məlumat mübadiləsi:** Şagirdlər mətndə rast gəldikləri "Dədə Qorqud gəlib boy boyladı, soy soyladı. Bu oğuznamə Yeynəyin olsun! – dedi" fikri ətrafında müzakirə aparırlar.

### BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, siz şəxs, işarə və sual əvəzlikləri ilə tanışsınız. Ancaq nitqinizdə əvəzliyin digər növlərindən də istifadə edirsiniz ki, bunlar aşağıdakılardır:

a) qeyri-müəyyən əvəzliklər – kimsə, kim isə, biri, birisi, nəsə, nə isə, kimi, kimisi, hamı, hərə, hər şey, kiməsə, bəziləri, harasa, kimdənsə, hər nə, neçəsi, kimsə, heç kim, heç nə, heç bir şey, heç kəs, heç biri

b) təyini əvəzliklər – öz, hər, bütün, filan, eyni

**Nəticə:** Şagirdlər oxunmuş hissənin məzmunu əsasında tədqiqat sualına cavab tapır, fikirlərini fakt və hadisələrlə əsaslandırırlar. Dədə Qorqud boylarından tanış olduqları qəhrəmanların xarakterik xüsusiyyətlərini müzakirə edərək öyrənirlər. Oğuz igidlərinin bütün müsbət xüsusiyyətləri ilə yanaşı, onlarda tərbiyə olunmuş böyüyə hörmət və məhəbbət kimi əxlaqi davranış qaydalarını da öyrənirlər. Böyüklərə hörmət, ehtiram xalqımızın mühafizə edib saxladığı ən gözəl keyfiyyətlərdən biridir. Böyüyə hörmətin min illərdən bəri mövcud olmasının və onun əxlaq normasına çevrilməsinin bir çox obyektiv səbəbləri vardır. Ata və anaya hörmət, məhəbbət təkcə fərdi, ailəvi səciyyə daşımır. Bu hörmət və məhəbbət inkişaf edərək Vətənə, xalqa məhəbbətə, hörmətə çevrilir.

**Yaradıcı tətbiqetmə:** "Kitabi-Dədə Qorqurd" dastanından tanıdığınız Oğuz igidlərinin müsbət və mənfi xüsusiyyətlərini yazılı şəkildə səciyyələndirin.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Azərbaycan (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | 2.1.3. | R.d. - 4.1.2. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır. | 4.1.2. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qrupla, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** Dərslik, elektron lövhə, kompüter.

**Motivasiya:** Müəllim elektron lövhədə Azərbaycan Respublikasının Dövlət himnini səsləndirir. Şagirdlər himni birlikdə oxuyurlar.

Müəllim şagirdlərə müraciət edir:

– Dövlət himni hansı məqamlarda oxunur?

Şagirdlərin fikirləri dinlənilir.

**Tədqiqat sualı:** Vətənimizin himnini eşitdikdə insan hansı hisləri keçirir? Himnimizin sözləri bizi nəyə səsləyir?

**Tədqiqatın aparılması:** Tədqiqat sualına cavab tapmaq məqsədilə müəllim şagirdlərə şeiri oxutdurur. Şeirin hər bəndi bir şagirdə oxutdurulur. Şeirin oxusu prosesində məzmun və sözlüyün mənimsədilməsi üzərində iş aparılır. “Sözlük”dəki sözlərin mənası izah edilir, cümlələrdə işlədilir. Şagirdlər 1-ci çalışmanın şərtinə uyğun olaraq verilmiş ifadələri yaşıl boşluqlarda yerləşdirərək fikirlərini əsaslandırırlar.

Şagirdlər qruplara bölünür. Hər qrup 3-cü çalışmanın şərtinə əsasən, şeirin bəndlərindən biri üzərində fikir yürüdür, nümunələrdən, faktlardan istifadə etməklə həmin bəndin məzmununu genişləndirərək Azərbaycan haqqında danışırlar (2.1.4. alt-standartı). Müəllim danışıq zamanı şagirdlərin nitqindəki qüsurları düzəldir. Şagirdlər şeirdə kursivlə verilmiş misralar üzərində düşünərək “gizlənən” mənaları aydınlaşdırmağa çalışırlar. Bu çalışma şagirdləri düşünməyə və nəticə çıxartmağa istiqamətləndirir. Şagirdlər 2.1.4. alt-standartını reallaşdıraraq 10-cu çalışmada hissələri qarışıq verilmiş atalar sözlərini məntiqə uyğun olaraq formalaşdırır və onların içərisindən şeirin məzmunu ilə əlaqəsi olmayanı müəyyənləşdirirlər. Dərslikdəki 5-ci çalışma

əsasında təşkil edilən debat və 2-ci, 16-cı çalışmalar üzrə aparılan müzakirələr şagirdlərin sərbəst fikir söyləməsi, müxtəlif fikirlərə münasibət bildirməsi üçün real zəmin yaradır və onlarda vətənpərvərlik duyğusunu daha da qüvvətləndirir. Bir daha vətən mövzusunda yazılmış şeirlərin təkrarlanmasına, yaddaşlarının möhkəmliyinin yoxlanılmasına şərait yaradır.

Dərslikdəki 7, 8, 9, 11, 12, 13, 14, 15-ci çalışmalar 3.1.1. alt-standartının reallaşmasına istiqamətləndirilir. Bu çalışmalar üzərində işi kiçik qruplarla təşkil etmək daha yaxşı səmərə verir. Qruplar verilmiş çalışmalarda ismin mənsubiyyət, feilin zaman və şəxs şəkilçilərinin, əvəzliyin məna növlərinin, sifətin quruluşca növlərinin müəyyənləşdirilməsi üzərində işləməklə həmin nitq hissələrinin qrammatik mənasını praktik yolla mənimsəyirlər. Çalışmalarda qoyulan tapşırıqlar, eyni zamanda, həmin nitq hissələri ilə bağlı orfoqrafik və durğu işarələrindən istifadə üzrə işlər aparılmasına da imkan verir.

Müəllim 12-ci çalışmanın yerinə yetirilməsini cütlərə tapşıraraq ahəng qanununa uyğun düzgün şəkilçi variantı seçməklə 2.1.1. alt-standartının reallaşmasına şərait yaradır. Şeirdən götürülmüş sözlərin mənsubiyyətə və hallara görə dəyişməsi üzərində işləməklə şagirdlər tapşırıqda nəzərdə tutulan bacarıqların daha da təkmilləşdirilməsinə nail olurlar.

“Kəlmələrin dilini öyrənək!” rubrikası şagirdlərin əvvəlcədən bildikləri ümumişlək sözlərin yeni mənalarını öyrənmələri məqsədilə verilmişdir.

“Hikmət xəzinəsindən” rubrikasında verilmiş aforizmlər mətnin məzmunu ilə bağlı tərbiyəvi iş aparmağı nəzərdə tutur. Aforizmlərdə mənsubiyyət şəkilçisi ilə işlənmiş sözlərin müəyyənləşdirilməsi isə müvafiq biliklərin möhkəmləndirilməsinə, şagirdlərin nitqlərində mənsubiyyət şəkilçilərindən yerli-yerində istifadə etmələrinə zəmin yaradır.

**Məlumat mübadiləsi:** Şagirdlər “Azərbaycan” şeirinin əsas ideyasını müzakirə edir və vətən mövzusunda yazılmış bildikləri digər şeirlərlə müqayisəli şəkildə fikir mübadiləsi aparırlar.

**Nəticə:** Tədqiqat sualına cavab axtaran şagirdlər öyrənirlər ki, Azərbaycan adlanan coğrafi məkan çox böyük ərazini əhatə edir. Bu əraziyə indi Ermənistan adlanan Qərbi Azərbaycan, Gürcüstandakı Borçalı mahalı, İrandakı Cənubi Azərbaycan da daxildir. Hazırda bizim yaşadığımız Azərbaycan Respublikası Azərbaycan adlanan məkanın şimal hissəsini əhatə edir. Böyük və Kiçik Qafqaz dağlarının arasında yerləşən bu gözəl diyarı qarış-qarış gəzdikcə gah isti Arandan, gah da uca dağların qarlı zirvəsindən keçməli olursan. Kür və Araz çayları Azərbaycanın şah damarları kimi onun sinəsi boyunca uzanaraq, tələsir, doğma Xəzərə qovuşmağa can atır. Müstəqil dövlətimizi dünyada tanıdan atribut və simvollar bu deyilənləri bir daha təsdiqləyir.

**Yaradıcı tətbiqetmə:** 4-cü çalışmanın şərtinə uyğun inşa yazaraq 4.1.2. alt standartını reallaşdırmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.
**Ev tapşırığı:** Seçdiyiniz bəndləri əzbərləmək.

## Hüseynqulu xan (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətnin hissələrini müəyyənləşdirir.<br>Mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.1.<br>1.1.2. | R.d.- 4.1.2.<br>Az.t.-3.1.1. |
| 2 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır.<br>Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.1.<br>4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə.
**Resurslar:** Dərslik, elektron lövhə.
**Motivasiya:** Müəllim elektron lövhədə kadrlar göstərir. Həmin kadrlarda İçərişəhərin təsvirləri verilmişdir.

Müəllim soruşur:

– Kadrlarda qədim şəhəri görürsünüz. Onun coğrafi mövqeyi haqqında nə bilirsiniz?

Şagirdlərin fərziyyələri dinlənilir və nitqlərindəki nöqsanlar düzəldilir.

**Tədqiqat sualı:** Xanlıqlar dövründə İçərişəhər hansı tarixi hadisələrin şahidi olmuşdur?

**Tədqiqatın aparılması:** Müəllim şagirdləri qruplara bölür. Tədqiqat "Hüseynqulu xan" mətninin oxusu ilə başlanır. Mətn hissə-hissə qruplardakı şagirdlərə oxutdurulur, məzmunun və sözlüyün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"nda olan söz və ifadələrin köməyi ilə mətn tərcümə edilir. Şagirdlərin öyrəndikləri yeni sözləri qrup üzvləri cümlələrdə işlədirlər.

Müəllim 1, 2, 7, 8, 13-cü çalışmaları 3 qrup arasında bölərək tapşırığı icra etməyi tapşırır və vaxt ayırır. Şagirdlər nümunələrdən mətnin hissələrinə uyğun istifadə edərək sözləri mətndə yerləşdirir (2.1.4. alt-standartı), mətnin

məzmunu ilə əlaqəsi olmayan cümlələri təyin edirlər. Bu şagirdlərin məntiqi düşünmə qabiliyyətinin formalaşmasına xidmət edir. Belə ki, hər bir suala cavab vermək üçün şagirdlər fikirlərini məhz qoyulan sual ətrafında cəmləşdirirlər. Suallar mətnin müəyyən hissələri üzrə qoyulduğundan düzgün cavab da həmin hissəyə müvafiq olur. Verilmiş vaxt başa çatdıqdan sonra təqdimatlar dinlənilir və müzakirə olunur.

**Çalışma.** *Aşağıdakı atalar sözləri və məsəllərdən birini mətnə başlıq seçməli olsanız, hansı variantın üzərində daha çox dayanardınız? Mətnin məzmunundan çıxış edərək fikrinizi əsaslandırın.*

*A) Özgəyə quyu qazan, özü düşər; Gen qaz, dərin qaz, özün düşərsən.*

*B) Sən saydığını say, gör fələk nə sayır?*

*C) Zərərin yarısından qayıtmaq da qazancdır.*

*D) Çox istəyən azdan da olur.*

*E) Olmadı elə, oldu belə; Olacağa çarə yoxdur.*

3-cü çalışmanı yerinə yetirmək mətnin tərkib hissələrinin müəyyənləşdirilməsi ilə nəticələnir (1.1.1. alt-standartı).

Şagirdlər 4-cü çalışmanın tapşırığına əsasən sarı rəngdə verilmiş abzasın mətndə oynadığı rol haqqında mülahizə yürüdür, cümlələr və abzaslar arasındakı əlaqələri gözləyərək 5-ci çalışmada verilmiş mətni tərcümə edirlər. Bu tapşırıqların icrası ilə 3.1.3. alt-standartın reallaşdırılmasına şərait yaranır.

6-cı çalışmanın icrası nitq hissələrinin yazılışı ilə bağlı bacarıqların tətbiqinə yönəldilir. Mətndəki əsas nitq hissələrinin qrammatik mənalarının mənimsənilməsi 9, 10, 12, 13, 14, 15-ci çalışmaların yerinə yetirilməsi vasitəsilə həyata keçirilir. Bu isə, öz növbəsində, 3.1.1. alt-standartının tələbinin praktikaya tətbiqi deməkdir.

4.1.1. alt-standartı üzrə müvafiq bacarıqların təkmilləşdirilməsini təmin etmək məqsədi ilə şagirdlər 8-ci çalışmanın şərtinə əsasən "köməkçi"də verilmiş nümunələrdən istifadə edərək Hüseynqulu xanı bir neçə cümlə ilə təsvir edir, cümlələrin bir-biri ilə düzgün əlaqələnməsinə diqqət yetirirlər.

## BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində feilin altı forması (şəkli) var. Bunlar aşağıdakılardır:
1) Əmr forması:heç bir xüsusi şəkilçisi yoxdur – yuyum, yu, yusun, inanaq...
2) xəbər forması: zaman şəkilçiləri ilə düzəlir – dincəlir, üşüdüm, gələcəksən ...
3) arzu forması: -a, -ə şəkilçisi ilə düzəlir – gərək baxam, gedəsən, kaş dinləyə...
4) lazım forması: -ası, -əsi şəkilçisi ilə düzəlir – verəsiyəm, qaytarasıyıq ...
5) vacib forması: -malı, -məli şəkilçisi ilə düzəlir – oyanmalısınız, silməlisən...
6) şərt forması: -sa, -sə şəkilçisi ilə düzəlir – soruşsalar, doldursaq, bişirsən...

Bundan əlavə 10, 12-ci çalışmalar vasitəsilə də şagirdlərdə müvafiq

bacarıqların inkişafına əlverişli şərait yaradılır. Qeyd olunan çalışmalardakı tapşırıqları yerinə yetirərkən şagirdlər feilləri tərkibinə görə təhlil etmək bacarığı nümayiş etdirir, mətndə fərqləndirilmiş ifadələrin kontekstə uyğun mənalarını izah etmək və verilmiş sözlərdən eyniköklü sözlər düzəltməklə lüğət ehtiyatlarını daha da zənginləşdirirlər.

**Məlumat mübadiləsi:** Şagirdlər Hüseynqulu xan haqqında öyrəndiklərini müzakirə edir, tədqiqat sualı ətrafında fikir mübadiləsi aparılır.

**Nəticə:** Mətnin oxusu, çalışmalar üzərində işləməklə şagirdlər əldə etdikləri faktlar əsasında fikir yürütmək, fikirlərini oxuduqları mətnin hissələrinə müvafiq qruplaşdırmaq bacarıqlarını inkişaf etdirirlər.

Mətnin məzmunu ilə tanışlıq şagirdlərdə tarixi keçmişimizə dair biliklərinin zənginləşməsinə təsir göstərir. Şagirdlər Vətənimizin cəsur, qorxmaz, düşmən qarşısında əyilməyən, lazım gələrsə, həyatı bahasına heç nədən çəkinmədən düşməni yerində oturtmağı bacaran qəhrəman oğlunun həyatı ilə bir daha tanış olurlar.

**Yaradıcı tətbiqetmə:** Bəs Hüseynqulu xan haqqında daha nə bilirsiniz? Məlumatınızı genişləndirmək üçün axtarış aparın və fikirlərinizi yoldaşlarınızla bölüşün.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətn üzrə plan tərtib etmək və məzmununu öyənmək.

## Bayrağımız (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Ahəng qanununa uyğun şəkilçi varianti seçməklə sözləri düzgün tələffüz edir. | 2.1.1. | R.d.- 2.2.1; 4.1.2. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Mətndəki cümlələr və abzaslar arasında əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |
| 5 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** Dərslik, elektron lövhə.

**Motivasiya:** Müəllim elektron lövhədə 2010-cu ildə Bakı şəhərində “Bayraq meydanı”nın açılış mərasimindən çəkilmiş videoçarxı şagirdlərə təqdim edir.

Müəllim sinfə müraciət edir:

– Gördüyümüz kadrlarda hansı tarixi hadisənin şahidi olursunuz?

Şagirdlərin cavabları dinlənilir. Onların nitqlərindəki nöqsanlar düzəldilir.

**Tədqiqat sualı:** Dövlət rəmzləri içərisində nə üçün bayraq müqəddəs sayılır? Bayrağı qoruyaraq həlak olan igidlər nə üçün qəhrəman sayılır?

**Tədqiqatın aparılması:** Tədqiqat şeirin oxusu ilə başlayır, şagirdlər səs tonu, temp və fasiləni gözləməklə (2.1.2. alt-standartı) şeiri ifadəli oxuyurlar. Oxu prosesində sözlərin düzgün tələffüzünə diqqət yetirilir, müşahidə olunan nöqsanların aradan qaldırılması ilə bağlı lazımi tövsiyələr verilir. Sonra şeirin məzmununun və sözlüyünün mənimsədilməsi üzərində işə keçilir.

Şagirdlər qruplara bölünür. Hər qrupa şeirin bir bəndinin təhlili tapşırılır. Verilmiş vaxt bitdikdən sonra şagirdlər misralar və bəndlər arasında əlaqələri müəyyənləşdirərək (3.1.3. alt-standartı) çalışma 2-nin şərtinə əsasən öz fikirlərini təqdim edirlər.

Müəllim şagirdlərin lüğət ehtiyatlarının zənginliyini yoxlamaq, tərcümə etmək bacarıqlarını inkişaf etdirmək, tərcümə zamanı ahəng qanununa uyğun düzgün şəkilçi variantları seçmək qabiliyyətlərini üzə çıxarmaq məqsədi ilə (2.1.1. alt-standartı) 6, 12-ci çalışmaları hissələrə bölərək qruplara tapşırır. Qrup üzvləri əməkdaşlıq şəraitində tapşırığı yerinə yetirir və təqdim edirlər. Müəllim tərəfindən qiymətləndirmə aparıla bilər.

3-cü çalışmanın şərtinə əsasən 2.1.4. alt-standartı reallaşdırılır. Müəllim qruplara debata qoşularaq mövzu ətrafında fikir mübadiləsi aparmağı tapşırır. Şagirdlər cümlələri genişləndirən zaman müəllim onların nitqlərindəki qüsurları düzəldir. 4-cü çalışmanın şərtinə əsasən isə şagirdlər şeirdən sinonim sözləri taparaq ayrı-ayrı cümlələrdə işlədirlər. Tapşırıqlara əməl edildikdən sonra müəllim qiymətləndirmə apara bilər.

Şeirdəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah etmək bacarığını nümayiş etdirmək məqsədilə müəllim qruplara 5, 8, 9, 10, 11, 15-ci çalışmaları tapşırır və bununla da seçilmiş alt-standart 3.1.1. reallaşdırılır.

13, 14-cü çalışmalar bütün siniflə yerinə yetirilir. Çalışmaların şərtinə əsasən, şagirdlər çümlələrdəki feillərin hansı formalarda işləndiyini müəyyənləşdirir və nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırırlar (4.1.1. alt-standartı).

“Kəlmələrin “dili”ni öyrənək!” rubrikasındakı sözlərin mənaları ilə tanışlıq şagirdlərin nitq ehtiyatlarını zənginləşdirməyə xidmət edir.

**Məlumat mübadiləsi:** Şagirdlər oxuduqları şeirin məzmunu və yerinə

yetirilmiş çalışmalar əsasında bayrağımızın müqəddəsliyini öyrənir, tədqiqatda qoyulan sual haqqında fikir yürüdür və "Yenilməzdir Azərbaycan" misrasını müzakirə edir, mülahizələrini söyləyirlər.

**Nəticə:** Tarixi qaynaqlara nəzər salsaq, görərik ki, bayraq qədim zamanlarda da mövcud idi. Bayraqdan, əsasən, dənizçilər istifadə edirdilər. Gəmi sahilə yaxınlaşanda bayraq qaldırırdılar ki, hansı gəminin gəldiyi bilinsin. Bundan başqa, döyüş zamanı da bayraqdar irəlidə bayrağı aparırdı. Bayrağın yerə düşməsi məğlubiyyətin əlaməti idi.

Dünyada artıq elə bir dövlət yoxdur ki, onun bayrağı olmasın. Bayrağa baxanda onun hansı dövlətə aid olduğunu hamı bilir.

Şeirin məzmunu üzrə aparılan işin nəticəsində şagirdlər əmin olurlar ki, üçrəngli məğrur bayrağımız başımızın üzərində qürurla dalğalandıqca, iqtisadi inkişafımızın, daxili və xarici siyasətimizin uğurları gündən-günə artacaq, dövlətimiz daha yenilməz olacaq və yer üzündə Azərbaycan söz sahibi olan bir diyara çevriləcək. Şagirdlərdə dərin bir inam yaranır ki, "ay-ulduzlu, gur şəfəqli" bu bayraq Vətənin hər guşəsinə işıq saçdığı kimi, çox tezliklə Şuşada, Cıdır düzündə də dalğalanacaq!

**Yaradıcı tətbiqetmə:** Şagirdlərə 7-ci çalışmanın şərtinə görə "Bayrağımız qürurumuzdur" mövzusunda inşa yazmaq tapşırılır.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək.

## Doğrudan da, fizikdir... (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Ahəng qanuna uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir. | 2.1.1. | R.d. - 4.1.2.<br>Fiz. 1.1.1. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4 | Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | 3.1.2. | |
| 5 | Müxtəlif əməli yazılar (ərizə) yazır. | 4.1.4. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük qruplarla və cütlərlə iş.
**Dərsin üsulu:** Əqli hücum, müzakirə.
**Resurslar:** Dərslik, proyektor, internetə qoşulmuş kompüter.

**Motivasiya:** Müəllim elektron lövhədə “Sehrli xalat” filmindən (www.google.az “Sehrli xalat”) uşaqların sarayı bəzəməsi, balaca oğlanın elektrik dirəyinə qalxaraq işıqları düzəltməsi təsvir olunmuş kadrları nümayiş etdirir və şagirdlərə müraciət edir:

– Gördüyünüz kadrlar hansı filmdəndir? Oğlan elektrik dirəyinə nə üçün qalxmışdır? Sizcə, bütün uşaqlar elektriklə davranmağın yollarını bilirmi? Şagirdlərin cavabları dinlənilir və nitqlərindəki səhvlər düzəldilir.

**Tədqiqat sualı:** Öyrəndiyiniz fənlərdən hansında elektrik cərəyanı haqqında ətraflı məlumat almaq olar? Elektrik xətləri ilə davranmağın hansı sirlərini bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki “Doğrudan da, fizikdir” mətni üzərində aparılır. Müəllim mətni şagirlərə oxutdurur. Oxu prosesində şagirdlərin sözləri orfoepik normalara uyğun və vurğunu gözləməklə düzgün tələffüz etmələrinə, intonasiyaya fikir verilir, zəruri düzəlişlər edilir, “Sözlük”dəki sözlər izah edilir və cümlələrdə işlədilir.

Sonra mətn üzrə seçilmiş alt-standartların reallaşdırılması çalışmalar üzrə iş aparmaqla davam etdirilir. 1-ci çalışmanın icrasında bütün sinif iştirak edir. Şagirdlər cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirərək mətnin hissələrini təyin edirlər.

Sonra cütlərlə iş aparılır. Müəllim 2-ci çalışmanın şərtinə əsasən mətnə suallar tərtib etməyi tapşırır. Mətnə verilmiş suallar arasında biri mövzuya aid olmamalıdır. Verilmiş suallara digər cütlər cavab verməlidir. Müəllim maraqlı suallar tərtib etmiş cütlüyü qiymətləndirə bilər.

Mövzunun daha yaxşı mənimsədilməsi məqsədilə müəllim cütlərə “Fizikanın insan həyatında rolu” mövzusunda kiçik təqdimat hazırlamağı tapşırır. Verilmiş vaxt bitdikdə cütlərin təqdimatı dinlənilir və müzakirə olunur, cavablar qiymətləndirilir.

Sözlərin düzgün tələffüzü məqsədilə 2.1.1. alt-standartının reallaşdırılması üçün cütlərə mətndə qoşasaitli sözləri tapmaq və digər nümunələr də göstərmək tapşırılır. Cütlər tapdıqları sözləri tələffüz edərək cümlələrdə işlədirlər.

Dərslikdəki 5, 6, 8, 9, 10, 12, 13-cü çalışmalar cütlərə tapşırılır. Bu çalışmalarn icrası şagirdlərin lüğət ehtiyatının zənginləşməsinə və dəqiqləşdirilməsinə xidmət edir, dilin qrammatik normalarını tətbiq etməklə nitq hissələrini qrammatik mənasına görə izahetmə bacarıqlarının təkmilləşdirilməsini həyata keçirməyə imkan verir.

Dərslikdəki 4-cü çalışma kollektivlə şifahi şəkildə yerinə yetirilir. Bu zaman müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə etməklə 2.1.4. alt-standartı reallaşdırılır.

“Bunları bilirsinizmi?” rubrikasında zərfin məna növləri haqqında verilmiş məlumatın mənimsənilməsi üçün qayda oxunur və şagirdlərin fəallığı ilə izah

olunur. Dərslikdəki 6, 8, 9, 10, 13-cü çalışmalar məhz həmin məlumatın praktik yolla mənimsənilməsini həyata keçirmək üçün tərtib edilmişdir.

7-ci çalışmanı yerinə yetirməklə şagirdlər tərcümə bacarıqlarını təkmilləşdirir, 14-cü çalışma üzrə isə cümlələr arasında əlaqələri müəyyənləşdirməklə yanaşı, məntiqi düşünmək qabiliyyətlərini də inkişaf etdirirlər.

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, siz zərflərin **hərəkəti müxtəlif cəhətdən izah etdiyini** bilirsiniz. Bu baxımdan zərflərin müxtəlif məna növləri vardır:

Tərzi-hərəkət zərfi – **yavaş** yeriyir, **hündürdən** danışır, **taybatay** açıldı...

Zaman zərfi – **bayaq** dedi, **günorta** yedi, **əvvəl** yazdı, **hələ** bilmir ...

Yer zərfi – **irəli** yeridim, **burada** razılaşdım, **üzüyuxarı** qalxdım...

Kəmiyyət zərfi – **çox** gözlədik, **azca** yığdıq, **xeyli** dincəldik, **birə-beş** artdı...

14-cü çalışmada verilmiş tapmacalarda cümlələr arasında əlaqələri müəyyənləşdirmək şagirdlərin məntiqi düşünmək qabiliyyətlərini üzə çıxarmağa xidmət edir.

**Məlumat mübadiləsi:** Şagirdlər oxuduqları, filmdə gördükləri və tədqiqat nəticəsində öyrəndikləri əsasında fikir mübadiləsi edirlər. Müzakirə şagirdlərin rabitəli nitqinin inkişafına kömək edir.

**Nəticə:** Məişətdə elektrikdən müxtəlif məqsədlərlə istifadə olunur. Vaxtaşırı olaraq elektrik xətlərində, elektrik avadanlıqlarında nasazlıqlar baş verir. Bu nasazlıqların aradan qaldırılması zamanı avadanlıq və xətlərlə naşı davranmaq faciə ilə nəticələnə bilər.

Bədbəxt hadisələrin qarşısını almaq, elektrik xətlərində yaranmış nasazlıqları vaxtında və savadlı şəkildə aradan qaldırmaq üçün zəruri biliklərə yiyələnmək lazımdır. Məktəbdə bu bilikləri fizika fənnini maraqla öyrənməklə, bu fənn üzrə təşkil edilmiş məşğələ və dərnəklərdə iştirak etməklə əldə etmək olar. “ Doğrudan da, fizikdir...” mətni şagirdlərdə belə məşğələlərə maraq oyada bilir.

**Yaradıcı tətbiqetmə:** Çalışma 11-də Vəli fizika dərnəyinə üzv yazılmaq üçün ərizə yazmaq istəyir. Müəllim şagirdlərə tapşırır ki, hər hansı bir dərnəyə üzv yazılmaq üçün ərizə yazsınlar.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətni danışmaq.

# Yox, montyor gəlməyəcək (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d. - 4.1.2.<br>Fiz. 1.1.1. |
| 2 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 2.1.4.<br>3.1.1. | |
| 3 | Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |
| 4 | Müxtəlif əməli yazılar (ərizə) yazır. | 4.1.4. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə.

**Resurslar:** Dərslik, elektrik cihazları, iş vərəqləri.

**Motivasiya:** Müəllim sinfə bir neçə elektrik məişət cihazı (ütü, elektrik çaydanı, gecə lampası) gətirir. Əvvəlcə şagirdlərə öyrədilir ki, elektrik cihazı şəbəkəyə qoşularkən nələrə fikir verilməlidir. Uşaqlar həmin qaydaları deməli və elektrik cihazını şəbəkəyə qoşmalıdırlar. Müəllim prosesə nəzarət edir və sinfə sualla müraciət edir.

– Nə üçün elektrik cihazları ilə ehtiyatlı davranmaq lazımdır? Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** Məişətdə elektrik enerjisindən düzgün istifadə edilməməsi, elektrik avadanlıqları və cihazları ilə düzgün davranmamaq hansı hadisələrə səbəb ola bilər?

**Tədqiqatın aparılması:** Şagirdlər iki qrupa bölünür. Onlara iş vərəqləri paylanılır.

1-ci iş vərəqi – Məişət cihazları şəbəkəyə qoşularkən nəzarətsiz qalarsa, hansı təhlükələr baş verə bilər?

2-ci iş vərəqi – Təhlükə baş verərsə, necə hərəkət etmək lazımdır?

Qruplara verilən vaxtın tamamında qrup üzvlərinin təqdimatları dinlənilir. Müəllim şagirdlərin nitqindəki qüsurları düzəldərək onları istiqamətləndirir və qrup üzvləri qiymətləndirilir.

Müəllim şagirdlərə mətni oxutdurur. "Sözlük"də verilmiş çətin sözlərin mənası izah edilir və cümlələrdə işlədilir. Oxu prosesində şagirdlərin düzgün oxu bacarıqları izlənilir. Müəllim qruplara mətnin tərkib hissələrini müəyyənləşdirmək məqsədilə 1, 2-ci çalışmaları yerinə yetirməyi tapşırır (1.1.1.

alt-standartı). Şagirdlər fikirlərini mətndəki hadisələr üzərində cəmləşdirirlər. Tapşırıq şifahi yerinə yetirilir və hər qrupun lideri yerinə yetirdikləri tapşırıq haqqında qısa məlumat verir.

3, 4, 5-ci çalışmaların icrası mətnlə bağlı alt-standartların reallaşdırılmasına şərait yaradır. 3-cü çalışmada mətnə əsasən verilmiş planın məzmuna uyğunluğunu tapmaq üçün şagirdlər fikirlərini mətndəki fakt və hadisələrin üzərinə yönəldir, 4-cü çalışmadakı sualların mətnə uyğunsuzluğunu bildirmək məqsədilə fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalı olurlar (1.1.2., 2.1.3. alt-standartları).

Şagirdlər 6, 15-ci çalışmanı yerinə yetirməklə düzgün tələffüz normalarına nə dərəcədə yiyələndiklərini nümayiş etdirirlər, yol verilmiş nöqsanlar müzakirə edilərək aradan qaldırılır.

7, 8, 11-ci çalışmalar istər mətnin məzmunu, istərsə də nitq hissələrinin qrammatik mənasının dərk edilməsi istiqamətində şagirdlərin fikirlərini əsaslandırmalarına xidmət edir (3.1.1. alt-standartı).

"Atalar sözü" rubrikasında verilmiş atalar sözlərinin mətnin məzmunu ilə uyğunluğunu təyin edərkən 9-cu çalışmanın şərtinə əsasən şagirdlər məntiqi təfəkkürlərini inkişaf etdirməklə yanaşı, tez düşünmə (çalışma 10) bacarıqlarını da nümayiş etdirirlər.

12-ci çalışmanın yerinə yetirilməsi şagirdlərin lüğət ehtiyatının dəqiqləşdirilməsi və fəallaşdırılması baxımından əhəmiyyətlidir.

13, 14, 15, 16-cı çalışmalar nitq hissələrinin qrammatik mənasının dərk edilməsi üzrə işlər aparmağı nəzərdə tutur. Şagirdlər bu tapşırıqları yerinə yetirərkən sözlərin quruluşunu, qoşasamitli sözlərin yazılış və tələffüzünə, feillərin müxtəlif zamanlarda işlənməsinə aid biliklərini inkişaf etdirirlər (4.1.3. alt-standartı).

Çalışmalar üzərində işi müəllim qruplarla, kollektivlə və ya fərdi qaydada həyata keçirə bilər. Bu, müəllimin iş metodundan, sinfin xüsusiyyətindən, hazırlıq səviyyəsindən asılıdır.

17-ci çalışmada verilmiş əməli yazı növü şagirdlərin yazı bacarıqlarını inkişaf etdirmək məqsədilə verilmişdir (4.1.4. alt-standartı).

**Məlumat mübadiləsi:** Şagirdlər "Yox, montyor gəlməyəcək" hekayəsindəki Adilin işgüzarlığı, onun elektrikdən istifadə bacarığı ilə tanış olur və fikir mübadiləsi edirlər. Müzakirələr nəticənin ümumiləşdirilməsinə şərait yaradır..

**Nəticə:** Hekayənin qəhrəmanı Adil ilə tanışlıq şagirdlərin tədqiqat sualına cavab tapmalarına gətirib çıxarır.

Artıq hər bir məktəbli bilir ki, elektrik enerjisi həyatımızın ayrılmaz tərkib hissəsidir. Bu gün insanın həyatını elektrik enerjisi olmadan təsəvvür

etmək mümkün deyildir. Məişətdə, sənayedə, kənd təsərrüfatında, təhsildə ...elektrikin sonsuz imkanlarından istifadə edilir. Lakin elektrik onunla diqqətsiz, savadsız davranıldıqda həyat üçün çox təhlükəli olur. Elə bir ev, iş yeri yoxdur ki, orada elektrik cihazları və avadanlıqları olmasın. Odur ki, elektrik cihazlarını işlədən hər bir kəs elektrik haqqında müəyyən qədər biliklərə malik olmalı, təhlükəsizlik qaydalarına əməl etməlidir. Həmçinin nəzərə alınmalıdır ki:

1) Evdəki elektrik məftillərinə, işlək vəziyyətdə olan elektrik cihazlarının təhlükəli hissələrinə toxunmaq olmaz, çünki həmin xətlərdə nasazlıqlar ola bilər;

2) Cərəyan altında olan elektrik lampalarını və cihazlarını təmizləmək, yaş əsgi ilə silmək olmaz;

3) Əldəqayırma elektrik cihazlarından istifadəyə yol verilməməlidir;

4) Kiçik yaşlı uşaqların elektrik cihazlarına toxunmasına yol vermək olmaz.

Şagirdlər mətnin məzmununu daha asan qavramaq və deyilən fikirləri aydın başa düşmək üçün sözlərin qrammatik mənalarını dərk etməyin, söylənilən fikrin dinləyən üçün maraqlı olması və əhəmiyyət kəsb etməsi üçün fakt və hadisələrə istinad etməyin çox mühüm əhəmiyyət daşıdığını anlayırlar.

**Yaradıcı tətbiqetmə:** Evdə xarab olmuş bir məişət cihazını düzəltməyə cəhd göstərmək.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Rezin elektriki keçirmir (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d. - 4.1.2.<br>Fiz. 1.1.1.<br>H.b.- 4.2.1 |
| 2 | Müzakirədə deyilən fikirlərə münasibət bildirir.<br>Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.3.<br>2.1.4. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Nitq hissələri ilə bağlı yazılış və durdu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplar.
**Dərsin üsulu:** Əqli hücüm, müzakirə.

**Resurslar:** Dərslik, internetə qoşulmuş kompüter.

**Motivasiya:** Müəllim elektron lövhədə “Bizim Cəbiş müəllim” filmindən Cəbiş müəllimin dərs zamanı atın quyruğunun tükü ilə apardığı təcrübəni şagirdlərə təqdim edir və sinfə belə bir sualla müraciət edir:

– Uşaqlar, gördüyünüz filmdə hansı dərs təsvir olunub? Hər hansı bir montyorun işini müşahidə etmisinizmi? Cavablar dinlənilir.

**Tədqiqat sualı:** Nə üçün montyorlar elektrikdən qorxmur, hər cür şəraitdə işlərinin öhdəsindən gələ bilirlər? Necə olur ki, montyorları elektrik vurmur?

**Tədqiqatın aparılması:** Şagirdlərin maraqlarını təmin etmək və tədqiqat üçün yaranmış məqamdan istifadə edərək dərslikdəki mətnin oxusu təşkil edilir. “Sözlük” və “Söz ehtiyatı”ndakı çətin sözlər izah edilir və mətn üzrə çalışmalar vasitəsi ilə işə başlanılır.

Mətnin məzmununun daha yaxşı mənimsənilməsi və seçilmiş alt-standartlar üzrə nəzərdə tutulmuş bacarıqların formalaşdırılması üçün dərslikdə verilmiş çalışmaların böyük və kiçik qruplar üzrə icrası məqsədəuyğun sayılır.

Qruplar 1-ci çalışma əsasında əvvəl keçilmiş iki mətnlə “Rezin elektriki keçirmir” mətni arasındakı əlaqəni göstərməklə hər üç mətndəki fakt və hadisələri qruplaşdıraraq təqdim edirlər (1.1.2. alt-standartı).

2, 12-ci çalışmalarda qoyulan tapşırıqların icrası istiqamətində aparılan işlər (sualların mətnin məzmununu nə dərəcədə əhatə etməsi, sualların içərisində məzmunla əlaqəsi olmayan sualların tapılıb səsləndirilməsi və mətnin hissələrini müəyyənləşdirmək) mətnin məzmununun şüurlu şəkildə qavranılmasını tələb edir. Bu tapşırırıqları yerinə yetirməklə şagirdlər 1.1.1. alt-standartının tələblərini reallaşdırırlar.

Müəllim işi kiçik qruplarla davam etdirərək nümunələrdən mətnin hissələrinə uyğun istifadə edilməsinin (2.1.4. alt-standartı) reallaşdırılması məqsədilə 3, 4, 6-cı çalışmaları qruplara tapşırır. Bu çalışmaların icrası şagirdlərin şifahi nitq vərdişlərinin səviyyəsini nümayiş etdirməyə imkan verir, həmçinin söylədikləri fikirlərn əsaslandırılmasını tələb edir. Müəllim qrupların cavablarını dinləyir, qüsurları düzəldir və qiymətləndirmə aparır.

7, 9, 13, 14-cü çalışmalar qruplara tapşırılır. Bu çalışmalar nitq hissələrinin qrammatik mənasının dərk edilməsi üzrə işlər aparmağı nəzərdə tutur (3.1.1. alt-standartı). Şagirdlər bu tapşırıqları yerinə yetirərkən göy rəngdə verilmiş sözləri qruplaşdırır, sözlərin quruluşca növlərini təyin edir və onları cümlələrdə işlədərək lüğət ehtiyatlarını zənginləşdirirlər.

5, 11, 15-ci çalışmaların icrası 4.1.3 alt-standartı üzrə bacarıqların təkmilləşdirilməsinə xidmət edir. Göstərilən tapşırıqlar üzərində işləyərkən şagirdlər sonu “q” ilə yazılan sözlərin yazılışı ilə tələffüzünü qarşılaşdırır, birləşmə içərisində verilmiş belə sözlərin düzgün tələffüz formasını müəyyənləşdirib qarşısında qeyd edir, mətndə altından xətt çəkilmiş sözlərin

yazılışı ilə bağlı müvafiq qaydaları izah edirlər ki, bütün bunlar qeyd edilən alt-standartın reallaşmasına gətirib çıxarır.

8-ci çalışmada verilmiş "Atalar sözü" rubrikasında verilmiş atalar sözləri əsasında təşkil edilən debat şagirdlərin şifahi nitq və mühakimə bacarıqlarını inkişaf etdirir. Atalar sözləri ilə mətnin məzmunu arasındakı uyğunluğu müəyyənləşdirmək məqsədilə şagirdlər əlavə fakt və hadisələrə əsaslanırlar (2.1.3. alt-standartı).

"Bunları bilirsinizmi?"rubrikasında şagirdlər sonu "q" ilə yazılan çoxhecalı söz və söz formalarında həmin samitin müxtəlif vəziyyətlərdə tələffüz xüsusiyyətləri ilə konkret nümunələr əsasında tanış olurlar ki, bu məlumat onlara praktik bacarıqlarının səviyyəsini şüurlu şəkildə müəyyənləşdirmək imkanı verir.

## BUNLARI BİLİRSİNİZMİ?

Uşaqlar, mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin tələffüzü üzərində diqqətlə müşahidə aparsanız, görərsiniz ki, **sonu "q" ilə yazılan** çoxhecalı söz və söz formalarında həmin **"q"** aşağıdakı hallarda **[x]** kimi tələffüz olunur:

a) həmin sözlər **ayrılıqda tələffüz olunduqda** – budaq[x], tapmışıq[x], barmaq[x], daşlıq[x], qorumaq[x], qaçdıq[x], oturmalıyıq[x], yuyuruq[x], işıq[x] ...

b) onlardan sonra **samitlə başlanan şəkilçilər gəldikdə** – qarmaq[x]lar, budaq[x]-dan, qaranlıq[x]da, işıq[x]çı, uzaq[x]dan ...

c) belə sözlər nitq axınında **samitlə başlanan başqa sözlərin qarşısında gəldikdə** – pambıq[x] tarlası, qarmaq[x] kimi, uzaq[x] kənd, balıq[x] tutmaq[x], açıq[x] qapı ...

Sonu "q" ilə yazılan çoxhecalı sözlər **saitlə başlanan sözlərin** qarşısında gəldikdə isə **"q" samiti [ğ] kimi** tələffüz olunur: – qovaq[ğ] ağacları, oxumaq[ğ] arzusu, balıq[ğ] əti, torpaq[ğ] ətri, açmaq[ğ] istəyirdi, moruq[ğ] aldım ...

**Məlumat mübadiləsi:** Şagirdlər tədqiqat nəticəsində Vəlinin bacarıqları ilə tanış olur və dərsdən əlavə getdiyi məşğələnin onun üçün nə qədər faydalı olduğunu müzakirə edirlər.

**Nəticə:** Elektrikdən qorxan və onunla davranmağı bacarmayan uşaqlar oxuduqları mətndə fizika fənnindən öyrəndiklərinin Vəlinin dedikləri ilə üst-üstə düşdüyünü görürlər. Onlar bu mətn vasitəsilə başa düşürlər ki, elektriklə düzgün, savadlı şəkildə davranıldıqda, təhlükəsizlik qaydalarına əməl edildikdə, qoruyucu vasitələrdən (rezin əlcəklərdən, rezin çəkmələrdən, dəstəyi rezindən hazırlanmış alətlərdən) düzgün istifadə edildikdə elektrik heç bir təhlükə törətmir. Deməli, montyorlar ona görə elektrikdən qorxmurlar ki, onlar elektriklə davranmaq qaydalarını bilir və ona əməl edirlər.

**Yaradıcı tətbiqetmə:** Elektrik cihazlarından istifadə edərkən baş vermiş təhlükə haqqında qısa təsviredici hadisə yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətni plan əsasında danışmaq.

## Köməkçi (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d. - 4.1.2.<br>H.b.-1.2.1. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçib sözləri düzgün tələffüz edir, müzakirədə deyilən fikirlərə münasibət bildirir. | 2.1.1.<br>2.1.3. | |
| 3 | Mətndəki əsas nitq hissələrini qrammatik mənalarına görə izah edir. | 3.1.1. | |
| 4 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla, cütlərlə iş.

**Dərsin üsulu:** Əqli hücum, BİBÖ, sual-cavab, klaster, müzakirə, debat.

**Resurslar:** Lövhə, dərslik, iş vərəqləri.

**Motivasiya:** Müəllim lövhəyə dairənin içərisində “ağ qızıl” sözlərini yazır və şagirdlərə müraciət edir:

– Bu birləşmə ilə bağlı fikirlərinizi söyləyə bilərsinizmi?

Şagirdlər klaster üsulundan istifadə edərək lövhədə dairənin içərisində yazılmış “ağ qızıl” ifadəsinin ətrafında düşündüklərini yazırlar. Təxminən belə bir mənzərə alınır:




**Tədqiqat sualı:** Niyə bu bitkiyə ağ qızıl deyirlər?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki “Köməkçi” mətninin məzmunu üzərində işdən başlayır. Şagirdlər mətni oxuyurlar. “Sözlük” və “Söz ehtiyatı”ndakı sözlərin mənası izah edilir, yeni sözlər cümlələrdə işlədilir. Sonra müəllim sinfi 3 qrupa bölür. Hər qrupa mətnin planını tərtib etmək tapşırılır. Qruplara 2-ci tapşırıq olaraq, 3, 5, 6-cı çalışmaların icrası tapşırılır. Bu çalışmalar 1.1.1. alt-standartının reallaşdırılması üçündür. Qrupların 3-cü tapşırığı üçün isə qrammatik anlayışların yoxlanılması məqsədilə 9, 10, 11-ci çalışmalar seçilə bilər. Bu çalışmaların icrası 3.1.1. alt-standartının

reallaşdırılması üçün nəzərdə tutulmuşdur. Qrupların fəaliyyəti üçün vaxt təyin edilir. Təyin olunmuş vaxt bitdikdən sonra qrupların işi yoxlanılır, fərqli cavablar qiymətləndirilir.

Qruplarla iş başa çatdıqdan sonra müəllim cütlərlə işə keçə bilər. Bunun üçün 12, 13, 13 (əlavə), 15, 15 (əlavə), 16, 17-ci çalışmalardan hər birinin icrası bir cütlüyə tapşırılır. Bu çalışmaların icrası 3.1.1 alt-standartının reallaşdırılması üçündür. Beləliklə, şagirdlər əsas və köməkçi nitq hissələrinin qrammatik mənalarını izah etmiş olurlar. Bunun ardınca böyük qrup şəklində çalışma 8-də verilmiş tapmacadakı "-lar" hissəsi ilə bağlı müzakirə təşkil edilir (4.1.1. alt-standartı). Buna uyğun olaraq 4.1.1. alt-standartının tələbinə görə 7-ci çalışmadakı tapmacalar da oxunur, cavablarda ifadə olunan əşyalar təsvir edilir. Şagirdlər nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırırlar.

Şagirdləri əlavə məlumatlarla tanış etmək məqsədilə dərslikdə 14 №-li çalışma təqdim olunmuşdur. Bu çalışmanın icrasında BİBÖ üsulundan istifadə edilir. 14-cü çalışmadakı əlavə məlumatın əldə edilməsi şagirdlərin tərcümə etmək bacarığının təkmilləşdirilməsi və inkişaf etdirilməsi üzərində qurulmuşdur. Belə ki, şagirdlər əvvəlcə çalışmada verilmiş məlumatları tərcümə edir, sonra BİBÖ cədvəlini doldururlar.

**Məlumat mübadiləsi:** Şagirdlər mətnin məzmununa əsasən, "Kimləri əsl vətənpərvər adlandırmaq olar?" fikrini müzakirə edir, fikirlərini yoldaşları ilə bölüşürlər.

**Nəticə:** Ölkəmiz Azərbaycan mənəviyyatca yüksək, mədəni, vətənpərvər, hər sahədə öz işini yüksək səviyyədə yerinə yetirməyi bacaran əxlaqlı insanların ölkəsidir. Hər bir insan ölkəmizə məxsus təbii sərvətləri qorumalı, onu artırmağa çalışmalıdır. Azərbaycan özünün "ağ qızılı" ilə dünyada məşhurdur. Bu məşhurluğa səbəb isə zəhmətkeş insanların əməksevərliyidir. Ağ pambığı qucaq-qucaq toplayan tarla qəhrəmanları həmişə xalq arasında hörmətli şəxslər kimi sayılıb-seçilmiş, gənclər onlardan nümunə götürmüşlər. Mətndən göründüyü kimi, balaca uşaqlar belə dövlətin malını göz bəbəyi kimi qoruyub, onun qədrini bilirlər. İndi ölkəmizin iqtisadiyyatının yüksəlişi dövründə biz də kənarda qalmamalı, hər cəhətdən iqtisadiyyatın, xalq təsərrüfatının və kənd təsərrüfatının inkişafına bacardığımız köməyi əsirgəməməliyik. Əgər hər bir uşaq kağız tullantılarına, plastik qab qalıqlarına, mis, alüminium parçalarına qənaətlə və diqqətlə yanaşıb, onları dövlətin xüsusi toplama məntəqələrinə təhvil versə, bu, çox faydalı bir iş olar. Əgər siz belə məntəqələr tanımırsınızsa, onları oxuduğunuz məktəbin ekologiya kabinetlərində də təşkil edə bilərsiniz.

**Yaradıcı tətbiqetmə:** Mətndəki hadisə ilə səsləşən özünüzlə bağlı və ya eşitdiyiniz bir əhvalatı danışmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Qızıl payız (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Şeirdəki əsas fakt və hadisələri qruplaşdıra bilir. | 1.1.2. | R.d. - 4.1.2.<br>Biol.-3.2.2. |
| 2 | Şeirdəki sözləri qaydalara uyğun düzgün tələffüz edir. | 2.1.1. | |
| 3 | Nitq hissələrinin qrammatik mənalarını izah edir, səs tonu, temp və fasiləni gözləməklə şeiri oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 4 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Əqli hucum, sual-cavab, BİBÖ, müzakirə, təqdimat.

**Resurslar:** Dərslik, tablo, iş vərəqləri.

**Motivasiya:** Müəllim lövhədə payızın təsviri olan bir tablo asır və şagirdlərə müraciət edir:

– Gördüyünüz şəkildə ilin hansı fəsli təsvir olunmuşdur?

Şagirdlər şəkildə gördüklərini təsvir edərək qızıl payız sözünü tapırlar.

**Tədqiqat sualı:** Sizcə, nə üçün payıza qızıl payız deyirlər? Hansı xüsusiyyətlərinə görə ona belə bir ad verilmişdir?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Qızıl payız" şeirinin oxusu ilə başlanır. Şagirdlər səs tonu, temp və fasiləni gözləməklə şeiri rollar üzrə oxuyurlar. "Sözlük"dəki yeni sözlərin mənaları ilə tanış olurlar (3.1.2. alt-standartı). Şeirin məzmununu anlamaq və daha yaxşı mənimsəmək məqsədilə şifahi şəkildə 1, 3-cü çalışmalar yerinə yetirilir (1.1.2. alt-standartı). Sonra müəllim şagirdləri 4 qrupa bölür: çalışma 4-ün şərtinə uyğun olaraq, hər qrup seçilmiş bir mövzu əsasında təqdimat hazırlayır. Qrupların işinə vaxt ayrılır. Hər qrupa II tapşırıq olaraq 5-ci (4.1.1. alt-standartı üzrə), 6-cı (3.1.1. alt-standartı üzrə), 6-cı tapşırığın II hissəsi (4.1.1. alt-standartı üzrə), 7-ci (3.1.1. alt-standartı üzrə), 8-ci (4.1.1. alt-standartı üzrə) çalışmaların da icrası tapşırılır. Vaxt bitdikdən sonra qrupların işi yoxlanılır, təqdimatlar dinlənilir, maraq doğuran işlər qiymətləndirilir. Sonra şagirdlərin elmi-bioloji biliklərini artırmaq məqsədilə 9-cu çalışmanın icrasına keçilir. Bu zaman böyük qrup şəklində BİBÖ üsulundan istifadə edilir. Şagirdlər itburnu barədə yeni məlumatlar əldə etmək üçün əvvəlcə mətni tərcümə edirlər ki, bu da onların tərcümə etmək bacarıqlarını təkmilləşdirmiş olur.

Sonra cütlərlə işə keçmək olar. Bu zaman müəllim şagirdlərə 10-cu (2.1.1.

alt-standartına əsasən), 12-ci (2.1.1. alt-standartına əsasən), 14-cü (3.1.1. alt-standartına əsasən) çalışmaları təqdim edir. Bu çalışmaları yerinə yetirən şagirdlər sonu "q" ilə yazılan sözlərin tələffüz xüsusiyyəti üzərində müşahidə aparır, mənaca uyğun hissələri əlaqələndirməklə hissələri qarışdırılmış tapmacaların düzgün formasını tapıb səsləndirir, tapmacalarda işlənmiş feillərin zamanını müəyyənləşdirir, sonu "k" ilə yazılan sözlərin tələffüzü ilə bağlı mülahizələrini bildirirlər.

Cütlərin yerinə yetirdikləri tapşırıqlar yoxlandıqdan sonra müəllim əvvəlcədən bölünmüş qruplara 16-cı çalışmanın bəndlərini təqdim edir. Bu həm də şagirdlərin rabitəli nitqlərini inkişaf etdirmək məqsədini daşıyır.

**Məlumat mübadiləsi:** Aparılan bütün işlərin yekunu kimi müəllim böyük qrupla 13-cü çalışmaya müraciət edir. Bu, şəkil üzrə iş olduğu üçün şagirdlər dərslikdəki şəkillərə baxaraq, "Təbiətin payız rəngləri" mövzusunda danışırlar ki, bu da onların şifahi rabitəli nitqlərini inkişaf etdirir. Şagirdlər həmin mövzuda məlumat mübadiləsi aparırlar.

**Nəticə:** Payız ilin qızıl fəslidir. Bol məhsullu, bərəkətli, gəlin kimi bəzəkli, al-əlvan bir fəsildir. Özü ilə təbiətin dəli şıltaqlığını gətirsə də, leysanları, ildırımları, sərt küləkləri ilə insanları bəzən rahatsız etsə də, həmişə arzuediləndir. İnsanların süfrəsini zənginləşdirən, qışa azuqə hazırlayan əlvan bir xalıdır payız. Atalar demişlər: "Payızdan qorx, dalınca qış gəlir". Bu sözlər payız fəslinin dəyişkən təbiətli olmasından irəli gəlir. Payızda qışın təməli qoyulur. Əgər fəsillər bir-birini tədricən əvəz etməsə idi, insanlar yəqin ki, sərt dəyişikliklərə dözə bilməzdilər. Yəni, payız fəsli də bizi əvvəlcədən sanki qışın sərt soyuğuna hazırlayır. Payızın ilk günləri nə qədər rəngarəng olsa da, sonu bir o qədər pərişan şəkil alır. Əlvan donunu soyunan ana təbiət qışın örpəyinə bürünmək üçün tələsir. Bütün bunlarla yanaşı, qızıl payız bizim təsəvvürümüzdə həmişə silinməz izlər buraxır.

**Yaradıcı tətbiqetmə:** Çalışma 11 əsasında təşkil edilə bilər. Şagirdlər "Payız meyvələri" başlıqlı mətn tərtib edə bilərlər.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Çalışma 17. Şeiri oxumaq və onun məzmunu əsasında "Qızıl payız" mövzusunda inşa yazmaq.

# İlk qabar (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədikləri mətndə əsas fakt və hadisələri qruplaşdıra bilir. | 1.1.2. | R.d. - 4.1.2. 4.1.4. H.b.-4.1.1. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənalarına görə izah edə bilir, mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.1. 3.1.3. | |
| 4 | Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır, nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.2. 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, BİBÖ, sual-cavab.
**Resurslar:** Dərslik, internetə qoşulmuş kompüter.
**Motivasiya:** Müəllim lövhəyə ətrafında sözlər yazılacaq dairə şəkli çəkir. Dairənin içinə "şağlamlıq" sözü yazır və şagidlərdən soruşur:




– Sağlamlıq sözü ilə assosiasiya yaradan sözlər deyə bilərsinizmi?
Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** "Sağlamlıq insanın öz əlindədir" ifadəsinin mənasını necə başa düşürsünüz?

**Tədqiqatın aparılması:** Dərslikdəki "İlk qabar" mətni şagirdlərə oxutdurulur. Mətnin məzmununun mənimsədilməsi üçün çətin söz və ifadələrin mənası izah edilir, cümlə içərisində işlədilir.

Şagirdlərin dinlədikləri mətnə dair fikirlərini öyrənmək məqsədilə 1-ci çalışma üzərində iş aparılır. Şagirdlər mətndən çıxarılan nəticə barədə fikir yürüdürlər. Bu çalışma 1.1.2. alt-standartının reallaşdırılması üçündür. Həmin alt-standarta uyğun olaraq 2-ci çalışma üzrə də şagirdlər mətnin planını genişləndirib dəftərlərinə yazırlar.

Mətnin məzmununun mənimsədilməsi üzərində iş davam etdirilir. 2.1.4. alt-standartının tələblərinə uyğun olaraq 8,12-ci çalışmaların icrası nəzərdə tutulmuşdur. Bu zaman şagirdlər müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edirlər.

5-ci çalışmanı yerinə yetirərkən şagirdlər 3.1.3. alt-standartını reallaşdırmış olurlar. Bu işi mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirərək həyata keçirirlər. Bu çalışmanı da şifahi yerinə yetirirlər.

Şagirdlərin qrammatik mənaları anlama bacarığını yoxlamaq və inkişaf etdirmək məqsədilə müəllim 3.1.1. alt-standartına uyğun seçilmiş 10, 13, 16-cı çalışmaları şagirdlərə təqdim edir. Bu tapşırıqları cütlərlə iş formasında da yerinə yetirmək olar. Bu çalışmaları yerinə yetirən şagirdlər sözlərin qrammatik mənalarını izah edir, mətndə altından xətt çəkilmiş feillərin zamanını və şəxsini müəyyənləşdirir, sözlərin quruluşca növlərini təyin edirlər.

Şagirdlərin tərcümə etmək bacarıqlarını inkişaf etdirmək məqsədilə bütün sinif 15-ci çalışmanın icrasını həyata keçirir. BİBÖ üsulundan istifadə olunur. Şagirdlər tərcümə etdikləri mövzuya uyğun tapmacanı da oxuyub cavabı üzərində fikirləşirlər.

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, hər birimiz nitqimizdə əsas mənaları ifadə edən sözlərlə yanaşı, konkret məna bildirməyən, dildə köməkçi vəzifə yerinə yetirən sözlərdən də istifadə edirik. Belə söz qrupları **köməkçi nitq hissələri** adlanır.

Azərbaycan dilində işlədilən **köməkçi nitq hissələri** aşağıdakılardır: qoşma, bağlayıcı, ədat, modal sözlər, nida.

Bilirsiniz ki, **köməkçi nitq hissələrinə** aid olan sözlər konkret məna ifadə etmədikləri üçün onlara sual vermək də olmur. Məsələn: və, üçün, lakin, axı, daha, qeyri, savayı, tərəf, sarı, sanki, vay, of, paho, həm də, yoxsa, di, yaxud və s.

**Köməkçi nitq hissələri** dildə müxtəlif vəzifələr yerinə yetirir: a) sözlərə qoşularaq müəyyən məna çaları yaradır; b) sözlər və cümləlləri bir-birinə bağlayır; c) sözlərin və cümlələrin təsir gücünü artırır; d) danışanın ifadə etdiyi fikrə münasibətini bildirir; e) hiss-həyəcan bildirir.

Müəllim köməkçi nitq hissələri barədə məlumatı şagirdlərin nəzərinə çatdırır. Şagirdlər köməkçi nitq hissələri haqqında ilkin məlumatlar almış olurlar. Bununla əlaqədar 7-ci çalışma şifahi yerinə yetirilir.

4.1.2. alt-standartına uyğun seçilmiş 3, 11, 17-ci çalışmalar şagirdlərin yazı vərdişlərini inkişaf etdirmək üçün nəzərdə tutulmuşdur. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydaları 4.1.3. alt-standartına uyğun seçilmiş 4, 9, 14-cü çalışmalarda yerinə yetirilir.

**Məlumat mübadiləsi:** Mübadilə çalışma 6-da verilmiş şərtə uyğun aparılır. Mətndə işlənmiş atalar sözü üzrə fikir yürüdülür.

**Nəticə:** Həqiqətən də, sağlamlıq insanın öz əlindədir. Təmiz havada çox olmaq, idman etmək, fiziki işlə məşğul olmaq, təmiz məhsullarla qidalanmaq sağlam həyat tərzi keçirməkdir. Bu, hər kəsin özündən asılıdır. Iradəli olmaq, çox da dava-dərmana aludə olmamaq lazımdır. Şair doğru demişdir: "Hər kim yüz il yaşamasa, günah onun özündədir". Azərbaycan uzunömürlülər diyarıdır. Bizim ecazkar təbiətimiz, zəngin təbii sərvətlərimiz, bol məhsulumuz insanların sağlam həyat keçirmələri üçün zəmindir. Bütün bunları qorumaq hər birimizin borcudur.

**Yaradıcı tətbiqetmə:** Çalışma 11-dəki şərtə uyğun aparılır.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq, yeni öyrənilmiş sözləri cümlələrdə işlətmək.

## Dinə bilmədi (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d. - 4.1.4. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçir, nümunələri mətnin hissələrinə uyğunlaşdırır. | 2.1.1.<br>2.1.4. | |
| 3 | Nitq hissələrinin qrammatik mənalarını izah edir, səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 4 | Müxtəlif əməli yazılar yazır. | 4.1.4. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qrupla və cütlərlə iş, fərdi iş.

**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab, rollar üzrə oxu.

**Resurslar:** Dərslik, internetə qoşulmuş kompüter.

**Motivasiya:** Müəllim şagirdlərə müraciət edir:

– Təsəvvür edin ki, sizə hansısa bir iş tapşırılıb. Sizin isə bu işi görməyə həvəsiniz yoxdur. Siz bu işi görməmək üçün kobud şəkildə etiraz edərsinizmi?

Şagirdlərin cavabları dinlənilir. Onların fikirləri düzgün səmtə istiqamətləndirilir.

**Tədqiqat sualı:** Bir işi görməmək üçün xəstələndiyinizi bəhanə gətirmək düzgündürmü? – Əgər sizə tapşırılan iş çox mühüm əhəmiyyət kəsb edirsə, başqaları üçün faydalı hesab olunursa, ondan imtina etmək olarmı?

**Tədqiqatın aparılması:** Tədqiqat "Dinə bilmədi" mətninin rollar üzrə

oxutdurulması ilə başlanır. Rol bölgüsü apararkən Cəfər, anası, Kərim rolları müəyyənləşdirilir. Mətnin həcmi kiçik olduğundan oxusunun rollarla aparılması məqsədəuyğundur. Mətn oxunduqdan sonra çətin sözlər izah edilir, “Sözlük”dəki sözlər cümlələrdə işlədilir.

Oxu prosesində səs tonu, temp və fasilə gözlənilir (3.1.2. alt-standartı; çalışma 2). 1.1.1. alt-standartına uyğun seçilmiş 1, 3-cü çalışmalar mətnin məzmununun mənimsədilməsinə xidmət edir.

Bu çalışmaları böyük qrup şəklində yerinə yetirən şagirdlər mətndəki əsas fikri və onun hissələri arasında əlaqələri müəyyənləşdirir, çalışmada verilmiş sualların mətnin məzmununu əks etdirmədiyini əsaslandırırlar.

2.1.1. alt-standartının tələblərinə əsasən 6, 7-ci çalışmalar üzərində iş aparılır. Bu, mətndə üzərində ulduz işarəsi qoyulmuş sözlərin, qoşasamitli sözlərin tələffüzü ilə bağlı qaydaların yada salınması üçündür. Bu çalışmaların şifahi şəkildə bütün siniflə yerinə yetirilməsi tövsiyə olunur.

8, 11-ci çalışmaların yerinə yetirilməsi 2.1.4. alt-standartının reallaşdırılması üçün nəzərdə tutulmuşdur. Bu çalışmalara əsasən, şagirdlər mətnin məzmununu danışarkən müvafiq nümunələr əlavə etməyə, həmçinin verilmiş atalar sözlərindən mətnin məzmunu ilə səsləşənləri müəyyənləşdirib uyğun məqamlarda istifadə etməyə səy göstərməlidirlər.

Şagirdlərin qrammatik biliklərini yoxlamaq, onların yazılı və şifahi nitq bacarıqlarını inkişaf etdirmək məqsədilə müəllim seçdiyi çalışmaları (3.1.1. alt-standartı) cütlərlə iş formasında həyata keçirir. Bunun üçün qrupdakı şagirdlərin sayına görə cütlüklər müəyyənləşdirilir və onlara müvafiq tapşırıqların icrası tapşırılır:

I cütlük: çalışma 4 (sözlərin quruluşunu təyin etmək);

II cütlük: çalışma 5 (zərflərin qrammatik xüsusiyyətlərini izah etmək);

III cütlük: çalışma 9 (sözün quruluşunun müəyyənləşdirilməsi və yazılışı ilə bağlı qaydanın izah edilməsi);

IV cütlük: çalışma 10 (eyniköklü sözlərin düzəldilməsi);

V cütlük: çalışma 12 (isimlərdən hansının yönlük, hansının isə adlıq halda olduğunu müəyyənləşdirmək);

VI cütlük: çalışma 15 (tapmacalarda işlənmiş əsas nitq hissələrini seçib qruplaşdırmaq)

Cütlərlə aparılan işin nəticəsi yoxlanılır, şagirdlərin cavabları dinlənilir, fəaliyyətləri qiymətləndirilir. Qeyd etmək lazımdır ki, qrupda şagirdlərin sayı çox olarsa, eyni çalışmalar bir neçə cütlüyə verilə bilər.

“Bunları bilirsinizmi?” rubrikasında verilmiş məlumat qoşma haqqında zəruri anlayışların şagirdlərə çatdırılması üçün nəzərdə tutulmuşdur. Bu qram-

matik məlumatı möhkəmləndirmək məqsədilə 13, 14-cü çalışmaların yerinə yetirilməsi zəruridir. Bu tapşırıqlara əsasən, şagirdlər mətndəki qoşmaların yerinə yetirdiyi vəzifələri müəyyənləşdirməli və "Köməkçi"də verilmiş qoşmalardan uyğun gələnini artırmaqla cümlələri tamamlamalıdırlar.

### BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, dilimizdə köməkçi vəzifə yerinə yetirən sözlərin bir qrupu **qoşma** adlanır. Qoşmalar ismin **adlıq, yiyəlik, yönlük, çıxışlıq** halında işlənən sözlərə qoşularaq onlarda müəyyən məna çaları yaradan sözlərdir: çətir **kimi,** quş**tək,** sənin **üçün,** meşəyə **tərəf,** məktəbə **qədər,** evə**dək**, dünəndən **bəri,** Cəfərdən **başqa** və s.

Məsələn: "Dərsdən **sonra** Adil Vəlinin nənəsigilə getdi" cümləsində işlənən "sonra" qoşması qoşulduğu sözə (dərsdən) **zaman,** "Uşağı lap dibçəkdəki gül kimi saxlayırsınız" cümləsindəki **"kimi"** qoşması isə qoşulduğu sözə (gül) **bənzətmə** çaları vermişdir.

Azərbaycan dilində ən çox işlənən qoşmalar aşağıdakılardır: üçün, ilə (-la, -lə), qədər, kimi, tək, haqqında, barəsində, üzrə, tərəf, sarı, doğru, -dək, -can, görə, dair, aid, qarşı, əvvəl, sonra, qabaq, bəri, başqa, savayı, ayrı, qeyri, ötrü

Şagirdlər 4.1.1. alt-standartının tələbinə uyğun olaraq 15-ci çalışmanı yerinə yetirirlər. Çalışmadakı tapmacaların cavablarını tapan şagirdlər cavablarda ifadə olunan əşyaları təsvir etməlidirlər.

**Məlumat mübadiləsi:** Mətnin mövzusu əsasında şagirdlər fikir mübadiləsi aparırlar. Tənbəlliyin pis əlamət olduğunu, tapşırılan işi yerinə yetirməmək üçün yalandan xəstələndiyini bəhanə edən Kərimin hərəkətini müzakirə edirlər.

**Nəticə:** Şagirdlər Kərimin hərəkətini müzakirə edərək belə nəticəyə gəlirlər ki, yalan danışmaq insanın özünə ziyan gətirir. "Yalan ayaq tutar yeriməz", "Yalanın ömrü az olar", – demiş aqil babalarımız. Həqiqətən də, Kərim öz yalanının nəticəsində pis vəziyyətdə qaldı. Yəqin ki, əgər Kərim bir də yalan söyləsə, hətta anası belə ona inanmayacaqdır. Çünki demişlər ki, "Yalançının evi yandı, heç kəs inanmadı". Ən nəcib hərəkət hansı məqamda olursa-olsun, yalan söyləməmək, doğrunu demək, hər zəhmətə qatlaşmaq və doğmalarının yanında olub, onlara kömək etməkdir. Biz bunu Kərimin qardaşı Cəfərin hərəkətlərində müşahidə etdik. Ona görə də gəzməyə, əyləncəyə getmək üçün anası Cəfəri seçdi. Çünki: "Yaxşılıq elə, əvəzini görərsən", – demişlər.

**Yaradıcı tətbiqetmə:** Bu mətndəki hadisəyə bənzər şahidi olduğunuz bir əhvalatı qələmə almaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu plan əsasında danışmaq.

## Saat (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndəki əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d. -4.1.2.; 4.1.4. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir, müzakirədə deyilən fikirlərə münasibət bildirməyi bacarır. | 2.1.1.<br>2.1.3. | |
| 3 | Sözləri qrammatik mənalarına görə izah edir, mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.1.<br>3.1.3. | |
| 4 | Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük qrupla iş, cütlərlə iş.
**Dərsin üsulu:** Əqli hücum, sual-cavab.
**Resurslar:** Dərslik, saat, lövhə.
**Motivasiya:** Müəllim lövhəyə bu aforizmi yazır:
Səhər itirəcəyin bir saatın zərərini bütün gün çəkərsən. *(Cəvahirləl Nehru)*
O, şagirdlərə sualla müraciət edir:
– Bu aforizmin mənasını necə izah etmək olar?
Şagirdlər müxtəlif fikirlər söyləyirlər.

**Tədqiqat sualı:** Bəs sizin üçün itirilmiş saat nə deməkdir? Siz gününüzün hansı hissəsini itirilmiş saat hesab edirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat səs tonu və tempi gözləməklə şagirdlər tərəfindən şeirin oxusundan başlanır (3.1.2. alt-standartı). Sözlükdəki yeni sözlərin mənası izah edilir, həmin sözlər cümlələrdə işlədilir. Sonra böyük qrupla 1, 3, 6-cı çalışmalar əsasında mətnin məzmununun mənimsədilməsi üzrə işə keçilir (1.1.2. alt-standartı). Şagirdlər şeirdən çıxan nəticə barədə fikirlərini yoldaşları ilə bölüşür, vaxtın hədər getməməsi üçün şairin onlara tövsiyəsinin nədən ibarət olduğunu öz sözləri ilə izah edir, tapşırıqda verilmiş misraları şeirin məzmunu əsasında tamamlayır və şeirdəki ardıcıllıq üzrə sıralayırlar. Mövzu üzrə şagirdlərin sərbəst fikir yürütmək bacarığını inkişaf etdirmək məqsədilə (2.1.3. alt-standartı) şeirin məzmunundan çıxan nəticə əsasında 4, 5-ci çalışmaların yerinə yetirilməsi də tövsiyə olunur.

Dinlədikləri mətndə əsas fakt və hadisələri qruplaşdırmaq məqsədilə 1.1.2. alt-standartına uyğun çalışma 17-nin icrasına keçmək olar. Şagirdlər mövzu ilə bağlı yeni faktları yoldaşları ilə bölüşürlər. Orfoepiya qaydalarını təkrar etmək,

şagirdlərin düzgün tələffüzlə bağlı nitq vərdişlərini inkişaf etdirmək məqsədilə 9-cu çalışma (2.1.1. alt-standartı) yerinə yetirilir.

Sonra müəllim cütlərlə işi təşkil edə bilər. Bunu etməzdən əvvəl şagirdlər qoşmaların məna çalarları ilə tanış olur, dərslikdəki qrammatik məlumata əsasən çalışmaların icrasına keçirlər. 8 cütlük təşkil edilir. Hər cütlüyə 1 çalışmanın icrası tapşırılır. Seçilmiş çalışmalar bunlardır: 7, 8, 11, 12, 13 (2 hissəlidir), 15, 16 (3.1.1. alt-standartının reallaşdırılması üçün). Cütlüklərə ayrılmış vaxt bitdikdən sonra tapşırıqlar yoxlanılır, düzgün cavablar qiymətləndirilir. Çalışma 10 (4.1.1. alt-standartı üzrə) "işlə" sözündəki "-lə" ünsürünün vurğu dəyişərkən funksiyasını dəyişməsinə həsr edilmişdir. Bu çalışmanı işlərkən şagirdlər düzgün cavabı seçərək mülahizələrini bildirirlər.

**Məlumat mübadiləsi** çalışma 14 (4.1.1. alt-standartı) üzərində aparılır. Şagirdlər zamanın qədrini bilmək üçün saat haqqındakı tapmacaları cavablandırırlar.

**Nəticə:** "Zaman ən gözəl dərmandır", "Zaman hər şeyi həll edər", – demiş ulu babalarımız. Gəlin, qızıldan da qiymətli sayılan zamanımızın dəyərini, qədrini bilək. Həqiqətən də, itirilmiş saatlarımızı heç nə ilə geri qaytara bilmirik, onu itirsək, çox şeyi əldən vermiş olarıq. Elə yaşayaq ki, hər dəqiqəmiz bizə faydalı olsun. Həyatın hər anı qiymətlidir. Hər dəqiqə hardasa bir mühüm hadisə baş verir, həmin hadisə əlamətdar olur. Məktəb illərinin hər gününün qədrini bilməliyik. Çünki məktəbdə keçirdiyimiz hər dəqiqənin ömrümüz üçün faydası əvəzsizdir. Axı gələcək həyatımızın təməli məktəb skamyası arxasında keçirdiyimiz günlərdən qurulur. Bu təməl möhkəm qurulsa, həyatımız da mənalı olar.

## BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində işlənən qoşmalar qoşulduğu sözlərdə, əsasən, aşağıdakı **məna çalarlarını** yaradır:

1) **birgəlik**, vasitə (ilə, -la,- lə) – araba ilə, qələmlə, atamla, səninlə;
2) **zaman** (əvvəl, sonra, qabaq, bəri) – hücumdan sonra, dərsdən əvvəl;
3) **məsafə** (kimi, qədər, -dək, -can) – sahiləcən, şəhərə qədər, məktəbə kimi ...
4) **istiqamət** ( tərəf, doğru, sarı, qarşı) –düşmənə qarşı, kluba doğru, evə sarı;
5) **bənzətmə** (kimi, qədər, tək) – gül kimi, sənin qədər, qultək, buz kimi;
6) **fərqləndirmə** (başqa, savayı, qeyri, özgə, ayrı) – bacımdan savayı, vətəndən ayrı, anamdan özgə, Süsəndən başqa;
7) **səbəb-məqsəd**, **aidlik** (üçün, ötrü, görə) – gecikdiyimə görə, dostumdan ötrü, vətənə dönmək üçün, bacım üçün, ağladığım üçün və s.

**Yaradıcı tətbiqetmə:** Vaxt, zaman haqqında aforizmlər seçib yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeirin bir hissəsini əzbərləmək.

# Ağa Musa Nağıyev (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə əsas fakt və hadisələri seçməyi bacarır. | 1.1.2. | R.d.- 4.1.4.<br>Az.t.-3.1.2. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçərək sözləri düzgün tələffüz edir, müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.1.<br>2.1.4. | |
| 3 | Mətndəki nitq hissələrini qrammatik mənasına görə izah edir, cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirməyi bacarır. | 3.1.1.<br>3.1.3. | |
| 4 | Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırmağı bacarır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Əqli hücum, müzakirə, BİBÖ, təqdimat.

**Resurslar:** Dərslik, proyektor, kompüter.

**Motivasiya:** Müəllim proyektoru işə salır. İnternetin köməyi ilə (google.az.M.Nağıyevin tikdirdiyi binalar) Musa Nağıyevin şəhərimizdə tikdiriyi binaların görüntüləri (İsmailiyyə binası, M.Nağıyev adına xəstəxana...) canlandırılır.

Sonra sinfə sualla müraciət edilir:

– Bakını bəzəyən bu binaların kim tərəfindən tikdirildiyini bilirsinizmi?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər. Bəzi milyonçuların da adları çəkilir. Müəllim onları istiqamətləndirir.

**Tədqiqat sualı:** XX əsrin əvvəllərində neft hesabına varlanan milyonçulardan hansı şəhərimizdə yüzə qədər bina tikdirib? Bu milyonçu haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslik üzərində işlə başlanır. Müəllim "Ağa Musa Nağıyev" mətnini şagirdlərə oxutdurur. "Sözlük" və "Söz ehtiyatı"nda çətin söz və ifadələrin mənası izah edilir, bəzi sözlər cümlələrdə işlədilir. Sonra mətnin məzmununun mənimsədilməsi üzərində iş başlanır. Bu məqsədlə müəllim şagirdləri 3 qrupa bölür. 1.1.2., 3.1.3., 4.1.1. alt-standartının reallaşdırılması üçün şagirdlərə 1, 2, 3, 4-cü çalışmaların icrası tapşırılır. Hər qrupa 2 tapşırıq verilir. I qrupun tapşırıqları: çalışma – 1 (mətnə dair suallar tərtib etmək), çalışma – 2 (kursivlə verilmiş ifadənin mənasını izah etmək);

II qrupun tapşırıqları: çalışma – 1 (mətnə dair ən azı beş sual tərtib etmək), çalışma – 3 ("yandırmaq" sözünün qrammatik formalarının müəyyənləşdiril-

məsi);

III qrupun tapşırığı: çalışma – 1 (mətnə dair 5 sual tərtib etmək), çalışma – 4 (cümlənin mətndə yerləşdirilməsi).

Qruplar üçün müəyyən vaxt təyin edilir. Vaxt bitdikdə qrupların işləri yoxlanılır, fəaliyyətləri qiymətləndirilir. Müəllim böyük qrupla işə keçir:

1.1.2. alt-standartının reallaşdırılması üçün çalışma 7; 2.1.4. alt-standartının reallaşdırılması üçün çalışma 5, 8, 14, 15, 18 seçilir. 5-ci çalışmanın icrasında BİBÖ üsulundan, 18-ci çalışmada (lətifənin oxusu zamanı) rollarla oxu üsulundan istifadə edilməsi məsləhətdir.

Şagirdlərin rabitəli yazı vərdişlərinə yiyələndiklərini nümayiş etdirmələri, ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz etmələri üçün müəllim cütlərlə iş üsulundan istifadə edərək 5-ci çalışmanın II, III hissələri, 13, 16, 17, 18-ci çalışmanın II hissəsi də daxil olmaqla 2.1.1., 3.1.1. alt-standartlarının reallaşdırılmasına keçir.

4.1.1. alt-standartının reallaşdırılması üçün 10, 19-cu çalışmaların icrası (mətndə altından xətt çəkilmiş sözlərin sinonim qarşılıqlarının tapılması, verilmiş atalar sözlərindən mətnin məzmununa uyğun olanının seçilməsi) nəzərdə tutulmuşdur.

Şagirdlərin tərcümə bacarığını inkişaf etdirmək məqsədilə 9-cu çalışmanın yazılı şəkildə yerinə yetirilməsi məqsədəuyğundur. Bu mətni tərcümə edərkən şagirdlər M.Nağıyevin qənaətcilliyi barədə daha bir faktla tanış olurlar.

**Məlumat mübadiləsi** çalışma 6 əsasında aparılır. Şagirdlər "M.Nağıyevi xeyriyyəçi hesab etmək olarmı?" fikrini müzakirə edib, debata qoşulurlar.

**Nəticə:** Şagirdlər M.Nağıyev haqqında oxuduqlarından belə nəticəyə gəlirlər ki, milyonlarının çox olmaslna baxmayaraq, M.Nağıyev çox qənaətcil olmuşdur. Bu isə hər işdə özünü göstərirdi. Amma buna baxmayaraq, M.Nağıyev xeyriyyə məqsədilə də binalar tikdirmiş, Bakı su kəməri üçün xeyli pul vermişdir. Müəllim əlavə edə bilər ki, Nağıyev birinci realnı məktəbin hamiliyini boynuna almışdı, ildə hazırlıq sinfinə 25 müsəlman uşağını əlavə qəbul etdirməyə nail olmuşdu. Bunun nəticəsində az bir zamanda məktəbdə müsəlman şagirdlərinin sayı 50%-ə çatmışdı. Xeyriyyəçilik xalqımıza məxsus olan ən yaxşı insani keyfiyyətlərdən biridir.

**Yaradıcı tətbiqetmə:** Ağa Musa Nağıyev haqqında əlavə məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Xeyriyyəçi Hacı ZeynalabdinTağıyev (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d.- 4.1.4.<br>Az.t.-3.1.2. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə etməyi bacarır. | 2.1.4. | |
| 3 | Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir, cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirməyi bacarır. | 3.1.1.<br>3.1.3. | |
| 4 | Nitq hissələri ilə bağlı yazılış və dürğü işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik  qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, təqdimat, müzakirə, şaxələnmə, BİBÖ.
**Resurslar:** Proyektor, kompüter, iş vərəqləri.

**Motivasiya:** Müəllim internetdən istifadə edərək (google.az.m.wikipedia.org) H.Z.Tağıyevin şəklini, onun haqqında məlumatı elektron lövhədə işıqlandırır və şagirdlərə müraciət edir:

– Bu şəxsiyyət barədə nə bilirsiniz?

VI sinifdə “Tağıyev necə milyonçu oldu” mətni keçildiyindən şagirdlər asanlıqla cavab verirlər. Müəllim çalışmalıdır ki, şagirdlər nitqlərində tez-tez xeyriyyəçilik sözünü işlətsinlər.

**Tədqiqat sualı:** Tağıyevin xeyriyyəçilik fəaliyyətini yadınıza salıb bu klasteri davam etdirə bilərsinizmi?

Müəllim lövhədə dairənin içərisində “xeyriyyəçi” sözünü yazır. Şagirdlər bu sözlə bağlı düşündüklərini ətraflara qeyd edirlər.




Şagirdlərin fikirləri qeyd olunduqdan sonra tədqiqata başlanır.

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki “Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev” mətninin oxusu ilə başlanır. VI sinifdən mövzu ilə bağlı şagirdlərin müəyyən məlumatı olduğundan müəllim oxu zamanı BİBÖ üsulundan istifadə edir.

Sonra yeni mətnin mənimsədilməsi üzərində iş aparılır. Bu məqsədlə dərslikdə 1.1.2. alt-standartına uyğun olaraq 1, 2, 3-cü çalışmalar seçilmişdir. Ona görə də müəllim şagirdləri 3 qrupa bölür. Hərəsinə bu çalışmalardan birinin icrası tapşırılır. Bu zaman şagirdlər oxuduqları mətnin nəticəsini, mətnə dair tərtib edilmiş sualların uyğunluğunu, mətnə aid faktların necə qruplaşdırılmasını təhılil edirlər.

Şagirdlərin qrammatikaya dair biliklərini yoxlamaq və möhkəmləndirmək məqsədilə (3.1.1. alt-standartı) qruplar yenidən formalaşdırılır və hər qrupa 4, 5, 7 (əlavə tapşırıq) və 11-ci çalışmalardan birinin icrası tapşırılır:

I qrup: çalışma 4;

II qrup: çalışma 5;

III qrup: çalışma 11;

IV qrup: çalışma 7(əlavə tapşırıq).

Bu çalışmaları icra edərkən şagirdlər mətndə “məktəb” sözünün ismin hansı hallarında işləndiyini müəyyənləşdirir və sözü digər hallarda da işlədir; qoşmaları mənaca növlərinə görə qruplaşdırır; mətnin axırıncı cümləsində işlənən zərfi tapıb səsləndirir və onunla eyni yolla düzələn sözlər tapıb deyir; çalışmanın mətnində ismin mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri tapıb hansı şəxsdə olduğunu söyləyirlər ki, bütün bunlar qrammatik biliklərin praktik yolla mənimsədilməsinə geniş imkanlar yaradır.

Qrupların işi yoxlandıqdan sonra müəllim müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə etmələri üçün (2.1.4. alt-standartının reallaşdırılması) şagirdlərə 7, 8, 16-cı çalışmanın icrasını təklif edir. Bu çalışmanın icrasını sinifdəki bütün şagirdlərin iştirakı ilə həyata keçirmək daha yaxşı nəticə verir.

Seçilmiş 3.1.3. alt-standartının reallaşdırılması dərslikdəki 9-cu çalışmanın icrası ilə həyata keçirilir. Çalışmanın icrası şagirdlərdən mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək üzərində qurulur.

Yazılı nitq bacarıqlarını inkişaf etdirmək məqsədilə şagirdlər sualların qrammatik normalar baxımından düzgün tərtibi və cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə (4.1.3. alt-standartı) üzərində işləyirlər (çalışma 6). Tərtib edilmiş cümlələr, eyni zamanda, mətn üzrə faktların dəqiqləşdirilməsini, həmçinin sual əvəzliklərindən məqamında istifadə bacarığının nümayiş etdirilməsini də nəzərdə tutur.

**Məlumat mübadiləsi** çalışma 8 üzərində aparılır. Şagirdlər oxuduqları mətndə və çalışmalardakı faktlar üzərində fikir mübadiləsi aparır, debata qoşulurlar.

**Nəticə:** Şagirdlər əldə etdikləri faktlar əsasında H.Z.Tağıyevin xeyriyyəçilik fəaliyyətinin istiqamətləri ilə tanış olur, onun “Millət atası” adlandırılmasının səbəbini anlayırlar.

H.Z.Tağıyevin yaşadığı dövrdə xeyriyyəçiliklə məşğul olan digər milyon-

çular da olub. Ancaq məhz o, xeyirxah əməlləri, xalqa xidməti ilə daha çox seçilib, yadda qalıb ki, bu da təsadüfi deyil.

Biz fəxr edirik ki, tariximizdə H.Z.Tağıyev kimi, öz fəaliyyəti, əməlləri ilə iz qoymuş xeyriyyəçilərimiz olub. Onların həyat yolu əsl nümunədir. Belə insanlar milyonlara sahib olsa da, yalnız özünü düşünməmiş, xalqı, milləti üçün faydalı işlər görmüş, ona yararlı olmağa çalışmışlar. Hər birimiz Tağıyev kimi insanlardan özümüzə nümunə götürməyi bacarmalıyıq. Axı xeyirxah əməllər sahibi olan insanın cəmiyyətdə həmişə hörməti olur. Başqasına əl tutmaq, kömək etmək insanı mənəvi cəhətdən zənginləşdirir, vicdanına rahatlıq gətirir, onu saflaşdırır, başıuca edir. Bu ucalığa, bu saflığa nail olmaq isə hər kəsə müyəssər olmur.

Çalışaq ki, belə insanlardan biri olaq.

**Yaradıcı tətbiqetmə:** Şagirdlər Tağıyevin tərcümeyi-halının mühüm məqamları ilə bağlı (çalışma 10) təqdimat hazırlayırlar.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Sizinlə işləyəcəm... (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d.- 4.1.4. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki sözləri qrammatik mənalarına görə izah edir, səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur, mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.1.<br>3.1.2.<br>3.1.3. | |
| 4 | Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qrupla iş.

**Dərsin üsulu:** Əqli hücum, suall-cavab.

**Resurslar:** Dərslik.

**Motivasiya:** Müəllim sinfə daxil olur. Şagirdlərə “Cırcırama və qarışqa” təmsilini xatırladır. Şagirdlər təmsili dinləyirlər.

**Tədqiqat sualı:** Sizcə, cırcıramanın pis vəziyyətə düşməsinə səbəb nə olmuşdu? Bəs insanlar çətin vəziyyətə düşərlərsə, necə hərəkət etməlidirlər?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki “Sizinlə işləyəcəyəm” mətninin rollar üzrə səs tonu, temp və fasiləni gözləməklə oxusundan başlanır (3.1.2. alt-standartı). Mətnin hissələrini müəyyənləşdirmək, 1.1.1. alt-standartını reallaşdırmaq məqsədilə 2-ci çalışma üzərində iş aparılır. Mətnin hər hansı bir hissəsində cümlələr arasında əlaqənin olmadığını tapmaq üçün 3.1.3. alt-standartına uyğun seçilmiş 3-cü çalışmaya müraciət etmək olar.

Sonra 3.1.1. alt-standartının reallaşdırılması üzrə işə keçilir. Bu məqsədlə 4, 5, 6, 7, 8, 9, 10, 12, 13-cü (II hissəsi) çalışmaların icrasına başlanılır. Həmin çalışmaların icrası zamanı şagirdlər əsas və köməkçi nitq hissələrinin qrammatik mənalarını izah edirlər. Yaxşı olardı ki, müəllim bu çalışmaların icrasını cütlərlə iş formasında təşkil etsin.

Şagirdlərin lüğət ehtiyatlarını zənginləşdirmək, rabitəli nitqlərini inkişaf etdirmək, sərbəst danışmaq qabiliyyətlərini möhkəmləndirmək məqsədilə 11, 13-cü çalışmalar (2.1.4. alt-standartına uyğundur) seçilir.

Dərsin II hissəsində müəllim şagirdlərlə Molla Nəsrəddinlə bağlı “Verərsən özümə” lətifəsinin oxusunu təşkil edir. Oxunu rollar üzrə aparmaq olar. Lətifədəki sözlərin mənası izah edilir. Şagirdlər lətifəni oxuyub onun məzmununa uyğun fikirlərini əsaslandırırlar (4.1.1. alt-standartı), lətifədə altından xətt çəkilmiş feillərin qrammatik mənalarını izah edir, inkarda işlənmiş feilləri tapırlar.

**Çalışma.** Səs tonu, temp və fasiləni gözləməklə lətifəni rollar üzrə oxuyun. Sonra lətifədə altından xətt çəkilmiş feillərin qrammatik mənasını izah edin, hər birinin növünü və şəxsini göstərin.

### Verərsən özümə

Molla eşşəyini bazarda satdıqdan sonra özü kəndə piyada qayıtmalı olur. Bir tərəfdən yol uzaq, bir tərəfdən də qaranlıq düşür, yazıq bilmir nə eləsin. Bir də baxır ki, kəndxuda atını karvansaradan çıxarıb minir ki, kəndə getsin. Tez əbasını göstərib deyir:

– Ağa kəndxuda, mənim bu əbamı da al tərkinə, apar kəndə, nə olar?

Kəndxuda soruşur:

– Yaxşı, özün niyə getmirsən?

Molla deyir:

– Mən piyadayam.

Kəndxuda soruşur:

– Yaxşı, apardım, kənddə kimə verim?

Molla deyir:

– Heç kimə vermək lazım deyil. Elə özü düşüb gedər.

Kəndxuda deyir:

– Məni dolama, ay Molla! Heç əba da öz-özünə gedə bilir?

Molla deyir:

– Öz-özünə getməyəcək ki... Mən özüm də əbanın içində, sənin tərkində olacağam da... Kömək elərəm düşər, gedərik.

Lətifədə inkarda işlənmiş feilləri tapıb göstərin.

**Məlumat mübadiləsi:** Şagirdlər tacirlə oğlanın arasındakı dialoqa əsasən onların münasibətlərini müzakirə edirlər. Hekayədə işlənən əsas və köməkçi nitq hissələri barədə fikir mübadiləsi aparırlar.

**Nəticə:** Şagirdlər mətni oxuyub belə nəticəyə gəlirlər ki, insan işdən, zəhmətdən qorxmamalıdır. Hər hansı bir situasiyada öz əlinin zəhməti sayəsində çörək pulu qazanmaq mümkündür. İnsanın həyat yolu heç də həmişə hamar olmur, bir sıra çətinliklərdən keçir. Bəzən insan bir anda hər şeyini itirə bilər. Ancaq o, heç vaxt ruhdan düşməməli, istənilən məqamda özünə çıxış yolu tapmağı bacarmalıdır. Elə oxuduğumuz hekayənin qəhrəmanı kimi.

**Yaradıcı tətbiqetmə:** Hekayənin mövzusuna dair atalar sözləri yazmaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Sərv ağacı (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətndəki əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d. - 4.1.4. |
| 2 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |
| 4 | Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kiçik qruplar və cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** Dərslik, disk, kompüter.

**Motivasiya:** Müəllim aktyorun ifasında M.Ə.Sabirin "Ağacların bəhsi" şeirini səsləndirir. Müəllim diski əldə edə bilməsə, özü şeiri ifadəli oxuya bilər. Sonra müəllim sinfə belə bir sualla müraciət edir:

– Şeirdə nədən bəhs edilir? Ağaclar nə üçün bir-biri ilə mübahisə edirlər?

Şagirdlərin cavabları dinlənilir.

**Tədqiqat sualı:** "Ağac bar verdikcə, başını aşağı əyər" atalar sözünün mənasını necə başa düşürsünüz? Bu atalar sözündən hansı məqamlarda istifadə olunur?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Sərv ağacı" mətninin şagirdlərə oxutdurulması ilə başlanır. Mətndəki situasiyanın düzgün qavranılması və sözlük üzərində iş aparılır.

Sonra müəllim şagirdləri qruplara bölür və hər qrup mətnin məzmunu ilə bağlı suallar tərtib edir. Suallar tərtib edilərkən əsas fakt və hadisələr qruplaşdırılır (1.1.2. alt-standartı). 15-ci çalışma da eyni standarta aid olduğundan abzaslar qruplar arasında bölüşdürülərək şagirdlər tərəfindən yerinə yetirilir.

Sonra 3-cü çalışma cütlərə tapşırırlır. Cütlər verilmiş plan əsasında mətni danışa bilərlər. Şagirdlər planda hər hansı bir dəyişiklik edə bilərlər. Cütlərin cavabları, əsaslandırmaları diqqətlə dinlənilir və lazım gələrsə, digər cütlüklərin variantları üzərində fikir mübadiləsi aparılır. 2.1.4. alt-standartının reallaşdırılması məqsədilə 7-ci çalışmanın icrası üzərində iş aparılır. Cütlər verilmiş atalar sözlərini əvvəlcə tərcümə edir, daha sonra onların içərisindən mətnin məzmunu ilə səsləşəni tapıb səsləndirirlər.

Şagirdlər 4, 9-cu çalışmaları yerinə yetirərkən 3.1.3. alt-standartını reallaşdırırlar. Cütlər verilmiş bəndləri mətnin hissələri ilə əlaqələndirir və fikirlərini əsaslandırırlar. Sonra müəllim yenə qruplarla işə keçərək hər qrupa 5, 6, 12-ci çalışmalardan birini yerinə yetirməyi tapşırır. Bu çalışmalar vasitəsilə 4.1.3. alt-standartı reallaşdırılır, şagirdlər nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edərək fikirlərini əsaslandırırlar.

Müəllim "Bunları bilirsinizmi?" rubrikasında qoşmanın yazılış qaydası ilə bağlı verilmiş məlumatı izah edərək şagirdlərə oxutdurur və bu mövzuda biliklərini möhkəmləndirmək məqsədilə 8-ci çalışmanı yerinə yetirməyi tapşırır. Çalışmada qoyulan tapşırıqlar şagirdlərin fikirlərini əlavə fakt və hadisələrlə əsaslandırmalarına, sinonim qoşmalar hesabına lüğət ehtiyatlarının genişlənməsinə, həmçinin nitqlərində vurğudan düzgün istifadə üzrə bacarıqların inkişafına şərait yaradır.

### BUNLARI BİLİRSİNİZMİ?

**Qoşmalar iki cür yazılır:** 1) birhecalı qoşmalar (-can, -cən, -dək, -tək) aid olduqları sözə bitişik yazılır: küçəyədək, axşamacan, səhərəcən, gültək;

2) ikihecalı qoşmalar (tərəf, kimi, qədər, bəri, ötrü, üçün, ilə, və s.) aid olduqları sözdən ayrı yazılır: anam üçün, ceyran kimi, dünəndən bəri, qılınc təki və s.

**Qeyd:** İlə qoşması samitlə bitən sözlərdə ahəng qanununa uyğun olaraq -la, -lə şəklində sözə bitişik yazıla bilər: anamla, qələmlə, ağacla ...

11, 14-cü çalışmalar şagirdlərin lüğət ehtiyatlarının zənginləşməsinə kömək edir.

Qrupların cavabları qiymətləndirilir.

**Məlumat mübadiləsi:** Qruplar yerinə yetirdikləri çalışmalar əsasında mövzunu müzakirə edirlər. Fikir mübadiləsi onlarda insanda olan lovğalıq,

təkəbbürlülük kimi mənfi xüsusiyyətlərə qarşı münasibətlərin formalaşmasına kömək edir.

Tədqiqat sualında verilmiş atalar sözünə cavab tapan şagirdlər fikirlərini əsaslandırmağı bacarırlar.

**Nəticə:** İnsan öz yaxşı əməlləri ilə ətrafına dost toplaya bilər. Sadəlik insana başucalığı gətirər. Həyatda "mənəm-mənəm"liyin axırı həmişə pis nəticələnir. Mətndəki hadisənin baş vermə səbəbi üzərində aparılan müzakirələr nəticəsində şagirdlərə aydın olur ki, başqasına yardım əli uzadan insan həm onu ucaldar, həm də özü ucalar.

**Yaradıcı tətbiqetmə:** Mətndəki hadisəyə bənzər hər hansı hadisə ilə qarşılaşmısınızmı? Gördüklərinizi öz sözlərinizlə təsvir edin.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Ayların düzümü (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətndəki əsas fakt və hadisələri müəyyənləşdirir. | 1.1.2. | R.d. - 4.1.2.<br>Az.t.-1.1.1. |
| 2 | Deyilən fikirlərə münasibət bildirir. | 2.1.3. | |
| 3 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4 | Cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |
| 5 | Müxtəlif əməli yazılar yazır. | 4.1.4. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kiçik qruplarla, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, səs assosiasiyası.

**Resurslar:** Proyektor, elektron lövhə, dərslik, cizgi filmi.

**Motivasiya:** Müəllim elektron lövhədə "Qardaş aylar" cizgi filmini nümayiş etdirir.

Filmə baxışdan sonra sinfə belə sual verir:

– Cizgi filmində gördüklərinizi Azərbaycan dilində danışa bilərsinizmi? Şagirdlər film haqqında danışırlar. Müəllim şagirdlərin nitqində yol verilmiş qüsurları düzəldir.

**Tədqiqat sualı:** Necə bilirsiniz, içərisində yaşadığımız, ömrümüzdən keçib gedən aylar bir-birindən nə ilə seçilir? Bu aylar hər birimizin həyatında nə ilə yadda qalır, əbədiləşir?

**Tədqiqatın aparılması:** Tədqiqat sualı şagirdləri maraqlandırdığına görə müəllim sual ətrafında tədqiqat aparmağı təklif edir. "Ayların düzümü" şeiri oxunur, məzmunu üzərində iş aparılır, şeirin sözlüyü nəzərdən keçirilir.

Sonra çalışmalar üzrə işə başlanır. Şagirdlər qruplara bölünür. Qruplar fəsillərin adı ilə adlandırılır. Hər qrup fəsillər haqqında təqdimat hazırlayır. Müəllim təqdimatları dinləyir və qiymətləndirmə aparır. Sonra şagirdlər 3-cü çalışmanın şərtinə görə fəsil adlarından assosiasiya yaradan sözlər söyləyirlər. 4-cü çalışmanın şərtinə əsasən, şagirdlər cütlərlə bölünərək seçdikləri ayın xüsusiyyətləri haqqında düşünür, həmin ayı yazılı şəkildə səciyyələndirirlər. Bu zaman onlar cümlələr və abzasların düzgün əlaqələnməsinə diqqət yetirirlər.

Müəllim şeirdə işlənmiş müxtəlif nitq hissələrinə aid nümunələrin mənasını izah etmək məqsədilə qruplara 6, 11-ci çalışmaları yerinə yetirməyi tapşırır.

7-ci çalışma şagirdlərin fikirlərini əsaslandırma bacarıqlarını inkişaf etdirməklə yanaşı, həm də onların lüğət ehtiyatlarının genişləndirilməsində əhəmiyyətə malikdir.

Qruplar 8-ci çalışmada verilmiş "Martsa gələr əldə çiçək" misrasına öz münasibətlərini bildirirlər, fikirlərini müvafiq nümunələrdən istifadə etməklə izah edirlər. (2.1.3. alt-standartı). Ayların insan həyatında buraxdığı izlər, aylarda hansı tarixi hadisələrin baş verdiyi və bu hadisələrin ömrümüzün səhifələrinə necə yazıldığına diqqət yönəltmək məqsədilə 9-cu çalışmada verilmiş mətn şagirdlərə oxutdurulur, çətin sözlər tərcümə olunur və sayların yazılışındakı səhvlər üzərində iş aparılır. Bu zaman yazılış və durğu işarələri qaydalarına əməl edilir (4.1.3. alt-standartı).

10-cu çalışmada verilmiş tapmacanın hissələrinin uyğun yerləşdirilməsi şagirdlərin məntiqi təfəkkürünün inkişafı və mətnin hissələri arasındakı əlaqələrin müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Bu çalışma "cütlərlə iş" formasında yerinə yetirilə bilər.

Şagirdlər mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirməklə (3.1.3. alt-standartı) aylarda keçirilən bayramlar, tarixi günlər haqqında fikir mübadiləsi aparır və bununla da 13-cü çalışmanı yerinə yetirirlər. Bu çalışma da cütlər tərəfindən yerinə yetirilir.

"Bunları bilirsinizmi?" rubrikasında verilmiş məlumat şagirdlərin əməli yazı bacarıqlarının inkişaf etdirilməsi üçün nəzərdə tutulmuşdur (4.1.4. alt-standartı). Şagirdlər cədvəldəki "Tərcümeyi-hal"ın yazılma ardıcıllığını diqqətlə nəzərdən keçirir və müəllimin təqdim etdiyi tərcümeyi-hal nümunəsi ilə tanış olurlar.

## BUNLARI BİLİRSİNİZMİ?

Tərcümeyi-hal yazarkən aşağıdakı ardıcıllığa əməl etmək lazımdır:

1) Başlıq:Tərcümeyi-hal ; 2) Adınız, soyadınız və atanızın adı; 3) Doğulduğunuz il, ay, gün; 4) Məktəbə qədər olan dövr; 5) Məktəb dövrü; 6) Məktəbdəki fəaliyyətiniz və apardığınız ictimai vəzifə; 7) Ailə üzvləri haqqında qısa məlumat; 8) Tərcümeyi-halın yazılma tarixi; 9) Tərcümeyi-hal yazanın şəxsi imzası.

**Çalışma.** Aşağıdakı "Tərcümeyi-hal" üzərində müşahidə aparın və illərin düzümünə əməl etməklə verilmiş nümunəyə əsasən hər biriniz öz geniş tərcümeyi-halınızı yazın.

**Tərcümeyi-hal**

Mən, Həsənova Ülkər Cəmil qızı, 21 mart 2001-ci ildə Qazax rayonunun Ürkməzli kəndində anadan olmuşam. Mənsub olduğum Qızılhacılı kəndinin bir hissəsi hələ də erməni işğalçılarının nəzarəti altında olduğu üçün 2007-ci ilin sentyabr ayında Ürkməzli kəndindəki orta məktəbin I sinfinə daxil olmuşam. Hazırda 7-ci sinifdə oxuyuram. Dərs əlaçısıyam. Məktəbimizin ictimai işlərində yaxından iştirak edirəm. Bundan başqa, mən 2011-ci ildən Qazax şəhərindəki 1 saylı musiqi məktəbinin saz sinfində də oxuyuram.

Atam, Həsənov Cəmil Yusif oğlu 30 oktyabr 1973-cü ildə Qazax rayonunun Qızılhacılı kəndində doğulmuşdur. Ali təhsillidir. Hazırda mühəndis işləyir.

Anam, Həsənova Xədicə Səməd qızı 14 may 1976-cı ildə Qazax rayonunun Qızılhacılı kəndində anadan olmuşdur. Hazırda məktəbimizdə ibtidai sinif müəllimi işləyir.

Qardaşım, Həsənov Vüsal Cəmil oğlu 23 avqust 2004-cü ildə anadan olub. Hazırda IV sinifdə oxuyur.

20 sentyabr 2014-cü il.

**İmza:** **Ü.C.Həsənova**

16, 17-ci çalışmalar xalqımızın tarixində dərin iz buraxmış kədərli, hüznlü günlər haqqında şagirdləri məlumatlandırır və şagirdlər fikir mübadiləsi apararaq deyilən fikirlərə münasibət bildirirlər (2.1.3. alt-standartı). 18-ci çalışma şagirdlərin söz ehtiyatının zənginləşdirilməsi üçün istiqamətlənmişdir.

**Məlumat mübadilləsi:** Şagirdlər "Ayların düzümü" şeiri ilə tanış olduqdan sonra ilimizi bəzəyən aylar haqqında fikir mübadiləsi edir, şairin ayları necə təsvir etməsini müzakirə edirlər.

**Nəticə:** Şeirin məzmunu üzərində işləmək və çalışmaları yerinə yetirməklə şagirdlər başa düşürlər ki, günlər ayları, aylar illəri birləşdirir. Buna görə də elə

yaşamaq lazımdır ki, bu günlər, aylar, illər öz ardınca maraqlı, yaddaqalan, unudulmaz iz buraxsın.

Şagirdlər mövzu üzərində işləyərkən fikirlərini mətnin müvafiq hissələri üzərində qruplaşdırmağı öyrənir, lazımı fakt və hadisələrdən fikirlərini əsaslandırmaq üçün istifadə edir, şeirdəki nitq hissələrinin qrammatik mənasını izah edirlər.

**Yaradıcı tətbiqetmə:** 15-ci çalışmadakı nümunəyə əsaslanaraq öz tərcümeyi-halınızı yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** əzbərləmək.

## Qırmızı giləli budaqlar (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətnin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d.- 4.1.2.; 4.1.4.; Biol.-3.2.2. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri tələffüz edir. | 2.1.1. | |
| 3 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 4 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 5 | Cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** Elektron lövhə, dərslik.

**Motivasiya:** Müəllim elektron lövhədə "Göyçək Fatma" filmindən bir fraqment göstərir.

Fraqmentə baxdıqdan sonra sinfə sualla müraciət edir:

– Siz bu nağılı tədris dilində olan hansı nağılla müqayisə edərdiniz? Şagirdlər öz fərziyyələrini söyləyirlər.

**Tədqiqat sualı:** Bəzi nağılların mövzusu insan həyatından götürülmüşdür. Bəs həyatda gördüyünüz hadisələrlə oxuduğunuz nağıllar arasında uyğunluq tapa bilirsinizmi? Həyatda rastlaşdığınız hansı hadisəni nağıla bənzədə bilərsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Qırmızı giləli budaqlar" mətninin oxunması ilə başlayır. "Sözlük"dəki çətin sözlər izah edilir, cümlələrdə işlədilir. Mətnin oxusu prosesində şagirdlərin ritm və tempə əməl etmə, sözləri düzgün vurğu ilə oxuma bacarığı izlənilir, lazimi düzəlişlər edilir və lazımi praktik kömək göstərilir.

Tədqiqat dərslikdəki çalışmalar üzrə işlə davam etdirilir. 1-ci çalışma bütün siniflə yerinə yetirilir (3.1.2. alt-standartı). Müəllim 2-ci çalışmadakı sualları cütlərə tapşırır və onlar əsas fakt və hadisələri qruplaşdıraraq (1.1.2. alt-standartı) sualları cavablandırırlar.

3, 10, 12-ci çalışmalar şagirdlərin fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmalarına, bu yolla da mətnin hissələrinin qavranılmasına imkan yaradır. Müəllim bu tapşırıqların icrasını ayrı-ayrı qruplara da tapşıra bilər.

4, 5-ci çalışmaları yerinə yetirməklə şagirdlər mətnin hissələrini müəyyənləşdirirlər (1.1.1. alt-standartı).

Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirməklə şagirdlər 3.1.3. alt-standartını reallaşdırırlar ki, bunun üçün də 6-cı çalışma nəzərdə tutulmuşdur.

7, 8, 9, 11, 13, 16-cı çalışmalar cütlər tərəfindən icra edilir. Onlar mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edərək faktlar üzrə fikirlərini əsaslandırırlar.

14, 15-ci çalışmaların icrası 2.1.1. alt-standartının reallaşdırılmasına istiqamətlənmişdir. Çalışmaların icrası şagirdlərin lüğət tərkibinin dəqiqləşdirilməsinə xidmət edir.

Çalışmaların icrasından və müzakirədən sonra qiymətləndirmə aparılır.

**Məlumat mübadilləsi:** Mətnin oxusu və eyni zamanda çalışmalar üzərində iş şagirdlərin fikirlərinin durulmasına şərait yaradır, fikir mübadiləsinə imkan verir.

**Nəticə:** Nağıllarımızda, dastanlarımızda tanış olduğumuz hadisələri nənə-babalarımız həyatdan götürmüş və onlara obrazlılıq qataraq bizim dövrümüzə qədər yaşatmışlar. Babanın balaca Natiqə göstərdiyi qırmızı giləli budaqlar onun nağılda oxuduğu budaqlara bənzəyirdi. Natiq babanın söhbətlərinə qulaq asaraq inanır ki, nağıllar insanların həyatından götürülən əhvalatlar üzərində qurulur. Bu hekayə vasitəsilə şagirdlər mərsin meyvəsi, onun bəzi xüsusiyyətləri ilə tanış olur, ana təbiəti öyrənirlər.

**Yaradıcı tətbiqetmə:** Həyatda rast gəldiyiniz hər hansı hadisə ilə filmdə, bədii ədəbiyyatda rastlaşmışsınızsa, onun haqqında kiçik esse yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## "Koroğluynan Dəli Həsən" qolu (I hissə – 2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | 2.1.3. | R.d. - 4.1.2.<br>Az.t.-3.1.1. |
| 2 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4 | Cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |
| 5 | Nümunələrdən istifadə etməklə fikrini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplar, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, səs assosiasiyası, debat.

**Resurslar:** Dərslik, elektron lövhə, proyektor.

**Motivasiya:** Müəllim elektron lövhədə "Koroğlu" filmindən Koroğlu ilə Dəli Həsənin görüşdüyü kadrları nümayiş etdirir, sonra şagirdlərə sualla müraciət edir:

– Gördüyünüz bu kadrlar hansı filmdəndir? Bu film haqqında nə deyə bilərsiniz?

Cavablar dinlənilir. Müəllim onları istiqamətləndirir.

**Tədqiqat sualı:** "Koroğlu" dastanı haqqında nə bilirsiniz? Bu dastandan hər hansı bir hissəni oxumusunuzmu?

**Tədqiqatın aparılması:** Müəllim verdiyi suala cavab almaq məqsədilə tədqiqata mətnin oxusu ilə başlayır. Şagirdlər nitqlərini uyğun səs tonu ilə tənzimləyərək (2.1.2. alt-standartı) mətnin oxusuna başlayırlar. Mətn oxunduqdan sonra "Sözlük" və "Söz ehtiyatı" üzərində iş aparılır. Verilmiş sözlərə sinonimlər, antonimlər tapılaraq əlavə cümlə daxilində işlədilir. Mətnin oxusu prosesində nitqdə ritm və tempə düzgün əməl olunmasına nəzarət edilir və bu istiqamət digər çalışmalar üzrə işlərdə də nəzərdə saxlanılır.

Şagirdlər cütlərlə işləyərək 2, 6-cı çalışmaları yerinə yetirərkən nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir, Koroğlunu xarakterizə edən cümlələri mətndən seçərək, mətnin hissələrinin qavranılmasına nail olurlar. Müəllim şagirdlərin tələffüzünə nəzarət edir, qüsurlar yerindəcə düzəldilir. Cütlər 3-cü çalışmada verilmiş hər bir variantı müzakirə edərək fikirlərini əsaslandırır və 4-cü çalışmanın şərtinə əsasən Koroğlu ilə Dəli Həsəni müqayisə

edirlər. Onlar müzakirədə deyilən bütün fikirlərə öz münasibətlərini bildirirlər ki, nəticədə 2.1.3. alt-standart reallaşdırılır.

5-ci çalışma şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsi üzrə işlər aparılmasını nəzərdə tutur ki, bu çalışmadan məqsədəmüvafiq şəkildə istifadə olunmalıdır.

Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək məqsədilə (3.1.3. alt-standartı) 7, 8, 10-cu çalışmalar yerinə yetirilir. Bu zaman şagirdlər tez qruplara bölünür. I qrup mətndə cümlələr arasında pozulmuş əlaqələri bərpa edir və fikirlərini əsaslandırırlar, II qrup yerində işlənməyən cümləni təyin edir və mətnin məzmunu ilə bağlı olmadığını əsaslandırır, III qrup isə altından xətt çəkilmiş sözləri yaxın mənalı sözlərlə əvəz edərək cümlədə baş vermiş dəyişikliyin səbəbini əsaslandırır. Bu çalışmaların yerinə yetirilməsi şagirdlərdə müvafiq bacarıqlar formalaşdırır və onlarda məntiqi düşünmə qabiliyyətinin aşkara çıxarılmasına kömək edir.

Müəllim meyarlara əsasən şagirdləri qiymətləndirə bilər.

Nitq hissələrinin qrammatik mənalarının və onlarla bağlı düzgün tələffüz və yazı qaydalarının mənimsədilməsinə yönəlmiş çalışmaların icrasında (çalışma 13, 14, 15, 16) nəinki qruplar, bütün sinif iştirak edir. Qruplar ayrı-arılıqda mətndən götürülmüş sözlərin qrammatik mənasını izah edir, həmin sözlərin feilin müxtəlif formalarında işlənməsini, isimlərin mənsubiyyət və şəxsə görə dəyişilməsi zamanı sözlərdə baş verən dəyişiklikləri əsaslandıraraq izah edirlər.

11, 12-ci çalışmalar nümunələrdən istifadə etməklə şagirdlərin fikirlərini əsaslandırmağa yönəldilmişdir. Bu çalışmalar şagirdlərin məntiqi düşünmə qabiliyyətlərinin, lüğət ehtiyatlarının zənginləşdirilməsinə xidmət edir.

**Məlumat mübadiləsi:** Motivasiya zamanı göstərilən kadrlar, mətnin oxusu, mətnin səhnələşdirilməsi, çalışmalar üzərində iş əsasında şagirdlər "Koroğlu" dastanı haqqında məlumat əldə edir, Koroğlunun özünəməxsus xüsusiyyətləri üərində fikir mübadiləsi edirlər.

**Nəticə:** Şagirdlər mövzu ətrafında işləyərək maraqlı məlumatlar əldə edirlər. Onlar Koroğlunun uzaqgörənliyini, səbrini, insanlara qarşı münasibətini özlərinə örnək olaraq qəbul edirlər. El arasında yayılmış: "Hər atası kor olana Koroğlu deməzlər, korun oğlu deyərlər. Koroğluluğu qazanmaq lazımdır", – kimi məsəllər şagirdləri mərdliyə, qorxmazlığa səsləyir.

Dastandan bir "qol"u oxumaqla şagirdlər şiafhi ədəbiyyatımızın ölməz əsərlərindən biri olan qəhrəmanlıq dastanı ilə tanış olurlar.

**Yaradıcı tətbiqetmə:** "Koroğlu" dastanı haqqında məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı**: Mətni danışmaq.

## “Koroğluynan Dəli Həsən” qolu
## (II hissə – 2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətndəki əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d. - 4.1.2. 4.1.3. Az.t.-3.1.1. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir. | 2.1.1. | |
| 3 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 4 | Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 5 | Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | 3.1.2. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, səs assosiasiyası.

**Resurslar:** Dərslik, “Koroğlu” dastanı, elektron lövhə.

**Motivasiya:** Müəllim Ü.Hacıbəyovun “Koroğlu” operasından kadrlar göstərir və Bülbülün ifasında bir ariyanı səsləndirir, sonra sinfə sualla müraciət edir:

– Göstərilən opera haqqında nə bilirsiniz? Bu operanın müəllifi və ariyanın ifaçısı kimlərdir?

Şagirdlər bu suallara cavab verməyi bacarmalıdırlar. Çünki əvvəlki siniflərdə mövzu ilə bağlı müəyyən məlumatlar əldə etmişlər.

Müəllim şagirdləri istiqamətləndirir və əlindəki “Koroğlu” dastanını şagirdlərə göstərərək deyir:

**Tədqiqat sualı:** “Koroğlu” dastanının neçə “qol”dan ibarət olduğunu bilirsinizmi? Sizcə, dastanın bütün “qol”larında Koroğlu iştirak edirmi?

**Tədqiqatın aparılması:** Tədqiqat “Koroğluynan Dəli Həsən” qolunun II hissəsinin oxusu ilə başlanır. İkinci hissə ilə bağlı “Sözlük” və “Söz ehtiyatı”ndakı sözlər şagirdlərə izah edilir, onların mətndəki işlənmə yerlərinə diqqət yetirilir, bəziləri cümlə içərisində işlədilir.

Müəllim 1-ci çalışmaya şagirdlərin diqqətini cəlb edir, şagirdlər mətnin məzmunu ilə əlaqəsi olmayan cümləni tapıb səsləndirir və nə üçün məzmunla səsləşmədiyini əsaslandırırlar.

Müəllim 2-ci çalışmada mətn üzrə tərtib edilmiş planda ardıcıllığın pozulmasını qeyd edərək, düzgün ardıcıllığı bərpa etmək lazım olduğunu bildirir (1.1.2. alt-standartı). Sonra şagirdlər plana əsasən mətni danışmağa çalışırlar və 3-cü çalışmanın şərtinə əsasən Koroğlu və Dəli Həsənin görüşünü səhnələşdirirlər. Bu işdə onlara müəllim kömək edə bilər.

4-cü çalışma əsasında təşkil edilən müzakirə şagirdlərə fikirlərini mətndəki

faktlarla əsaslandırmalarına stimul verir və onlar suallara cavab verərək mətnin məzmununun mükəmməl qavranılmasını nümayiş etdirirlər.

5, 6, 7-ci çalışmalar da mətnin məzmununun qavranılması yolu ilə seçilmiş alt-standartlar üzrə müvafiq bacarıqların (2.1.3.; 2.1.4. alt-standartları) formalaşdırılmasına şərait yaradır.

8, 9-cu çalışmalarla iş ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz etmək bacarıqlarının aşkara çıxmasına və şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi üzərində işlər aparılmaqla onların lüğətinin dəqiqləşdirilməsinə, həmçinin fəallaşdırılmasına istiqamətləndirilir.

Dərslikdəki 10, 11,12, 13-cü çalışmalar əsas və köməkçi nitq hissələrinin qrammatik mənasının dərk edilməsi, eyni zamanda, həmin nitq hissələri ilə bağlı düzgün yazılış qaydaları ilə bağlı bacarıqların təkmilləşdirilməsi üçün hazırlanmışdır (3.1.1. alt-standartı).

"Bunları bilirsinizmi?" rubrikasında şagirdlər köməkçi nitq hissələrindən olan bağlayıcılar haqqında yığcam məlumat əldə edirlər. Müəllimin göstərişi ilə şagirdlər bağlayıcıların müxtəlif məna növlərini cümlələrdə işlədərək biliklərini möhkəmləndirirlər.

## BUNLARI BİLİRSİNİZMİ?

Əziz uşaqlar, dilimizdə köməkçi vəzifə yerinə yetirən söz qruplarından biri də bağlayıcıdır. Bağlayıcılar cümlədə sözləri və cümlələri bir-birinə bağlayır. Məsələn, "Dəli Həsən ilə Koroğlu çox güləşdilər" cümləsində "ilə" bağlayıcısı sözləri, "Çox çəkmədi ki, Çənlibel qoçaq oğlanların, igidlərin məskəni oldu" cümləsində isə "ki" bağlayıcısı cümlələri bir-birinə bağlamışdır.

Sintaktik vəzifəsinə görə bağlayıcıların iki növü var:

1) tabesizlik bağlayıcıları – və, ilə, gah, gah da, ya, ya da, amma, ancaq, həm, həm də, isə, və ya da ki, yaxud, hətta, həmçinin, lakin ...

2) tabelilik bağlayıcıları – ki, belə ki, əgər, indi ki, çünki, ona görə ki, hərçənd ki ...

**Məlumat mübadiləsi:** Mətnin oxusu, çalışmalar üzərində işləməklə şagirdlər əldə etdikləri faktlar əsasında fikir yürütmək, fikirlərini mətnin hissələrinə müvafiq qruplaşdırmaq bacarıqlarını inkişaf etdirirlər.

**Nəticə:** Şagirdlər öyrənirlər ki, "Kitabi-Dədə Qorqud"dan sonra "Koroğlu" eposu şifahi xalq ədəbiyyatımızın ən möhtəşəm əsəridir. "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanları ayrı-ayrı tarixi dövrlərdə yaransalar da, hər iki dastan xalqımızın qəhrəmanlıq tarixinin salnaməsini özündə əks etdirən sənət abidələri kimi ölməzdir.

Şagirdlər öyrənirlər ki, Koroğlu türk dünyasının ortaq qəhrəmanıdır.

"Koroğlu" dastanı XVI – XVII əsrlərdə baş vermiş tarixi hadisələrlə səsləşir. Eposun müxtəlif variantları (Tiflis, Güney Azərbaycan, türkmən) vardır. Bəzi variantlar 18, bəziləri isə 21, 25 qoldan ibarətdir.

Epos ilxıçı Alı kişinin heç bir günahı olmadan Həsən xan tərəfindən cəzalan-

dırılması ilə başlayır. Alı kişinin oğlu Rövşən Həsən xanın bəyənmədiyi Qıratı, Düratı, ildırım parçasından hazırlanmış Misri qılıncı götürüb dağlara – Çənlibelə çəkilir. Çoxlu igidliklər göstərən Rövşən Koroğlu adı ilə tanınır.

Koroğlu xalqın müdafiəçisi idi. Onu məğlubedilməz edən xalqın məhəbbəti, Qırat, Dürat, Misri qılınc və bir də dəli nərəsidir.

Epos Koroğlunun qocalığı ilə başa çatır.

**Müəllim üçün qeydlər:** Türk xalqlarının böyük əksəriyyətinin (türk, türkmən, özbək, qazax, başqırd, tatar, qaraqalpaq, Azərbaycan türkləri və b.) şifahi ənənəsində mövcud olan "Koroğlu" dastanı Tunadan Balkanlara, Sibirdən Suriyaya qədər geniş bir coğrafi arealda yayılıb. Yayılma miqyasına, həcminə və şöhrətinə görə "Koroğlu" yeganə dastandır ki, variant və versiyalarının sayı beş yüzdən çoxdur.

Türkiyədə "Koroğlu"nun ilk çapı 1887-ci ildə işıq üzü görüb.

Azərbaycanda "Koroğlu" dastanının ilk nəşri 1913-cü ildə Orucov qardaşları mətbəəsində Rza Zaki tərəfindən çap edilmişdir.

Dastanın 14 qoldan ibarət daha mükəmməl və qoşmalarla zəngin digər bir variantı 1941-ci ildə Hümmət Əlizadə tərəfindən nəşr edilmişdir.

"Koroğlu" dastanı Orta Asiyada da dəfələrlə nəşr edilmişdir. Orta Asiya versiyası dövri olduğundan hələ də tam şəkildə çap edilməmişdir. Əsasən də özbək Koroğlusu bir neçə nəslin qəhrəmanlıq salnaməsini canlandırdığından hər dövr müstəqil dastan kimi formalaşmışdır.

Son zamanlarda Azərbaycanda "Koroğlu" dastanının yeni qolları toplanıb nəşr edilmişdir. Bunlardan "Qəhrəman Koroğlunun divlərlə görüşü", "Koroğlunun Tehran səfəri", "Misri qılıncın oğurlanması", "Mərcan xanımın Çənlibelə gəlməsi", "Zərnişan xanımın Çənlibelə gəlməsi", "Ağca quzu" qollarını göstərmək olar.

**Yaradıcı tətbiqetmə:** "Koroğlu" dastanının qollarından birini internet səhifələrindən, ya da kitabxanadan götürüb oxuyun.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətni danışmaq.

## Fətəli xanın beşiyi (I hissə – 2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətndəki əsas fakt və hadisələri müəyyənləşdirir. | 1.1.2. | R.d.- 2.2.1.; 4.1.4. Az.t.-3.1.2. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçərək sözləri düzgün tələffüz edir. Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.1. 2.1.4. | |
| 3 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4 | Yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.
**Resurslar:** Proyektor, elektron lövhə, dərslik.

**Motivasiya:** Müəllim elektron lövhədə "Fətəli xan" filmindən kadrlar göstərir. Həmin kadrlardan məlim olur ki, Quba xanı Fətəli xan digər xanları ətrafına toplayaraq vahid Azərbaycan dövləti yaratmaq üçün onları birliyə səsləyir.

Müəllim şagirdlərə müraciət edir:

– Gördüyünüz kadrlarda Azərbaycanın daha bir qəhrəman, vətənpərvər oğlu ilə tanış oldunuz. Kadrlarda gördüyünüz Fətəli xan sizə necə təsir bağışladı?

Şagirdlər düşüncələrini söyləyirlər.

**Tədqiqat sualı:** Fətəli xan kimdir? Onun ailəsi, yaşadığı mühit haqqında hər hansı bir məlumatınız varmı?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Fətəli xanın beşiyi" mətninin 1-ci hissəsinin oxusu ilə başlanır. Sözlüyün mənimsədilməsi üzərində iş aparılır. "Sözlük" və "Söz ehtiyatı"ndakı sözlərin mənaları izah edilir. Sonra mətnin məzmununun mənimsədilməsi üzrə işə keçilir. Dərslikdəki 1, 2, 3, 5, 6-cı çalışmalar bilavasitə mətnin məzmununun mənimsədilməsinə xidmət edir. Şagirdlər mətnin məzmununu anladıqlarını nümayiş etdirmək üçün onlar 1-ci çalışmada qoyulmuş tapşırığı yerinə yetirir, mətn üzrə suallara cavab verirlər. Onlar həmçinin sualların sırasının mətndəki ardıcıllığa uyğun olmadığını əsaslandırır və müvafiq ardıcıllığı bərpa edirlər. 3-cü çalışmada isə qoyulmuş sualların mətnin məzmununu əks etdirmədiyini əsaslandırmaq tələb olunur ki, bütün bunlar mətndəki fakt və hadisələri müəyyənləşdirməyə (2.1.3. alt-standartı) gətirib çıxarır. 5-ci çalışmanı yerinə yetirməklə şagirdlər mətndə işlənmiş əşya bildirən sözləri məna növləri üzrə qruplaşdırırlar.

Çalışmalar üzərində səmərəli iş aparmaq üçün şagirdlər qruplara bölünür. Hər qrupa 2-ci çalışmada verilmiş planın bir bəndi üzrə fikirlərini formalaşdırıb danışmaq təklif edilir.

Şagirdlərin cavabları dinlənilir, cavablarda cümlələrin düzgün əlaqələnməsinə və ahəng qanununa uyğun şəkilçi variantlarının seçilməsinə (2.1.1.) diqqət yetirilir, yol verilən nitq qüsurları düzəldilir.

Şagirdlərin müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə bacarıqlarını inkişaf etdirmək üçün (2.1.4. alt-standartı) qruplar 4, 7, 13-cü çalışmalardan biri üzərində işləyirlər. Çalışmaların icrası üzərində iş şagirdlərin rabitəli nitqinin və müzakirə mədəniyyətinin inkişafına şərait yaratmaqla yanaşı, mətnin hissələri arasında əlaqələrin müəyyənləşdirilməsinə kömək edir, nümunələrdən mətnin hissələrinə uyğun istifadə ilə bağlı praktik bacarıqların formalaşmasına da şərait yaradır. 4-cü çalışmanın yerinə yetirilməsi həm

nümunələrdən mətnin hissələrinə uyğun istifadə üçün (2.1.4.) material verir, həm də tərcümə prosesində ahəng qanununa uyğun şəkilçi variantlarının seçilməsinə şərait yaratmaqla 2.1.1. alt-standartının reallaşdırılmasını təmin edir.

## BUNLARI BİLİRSİNİZMİ?

**Tabesizlik bağlayıcılarının** aşağıdakı növləri vardır:
1. **Birləşdirmə** bağlayıcıları: və, ilə (la, -lə)
2. **Bölüşdürmə** bağlayıcıları: gah, gah da, ya, ya da, istər, istərsə də, yaxud ...
3. **Qarşılaşdırma** bağlayıcıları:amma, ancaq, lakin, halbuki, yoxsa ...
4. **İştirak** bağlayıcıları: həm, həm də, həm də ki,  da, də, hətta, habelə, həmçinin, o cümlədən, özü də, bir də ...
5. **İnkarlıq** bağlayıcıları: nə, nə də, nə də ki.

8, 9, 10, 14-cü çalışmalar mətndəki əsas və köməkçi nitq hissələrinin qrammatik mənasının mənimsədilməsi məqsədilə nəzərdə tutulmuşdur. Şagirdlər bu çalışmaları yerinə yetirərkən mətnin axırıncı cümlələrində işlənmiş feilləri seçərək forma və şəxsini müəyyən edir, sonra həmin feilləri başqa formalarda da işlədir, mətndə altından xətt çəkilmiş əvəzlikləri məna növləri üzrə, qara şriftlə verilmiş sözləri isə qrammatik mənalar üzrə qruplaşdırır, mətndə işlənmiş bağlayıcılar üzərində müşahidə apararaq, tabesizlik və tabelilik bağlayıcılarını seçib ayrı-ayrı sütunlarda yazırlar. Bütün bu tapşırıqlar 3.1.1. alt-standartının reallaşdırılmasına imkan yaradır, şagirdlərdə zəruri praktik bacarıqlar formalaşdırır.

4.1.3. alt-standartının reallaşdırılması üzrə işlər 11, 12, 13-cü çalışmalar əsasında həyata keçirilir. Şagirdlər mətndə işlənmiş mürəkkəb sözləri seçib yazır və onların yazılış xüsusiyyətlərini izah edir, üzərində ulduz işarəsi qoyulmuş sözləri tələffüz xüsusiyyətləri baxımından qruplaşdırır, verilmiş sözlərdən eyniköklü sözlər düzəldib yazırlar ki, bütün bu proses müvafiq yazı bacarıqlarının təkmilləşdirilməsi istiqamətində qurulur.

"Bunları bilirsinizmi?" rubrikasında şagirdlər tabesizlik bağlayıcılarının növləri ilə tanış olmaq imkanı əldə edirlər. Bağlayıcılardan nitqdə yerli-yerində istifadənin şüurluluğunu təmin etmək baxımından bu, çox zəruridir.

**Məlumat mübadiləsi:** Şagirdlər "Fətəli xanın beşiyi" mətninin 1-ci hissəsinin oxusu və çalışmalar üzərində işləməklə tariximizdə özündən sonra iz buraxan, qəhrəmanlıq səhifəsinə adı düşən Fətəli xanın ailəsi ilə tanış olur və Azərbaycan bəylərinin bəzi xarakterik xüsusiyyətlərini müzakirə edirlər.

**Nəticə:** Şagirdlər mətnin məzmunu ilə tanış olmaqla Fətəli xanın dünyaya göz açdığı ailə ilə, onun başçısının xarakter xüsusiyyətləri ilə tanış olurlar. Öyrənirlər ki, Hüseynəli xan qonaqpərvər, diqqətcil olmaqla yanaşı, həm də əsl vətənpərvər bir xandır. O, birlik tərəfdarı olduğu üçün Azərbaycanın

dörd tərəfindən bəyləri bir yerə yığaraq qonaqlıq düzəldir, onları layiqincə qarşılayıb yola salır. Qonaqlığın sonunda Hüseynəli xan niyyətini çox ustalıqla öz həmkarlarına çatdırır: "Bax hərənizə bir qılınc almışam. Vətəni qorumaq üçün. Bir olsaq, düşmən qorxar, üstümüzə gəlməz".

Bu gün də Azərbaycan torpağında Hüseynəli xanın sözlərinə ehtiyac duyulur. Doğrudan da, bir olsaq, mənfur düşmən qorxusundan torpaqlarımıza yaxın düşə bilməz.

**Yaradıcı tətbiqetmə:** Hüseynəli xan haqqında məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Fətəli xanın beşiyi (II hissə – 2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | 2.1.3. | |
| 2 | Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 3 | Səs tonu, temp və fasiləni gözləməkdə mətni oxuyur. | 3.1.2. | R.d. - 4.1.4. Az.t.-3.1.2. |
| 4 | Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |
| 5 | Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** Proyektor, elektron lövhə, dərslik.

**Motivasiya:** Müəllim elektron lövhədə "Azərbaycanda sənətkarlığın inkişafı" adlı sənədli filmi nümayiş etdirir. Filmdə papaqçılıqdan, dülgərlikdən, zərgərlikdn söhbət açılır. Sonra bir neçə beşik nümunəsi də canlandırılması məqsədəuyğundur.

Müəllim sinfə müraciət edir:

– Tarix dərsində öyrəndiklərinizə əsasən, bilirsiniz ki, Azərbaycanda qədim zamanlardan sənətkarlıq inkişaf etmişdir. 1) Hansı sənət növlərinin adını çəkə bilərsiniz? 2) Dülgərlik sənəti haqqında nə bilirsiniz?

Şagirdlər bir neçə sənət növünün (məs., papaqçılıq, dulusçuluq, bənnalıq,

xalçaçılıq, dülgərlik, zərgərlik ...) adını çəkir və dülgərliklə bağlı bildiklərini söyləyirlər.

**Tədqiqat sualı:** Necə düşünürsünüz, Hüseynəli xan beşik almaq üçün “Böyük çarşı”ya gedib məşhur beşik ustası Hacıəli kişi ilə görüşəcəkmi?

**Tədqiqatın aparılması:** Tədqiqat sualına cavab tapmaq məqsədil müəllim mətnin oxusu üzərində işə keçir. Mətnin oxusu prosesində şagirdlərin səs tonunun tənzimlənməsi, temp və fasiləyə əməl edilməsi (3.1.2. alt-standartının reallaşdırılması) nəzarətdə saxlanılır və zəruri tövsiyələr verilir. Oxu prosesi başa çatdıqdan sonra müəllimin müraciəti əsasında şagirdlər tərəfindən 1-ci cümlənin mətndəki rolu müəyyənləşdirilir. Bu cümlənin hissələr arasında əlaqə yaratdığı vurğulanır. Mətnin məzmununun və sözlüyünün mənimsənilməsi üzərində işlə tədqiqat davam etdirilir. Sözlük üzərində iş yalnız lüğəti verilmiş sözlərlə məhdudlaşdırılmamalıdır. Şagirdlərə tanış olan, lakin mənasının dəqiqləşdirilməsinə ehtiyac duyulan bir neçə söz və ifadənin mənası üzərində də dayanılmalı, şagirdlərin diqqəti qeyd edilən söz və ifadələrin mənasına cəlb edilməlidir.

Şagirdlər qruplara bölünür və onlara 2, 4, 14-cü çalışmaları yerinə yetirmək təklif edilir. Bu çalışmalar mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri, həmçinin mətnin hissələrini və hissələr arasındakı əlaqələri müəyyənləşdirmək (3.1.3 alt-standartı) bacarıqlarının tətbiqini nəzərdə tutur.

2.1.3. alt-standartının tələbləri istiqamətdə iş 3, 5, 6, 9, 10, 12, 13-cü çalışmalar üzərində qurula bilər. Bu çalışmaların icrası böyük qruplarla da, bütün siniflə də həyata keçirilə bilər. Çalışmalarda şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, rabitəli nitq bacarıqlarının inkişafı, fikirlərinin mətnin hissələri ilə əlaqələndirilməsi, orfoqrafik bacarıqlarının təkmilləşdirilməsi əsas götürülsə də, bu prosesdə şagirdlər deyilən fikirlərə münasibət bildirir, fikirlərini sübutlarla əsaslandırmağa səy göstərirlər.

***Kəlmələrin “dili”ni öyrənək!***

**Durmaq** – 9) Qalmaq, yaşamaq, var olmaq – Oxuduğum məktəb hələ də durur; Toxunulmamış qalmaq, işlənməmiş qalmaq – Verdiyin kimi də durur. 10) İnkişaf etməmək, bir yerdə qalmaq – Elm bir nöqtədə dura bilməz. 11) İşləməmək, dayanmaq; duracaqda, yaxud hər hansı bir yerdə dayanmaq – Maşın evimizin qabağında durdu. 12) Gözləmək, səbir etmək – Sən bir dur. Durmaq vaxtı deyil. 13) Yer tutmaq, mövqe tutmaq – İntizam məsələsi birinci yerdə durmalıdır. 14) “Belə”, “bu yana”, “o yana” və s. sözlərlə – çəkilmək – O yana dur, keçək.

6, 7, 8, 9, 11, 12, 15-ci çalışmalar mətndəki əsas və köməkçi nitq hissələrinin qrammatik mənasının mənimsədilməsi üçün nəzərdə tutulmuşdur. Çalışmaların icrasını müəllim kiçik qruplarla iş formasında təşkil edə bilər. Bu həm vaxta qənaət etmək baxımından əlverişlidir, həm də şagirdlərin qrup daxilində fəallaşdırılmasına şərait yaradır. Seçilmiş çalışmalarda qoyulmuş müxtəlif

tapşırıqlar üzərində işləyərkən şagirdlər ismin mənsubiyyət şəkilçilərinin, feilin forma və şəxs şəkilçilərinin, ayrı-ayrı əsas nitq hissələrinin, tabelilik və tabesizlik bağlayıcılarının mənaca növlərinin qrammatik mənası üzərində düşünür, əvvəlki biliklərini yada salır, qrup daxilində bir-birini dinləyir, bir-birinin fikrinə münasibət bildirir və düzgün cavabları əsaslandırırlar.

Qrupların işinin müzakirəsindən sonra müəllim qiymətləndirmə apara bilər.

Dərslikdəki 5-ci çalışma 4.1.3. alt-standartı üzrə işləri nəzərdə tutur. Şagirdlər sonu "k" ilə yazılan sözlərin sonunda "k"-nin "y"-yə keçməsi ilə əlaqədar qaydanı yada salır və mətndə fərqləndirilmiş sözlər üzərində izah edirlər. Qeyd etmək lazımdır ki, bu standartın reallaşdırılması şagirdlərin üzərində işlədikləri digər çalışmalar, hətta mətnin oxusu vasitəsilə də reallaşdırılır. Təki müəllim bu alt-standartın reallaşdırılmasını daim nəzarətdə saxlasın.

"Bunları bilirsinizmi?"rubrikasında verilmiş məlumat vasitəsilə şagirdlər tabelilik bağlayıcılarının məna növləri ilə tanış olur, bu bağlayıcıların qrammatik vəzifəsi haqqında yığcam məlumat əldə edirlər. Verilmiş məlumatın şüurlu mənimsədilməsi onun üzərində praktik işlər aparılmasını nəzərdə tutur ki, bu məqsədlə 8-ci və 15-ci çalışmalara müraciət etmək zərurəti yaranır.

### BUNLARI BİLİRSİNİZMİ?

**Tabelilik bağlayıcılarının** aşağıdakı növləri vardır:
1. **Aydınlaşdırma** bağlayıcıları: ki, belə ki. 2. **Səbəb** bağlayıcıları: çünki, ona görə ki, ondan ötrü ki, onun üçün ki, buna görə də, odur ki, ona görədir ki, buna görədir ki, o səbəbə ki, bunun üçündür ki, ... 3. **Şərt** bağlayıcıları: əgər, hərgah, madam ki, indi ki. 4. **Güzəşt** bağlayıcıları: hərçənd, hərçənd ki.

Bunlardan əlavə, dərslikdə şagirdlərin lüğət ehtiyatının genişləndirilməsi və dəqiqləşdirilməsi istiqamətində işlərə də yer verilmişdir ki, bunsuz nitq mədəniyyətinin formalaşdırılmasından danışmaq yersiz olar. Bu istiqamət dərslikdə həm "Kəlmələrin dili"ni öyrənək" rubrikası, həm də 6, 9-cu çalışmalar vasitəsilə reallaşdırılmışdır.

**Məlumat mübadilləsi:** Şagirdlər "Fətəli xanın beşiyi" mətninin 2-ci hissəsi ilə tanış olduqdan sonra tarixi keçmişə bir daha səyahət edərək fikir mübadiləsi edir, Azərbaycan sənətkarlarının düzəltdikləri sənət nümunələrinin milli-mənəvi dəyərlər olduğu fikrini "yurdumuzun malı yurdumuza qayıtdı" ifadəsi üzərində müzakirə edirlər.

**Nəticə:** Azərbaycan tətbiqi sənət ustalarının – xalçaçıların, xəttatların, zərgərlərin, fırça ustalarının yaratdığı sənət inciləri bu gün dünyanın ən inkişaf etmiş ölkələrinin muzeylərində nümayiş etdirilir. İncəsənət ustalarının böyük məharəti xalqımızın mədəni inkişaf səviyyəsi haqqında aydın təsəvvür yaradır. Ancaq tarixi sənət nümunələrinin, ustalarımızın əl işlərinin qorunub

saxlanılması, nəsillərdən nəsillərə ötürülməsi unudulmamalı, dünyanın müxtəlif muzeylərinə səpələnən sənət incilərimiz geri qaytarılmalı, “yurdumuzun malı yurdumuza qayıtmalıdır”.

Şagirdlər mövzu üzərində işləyərkən fikirlərini mətnin müvafiq hissələri üzərində qruplaşdırmağı öyrənir, lazımi fakt və hadisələrdən fikirlərini əsaslandırmaq üçün istifadə edir, bağlayıcının qrammatik mənasını mənimsəyirlər.

**Yaradıcı tətbiqetmə:** Müəllim şagirdlərə tapşırır ki, 13-cü çalışmanın şərtinə əsasən “Badi-Kubə” sözünün etimologiyası haqqında araşdırma aparıb yığcam təqdimat hazırlasınlar.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Zirvə üstə (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi şeirin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d. - 4.1.2.<br>Az.t.-3.1.1. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçir, müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.1.<br>2.1.4. | |
| 3 | Əsas və köməkçi nitq hissələrinin qrammatik mənalarını izah edir. | 3.1.1. | |
| 4 | Cümlələr və abzaslar arasında əlaqə gözləməklə mətn tərtib edib yazır. | 4.1.2. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücum, sual-cavab, təqdimat.

**Resurslar:** Dərslik, proyektor, elektron lövhə.

**Motivasiya:** Müəllim proyektoru işə salır. Elektron lövhədə Şəhidlər xiyabanının təsviri canlandırılır. Sonra sinfə müraciət edilir:

– Uşaqlar, gördüyünüz bu kadrlar sizi hansı tarixi hadisələrə qaytardı?

Uşaqlar 20 Yanvarı xatırladıqlarını bildirirlər.

**Tədqiqat sualı:** Necə düşünürsünüz, nə üçün respublikamızın hər yerində Vətən uğrunda şəhid olanların rahat uyuması üçün ayrıca məzarlıqlar – xiyabanlar salınıb? Şəhidlik niyə zirvə hesab olunur?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki “Zirvə üstə” şeirinin oxusu üzərində aparılır. Çalışma 1-in şərtinə (3.1.2. alt-standartı) əsasən, səs tonu, temp və fasiləni gözləməklə şeir oxunur. Şeirdəki əsas fikir müəyyənləşdirilir.

Müəllim şeirin məzmununu mənimsətmək, onun mövzusu üzərində

şagirdlər arasında fikir mübadiləsi yaratmaq məqsədilə 1.1.1. alt-standartına və 2-ci çalışmanın şərtinə uyğun olaraq böyük qrupla şeirin nə üçün "Zirvə üstə" adlandırılması fikrini müzakirə edib, düzgün variantın seçilməsinə kömək edir.

Sonra sinif kiçik 6 qrupa (əgər sinifdə uşaq azdırsa 4 qrupa) bölünür. Hər qrupa şeirin bir bəndinin məzmunu üzrə iş aparmaq tapşırılır. Qrupa 2-ci tapşırıq kimi 3.1.1. alt-standartına uyğun seçilmiş qrammatik çalışmalar tapşırılır. I qrupa 6-cı, II qrupa 7-ci, III qrupa 8-ci, IV qrupa 12-ci, V qrupa 13-cü, VI qrupa 14-cü çalışmanın icrası tapşırılır. Qrupların işi üçün vaxt ayrılır. Təyin olunmuş vaxt bitdikdən sonra qrupların fəaliyyətləri qiymətləndirilir.

***Kəlmələrin "dili"ni öyrənək!***

**Xal** – 1) Dəri üzərində əmələ gələn xırda, dəyirmi ləkə – Üzündəki xal ona çox yaraşırdı; 2) Cürbəcür saplarla, rənglə vurulan naxış; – Bizim xallı xalçalardan, Sər çinarlar kölgəsinə. S.Vurğun. 3) İdman yarışlarında və oyunlarda hesablama vahidi; say, miqdar –bu fəndə görə oyunçuya 10 xal verdilər; 4) Musiqinin əsas melodiyası ilə həmahəng olan yeni hissə, yeni cəhət – Oxuduğu mahnıda vurduğu xallar bir yenilik idi. 5) Nişan –Zərin üstündəki xallar görünmürdü. ♦ Xal kimi – çox kiçik, bapbalaca – göyün üzündə bir xal kimi görünən; Xal vurmaq – naxış salmaq.

2.1.4. alt-standartının tələbinə görə müvafiq nümunələrin şeirin məzmununa uyğun istifadə edilməsi dərslikdəki 5 və 10-cu çalışmaların icrası ilə həyata keçirilir.

Şagirdlərin tərcümə etmək bacarıqlarını inkişaf etdirmək, ahəng qanununa uyğun şəkilçi variantını seçmək bacarığını möhkəmləndirmək və təkrar etmək məqsədilə 2.1.1. alt-standartına uyğun seçilmiş 9-cu çalışmaya müraciət edilir.

"Kəlmələrin dilini öyrənək" rubrikası "qüdrət" sözünün leksik mənasının izahına həsr edilmişdir ki, bu da şagirdlərin lüğət ehtiyatlarını zənginləşdirmək üçündür.

***Kəlmələrin "dili"ni öyrənək!***

**Qüdrət** – 1) Böyük qüvvət, güc; bacarıq – Ölkənin idtisadi qüdrəti; 2) Təsir qüvvəsi, böyük nüfuz qüvvəsi – qüdrətli şair və dramaturq; 3) Taqət, iqtidar, güc – Bu cür sözlər üçün qüdrəti haradan aldın? 4) Möhkəmlik, iradə, iradə qüvvəsi; cəsarət – Ancaq unutma ki, mən ərlərdə qüvvət, qüdrət və cəsarəti sevirəm – C.Cabbarlı. 5) Təbiət, fitrət, yaradılış – Qüdrətdən səngərli, qalalı dağlar A.Ələsgər.

**Məlumat mübadiləsi:** Şagirdlər şeirin məzmunu ilə tanış olduqdan sonra yerinə yetirilmiş çalışmalar əsasında fikir mübadiləsi aparırlar.

**Nəticə:** Şəhidlər xiyabanı Azərbaycan xalqının and yeri, üz tutduğu müqəddəs məkandır. Bu xiyaban şəhidlik zirvəsinə ucalmış igid oğul və qızlarımızın əbədiyyətə qovuşduğu yerdir. Bura qəhrəmanlıq zirvəsidir. Sanki Ulu Tanrı da

bilərəkdən bu məkanı şəhərimizin ən uca bir nöqtəsinə istiqamətləndirmişdir. Bura gənclərimiz üçün bir mərdlik məktəbi, qəhrəmanlıq nümunəsidir. Torpağın altında uyuyan şəhidlərimizin ruhu başımızın üstündə dolanır, demək istədikləri, lakin deyə bilmədikləri sözləri isə qulaqlarımızdadır. Şəhidlərin adı daim ürəyimizdə, əməlləri isə əməllərimizdə, fəaliyyətimizdə yaşayır.

**Yaradıcı tətbiqetmə:** 20 Yanvar faciəsini doğuran tarixi şərait barədə və ya şəhidlərdən biri haqqında ətraflı məlumat toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** "20 Yanvarın tarixi dərsləri" mövzusunda mətn tərtib edib yazın (4.1.2. alt-standartına əsasən). Şeirdən bir hissə əzbərləməyə çalışın.

## Qoçaqlar həmişə ürəkli olur!.. (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d.- 4.1.2.<br>Az.t.- 3.1.2. |
| 2 | Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | 2.1.3. | |
| 3 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 4 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 5 | Cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kiçik qruplar və cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, klaster, müzakirə.

**Resurslar:** Dərslik, lövhə, şəkillər.

**Motivasiya:** Müəllim lövhəyə "qoçaq" sözünü yazır. Şaxələnmə üsulundan istifadə edir. Sonra şagirdlərdən soruşur:

– Bu söz sizdə hansı fikirləri yaradır? "Xilaskar" dedikdə nə başa düşürsünüz?

Şagirdlər müxtəlif fikirlər söyləyirlər. Söylənilən fikirlər dairənin ətrafında qeyd olunur.

**Tədqiqat sualı:** Necə düşünürsünüz, niyə qoçaqlar həmişə ürəkli olur?

**Tədqiqatın aparılması:** Müəllim mətni rollar üzrə şagirdlərə oxutdurur və səhnələşdirir. Ən yaxşı iştirakçı qiymətləndirilir. Şagirdlər "Sözlük" və

“Söz ehtiyatı”ndakı çətin sözləri tərcümə edərək cümlələrdə işlədirlər. 2-ci çalışmanı müəllim cütlərə paylayır. Cütlər suallar ətrafında fikir mübadiləsi aparır. Sualları cavablandırırlar. Şagirdlər 3-cü çalışmadakı “Qoçaqlar həmişə ürəkli olur!..” fikrini aydınlaşdırmaq məqsədilə düzgün variantı səsləndirərək 2.1.3. alt-standartının şərtini reallaşdırırlar. Bu tapşırıq qruplarla da yerinə yetirilə bilər. Hər variantdakı fikri qrup üzvləri genişləndirib danışırlar. Qruplar mətnə əsasən plan tərtib edirlər.

5-ci çalışma şagirdlərin lüğət ehtiyatlarının zənginləşməsi üçün nəzərdə tutulmuşdur.

2.1.1. alt-standartının reallaşdırılması üçün şagirdlər ahəng qanununa uyğun şəkilçi variantı seçməklə 6-cı çalışmanı yerinə yetirirlər. Bu çalışma həm də lüğət ehtiyatının zənginləşməsi, tərcümə bacarıqlarının inkişaf etdirilməsi üçün nəzərdə tutulmuşdur.

Mətndəki əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah etmək məqsədilə şagirdlərə 7, 8, 9, 10, 11, 12, 13-cü çalışmaları yerinə yetirmək tapşırılır. Çalışmalar müxtəlif qruplara tapşırılır. Tapşırıqların yerinə yetirilməsi üçün verilən vaxt bitdikdə qrupların təqdimatları müzakirə olunur, düzgün cavablar müəyyənləşdirilir və qiymətləndirilir. 14-cü çalışma isə mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək üçün nəzərdə tutulmuşdur.

**Məlumat mübadiləsi:** Mətnin oxusu və çalışmalar üzərində iş fikir mübadiləsinə imkan yaradır. Şagirdlər bəyzadənin qoçaqlığı, səxavətliliyi üzərində fikir mübadiləsi aparırlar.

**Nəticə:** Mətnin məzmunu və çalışmalar üzərində aparılan işlərin nəticəsində şagirdlər bu qənaətə gəlirlər ki, bəy oğlu olmasına baxmayaraq, cavan ürkəni ram edən bu oğlan səxavəti, heç nədən qorxmadan özünü təhlükəyə atması, igidliyi, mərdliyi ilə qısa müddətdə özünə rəğbət oyandıra bilir. Təsadüfi deyildir ki, gəncin bu hərəkəti Qaçaq Kərəmin diqqətindən yayınmır, cibindən bir saat çıxarıb ona bağışlayır və bəy oğlunun ürəkli olmasını, mərdliyini alqışlayır.

Şagirdlər bəy oğlunun rəğbətlə qarşılanan hərəkətlərindən özləri üçün zəruri nəticələr çıxarırlar. Mətndə həmçinin Qaçaq Kərəmin xarakterinin müəyyən cizgiləri açılır ki, burada da ibrət götürülməli cəhətlər var.

**Yaradıcı tətbiqetmə:** Tanıdığınız ürəkli “qoçaq” haqqında kiçik esse yazın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Qələbənin sirri (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d.- 4.1.2. |
| 2 | Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | 2.1.3. | |
| 3 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4 | Cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Kiçik qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, BİBÖ, debat.
**Resurslar:** Proyektor, elektron lövhə, dərslik.

**Motivasiya:** Müəllim elektron lövhədə paralimpiya oyunlarının keçirilməsi haqqında çəkilmiş sənədli filmi şagirdlərə nümayiş etdirir. Sonra onlara belə sualla müraciət edir:

– Paralimpiya oyunlarının iştirakçıları digər idmançılardan nə ilə fərqlənir? Şagirdlərin fərziyyələri dinlənilir.

**Tədqiqat sualı:** Necə düşünürsünüz, idmanın müxtəlif növləri ilə məşğul olmaq fiziki məhdudluğu olan insanların həyata bağlanmasına, cəmiyyətə inteqrasiya olunmasına kömək edə bilərmi? Paralimpiya oyunlarını keçirmək lazımdırmı?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Qələbənin sirri" mətninin oxusu ilə başlanır. Oxu prosesində müəllim şagirdlərin sözləri düzgün vurğu ilə tələffüz etməsinə, nitqlərini uyğun səs tonu ilə tənzimləməsinə nəzarət edir (2.1.2. alt-standartı), lazım gəldikdə müvafiq praktik kömək göstərir. Çətin söz və ifadələr tərcümə edilir, cümlələrdə işlədilir.

Sonra mətnin çalışmalarla mənimsənilməsi üzrə işə keçilir. 1-ci çalışmada "Köməkçi"də verilmiş ifadələri şagirdlər göy boşluqlarda yerləşdirirlər.

Müəllim şagirdləri qruplara bölür və hər qrup mətnə əsasən suallar tərtib edir. Həmin sualların düzgünlüyünü qrup üzvləri müzakirə edirlər. Ən maraqlı və düzgün qurulmuş suallar müəllim tərəfindən qiymətləndirilir.

1.1.2. alt-standartının reallaşdırılması məqsədilə müəllim qruplara 3, 4-cü çalışmaları tapşırır. Bu çalışmalarla şagirdlərin diqqəti bir daha mətnin məzmununa yönəldiyindən cümlələri mətnin məzmunu üzrə ardıcıl sıralamaq üçün əlverişli məqam yaranır. Verilmiş vaxt başa çatdıqda qrupların variantları müzakirə edilir və qiymətləndirmə aparılır.

“Hikmət xəzinəsindən” rubrikasında verilmiş aforizmləri müəllim qruplara tapşırır. Qrup üzvləri aforizmləri tərcümə etməli və yoldaşlarının hər bir aforizm haqqında dediyi fikirlərə münasibət bildirməli (2.1.3. alt-standartı), sonra çalışmanın şərtinə əsasən aforizmlərdə fərqləndirilmiş sözlərin qrammatik mənası üzərində iş apararaq 3.1.1. alt-standartını reallaşdırmalıdırlar.

6-cı çalışmanın yerinə yetirilməsi şagirdlərin lüğət ehtiyatlarının zənginləşdirilməsi üçün nəzərdə tutulmuşdur.

7, 9, 11, 14-cü çalışmalar və “Bunları bilirsinizmi?” rubrikası əsas və köməkçi nitq hissələri ilə bağlı düzgün yazılış qaydalarının mənimsədilməsi və praktik bacarıqların formalaşdırılması üçün nəzərdə tutulmuşdur (3.1.1.). Bu çalışmalar “Bunları bilirsinizmi?” rubrikasındakı nəzəri məlumatın daha yaxşı mənimsədilməsi üçün hazırlıq rolu oynayır.

## BUNLARI BİLİRSİNİZMİ?

Sözlərin və ya cümlələrin **təsir gücünü artıran** köməkçi nitq hissəsinə **ədat** deyilir. Məsələn, “Məndən soruşan var **ki**?” cümləsində işlənən “ki” ədatı “var” sözünün, “**Artıq** yarışlarda iştirak etmək vaxtı idi” cümləsindəki “artıq” sözü bütövlükdə cümlənin təsir gücünü artırır.

10, 12-ci çalışmaları yerinə yetirərkən şagirdlər sözləri və cümlələri düzgün əlaqələndirməklə dilin qrammatik normalarına yiyələndiklərini nümayiş etdirir, həmçinin tərcümə vasitəsilə paralimpiya oyunları haqqında məlumat əldə edərək BİBÖ cədvəlini doldururlar.

Çalışma 12-də qoyulmuş tapşırıq əsasında şagirdlər debata qoşulurlar. Onların fikirlərini əsaslandırmalarına kömək məqsədi ilə müəllim paralimpiya oyunları üzrə iki dəfə dünya çempionu İlham Zəkiyev haqqında aşağıdakı məlumatı təqdim edir:

**Köməkçi:** İlham Zəkiyev hərbi xidmətə gedənə qədər cüdo ilə məşğul olurdu. Görmə qabiliyyətini itirəndə onun 19 yaşı tamam olmamışdı. Hərbi xidmətdə olarkən erməni snayperinin açdığı atəş nəticəsində güllə onun sol gicgahından girərək sağ gicgahından çıxmışdı.

2002-ci ildən etibarən İlham yenidən öz əvvəlki məşqçisinin başçılığı altında məşqlərə başlayır. O, 2 dəfə paralimpiya oyunları çempionu, 2 dəfə dünya çempionu, 5 dəfə Avropa çempionu olub. Əməkdar idman ustasıdır. “Şöhrət” ordeni, “Tərəqqi” medalı ilə təltif olunub. “Heydər Əliyev” Fondunun təsis etdiyi Beynəlxalq “Qızıl Çinar” mükafatı laureatıdır.

**Məlumat mübadiləsi:** Şagirdlər paralimpiyaçıların fəaliyyətini, onların cəmiyyətə inteqrasiya olunma imkanlarını müzakirə edirlər.

**Nəticə:** Şagirdlər mətnin oxusu və məzmunu üzərində aparılan işlərlə tədqiqat sualına cavab tapır, paralimpiyanın vacibliyini, bu oyunların fiziki cə-

hətdən qüsurlu insanların həyatındakı yerini başa düşürlər. Şagirdlər anlayırlar ki, fiziki məhdudluğu olan insanlara qarşı diqqətli olmaq, hər bir təsadüfdə bu insanların cəmiyyət üçün gərəkli olduqlarını onlara hiss etdirmək lazımdır.

Fiziki məhdudluğu olan insanlar həmişə həyatdan küskün olurlar. Onları həyata bağlamaq, Vətənə lazım olduqlarını dərk etdirmək üçün müəyyən tədbirlərin, sərgilərin, idman yarışlarının keçirilməsi çox vacibdir.

**Yaradıcı tətbiqetmə:** Paralimpiyaçılardan biri haqqında informasiya toplayıb təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** mətni danışmaq.

## “Mənim dilim” şeiri (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi şeirin hissələrini müəyyənləşdir. | 1.1.1. | R.d. - 4.1.2. |
| 2 | Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir, nümunələri şeirin hissələrinə uyğunlaşdırır. | 2.1.3.<br>2.1.4. | |
| 3 | Əsas və köməkçi nitq hissələrinin qrammatik mənalarını izah edir, səs tonu, temp, fasiləni gözləməklə şeiri oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 4 | Nümunələrdən istifadə edərək fikirlərini əsaslandırır. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | 4.1.1.<br>4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əqli hücüm, sual-cavab, təqdimat.

**Resurslar:** Dərslik, proyektor, elektron lövhə.

**Motivasiya:** Müəllim elektron lövhədə əvvəlcədən hazırladığı Uşinskinin ana dili haqqındakı sözlərini işıqlandırır: “Bir millətin, xalqın var-dövlətini əlindən alsan, o millət ölməz, yaşayar. Ancaq ana dilini əlindən alsan, həmin millət məhv olar, ondan əsər-əlamət qalmaz.”

Sonra sinfə müraciət edilir:

– Bu sözlərin mənasını necə izah edərsiniz?

Şagirdlər bu aforizmi öz sözləri ilə, başa düşdükləri şəkildə izah edirlər.

**Tədqiqat sualı:** “Sağdır dilim,
demək, sağdır şərafətim, ləyaqətim.

Sağdır, demək, milyard yaşlı
məmləkətim" – misralarının mənasını necə başa düşmək lazımdır?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Mənim dilim" şeirinin oxusu ilə başlanır. Səs tonu, temp və fasiləni gözləməklə şeir oxunur.

Şeirdən çıxan nəticə müzakirə edilir. Çətin söz və ifadələrin mənası izah edilir. Şeirin məzmununun daha yaxşı mənimsədilməsi üçün onun hissələrinin müəyyənləşdirilməsi və verilmiş misraların şeirdəki ardıcıllığa uyğun yerləşdirilməsi üzərində (1.1.1. alt-standartına uyğun seçilmiş 2-ci çalışma) iş aparılır.

Şeirin məzmunu və ideyasının hərtərəfli qavranılması 1, 3, 5, 7, 8, 12, 16-cı çalışmalar vasitəsilə davam etdirilir. Bu çalışmaların böyük qruplarla yerinə yetirilməsi daha yaxşı nəticə verir. Seçilmiş çalışmalar daha çox şeirin ideyası ilə bağlı müzakirələr aparılması üzərində qurulmuşdur. Çalışmalardakı tapşırıqlar üzərində işləyərkən şagirdlər müəyyən misralarda ifadə olunan fikirlərin mahiyyətini izah edir, onların mənası ilə bağlı fikir mübadiləsi aparır, bir-birinin fikirlərinə münasibət bildirirlər ki, bütün bunlar da, öz növbəsində, 2.1.3. alt-standartının reallaşdırılmasına şərait yaradır.

Dərslikdəki 8, 12 və 16-cı çalışmaların 2.1.4. alt-standartının reallaşdırılması istiqamətində yerinə yetirilməsi tövsiyə olunur. Qeyd edilən alt-standartın reallaşdırılması üçün seçilmiş bu çalışmaların icrası zamanı şagirdlər "Mənim dilim" şeirindən verilmiş nümunələrin şeirdəki yerini və məzmunla uyğunluğunu, indiyə qədər öyrənilmiş şeirlərdən verilmiş nümunələrin isə şeirin hansı hissəsinin məzmunu ilə bağlı olduğunu müəyyənləşdirir, aforizmlərin şeirin məzmunu ilə nə dərəcədə səsləşdiyini təyin edirlər.

Sonra müəllim şagirdləri qruplara bölür. Qruplara şeirdən çıxan nəticələrdən biri əsasında (çalışma 10) təqdimat hazırlamaq tapşırılır. Çalışmanı yerinə yetirən şagirdlər müxtəlif nümunələrdən istifadə edərək fikirlərini əsaslandırmalı olurlar ki, bu elə 4.1.1 alt-standartının praktik yolla reallaşdırılmasıdır. Bu alt-standart dərslikdəki 8-ci çalışmaya aid əlavə tapşırıqlar və 14-cü çalışmalarla da reallaşdırıla bilər ki, bu, müəllimin seçimindən asılıdır.

Təqdimatını bitirən qruplara əlavə olaraq, qrammatik çalışmaların icrası tapşırılır. Bu məqsədlə 4, 6, 11, 15-ci çalışmalardan hər biri müəllimin məsləhət bildiyi bir qrupa tövsiyə edilir. Qrupların işləməsi üçün təyin edilən vaxt bitdikdən sonra təqdimatlar müdafiə olunur və onların fəaliyyəti qiymətləndirilir.

4.1.3. alt-standartının tələbi dərslikdəki 9-cu çalışma vasitəsilə həyata keçirilir.

**Məlumat mübadiləsi:** "Hikmət xəzinəsi"ndən rubrikasında verilən aforizmlərin üzərində, eləcə də çalışmalarda qoyulan tapşırıqlar əsasında məlumat mübadiləsi aparılır. Şagirdlər şeirdən çıxardıqları nəticə əsasında aforizmlərin mənalarını təhlil edir və fikirlərini yoldaşları ilə bölüşürlər.

**Nəticə:** Aparılan işin yekunu olaraq şagirdlər belə nəticəyə gəlirlər ki, həqiqətən də, xalqın dili onun ruhudur, mənəvi irsidir. Ana dilimiz ulu babalarımızdan bizə qalmış yeganə mirasdır. Biz onu qorumalı, gələcək nəsillərə çatdırmalıyıq.

Dilimizi ona görə qorumalıyıq ki, bu dil bizim ləyaqətimiz, şərəfimizdir. Əgər dilimizi qoruya bilmiriksə, deməli, şərəfimizi və ləyaqətimizi də qoruya bilmirik və beləliklə də, şərəfsizləşirik. Şərəfsiz yaşamaq isə yaşamaq deyildir. Ölüm ondan yaxşıdır.

Dilimiz yaşamırsa, deməli, bu dildə danışan xalq, bu dilin fəaliyyət göstərdiyi məmləkət də yaşamır! Buna isə heç bir vəchlə yol vermək olmaz! Dilimizi qorumaq, yaşatmaq, inkişaf etdirmək hər bir Azərbaycan vətəndaşının ən ümdə vəzifəsidir, əzəli və əbədi borcudur!

Kim ki öz ana dilinə xor baxır, onun Vətən torpağında yaşamağa haqqı yoxdur. Şeirdə deyildiyi kimi:

“Kim qoruya bilməyirsə, öz yurdunu, yuvasını,
Udmasın yurd havasını!”

Uşaqlar, gəlin elə edək ki, doğma dilimiz daim tərəqqi etsin. Dünyanın ən ali tribunalarından doğma dilimizdə nitqlər səslənsin. Dünya dilləri içərisində öz gözəlliyi ilə seçilən ana dilimizi qoruyun və sevin!

**Yaradıcı tətbiqetmə:** 14-cü çalışmada qoyulan tapşırıqlardan biri əsasında təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Şeiri əzbərləmək.

## İki dost qaçırdı (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d.- 2.2.2.; 4.1.4. Az.t.-3.1.1. |
| 2 | Müzakirədə deyilən fikirlərə münasibət bildirir. Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.3. 2.1.4. | |
| 3 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4 | Cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Cütlər, böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, səs assosiasiyası, müzakirə.

**Resurslar:** Proyektor, elektron lövhə, dərslik.

**Motivasiya:** Müəllim elektron lövhədə internet səhifələrindən Qarabağ müharibəsinə həsr olunmuş bədii və sənədli filmlərdən parçalar nümayiş etdirir. Bu, "Fəryad" filmindən bir kadr da ola bilər. Sonra müəllim sinfə belə bir sualla müraciət edir:

Oxuduqlarınız, eşitdikləriniz və gördükləriniz əsasında Qarabağ müharibəsinin çətinlikləri ilə üzləşən uşaqların həyatı haqqında nə deyə bilirsiniz?

– Necə bilirsiniz, bəs yuvasından ayrı düşən heyvanların aqibəti necə olur?

Şagirdlərin cavablarını dinlənilir.

**Tədqiqat sualı:** Qarabağ müharibəsində insanlar öz doğma yurd-yuvalarından didərgin düşmüş, kənd və şəhərlərimiz dağıdılmlş, maddi-mədəniyyət abidələrimiz vəhşicəsinə məhv edilmişdir. Bəs bu savaş itirilmiş torpaqlarımızın fauna və florasında öz dağıdıcı izlərini necə qoymuşdur? Bu barədə nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat "İki dost qaçırdı" mətninin oxusu ilə başlanır. Oxu zamanı şagirdlər səs tonu və tempi gözləməklə mətni oxuyur və mətnin mövzusu ilə bağlı fikirlərini bölüşürlər. Çətin sözlərin mənası izah edilir. Lüğət üzrə iş aparılır: sözlər və ifadələr ayrı-ayrı cümlələrdə işlədilir. Mətnin oxusu prosesində şagirdlərin nitqində ritm və tempdən düzgün istifadəyə diqqət yetirilir, nöqsanların aradan qaldırılması üzərində əməli iş aparılır. 2, 3-cü çalışmaların icrası mətnin məzmununun mənimsədilməsinə kömək edir. Bu çalışmalar həmçinin diqqətin mətndəki əsas fakt və hadisələr üzərində cəmləşdirilməsinə imkan yaradır. Qeyd edilən çalışmaları cütlərlə iş formasında təşkil etmək olar. Hər cütlük tərtib etdikləri sualları müəllimin tövsiyə etdiyi cütlüklərdən birinə ünvanlayır və suallar cavablandırılır. Bu mərhələdən sonra cütlər verilmiş plan nümunələrində ardıcıllığı bərpa etmək üzərində işləyir, məntiqi düşünmə bacarığını nümayiş etdirirlər. Bu tapşırıqlarla yanaşı, 4, 5, 9-cu çalışmaların icrası da 3.1.3 alt-standartının reallaşdırılması üçün nəzərdə tutulur. Bu çalışmalar üzərində işi müəllim bütöv siniflə apara bilər.

2.1.3 və 2.1.4. alt-standartlarının reallaşdırılması dərslikdəki 6, 7, 8, 14, 15-ci çalışmalarla həyata keçirilə bilər. Şagirdlər çalışmalarda qoyulan tapşırıqlar üzərində işləyərkən mövzu ilə bağlı söylənilən fikirlərə münasibət bildirir, eşitdikləri və oxuduqları müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edirlər. Çalışmalar üzərində bu işlər kiçik qruplar tərəfindən icra olunur və nəticələr qiymətləndirilir.

3.1.3. alt-standartı üzərində işlərin 11, 12, 13-cü çalışmalar və "Bunları bilirsinizmi?" rubrikasında verilmiş məlumat vasitəsilə həyata keçirilməsi

nəzərdə tutulmuşdur. Belə ki, 11-ci çalışma vasitəsilə şagirdlər mətndə işlənmiş ədatlar üzərində müşahidə aparır, məlumatı qəbul etməyə hazırlanırlar. Ədatın nitqdə yerinə yetirdiyi qrammatik vəzifə ilə tanış edildikdən sonra şagirdlər 12 və 13-cü çalışmalarda qoyulmuş tapşırıqlar üzərində işləməklə verilmiş qrammatik materialı mənimsəməyə çalışırlar.

**Məlumat mübadiləsi:** Mətnin məzmunu ilə tanışlıqdan və çalışmalar üzərində işlədikdən sonra şagirdlər Tamerlan ilə Ala itin dostluğunu, həmçinin düşmənlərin əsarətində olan torpaqlarımızda törədilən talan və dağıntıların miqyasını müzakirə edirlər.

**Nəticə:** Mətnin məzmunu və yerinə yetirilmiş çalışmalar üzərində işin nəticəsində şagirdlər belə nəticəyə gəlirlər ki, Qarabağ savaşı bu torpaqların əzəli sakinləri olan vətəndaşlarımızın həyatında öz dəhşətli izlərini qoyduğu kimi, bu diyarın fauna və florasına da dağıdıcı təsir göstərmişdir. Mənfur ermənilər Qarabağ torpaqlarından narkotik maddələrin yetişdirilməsi, tranziti kimi istifadə edir, meşələrimiz məhv edilir, əkinə yararlı torpaqlarımızın bitki örtüyü yandırılır ki, bu da torpağın keyfiyyətcə dəyişməsi ilə nəticələnir.

İşğal edilmiş ərazilərin faunası da bu müharibədən ciddi zərər görmüşdür. Bəzi heyvan növlərinin nəsli kəskin azalmış, heyvanlar öz təbii mühitlərindən uzaq düşmüşlər.

Əgər Tamerlan heç nədən qorxmayıb öz Ala itinin dalınca getməsə idi, o it də orada quduz düşmənlərin qurbanına çevriləcəkdi, onu da digər canlıların aqibəti gözləyəcəkdi. Bir sözlə, bu dağıdıcı müharibənin torpaqlarımıza vurduğu ziyanın miqyası ölçüyə gəlmir.

## BUNLARI BİLİRSİNİZMİ?

Ədatlar sözlərin və cümlələrin **təsir gücünü** artırmaqla, həm də onlara müəyyən **məna çalarları** verir. Bu baxımdan ədatların aşağıdakı məna növləri vardır:

1) **Qüvvətləndirici** ədatlar – ən, lap, artıq, axı, da, də, ha, olduqca, daha, -ca$^2$, bir.

2) **Məhdudlaşdırıcı** ədatlar – yalnız, bircə, tək, təkcə, ancaq.

3) **Sual ədatları** – məgər, bəs, ki, yəni, -mı$^4$.

4) **Əmr ədatları** – di, bax, baxın, baxsana, qoy, qoyun, qoysana, -sana$^2$, gəl ...

Bunlardan başqa, ədatların **dəqiqləşdirici** (elə, məhz, əsl), **arzu** (kaş, təki, kaş ki, barı), **təsdiq və inkar** (hə, yox, bəli, xeyr, heç) kimi növləri də var.

**Yaradıcı tətbiqetmə:** 14-cü çalışma əsasında həyata keçirilir.
**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.
**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

# Tamaşa baş tutmadı (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir. | 2.1.1. | R.d.- 2.2.3.<br>Az.t.-3.1.2. |
| 2 | Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | 2.1.3. | |
| 3 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 4 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 5 | Cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə.

**Resurslar:** Dərslik, elektron lövhə.

**Motivasiya:** Müəllim elektron lövhədə "Azərbaycanfilm"in istehsal etdiyi "Onu bağışlamaq olarmı?" bədii filmindən dinc əhalinin istirahət zamanı əyləncəsi təsvir edilmiş kadrları göstərir. Birdən bomba atılır və camaat pərən-pərən düşərək hərə bir yerə dağılışır. Müəllim şagirdlərdən soruşur:

– Bu kadrlar sizə necə təsir bağışladı? Sizcə, filmdə hansı müharibədən söhbət gedir?

Şagirdlərin fərziyyələri dinlənilir.

**Tədqiqat sualı:** Müharibə insan həyatında necə izlər qoyur? Tanıdığınız şəxsiyyətlər içərisində müharibə ilə yaradıcılığına son qoyulan hansı xalq və əmək qəhrəmanlarını tanıyırsınız?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki "Tamaşa baş tutmadı" mətninin oxusu ilə başlayır. Çətin söz və ifadələrin mənası izah edilir, "Söz-lük" və "Söz ehtiyatı"ndakı sözlər cümlədə işlədilir, sinonimləri tapılır. Sonra şagirdlərin söz ehtiyatlarını artırmaq, düzgün cümlə qurmaq qabiliyyətlərini inkişaf etdirmək, öyrəndikləri dil materiallarını praktik yolla tətbiq etmək imkanlarını genişləndirmək məqsədilə çalışmalar yerinə yetirilir.

2.1.3. alt-standartı üzrə bacarıqların formalaşdırılmasını müəllim mətn üzrə işlə həyata keçirir. Şagirdlər yoldaşlarının söylədiyi fikirlərə münasibət bildirərək çalışma 1-də verilmiş sualları cavablandırırlar. İş qrup daxilində görülə bilər. Qruplar öz variantlarını təqdim edirlər.

2-ci çalışma üzərində işləyərkən şagirdlər qrup daxilində bir-birinin fikrinə münasibət bildirməklə Zibanın xarakterik xüsusiyyətlərini ortaya çıxarmağa çalışırlar. Fikirlər söylənilən zaman müəllim onları istiqamətləndirərək nitqlərindəki qüsurları düzəldir. 3-cü çalışmanın şərtinə əsasən mətnin məzmunu əsasında Zibanın vətənpərvərliyi haqqında fikir mübadiləsi aparılır. Ahəng qanununa uyğun şəkilçi variantı seçmək, sözlərin düzgün tələffüzünə nail olmaq məqsədilə 4-cü çalışma yerinə yetirilir Bu çalışmanı qruplar ayrı-ayrılıqda yerinə yetirə bilərlər.

Dərslikdəki 5, 8, 10, 11-ci çalışmalar əsas və köməkçi nitq hissələrinin qrammatik mənasının dərk edilməsi, eyni zamanda, həmin nitq hissələri ilə bağlı orfoqrafiya bacarıqların təkmilləşdirilməsi üçün hazırlanmışdır. 3.1.3. alt-standartının reallaşdırılması üçün şagirdlər 6-cı çalışma üzərində işləyirlər. Belə ki, mətndəki fakt və hadisələr barədə aydın təsəvvürə malik olmadan verilmiş parçanın mətnlə əlaqəsi olub-olmadığını əsaslandırmaq mümkün deyildir. Beləliklə, bu çalışma üzərində işi qruplar müştərək şəkildə yerinə yetirə bilərlər.

“Hikmət xəzinəsindən” rubrikasında verilmiş aforizm şagirdlərə oxutdurulur. Aforizmin mənası şagirdlərə izah edilir. Bundan sonra şagirdlər həmin aforizmin mətnin ideyası ilə bağlılığını müzakirə edirlər və bu zaman 2.1.4. alt-standart reallaşdırılır.

12-ci çalışma da qruplarla iş formasında icra edilir. Şagirdlər verilmiş söz birləşmələrini mövzu üzrə cümlələrdə işlədirlər və bu cümlələri elə əlaqələndirirlər ki, kiçik bir mətn alınır.

Qruplara verilən vaxt bitdikdən sonra şagirdlər öz işlərini təqdim edirlər və nəticələr müzakirə edilir.

Müəllim şagirdlərə “Bunları bilirsinizmi?” rubrikasında ədatların ofoqrafiyası haqqında verilmiş məlumatı şərh edir və şagirdlərin diqqətini mətndə qrımızı rənglə fərqləndirilmiş köməkçi nitq hissələrinin, o cümlədən ədatların orfoqrafiyasına cəlb edir. Şagirdlər cədvəldə verilmiş ədatları cümlələrdə işlədərək fikir mübadiləsi aparırlar.

**Məlumat mübadiləsi:** Şagirdlər mətndə rast gəldikləri “Mən Ziba Qəniyevanın şəxsində gələcəyin teatr ulduzunu görürəm” fikri və tədqiqat sualında qoyulmuş mövzu ətrafında müzakirə aparırlar.

**Nəticə:** Şagirdlər oxunmuş mətnin məzmunu əsasında tədqiqat sualına cavab tapır, fikirlərini fakt və hadisələrlə əsaslandırırlar. Ziba Qəniyeva ilə tanış olmaqla öyrənirlər ki, insan üçün vətəndən əziz həyatda heç nə ola bilməz. Müharibə isə neçə-neçə insanın arzusunu gözündə qoymuş, neçə-neçə insanın ümid və arzularını söndürmüşdür.

Bugünkü nəslin nümayəndələri Zibanın həyatını öyrənməklə ondan nümunə götürür və itirilmiş torpaqlarımızı geri qaytarmaq arzusu ilə yaşayırlar.

**Yaradıcı tətbiqetmə**: Ziba Qəniyevanın həyat yolunu izləmək istəyirsinizsə, araşdırma aparın.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətni danışmaq.

## İki ana (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | 2.1.3. | H.b.- 1.2.1.<br>Biol.- 1.1.2.<br>4.2.1. |
| 2 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir | 3.1.1. | |
| 4 | Cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |
| 5 | Durğu işarələri qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kiçik qruplarla və kollektivlə iş.

**Dərsin üsulu:** Müzakirə, debat, beyin həmləsi.

**Resurslar:** Dərslik, elektron lövhə, film.

**Motivasiya:** Müəllim elektron lövhədə "Heyvanlar aləmində" seriyasından olan verilişdən ceyranlara həsr olunmuş parçanı tapır və şagirdlərə göstərir. Sonra sinfə müraciət edir:

– Ceyran təbiətin yaratdığı ən incə heyvanlar sırasına aiddir. Bu heyvan haqqında hansı məlumatınız var?

Şagirdlər fərziyyələrini söyləyirlər. Müəllim onları istiqamətləndirir və nitqlərindəki qüsurları düzəldir.

**Tədqiqat sualı:** Anaların övladına olan məhəbbətini öz üzərinizdə hər zaman hiss edirsiniz, bu barədə kitablardan oxumusunuz, filmlərdə görmüsünüz. Bəs heyvanlarda olan ana-bala məhəbbəti haqqında nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Tədqiqat "İki ana" mətninin oxusu ilə başlayır. "Sözlük"dəki çətin sözlər izah edilir və cümlələrdə işlədilir. Mətnin ideyasını müəyyənləşdirmək məqsədilə (çalışma 1) müəllim şagirdləri qruplara bölür. Verilən vaxt bitdikdən sonra qrup üzvləri mətnin ideyası haqqında düşündüklərini deyirlər və hər qrup digər qrupun fikirlərinə öz münasibətini bildirir.

2, 3, 4, 5-ci çalışmalarda diqqət bir daha mətnin məzmununa yönəldiyindən mətnin məzmunu üzrə ziddiyyət təşkil edən fikirlər aşkarlanır və cümlələri mətnin məzmunu üzrə bitirmək üçün əlverişli məqam yaranır. Müəllim bu tapşırıqların qruplarla yerinə yetirilməsini təklif edir. Qrup üzvləri hadisəni öz sözləri ilə təsvir edir, mətnin məzmunu ilə bağlı olan atalar sözlərini təyin edirlər.

6-cı çalışma şagirdlərin söz ehtiyatlarının zənginləşdirilməsi üçün nəzərdə tutulmuşdur.

Abzaslar və cümlələr arasındakı əlaqəni gözləməklə qrup üzvləri hekayədə baş vermiş hadisə, ananın keçirdiyi təlaş haqqında fikirlərini yoldaşları ilə bölüşürlər.

Müəllim S.Vurğunun aforizmlərini oxutdurur və mənasını şagirdlərlə birlikdə aydınlaşdırır. Bununla da 9-cu çalışmanın şərtinə əsasən şagirdlərin söz ehtiyatları yeni sinonim və antonim sözlərlə zənginləşir.

Səs tonu, temp və fasiləni gözləməklə (3.1.2. alt-standartı) müəllim şagirdlərə "Ceyran" şeirini oxutdurur. Şagirdlər şeirlə oxuduqları mətnin məzmunu arasındakı əlaqəni müəyyənləşdirməyə çalışırlar. Bu işdə onlara müəllim yardımçı olur. Qruplara tapşırılır ki, şeirin hər bəndi üzrə fikirlərini təqdimat formasında ifadə etsinlər. Təqdimat zamanı şagirdlər ceyranın təsvirini öz sözləri ilə ifadə etməli və nitqlərində modal sözlərdən istifadə etməlidirlər. Bununla şagirdlər köməkçi nitq hissələrindən biri kimi, modal sözlər haqqında bilik və bacarıqlarını inkişaf etdirirlər. Bu məqsədlə 12, 13, 14-cü çalışmalar yerinə yetirilir.

Qrup üzvləri durğu işarələri qaydalarını bir daha yada salaraq 16-cı çalışmanın şərtini yerinə yetirirlər.

Cavablar dinlənilir və qiymətləndirilir.

**Məlumat mübadiləsi:** "İki ana" mətninin və "Ceyran" şeirinin oxusu, eyni zamanda, çalışmalar üzərində iş ana məhəbbətinin müqəddəsliyi ilə bağlı şagirdlərin fikirlərinin durulmasına şərait yaradır, fikir mübadiləsinə imkan verir.

**Nəticə:** Ana məhəbbəti müqəddəsdir. Bu məhəbbətin böyüklüyü qarşısında heç nə tab gətirə bilməz. Həqiqətən də, babalarımız düzgün demişlər: "Ana balaya baxar, özünü oda yaxar." Həyatda övladının bir xoş təbəssümü üçün canını verməyə hazır olan analarımız var. Bu hislər bütün canlılara aiddir.

**Yaradıcı tətbiqetmə:** Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmiş ceyran haqqında informasiya toplamaq və təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətni danışmaq. Kim istəsə şeiri əzbərləyə bilər.

# Novruz "yeni gün" deməkdir (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətnin və şeirin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d. - 4.1.2.<br>Mus.-1.2.1. |
| 2 | Ahəng qanununa uyğun şəkilçi variantı seçir, nümunələri mətnin hissələrinə uyğunlaşdırır. | 2.1.1.<br>2.1.4. | |
| 3 | Nitq hissələrinin qrammatik mənalarını izah edir, səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | 3.1.1.<br>3.1.2. | |
| 4 | Müxtəlif əməli yazılar yazır. | 4.1.4. | |

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük qrupla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, sual-cavab.

**Resurslar:** Proyektor, dərslik, kompüter.

**Motivasiya:** Müəllim elektron lövhədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, xanımı Mehriban Əliyeva ilə Novruz bayramı münasibətilə şəhərdə keçirilən Novruz şənliyində iştirakı təsvir olunmuş kadrları canlandırır. Monitorda müxtəlif Novruz adətlərini əks etdirən görüntülər işıqlandırılır. Sonra müəllim sinfə müraciət edir:

– Novruz bayramının xalqımız üçün necə önəmli olması faktları barədə nə deyə bilərsiniz?

Şagirdlər müxtəlif cavablar söyləyirlər. Dövlət rəhbərinin də bu günü xalqla birlikdə qeyd etməsi, xalq gəzintilərində, şənliklərdə iştirak etməsi bu bayramın bizim üçün çox önəmli, fərqli və əlamətdar olması vurğulanır.

**Tədqiqat sualı:** Bəs Novruz bayramının keçirilməsinin mahiyyəti, onun hansı ölkələrdə keçirilməsi barədə nə bilirsiniz?

**Tədqiqatın aparılması:**

Tədqiqat dərslikdəki "Novruz "yeni gün" deməkdir" mətninin oxusu ilə başlanır. Şagirdlər səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur (3.1.2. alt-standartı), suallara cavab verirlər (1.1.1. alt-standartı). Suallar 1-ci çalışmada verilmişdir. 1.1.1. alt-standartına uyğun olaraq 2-ci çalışmanın icrası tapmacaların cavablarını tapmaq və onları mətnin məzmununa uyğunlaşdırmaqdır. 10-cu çalışmada həmin standartı reallaşdırmaq, Novruz inancları barədə məlumat toplamaqla, onları mətnin hissələrinə uyğunlaşdırmaq nəzərdə tutulmuşdur. Şagirdlərin qrammatik anlayışlara dair biliklərini yoxlamaq, 3.1.1. alt-standartını reallaşdırmaq məqsədilə dərslikdəki 3, 4, 6, 7, 8, 9, 10-cu (II hissəsi) çalışmalara müraciət etmək lazımdır.

## BUNLARI BİLİRSİNİZMİ?

Azərbaycan dilində işlənən köməkçi söz qruplarından biri də **modal sözlərdir**. Modal sözlər **danışanın ifadə etdiyi fikrə münasibətini** (yəqinlik, nəticə, təəssüf, ardıcıllıq, güman, şübhə, fikrin mənbəyini, müqayisə və s.) bildirir. Məs.: **Məncə**, bunlar modal sözdür. **Nəhayət**, imtahanlar başladı.

Dilimizdə ən çox işlənən modal sözlər aşağıdakılardır: həqiqətən, əlbəttə, doğrudan (da), sözsüz, şübhəsiz, deyəsən, bəlkə (də), yəqin (ki), deməli, nəhayət, beləliklə, axır (ki), əvvəla, birincisi, heyf (ki), təəssüf (ki), məncə, fikrimizcə, mənə görə, sanki, elə bil (ki) və s.

Dərslikdə "Modal sözlər" barədə qrammatik məlumatın öz əksini tapması da şagirdlərin köməkçi nitq hissələrinə dair məlumatlarını genişləndirmək məqsədini daşıyır. Şagirdlər nəzəri məlumatla tanış olduqdan sonra, onları təcrübi cəhətdən yoxlamaq məqsədilə 10-cu çalışmanın II hissəsi və 17-ci çalışmaya müraciət edə bilərlər.

Dərsin II hissəsi M.Müşfiqin "Bayram axşamı" şeirinə həsr edilib. Şagirdlər şeiri oxuyurlar, nəsrə çevirib öz sözləri ilə danışırlar, mətndə təsvir olunanları şeirdəki hadisələrin təsviri ilə əlaqələndirirlər (2.1.4. alt-standartı). Şeirdəki çətin söz və ifadələrin mənaları üzərində iş aparılır. Çalışma 12-də verilmiş şeir parçalarından hansının şeirdəki mövsüm-mərasim nəğməsinə uyğun olması faktı araşdırılır ki, bu da 2.1.4 alt-standartının reallaşdırılmasıdır.

Çalışma 13 isə 2.1.1. alt-standartının reallaşdırılması üçündür. Bu zaman şagirdlər düzgün şəkilçi variantını seçmək bacarıqlarını nümayiş etdirirlər. Şeirin məzmunu üzərində iş üçün çalışma 16 məqsədəuyğun hesab edilməlidir. Bu zaman şagirdlər Novruz adətlərindən neçəsinin şeirdə öz əksini tapması barədə fikir yürüdürlər.

**Məlumat mübadilləsi** çalışma 14-də verilən şərtlərə uyğun aparılır. Şagirdlər Novruzu keçirmələri barədə öz təəssüratlarını yoldaşları ilə bölüşərək, müzakirəyə qoşulurlar.

**Nəticə:** Mətnin əvvəlində ümummilli liderimiz Heydər Əliyevdən gətirilmiş sitatda deyildiyi kimi, həqiqətən də, Novruz hər birimizin qəlbinin bayramıdır. O ən doğma, ən milli bayramdır. Türkdilli Şərq xalqları arasında birlik, mehribanlıq yaradan bayramdır. Hər bir xalq öz milli bayramının dəyərini, qiymətini bilib, onu qorumalı, gələcək nəsillərə ötürməlidir. Bu bayram xalqımızın mənəvi irsidir. 2009-cu ildə Novruz YUNESKO-nun qeyri-maddi mədəni irsi siyahısına daxil edilmişdir.

Çalışmalar üzərində işləmək və mətnin məzmunu əsasında şagirdlər öyrənirlər ki, Novruz Azərbaycandan başqa, orta Asiyada, İranda, Pakistanda,Türkiyədə və türklər yaşayan digər ölkələrdə də bayram edilir.

**Yaradıcı tətbiqetmə:** Çalışma № 5 əsasında həyata keçirilir.
**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.
**Ev tapşırığı:** Çalışma 15 üzərində iş.

## Zəmidə bir turac səslənirdi... (2 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir. | 1.1.1. | R.d. - 4.1.4.<br>H.b.- 1.2.1. |
| 2 | Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur | 3.1.2. | |
| 4 | Nitq hissələri ilə bağlı yazılış qaydalarına əməl edir. | 4.1.3. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.
**Dərsin üsulu:** Əqli hücum, suall-cavab, təqdimat.
**Resurslar:** Dərslik, kompüter, proyektor.
**Motivasiya:** Müəllim proyektoru işə salır. İnternetin köməyi ilə turac quşunun görüntülərini monitorda canlandırır. Şagirdlərdən bu quşun adını soruşur:

– Bu quşun adını bilirsinizmi?

Şagirdlər müxtəlif adlar söyləyirlər. “Turac” söyləyənlər də olur.

**Tədqiqat sualı:** Təbiətin bu zərif quşuna aid olan bir sıra xüsusiyyətlər var. Onlardan hansılarını bilirsiniz? Bu zərif quşların ovlanmasına münasibətiniz necədir?

**Tədqiqatın aparılması:** Tədqiqat dərslikdəki “Zəmidə bir turac səslənirdi...” hekayəsinin oxusu ilə başlanır. Səs tonu, temp və fasiləni gözləməklə şagirdlər mətni oxuyurlar (3.1.2. alt-standartının reallaşdırılması üçün). Hekayədən çıxan nəticə barədə fikirlərini bölüşürlər. 2.1.4. alt-standartına uyğun seçilmiş 2-ci çalışmada şagirdlər verilmiş atalar sözlərinin mətnlə uyğunluğunu araşdırırlar. 1.1.1. alt-standartına uyğun seçilmiş 4-cü çalışmanın icrası zamanı şagirdlər mətnin planını tərtib edirlər.

Mətnin məzmununu daha yaxşı qavramaq məqsədilə müəllim şagirdləri qruplara bölür, onlara mətnin sonluğunu hazırlamağı tapşırır. Hər qrup öz variantını təyin olunmuş vaxt bitdikdən sonra təqdim edir. Qrupların fəaliyyəti qiymətləndirilir.

Müəllim şagirdləri "Bunları bilirsinizmi?" rubrikasında modal sözlərdə durğu işarələrindən istifadə haqqında verilmiş yığcam məlumatla tanış edir. Sonra şagirdlərin nəzəri məlumatları təcrübədə tətbiq etməsinə şərait yaratmaq, həmçinin 3.1.1. və 4.1.3. alt-standartlarının reallaşdırılmasını təmin etmək məqsədilə 6, 7, 8, 9, 11, 12, 13-cü çalışmalar üzərində işə keçir.

Qeyd edilən çalışmaların cütlərlə iş formasında yerinə yetirilməsi planlaşdırıldığından cütlüklər formalaşdırılır və seçilmiş çalışmalardan hər biri icra üçün müəllimin tövsiyə etdiyi cütlüklərdən birinə tapşırılır.

## BUNLARI BİLİRSİNİZMİ?

Modal sözlər cümlənin əvvəlində gəldikdə ondan sonra, ortada gəldikdə hər iki tərəfdən, axırda gəldikdə isə ondan əvvəl vergül işarəsi qoyulur. Məsələn: 1) **Məncə**, bu il yaz gecikir. 2) Sabah, **deyəsən**, yağış yağacaq. 3) Onlar gecikirlər, **deyəsən**. "**Sanki**, **elə bil**, **guya** modal sözlərində vergül işarəsi qoyulmur."

**Məlumat mübadiləsi:** Şagirdlər dərslikdəki 3, 5-ci çalışmalarda qoyulmuş tapşırıqlar üzrə fikir mübadiləsi aparır, hekayədəki Həsənlə dostunun hərəkətlərini müzakirə edirlər.

**Nəticə:** Təbiətin hər bir canlısını qorumaq, ona dəyər vermək lazımdır. Hər quşu, hər heyvanı ovlamaq olmaz. Xüsusən də quşların bala çıxaran vaxtı onları ovlamaq günahdır. Təcrübəli ovçular bunları bilirlər.

Oxuduqları hekayədəki Həsənin tərsliyi nəticəsində yaralanan turacın balası üçün keçirdiyi narahatlıq şagirdlərə təsir edir və onlar uşaqların bu hərəkətini pisləyirlər. Nə yaxşı ki Həsən və dostu öz hərəkətlərindən peşman olur, turaca və balasına köməklik göstərirlər. Bu peşmançılığın nəticəsində təbiətin ən gözəl varlıqlarından biri xilas edilir.

Şagirdlər belə nəticəyə gəlirlər ki, ana təbiəti zənginləşdirən, onun gözəlliyini artıran heyvan və quşları ovlamaq yox, onların çoxalıb artması qayğısına qalmaq hər bir vicdanlı insanın borcu olmalıdır.

**Yaradıcı tətbiqetmə:** 14-cü çalışmanın tapşırığı üzrə təqdimat hazırlamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Mətnin məzmununu danışmaq.

## Əllamə (1 saat)

| № | Gözlənilən təlim nəticələri | Məzmun standartı | Fənlərarası inteqrasiya |
|---|---|---|---|
| 1 | Mətndə əsas fakt və hadisələri qruplaşdırır. | 1.1.2. | R.d. -4.1.2.; 4.1.4. |
| 2 | Nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | 2.1.4. | |
| 3 | Əsas və köməkçi nitq hissələrini qrammatik mənasına görə izah edir. | 3.1.1. | |
| 4 | Cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | 3.1.3. | |
| 5 | Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | 4.1.1. | |

**Dərsin tipi:** İnduktiv.
**Dərsin forması:** Kiçik qruplarla iş.
**Dərsin üsulu:** Əqli hücüm, təqdimat, müzakirə.
**Resurslar:** Dərslik, kompüter, proyektor.
**Motivasiya:** Müəllim şagirdlərə rəvayət danışır:

Bir gün sultan öz adamlarıyla gəzintiyə çıxmışdı. Çöllükdə qoyunları otaran bir balaca uşağa rast gəlir. O, uşaqdan soruşur:

– Ay uşaq, nə edirsən?
– Çör-çöp yığıram.

Sultan uşağı sınamaq məqsədilə deyir:

– Çör nədir, çöp nədir?
– Çöp dayananlar, çör yıxılanlar.

Uşağın cavabı sultanı təəccübləndirir.

– Kəndinizin böyükləri kimdir?
– İnəklər.
– Kəndə gələnləri kim qarşılayır?
– Köpəklər.

Sultan hirslənib qışqırır:

– Nə çapardım səni!
– Elə çap ki, yoldaşlarına çatasan.

Uşağın hazırcavablığından təəccüblənən sultan həmin uşağı valideynlərinin icazəsi ilə sarayına aparır. Sarayda onu alimlərə tapşıraraq savadlanmasına kömək edir.

Həmin uşaq sonralar məşhur şair Xaqani Şirvani kimi tanındı.

Müəllim sinfə sualla müraciət edir:

– Eşitdiyiniz rəvayətdə diqqətinizi cəlb edən nə oldu?
– Siz Xaqani Şirvani haqqında nə bilirsiniz? Bu ada harada rast gəlmisiniz?

Şagirdlərin fərziyyələri dinlənilir. Müəllim onların nitqindəki qüsurları düzəldir.

**Tədqiqat sualı:** Necə düşünürsünüz, hazırcavablıq yaxşı xüsusiyyətdir, yoxsa pis? Özünüzü hazırcavab hesab edirsinizmi? Hazırcavab insanları şanslı hesab etmək olarmı?

**Tədqiqatın aparılması:** Tədqiqat "Əllamə" mətninin oxusu ilə başlanır. Oxu prosesində şagirdlərin səs tonunun düzgün tənzimlənməsinə (2.1.2. altstandartı) diqqət yetirilir, müəyyən məqamlarla bağlı lazımi tövsiyələr verilir. Paralel olaraq mətnin məzmunu və sözlüyünün mənimsədilməsi üzərində iş aparılır, "Sözlük"dəki çətin sözlər izah edilir, lazım gəldikdə cümlələrdə işlədilir.

Mətnin oxusu başa çatdıqdan sonra şagirdlər qruplara bölünərək 3-cü çalışmanın şərtinə əsasən suallar tərtib edirlər. Qrup üzvləri sualları başqa qrup üzvlərinə ünvanlayaraq cavabları dinləyir və verilən cavablara münasibət bildirirlər.

Müəllim qiymətləndirmə apara bilər.

Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirmək məqsədilə (3.1.3. alt-standartı) 2-ci çalışma üzərində iş aparılır. Şagirdlər mətndə cümlələr arasında əlaqənin pozulduğu hissəni müəyyənləşdirir və fikirlərini əsaslandıraraq, pozulmuş əlaqəni bərpa etməyə çalışırlar. Müəllim onlara istiqamət verir.

Mətnin məzmununun daha yaxşı qavranılması üçün onun səhnələşdirilməsi yaxşı nəticə verir. Bunu cütlərlə iş formasında da həyata keçirmək olar.

Şagirdlər 5-ci çalışmada verilmiş cümlələrin mətndəki yerini müəyyənləşdirir və onun mətnin hissələrinin əlaqələnməsində rolunu izah edib, əsaslandırırlar. Bununla da 2.1.4. alt-standartını reallaşdırırlar.

Daha sonra qrup üzvləri 6-cı çalışmanın şərtinə əsasən, Əllamənin veziri güldürdüyü, hirsləndirdiyi və təəccübləndirdiyi müxtəlif situasiyaları yadlarına salıb danışır, onun hazırcavablığını müzakirə edərək münasibət bildirirlər.

Müəllim qruplara 7-ci çalışmada "Hikmət xəzinəsindən" rubrikasında verilmiş aforizmləri oxumağı tapşırır. Hər qrup bir aforizm üzərində tədqiqat işi apararaq əvvəl aforizmin mənasını izah edir, sonra aforizmlərdə işlənmiş düzəltmə və mürəkkəb sözləri seçib səsləndirir, onların hansı nitq hissəsinə aid olduğunu və hansı nitq hissəsindən düzəldiyini müəyyənləşdirirlər. Onlar daha sonra aforizmlərdə altından xətt çəkilmiş sözlərlə eyniköklü sözlər (biri feil olmaq şərtilə) düzəldib yazırlar.

3.1.1. alt-standartının reallaşdırılması üçün 8, 9, 10, 11, 12-ci çalışmaların icrasına keçilir. Çalışmaları icra edərkən şagirdlər mətndə altından xətt çəkilmiş sözlərdəki ümumi cəhəti müəyyənləşdirir, onların hərəkətə aid olduğunu əsaslandırır, mətndəki ədatları seçib qruplaşdırır, əlavə misallarla onların məna çalarlarını izah edir, qoşma və bağlayıcılara aid nümunələr tapıb

səsləndirirlər. Onlar həmçinin mətndə qırmızı rəngdə verilmiş nidaların qrammatik mənasını izah edir, sifət, say və əvəzliklərə aid mətndən nümunələr seçib yazır, hansı nitq hissəsinə aid olduğunu qarşılarında qeyd edirlər.

Qrup üzvləri 13-cü çalışmanın şərtinə əsasən, nümunələrdən istifadə etməklə atalar sözlərində buraxılmış sözləri yerinə qoyaraq fikirlərini əsaslandırırlar. 14-cü çalışma şagirdlərin lüğət ehtiyatlarının zənginliyini və birləşmə daxilində sözləri qrammatik normalar baxımından düzgün əlaqələndirə bilmək bacarığını yoxlamağa imkan verir. 15-ci çalışma isə şagirdlərin qrammatik biliklərinin səviyyəsini müəyyənləşdirmək üçün tərtib edilmişdir.

Müəllim "Bunları bilirsinizmi?" rubrikasında nida haqqında verilmiş məlumatla şagirdləri tanış etməli və köməkçi nitq hissəsi kimi, nidanın məna xüsusiyyətlərini izah edib aydınlaşdırmalıdır.

## BUNLARI BİLİRSİNİZMİ?

Nitqdə hiss və **həyəcan bildirmək üçün** istifadə edilən sözlərə **nida** deyilir.

Nidalar sevinc, şadlıq, ağrı, alqış, təəccüb, kədər, qorxu, çağırış, nifrət, narahatlıq və s. kimi mənalar ifadə edir: Məsələn, "1) **Bəh-bəh**, nə gözəl güllərdir! 2) **Ay aman**, nə qaranlıq gecədir! 3) **Ay** uşaqlar, bir bura gəlin görüm!" cümlələrindən birincisində işlənmiş nida sevinc, ikincisində qorxu, üçüncüsündə isə çağırış mənası bildirir.

Azərbaycan dilində **ən çox işlənən nidalar** aşağıdakılardır: ay can-ay can, bəh-bəh, paho, ura, ay aman, of, uf, ax, ay dad, ey, ay, hey, a, ah, vay, bıy, tfu, xox, bah, xa-xa-xa, eh, oxay, ehey, bay, ey vay, vay-vay, ay-hay, boy, can ey, heyhat və s.

**Məlumat mübadiləsi:** Şagirdlər hazırcavablıq barədə fikir mübadiləsi edir, Əllamənin hazırcavablığını müzakirə edərək müəyyən qənaətə gəlirlər.

**Nəticə:** İnsanda hazırcavablıq yaxşı xüsusiyyətdir, lakin düşünmək lazımdır ki, hazırcavablıq həmişə yerinə düşürmü? Çünki atalarımızdan qalan məsəldə deyilir ki, danışmaq gümüşdürsə, susmaq qızıldır. Hazırcavab insanlar dərin düşünmə qabiliyyətinə malik olurlar. Düşünmədən danışmaq, lazım oldu-olmadı ağılsız sözlər işlətmək isə bəzən insanı çətin vəziyyətdə qoyur, yaxud onu gülüş hədəfinə çevirir.

Əllamənin hazırcavablığı şagirdlər tərəfindən müxtəlif şəkildə qəbul edilir və qiymətləndirilir. Bəziləri belə hazırcavablığı yaxşı, bəziləri isə qəbuledilməz hesab edirlər. Uşaqlar özlərini Əllamə ilə müqayisə edir, bəzi məqamlarda hazırcavablıq göstərdiklərini qeyd edirlər. Onlar etiraf edirlər ki, yaxşı mənada, hazırcavab olmaq, lazımi məqamlarda hazırcavablıq nümayiş etdirmək heç də pis keyfiyyət deyil.

**Yaradıcı tətbiqetmə:** Dahi şəxsiyyətlərin hazırcavablığı ilə bağlı faktlar toplamaq.

**Qiymətləndirmə:** Seçilmiş qiymətləndirmə meyarlarına uyğun aparılır.

**Ev tapşırığı:** Plan əsasında mətnin məzmununu danışmaq.

## ÖZÜNÜZÜ YOXLAYIN I

**1.** Aşağıdakı mətni oxuyun və altından xətt çəkilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu təyin edin.

Gənc dostlar! Məktəb sizin uşaqlıq, yeniyetməlik və gənclik illərinizi əhatə edir. Buna görə də məktəbə qədəm qoyduğunuz andan nəzakətli davranışınızla onu tamamlamalısınız. Məktəbə vaxtında getmək, dərsə gecikməmək hər birinizin əzəli borcudur.

Məktəbin həyatində rastlaşdığınız müəllimlərə, xidməti işçilərə, yaşıdlarınıza salam verməlisiniz.

Sinif otağı sizin sevimli yerinizdir. Buna görə də oturduğunuz partanı təmiz və səliqəli saxlayın.

A) isim B) sifət C) say
D) əvəzlik E) feil

❁ Mətndə işlənmiş mənsubiyyət şəkilçili sözləri tapıb neçənci şəxsi bildirdiyini deyin və hər birini aid olduğu sözlərlə birlikdə səsləndirin.

❁ Mətndəki əsas fikri müəyyənləşdirin. Necə bilirsiniz, mətndə məktəblilərə necə müraciət olunur?

A) məktəblilərdən xahiş olunur
B) məktəblilərə əmr edilir
C) məktəblilərə tövsiyə edilir
D) məktəblilərdən tələb olunur
E) məktəblilərə tapşırıq verilir

**2.** “Kitablar qocalıqda ən yaxşı dost, cavanlıqda ən yaxşı rəhbərdir” aforizmi aşağıdakı hansı mətn və ya şeirin mövzusu ilə səsləşir?

A) İnşa B) Burada nə var ki? C) Dostum
D) Saqqallı uşaq E) Səhərin keşikçiləri

**3.** Aşağıdakı fikir hansı mətndəndir? Bu mətnin əsas ideyası haqqında fikirlərinizi yoldaşlarınızla bölüşün.

**Zənnimcə, millətinə kömək etmək istəyən hər kəs elm və maarifə fikir verməlidir.**

**4.** “Səhərin keşikçiləri” şeirində neçənci şəxsə müraciət olunur? Fikrinizi şeirdən götürülmüş misallarla əsaslandırın.

A) I şəxs, tək B) II şəxs, cəm C) III şəxs, cəm
D) I şəxs,cəm E) II şəxs, tək

**5.** Ümummilli liderimiz H.Əliyevin aşağıda verilmiş fikrini oxuyun və qara şriftlə verilmiş birləşmədə nəyə işarə edildiyi ilə bağlı fikirlərinizi səsləndirin.

“Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, **övladları** var. Fəxr edirəm ki, Azərbaycanın **gələcəyi** bu qədər **gözəl təməl** əsasında qurulur. Siz bugünkü **həyatınız**la, **təhsiliniz**lə, öz **istedadınızı** inkişaf etdirməklə Azərbaycanın **gələcəyi**nin binasını qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayacaq Azərbaycanın böyük **binasını** qurursunuz“.

✿ Sitatdakı sifətləri seçib yazın və hər birinin qarşısında sinonimini qeyd edin.

✿ Yaşıl şriftlə verilmiş sözləri dəftərinizə köçürün, həmin sözlərdəki mənsubiyyət şəkilçilərinin altından xətt çəkin və neçənci şəxsi bildirdiyini qarşısında qeyd edin.

✿ Yaşıl rəngdə verilmiş sözləri əlaqələndiyi sözlərlə birlikdə köçürün və həmin sözlərin ismin hansı halında işləndiyini müəyyənləşdirib qarşısında qeyd edin.

**6.** “Bahar fəsillər gözəlidir” inşasını kim yazmışdı? Rasim, yoxsa Elçin? Fikirlərinizi əsaslandırın.

**7.** Aşağıda adları göstərilən mətnlərdən hansında ölməz şairimiz Səməd Vurğundan söhbət açılır?

A) Burada nə var ki?
B) İnşa
C) Maraqlı görüş
D) Qoçaqlar həmişə ürəkli olur!..
E) Gözəl təşəbbüs

**8.** Aşağıdakı cümlədə işlənmiş mənsubiyyət şəkilçili sözlər hansı variantda düzgün əks olunub? Fikrinizi əsaslandırın.

**Balalarım, bu yazını yazan da sizin kimi uşaq idi, ancaq bircə fərqiniz oradadır ki, onun saqqalı var, sizin hələ saqqalınız yoxdur.**

A) fərqiniz, saqqalı, saqqalınız, yazını
B) saqqalınız, sizin, balalarım, onun
C) sizin, kimi, balalarım, fərqiniz,
D) yazını, uşaq, oradadır, saqqalı, fərqiniz
E) balalarım, fərqiniz, saqqalı, saqqalınız

**9.** Aşağıdakı cümlədə yazılışından fərqli tələffüz edilən sözləri seçib səsləndirin və həmin sözlərin tələffüzü ilə bağlı bildiyiniz qaydanı əlavə misallarla izah edin.

Balalarım, bu yazını yazan da sizin kimi uşaq idi, ancaq bircə fərqiniz oradadır ki, onun saqqalı var, sizin hələ saqqalınız yoxdur.

- Cümlədə işlənmiş hansı sözlər aksmənalılıq ifadə edir?
- Cümlədə hansı? sualına cavab verən əvəzliyi göstərin.

**10.** Şeiri oxuyun. Necə bilirsiniz, şeirdə ilin hansı fəslindəki bağlar təsvir edilir? Nümunələr gətirməklə fikrinizi əsaslandırın.

## Bağlar

Yaz budağı **çiçək-çiçək**,
Yay yarpağı **ləçək-ləçək**,
Payız *barı* **gözəl-göyçək**,
Yeni bağlar, *ulu* bağlar,
Qoynu nemət dolu bağlar.

Kölgələrin **sərin-sərin**,
Bir *aləmdir* hər səhərin.
Şirin, *meyxoş* meyvələrin
Min bir dərdə *şəfa*, bağlar,
Qoynu dolu *səfa* bağlar.

Budaqların peyvənd-calaq,
Narın, heyvan **qalaq-qalaq**,
Alma, armud, qozun bitraq,
Sıralanıb düzəl, bağlar!
Bir-birindən gözəl bağlar!
Göy sinəsi bahar bağlar!
*Qoynu* dolu nübar bağlar!

**Rəsul Rza**

**Sözlük**

bitraq — səfa
ulu — meyxoş

**11.** Necə bilirsiniz, şeirdəki hansı misraları bütün bəndlər arasında əlaqə yaradan misralar hesab etmək olar? Həmin misralarda eyni sözlərin təkrar edilməsinin səbəblərini açıqlaya bilərsinizmi?

**12.** Qruplara bölünün. Şeirin məzmunu əsasında “Bir-birindən gözəl bağlar!” mövzusunda kiçik bir inşa yazın.

**13.** Bağların faydası şeirin hansı bəndində daha qabarıq nəzərə çatdırılır? Həmin bəndi səsləndirin və fikrinizi əsaslandırın.

**14.** Şeirdə kursivlə fərqləndirilmiş sözlərin mətnə uyğun sinonimlərini tapın və həmin sözləri mövzuya uyğun cümlələrdə işlədin.

**15.** Qırmızı rənglə fərqləndirilmiş misralarda ifadə olunan fikri öz sözlərinizlə izah edin.

**16.** Şeirdəki aksmənalı sözləri seçib qarşı-qarşıya yazın və qrammatik mənalarını müəyyənləşdirin.

**17.** Aşağıdakı tapmacaların cavabları olan misraları şeirdən tapıb oxuyun və mövzu üzrə bildiyiniz tapmacalardan nümunələr deyin.

Bir təndirim var,
İki çörək tutur.

Aldım bir dənə,
Açdım min dənə.

Ağac başında sarı yumaq,
Üstünə səpilib ağ sumaq.

**18.** Necə bilirsiniz, şeirdə hansı əsas nitq hissəsi işlənməyib? Fikrinizi misallarla əsaslandırın.

**19.** Şeirdəki sifətləri seçib səsləndirin və onlardakı əlamət və keyfiyyətin dərəcəsini təyin edin.

**20.** Şeirdə adi dərəcədə işlənmiş sifətlərdən bir neçəsini azaltma və çoxaltma dərəcələrində işlətməyə çalışın.

**21.** Sualların köməyi ilə əvvəlcə **"çiçək, ləçək, göyçək, qalaq, sərin"** sözlərinin, sonra isə şeirdə qara şriftlə verilmiş sözlərin qrammatik mənalarını müəyyənləşdirin və izah edin.

**22.** Şeirdə qara şriftlə verilmiş sözlərin quruluşca növlərini müəyyənləşdirin və yaranma yollarını izah edin.

**23.** Şeirdə altından xətt çəkilmiş sözlərə artırılan şəkilçilərin qrammatik mənasını müəyyənləşdirin və hər birinin nə bildirdiyini izah edin.

**24.** Şeirdə altından xətt çəkilmiş sözlərdən qabaq aşağıdakı variantlardan hansı işlənməlidir? Fikrinizi əsaslandırın.

A) onların B) sənin C) bizim D) sizin E) onun

**25.** Şeirdə işlənmiş sinonim sözləri tapıb səsləndirin və hər birini cümlələrdə işlədin.

**26.** İlin fəsillərinə aid bildiyiniz tapmacaları yadınıza salıb söyləyin.

**27.** Azərbaycanın hansı bölgələrində bağçılıq daha geniş inkişaf etmişdir? Yoldaşlarınızın fikirlərinə münasibət bildirməklə müzakirəyə qoşulun.

**28.** Azərbaycanda bağçılığın inkişafı ilə əlaqədar müxtəlif regionlarda özünəməxsus bayramlar keçirilir? Bu fikrə əsasən cümlələri tamamlayın.

1) Bakıda – bayramı keçirilir.
2) Göyçayda – bayramı keçirilir.
3) Qubada – bayramı keçirilir.
4) Şəkidə – bayramı keçirilir.

Bilirsinizmi ki, dünyanın ən dadlı qovunları Türkmənistanda yetişir. Avqust ayında türkmənlər "Qovun bayramı"nı qeyd edirlər. Aşağıdakı variantlar içərisindən "qovun" sözünün qarşılığını tapıb göstərin.

A) qarpız B) yemiş C) balqabaq
D) kələm E) bibər

**29.** Aşağıdakı atalar sözlərindən hansı "Bağlar" şeirinin məzmununa tam uyğundur?

A) Bağ sahibsiz olmaz.
B) Bağ salan barın yeyər.
C) Bağda ərik var idi, salaməleyk var idi,
Bağdan ərik qurtardı, salaməleyk qurtardı.
D) Bağa bax üzüm olsun, yeməyə üzün olsun.
E) Bağa baxarsan, bağ olar, baxmazsan, dağ olar.

❁ Atalar sözlərinin mənalarını izah edin.

❁ Necə bilirsiniz, yuxarıdakı atalar sözlərində "bağ" sözünün ismin bütün hallarında işləndiyini söyləmək olarmı? Fikrinizi əsaslandırın.

**30.** Sözlərin yazılışı ilə bağlı səhvə yol verilmiş variantları göstərin.

I. A) daraq B) xeyirxaq C) qucaq D) razılıq E) qoruq

II. A) bərk B) türk C) köynəy D) gedək E) əlcək

**31.** "Bağ" sözü ilə assosiasiya yaradan sözlər cərgəsini davam etdirin:
Bağ – torpaq, sahə, meyvə ...

**32.** Aşağıdakı mətni oxuyun və altından xətt çəkilmiş sözlərdə yol verilmiş qrammatik səhvləri müəyyənləşdirib, düzgün şəklini söyləyin.

Quba respublikamıza ən iri və ənənəvi meyvəçilik və bağçılıq rayonudur. Quba ilə yanaşı, Qusar, Xaçmaz, Şəki rayonlarının da bağçılıq geniş inkişaf etdirilmişdir. Payızda havalar sərin keçir, tez-tez yağışlar yağır. Bağçılığa inkişafının elmi əsaslarını işləyib hazırlamaq məqsədilə Qubada Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutu fəaliyyət göstərir. Hazırda onun Lənkəranda filialı, Abşeronun təcrübə stansiyası, Qəbələdən və Zaqataladan dayaq məntəqələri fəaliyyət göstərir.

❁ Mətndə cümlələr arasında əlaqənin pozulması ilə qarşılaşdınızmı? Fikrinizi əsaslandırın.

**33.** Aşağıdakı cümlələri oxuyun və altından xətt çəkilmiş sözlərdə ahəng qanununun pozulduğu halları müəyyənləşdirib, fikrinizi əsaslandırın. Sonra düzgün variantı səsləndirin.

Quba ənənəvi bağçılıq rayonu kimi tanınir və artıq 2012-ci ildən oradə "Alma bayramı" keçirılır. Qubalıların anlamındə alma səadət və mənali həyat rəmzi hesab olunür. O həm də alın təri, halal zəhmət, bar-bərəkət, dostə sovqat simvolidir.

**34.** Aşağıdakı cümlələrdə “o”, “bu” əvəzliklərindən sonra vergülün işlədilməsi ilə bağlı yol verilmiş səhvləri müəyyənləşdirib düzəldin və fikrinizi əsaslandırın.

1) Əşrəf hələ də yol gedirdi. O, qışlaqdakı qoyun fermasına qayıdırdı. 2) Bu, atın 3-4 yaşı olardı. 3) Boz it hürə-hürə özünü onlara yetirdi. O ac qurd kimi, atın üstünə atılmaq istəyirdi. 4) O, ağzını açan kimi it səsini kəsdi. Atın sağına-soluna keçib zingildəməyə başladı. 6) “Bu it deyil, aslandır. O, olan yerdə sürünün yanından quş da səkə bilmir”, – deyə çoban uzun-uzadı itini təriflədi. 7) Elə bil, o adının çəkilməsini gözləyirdi. Üzəngiyə atılıb Əşrəfin ayaqlarını yalamağa başladı. 8) Bu, sahibinin bir ildən artıq axtardığı həmin it idi.

**35.** Aşağıdakı sözlərin içərisində dörd düzəltmə söz “gizlənmişdir”. Həmin sözləri tapıb səsləndirin və fikrinizi əsaslandırın.

danışmaq, açarın, dalbadal, arabir, srağagün, qaralmışdı, xoşbəxtlik, qırmızı, böyük, qardaşının, başıaşağı, coşmamaq, qılınclarını, ağappaq, soyuq, sağına-soluna, ayaqlarını

✿ Yuxarıdakı sözləri nitq hissələri üzrə qruplaşdırın.

**36.** Verilmiş sıranı aşağıdakı variantlardan hansı ilə tamamlamalısınız? Fikrinizi əsaslandırın.

Çiçək, kəpənək, dəyənək, ürək, ...

A) bərk
B) türk
C) köynək
D) gedək
E) tək

## ÖZÜNÜZÜ YOXLAYIN II

**1.** Aşağıdakı cümlələrdə işlənmiş əvəzlikləri seçib yazın və məna növləri üzrə qruplaşdırın.

1) Dan sökülənə qədər bütün qabları təmizləyərəm. 2) Komissar başıaşağı nəsə yazırdı. 3) Həziyə elə gəlirdi ki, komissar onu kiminləsə dəyişik salır. 4) Siz mənim adımı hardan bilirsiniz? 5) Belə gözəl bir bağ-bağçanın bağbanı qarşımda idi. 6) Hüseynəli xan qonaqların hərəsinə bir qılınc aldı. 7) Bu gün meşəyə gedənlərdən kimi görmüşdüsə, hamısını tapıb xəbər aldı.

**2.** Aşağıdakı cümlələrin hansı mətndən götürüldüyünü deyin və bu cümlələrdə altından xətt çəkilmiş feillərin formasını və şəxsini müəyyənləşdirin.

1) Vəli yanındakı uşaqlara dedi: “Gedək, biz də axtaraq!” 2) Uşaqlardan biri: “Gedib montyoru çağırım! – dedi”. 3) Di tez ol, qaloşu çıxart, ver mənə.

**3.** Aşağıdakı atalar sözlərində hansı şəxslərə aid mənsubiyyət şəkilçilərindən istifadə olunub? Fikrinizi əsaslandırın və mənsubiyyət şəkilçilərinin altından xətt çəkin.

1) Acın qarnı doyar, gözü doymaz. 2) Ac əlinə düşəni yeyər, tox ağzına gələni deyər. 3) Gülmə qonşuna, gələr başına. 4) Dilim-dilim olasan, dilim.

**4.** Oxuduğunuz hansı mətndə Vəli qırılmış elektrik xəttini bir-birinə bağlayır? Bu zaman müəllimdən eşitdiyi hansı məlumat onun köməyinə çatır? Fikrinizi həmin mətndəki faktlara istinad etməklə əsaslandırın.

**5.** Aşağıdakı mətni oxuyun. Bu məlumatdan hansı mövzu ilə bağlı nümunə və fakt kimi istifadə edə bilərsiniz? Fikirlərinizi əsaslandırın.

1918-ci il noyabrın 9-da Fətəli xan Xoyskinin hesabatı əsasında Azərbaycan Xalq Cümhuriyyətinin yeni dövlət bayrağı haqqında qərar qəbul edildi: "Yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizbucaq ulduzdan ibarət olan bayraq Milli bayraq hesab edilsin".

7 dekabr 1918-ci ildə Şərqdə ilk demokratik, dünyəvi dövlət olan AXC-nin yeni bayrağı Parlament binası üzərində qaldırıldı. M.Ə.Rəsulzadə öz çıxışında deyirdi: "... Müstəqil Azərbaycanın simvolu kimi Parlament binası üzərində qaldırılan və türk hürriyyətini, müasir Avropa demokratiyasını və islam sivilizasiyasını təmsil edən bu üçrəngli bayraq daima başımızın üzərində dalğalanacaqdır. Bir dəfə yüksələn bayraq bir daha enməyəcəkdir".

Sovet hakimiyyəti illərində Azərbaycan SSR-in bayrağındakı qırmızı və mavi rənglər saxlanılsa da, onlar başqa məna daşıyırdı. İslam dininin rəmzi kimi qəbul edilən yaşıl rəng isə çıxarılmışdı.

Mətndə altından xətt çəkilmiş sözləri dəftərinizə köçürün və hər birinin qarşısında quruluşca növünü, hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

Mətndə altından xətt çəkilmiş sözlərdə əlamətin dərəcəsini müəyyənləşdirin və həmin sözləri müxtəlif müqayisə dərəcələrində işlədin.

**6.** "Qızıl payız" şeirində şair nə üçün qızıl lələkli quşlara, küləyə, buludlara, ağappaq tarlalara, qəşəng ağaclara müraciət edir? Fikrinizi faktlarla əsaslandırın.

**7.** Aşağıdakı cümlələrdən hansında "o", " bu" əvəzliklərindən sonra lazım olmadığı halda, vergül qoyulub? Fikrinizi əsaslandırın.

1) O, adəti üzrə, əli ilə ***alnını*** ovxaladı. 2) Bu, yüzlərlə tələbənin yaddaşında qalan ən maraqlı görüş oldu. 3) Məni vaxtsız qocaldan da bu, ayrılıq, bu, möhnətdir! 4) O, kafirin altmış arşın qaməti vardı. 5) O, qalanın bir təkuru vardı. 6) O, altmış batmanlıq gürzlə Qazılıq qocanı vurdu.

❁ Cümlələrdə altından xətt çəkilmiş sayların qrammatik mənasını izah edin və məna növlərini müəyyənləşdirin.

❁ 1-ci cümlədə kursivlə verilmiş sözün yazılışı ilə əlaqədar qaydanı yadınıza salın və əlavə misallar gətirməklə fikrinizi əsaslandırın.

❁ Bu cümlələrdən hansının oxuduğunuz hansı mətndən götürüldüyünü əsaslandırın.

**8.** Aşağıdakı sətirlərdə bir neçə atalar sözü "gizlənmişdir". Mənaca uyğun hissələri əlaqələndirməklə atalar sözlərinin ilkin şəklini bərpa edin və yazın.

### Atalar sözü – sözlərin gözü

Gen qaz, dərin qaz, əl mərd olar, özün düşərsən, göz namərd, Əlinin papağını Vəlinin başına, ilan vuran, Ev kimindir?, ala çatıdan qorxar, – Oturanın!, Vəlinin papağını Əlinin başına, Söz kimindir?, düşməni dost elə, – Götürənin, ədəbi kimdən öyrəndin?, dostu düşmən eləmə, – Ədəbsizdən.

**9.** Aşağıdakı sözlərin içərisində yönlük halda olmayan bir neçə söz "gizlənmişdir". Həmin sözləri tapıb səsləndirin və fikrinizi əsaslandırın.

tarlaya, həkimə, kimya, dostuma, kirayə, xalçaya, bayrama, xeyriyyə, muzeyə, xəritəyə, müsabiqə, ceyrana, növbə, teatra, idmana, püstə, xurmaya, düşərgə, xəsisə, dərnəyə, xatirə, imtahana, futbola

**10.** Aşağıda verilmiş sözləri zərfin məna növləri üzrə qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın.

həmişə, arabir, içəri, ortalıqda, gecəyarı, cəld, yavaş-yavaş, vaxtsız, dinməzcə, zarafatyana, dalbadal, üz-üzə, srağagün, dalda, yuxarıya, xeyli, az-çox, bir-bir, bayaq

**11.** Aşağıdakı cümlələrdə işlənmiş zərfləri seçib sualları ilə birlikdə yazın və məna növləri üzrə qruplaşdırın.

1) Atasının ölümündən sonra onların güzəranı xeyli pisləşmişdi. 2) Birdən gözü Həzinin inişil evin qabağında əkdiyi innab ağacına sataşdı. 3) Birbaş ikinci mərtəbəyə qalxdı. 4) O, içəri girdi və qapının ağzında kirimişcə dayandı. 5) Komissar başıaşağı nəsə yazırdı. Handan-hana başını qaldırıb Həziyə baxdı. 6) O, iştahsız bir-iki tikə yemişdi ki, qulağına səs gəldi. Tez eşiyə çıxdı.

❁ Altından xətt çəkilmiş söz əvəzliyin hansı məna növünə aid edilməlidir?

**12.** Aşağıda verilmiş düzəltmə sözlərin içərisində iki sadə, bir mürəkkəb söz gizlənmişdir. Həmin sözləri tapıb səsləndirin və hansı nitq hissəsinə aid olduğunu deyin.

yaşayış, tikildi, mehmanxanalar, gözəgəlimli, əzəmətli, imzalanıb, genişlənir, yarışlar, gülüşüm, çıxışda, enişdən, barışmaq, köpükləndi, biçənək

**13.** Aşağıdakı cümlələrdə söz sırasının pozulmasında yol verilmiş səhvləri tapıb düzəldin və düzgün variantı yazın. Sonra hər iki variantı tədris dilinə tərcümə edin.

1) Xurma meyvədir ən yaxşı qanda hemoqlabinin səviyyəsini qaldıran.

2) Faşistlər Qara İvanın başına da pul mükafatı vəd edirlər 500 min lirə Mehdinin başına olduğu kimi.

**14.** Aşağıdakı tapmacaların hissələri bir-biri ilə qarışıq düşüb. Mənaca uyğun hissələri əlaqələndirməklə tapmacaların ilkin şəklini bərpa edin və onları cavablandırın. Bu tapmacaları oxuduğunuz hansı mövzu ilə əlaqələndirərdiniz?

**1)** Bostanda var bir arvad
Dimdiyi var **torpaqda**.

**2)** **Qırmızı** toyuq bağda,
Paltar geyib qatbaqat.

**3)** Dağdan atsan, əzilməz,
Özünə bir ev tikdi,
Nə qapı qoydu, nə baca.

**4)** Bir quşum var alaca,
Getdi qondu ağaca,
Bir **yumruğa** dözəmməz.

❁ Altından xətt çəkilmiş feillərin formasını və şəxsini müəyyənləşdirin.
❁ Qara şriftlə verilmiş sözü sifətin azaltma və çoxaltma dərəcələrində cümlələrdə işlədin.
❁ Göy rəngdə verilmiş sözlərdəki səs dəyişikliyinin səbəbini izah edin. Həmin sözləri başlanğıc formalarında dəftərinizə yazıb, ismin halları üzrə dəyişin.

**15.** Oxuduğunuz mətnlərdən birindəki hansı hadisə Vəlinin fizika dərnəyinə yazılmasına təsir göstərir? Cümlələr arasında əlaqələri gözləməklə həmin hadisəni yadınıza salıb danışın.

**16.** Aşağıdakı sıranı variantlardan hansı ilə tamamlamaq olar? Fikrinizi əsaslandırın.

qayıq, buruq, sağlıq, qulaq, ...

A) üfüq B) sadiq C) vərəq D) barmaq E) təzyiq

**17.** Necə bilirsiniz, hansı cərgədəki sözlərin yazılışında səhvə yol verilmişdir?

A) bomba, pambıq, hambal, kömbə, bomboz, bomboş
B) tənbəl, anbar, zanbaq, şənbə, günbəz, zənbil
C) danmaq, dinmək, dönmək, qonmaq, yanmaq, sönmək
D) pambıq, dammaq, yummaq, donmaq, sünbül,
E) zəmbil, tənbəl, ambar, şənbə, anmaq, öyünmək

**18.** Aşağıdakı cümlədə altından xətt çəkilmiş sözü verilmiş variantlardan hansı ilə əvəz etmək olmaz?

Azərbaycan təbiət etibarı ilə gözəlliklər diyarıdır.

A) ölkəsidir B) yurdudur C) şəharidir D) məskənidir E) aləmidir

**19.** Mətni oxuyun, qırmızı rəngdə verilmiş sözlərin qrammatik mənasını izah edin və hər birinin məna növünü göstərin.

Azərbaycanda elə bitkilər var ki, onlardan dünyanın heç bir yerində yoxdur. Vətənimizdə həm də 12 mindən çox heyvan növü vardır. Onlar yurdumuzun sərvətidir. Bu sərvəti qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur. Təbiətin gözəlliyi nəsillər üçündür, ... üçündür. Yaşıl bir budağı kəsmək gələcək nəslə hörmətsizlikdir.

- Mətndə işlənmiş sayın mənaca növünü müəyyənləşdirin.
- Mətndəki nöqtələrin yerinə aşağıdakı sözlərdən hansı yazılmalıdır? Düzgün variantı göstərin.

A) bəşəriyyət B) insanlıq C) həmişə D) daim E) əbədiyyət

- Mətndə işlənmiş məsdərləri tapıb köçürün və onları feilin müxtəlif şəkilləri üzrə dəyişib yazın.

**20.** Aşağıdakı cümlələrdə altından xətt çəkilmiş sözlərdə əlamətin dərəcəsini müəyyənləşdirin.

1) Azərbaycanın təbiəti çox rəngarəngdir. Yayda yurdumuzun bir tərəfində qar yağanda, şaxta düşəndə, o biri tərəfində isti olur.

2) Azərbaycanın ərazisindən axan ən iri çaylar Kür, Araz, Samur, Alazan, Həkəri, Girdman təbiətin gözəlliyini daha da artırır.

- Cümlələrdə mənsubiyyət şəkilçisi ilə işlənmiş sözləri aid olduğu sözlərlə birlikdə seçib yazın və neçənci şəxsə aid mənsubluq bildirdiyini qarşısında qeyd edin.

**21.** Aşağıdakı cümlələrdən hansında zərf işlənmişdir?
A) Sevincli günlərin həsrətindəyik.
B) Gənclər bayrama həvəslə hazırlaşırdılar.
C) Uşaqlar topu götürüb həyətə düşdülər.
D) Sevinən təkcə məktəblilər deyildi.
E) Sevindirici xəbərlərinizi hamımız gözləyirik.

**22.** "Köməkçi" mətnindən tanıdığınız Şahini nə üçün vətənpərvər hesab etmək olar? Şahidi olduğunuz və ya eşitdiyiniz bir nümunədən istifadə etməklə fikrinizi əsaslandırın.

**23.** Aşağıdakı mətni oxuyun və əvvəlcə onun hissələrini, sonra isə hissələr arasında əlaqə yaradan cümlələri  müəyyənləşdirin.

## AYININ YOXSULLUQDAN QORXMASI

Keçmiş zamanlarda bir padşahın torpağına bir ayı dadanmışdı. Ayı ona rast gələnləri tutub parçalayırdı. Onu öldürməyə heç kəs ***cürət eləmirdi***. Günlərin bir günü padşah bir piyaləyə qızıl doldurub ***car çəkdirdi*** ki, ay camaat, axı sizdə bir kişilik yoxdurmu? Ayı adamları qırıb yox elədi. Kimdə hünər varsa, bu qızılları alsın, gedib ayını öldürsün, qoy camaatın ***canı*** bu ayıdan ***qurtarsın***. Hamı qorxusundan ***başını yerə dikmişdi***, heç kəsdən səs çıxmırdı. **Kənarda** kasıblıqdan ovurdlarının sümüyü çıxmış **arıq**, **cansız** bir kişi dayanmışdı. O **birdən** irəli yeriyərək dedi:

– Padşah sağ olsun, mənim yeddi qızım var, işləməklə **yavan** çörəyi də çatdıra bilmirəm. **Belə** yaşamaqdansa, ölmək yaxşıdır. O qızılı ver aparım, uşaqlar xərcləyib dolansınlar. Mən də gedim ayını öldürməyə. Əgər mən ayını öldürsəm, camaatın canı qurtarar, yox, ayı məni yeyərsə, heç olmasa, canım bu həyatdan qurtarar.

Padşah qızılı yoxsula verdi. Kişi qızılı sevincək evə qoyub gəldi ki, ayının yerini mənə göstərin. Dedilər ki, bax o **hündür** qayanın üstünə çıx. Orada **böyük** bir daş var. Ayı həmin daşın altındakı yuvada yatır. Kişi həmin yerə çıxdı. Gördü ki, ayı başını pəncələrinin arasına qoyub uzanıb, elə bil, bir azdan parçalayacağı adam haqqında fikirləşirdi. Kasıb **ehmalca** daşın üstünə çıxıb dedi:

– Ayı, zalım oğlunun ayısı, çıx **bəri**, dava eləyək. Məni cürətli edən yoxsulluq yanımdadı, o məni bura gətirib. Onsuz da onun hünəri ilə mən səni öldürməliyəm.

Ayı öz-özünə çox fikirləşdi ki, yoxsulluq nə olan şeydi, top deyil, qılınc-xəncər deyil, yəqin, bu yeni silah növüdür.  Bu kişi ki belə **cürətlə** danışır, o bu silahla məni öldürəcək, yaxşısı budur ki, bu padşahın torpağından **uzaqlaşım**. Ayı bu sözləri deyib götürüldü. O qədər qaçdı ki, **başqa** padşahın torpağına çatanda dayandı. Gördü ki, **dünyagörmüş** qoca bir kişi mal otarır. Ayı fikirləşdi ki, bu silah növünü elə bu kişidən soruşsam, bilər. Yaxınlaşıb kişiyə dedi:

– Əmi, filan padşahın torpağına dadanmışdım, güzəranım da pis keçmirdi. Bir kişi gəlib çağırdı ki, ay zalım oğlunun ayısı, çıx, dava eləyək. Mən səni öldürməliyəm, çünki məni cürətli edən yoxsulluq yanımdadı. Mən bu silahın adını eşitcək dayanmayıb qaçdım. Əmi, bu nə silah növüdür? Sən bu silahı

tanıyırsanmı?

– Bəli, ayı qardaş, bir zamanlar padşah idim, o yoxsulluq qəzəblənəndə ***taxtımı tarac edib, qəddimi elə əydi*** ki, hələ indiyə qədər onu düzəldə bilmirəm. Yaxşısı budur ki, dayanma, **buradan** da qaç.

Ayı oradan da başlayır qaçmağa.

**24.** Mətndəki əsas fikri müəyyənləşdirin və qruplara bölünərək mətnin məzmunu üzrə ən azı yeddi sual tərtib edib yazın.

**25.** Mətnin əsas ideyası hansı bənddə verilmişdir?
A) Padşahın ayını öldürmək istəməsi.
B) Yoxsul kişinin ayını qorxuda bilməsi.
C) Yoxsulluğun qorxulu olması fikrinin nəzərə çatdırılması.
D) Ayının yoxsulluqdan qorxması.
E) Ayının insanlar üçün təhlükəli olması.

**26.** Aşağıdakı atalar sözünü hekayənin hansı iştirakçısına aid etmək olar? Fikrinizi mətnə istinad etməklə əsaslandırın.

***Yoxsulluğa düşməyən varlığın qədrini bilməz.***

**27.** Alqışları oxuyun və mətnin mövzusuna uyğun olanları seçib səsləndirin.

1) Bəxtiyarlığa qovuşasan. 2) Bolluq içində üzəsən. 3) Çörəyi bol olasan. 4) Dərd-qəmin olmasın. 5) Dövlət quşu başına qonsun. 6) Dünyada darlıq görməyəsən. 7) Eldən ayrı düşməyəsən. 8) Var-dövlət içində üzəsən. 10) Yoxsulluq görməyəsən.

Alqışlarda işlənən feillərin hər birinin feilin hansı formasında olduğunu deyin və fikrinizi faktlarla əsaslandırın.

**28.** Necə düşünürsünüz, mətnin birinci cümləsində işlənmiş feilin kökü "dad" sözü ola bilərmi? Həmin feili kök və şəkilçiyə ayırın, sonra həmin kökdən düzəltmə və mürəkkəb sözlər düzəldib yazın.

**29.** Sizcə, mətndəki kasıb kişi "yoxsulluğun hünəri" dedikdə nəyə işarə edirdi? Məgər yoxsulluğa düşmüş insan cürətli olur?

Fikirlərinizi mətnə istinad etməklə əsaslandırın.

**30.** Necə düşünürsünüz, nağıldakı kasıb kişi nəyə görə ürəkli davranır, ayıdan qorxmur? Yoldaşlarınızın fikirlərinə münasibət bildirməklə müzakirə edin.

**31.** Mətndəki "yoxsulluq qəzəblənəndə" ifadəsini necə başa düşürsünüz? Mal otaran kişinin sözlərini bir daha oxuyun və onun demək istədiklərini öz sözlərinizlə izah etməyə çalışın.

**32.** Bayatıları oxuyun. Oxuduğunuz nağılla onların bağlılığı varmı? Müzakirəyə qoşulun.

| | |
|---|---|
| Əziziyəm, gül əllər.<br>Gül biləklər, gül əllər.<br>Dəryaca ağlın olsa,<br>Yoxsul olsan, güləllər. | Əzizim qucaq-qucaq,<br>Odun ver qucaq-qucaq.<br>Yoxsulun daxmasında,<br>Nə od olar, nə ocaq. |

❁ Necə bilirsiniz, ikinci bayatıdan mətnin hansı hissələrində əlaqə yaradan vasitə kimi istifadə etmək olar? Fikrinizi əsaslandırın.

**33.** Mətndə qırmızı rəngdə verilmiş ifadələrin kontekstə uyğun mənalarını izah edin.

**34.** Mətndə qara şriftlə verilmiş sözlərin qrammatik mənasını izah edin və hər birinin mənaca növünü qarşısında qeyd edin.

**35.** Mətndə qırmızı şriftlə verilmiş sözlərin qrammatik mənasını izah edin və hər birinin mənaca növünü qarşısında qeyd edin.

**36.** Mətndə mavi şriftlə verilmiş sözləri aid olduğu sözlərlə birlikdə dəftərinizə yazın. Yazdığınız birləşmələrdəki həmin sözləri sinonimləri ilə əvəz edərək yeni söz birləşmələri düzəldib səsləndirin.

❁ Yazdığınız birləşmələrdəki sifətləri antonimləri ilə əvəz edərək yeni birləşmələr düzəldib yazın.

❁ Mətndə mavi şriftlə verilmiş sifətləri hansı müqayisə dərəcəsində işlədə bilərsiniz? Özünüzü yoxlayın.

**37.** Mətndə altından xətt çəkilmiş sözlərin hər birinin feilin hansı şəklində olduğunu və şəxsini müəyyənləşdirib, qarşısında yazın.

**38.** Birləşmələri cümlələrdə işlədin və tərcümə edin.

yeddi qız, onun hünəri, hündür qaya, cəsarətlə danışmaq, padşahın torpağı, dünyagörmüş kişi, silah növü, qabağa çıxmaq

## ÖZÜNÜZÜ YOXLAYIN III

**1.** Aşağıdakı mətni oxuyun və mətndə işlənmiş sayları məna növləri üzrə qruplaşdırıb yazın.

### Trans Anadolu Qaz Boru Kəməri

TANAP layihəsi üzrə saziş 2012-ci il iyunin 26-da İstanbulda imzalanıb. Bu kəmər təbii qazı Türkiyənun Şərq sərhədindən Qərb sərhədinə daşıyacaq, bütün ölkədə sabit tranziti təmin edəcək. Layihə Azərbaycandən başlayan

genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa Birliyində bir neçə kəmərlə əlaqələndiracaq. 5 il ərzində reallaşması nəzərdə tutulan layihənun dəyəri 7 milyard ABŞ dollaridir. Dörd mərhələdə həyatə keçiriləcək layihənin ilk mərhələsu 2018-ci ildə başa çatacaq. 2020-ci ildə kəmərun buraxılış qabiliyyəti ildə 16 mlrd., 2023-cü ildə 23 mlrd., 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılacək. İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 mlrd. kubmetr Azərbaycan qazınun 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulən qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədinda təhvil veriləcək.

**2.** Necə bilirsiniz, "Trans Anadolu Qaz Boru Kəməri"mətnində altından xətt çəkilmiş sözlərdə ahəng qanununun tələbləri gözlənilmişdirmi? Yol verilmiş səhvləri düzəltməklə həmin sözləri dəftərinizə yazın və fikrinizi əsaslandırın.

**3.** "Trans Anadolu Qaz Boru Kəməri" mətni üzrə suallar tərtib edib yazın. Sualların tərtibində dilin qrammatik normalarına əməl etməyi unutmayın.

**4.** "Trans Anadolu Qaz Boru Kəməri" mətninin 1-ci, 2-ci və sonuncu cümlələrində işlənmiş feilləri tapıb, zamanını və şəxsini müəyyənləşdirin. Necə bilirsiniz, bu feillər feilin hansı formasına aid edilməlidir?

**5.** Aşağıdakı məlumatı oxuyun. Bu məlumatı Ağa Musa Nağıyev haqqında mətnin hansı hissəsinə əlavə etmək olar? Fikrinizi əsaslandırın.

Musa Nağıyev Bakının ilk mülk sahiblərindın biri idi. Onun başqa milyonçulardan fərqi də məhz köhnə Bakının memarlıq simasına ən çox töhfə verməsidir.

M.Nağıyev Bakıda 98 bina tikdirib. Bunların içində ən çox seçilənləri «İsmailiyyə» binası, 28 May küçəsindəki qoşa imarətlər, yenə həmin küçədə qırmızı kərpicdən tikilmiş əzəmətli bina, Nizami küçəsində Opera teatrının yanındakı yaşayış evi, Azərbaycan prospektində köhnə Mərkəzi poçt binası, Nigar Rəfibəyli küçəsindəki əzəmətli yaşayış binası, Səməd Vurğun küçəsində Qış klubu (indiki Zabitlər evi), "Astoriya" və "Yeni Avropa" mehmanxanaları kimi şəhərin gözəgəlimli binalarıdır.

❁ Mətndə işlənmiş sifətləri seçib qrammatik mənasını izah edin və quruluşca növlərini müəyyənləşdirin.

❁ Mətndən mənsubiyyət şəkilçisi ilə işlənmiş bir neçə isim seçib göstərin, həmin isimlərin neçənci şəxsə aid olduğunu müəyyənləşdirin.

**6.** Aşağıdakı cümlədə altından xətt çəkilmiş sözün qrammatik mənasını izah edin. Bu sözün əvəzinə hansı sözü işlətmək olar?

**Nağıyev yüzə qədər əzəmətli bina və neçə-neçə gəmi sahibi idi.**

❁ Cümlədə köməkçi nitq hissələrinə aid neçə söz işlənib?
❁ Cümlədə işlənmiş saylar bir-birindən nə ilə fərqlənir? Fikrinizi əlavə misallarla əsaslandırın.

**7.** Aşağıdakı cümlədə işlənmiş ifadənin ən yaxın variantı hansıdır?
Molla, bu gün **kefim çox sazdı.**
A) Özümü yaxşı hiss edirəm.
B) Kefim kökdür.
C) Kefim əladır.
D) Kefim açılmır.
E) Kefim durudur.

**8.** Aşağıda verilmiş atalar sözlərində bağlayıcılar yerində işlənməmişdir. Səhvləri tapıb düzəldin və köçürün.

1) Yalan ilə dünyanı gəzmək olar, həm də qayıtmaq olmaz. 2) Tısbağanı gah öldür, gah da arxası üstə çevir! 3) Dostuna pul verən ya pulunu itirər, ya da dostunu. 4) Mal adama gah dostdur, gah da düşmən. 5) Bir var Koroğlu, həm də var kor kişinin oğlu. 6) Yalançının evi yandı, çünki heç kim ona inanmadı.

***Köməkçi:*** həm, həm də, ya, ya da, çünki, yaxud, nə, nə də, ancaq, bir də

**9.** Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2013-cü il dekabrın 17-də dediyi aşağıdakı cümlədə hansı layihədən söhbət gedir?

İlham Əliyev: "Bu layihə regionun və Avropanın enerji xəritəsini dəyişdirəcək".

A) "Şahdəniz-2"
B) Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri
C) TANAP və TAP
D) "Şahdəniz"
E) Cənub qaz boru kəməri

**10.** Aşağıdakı cümlələrdə işlənmiş qoşmaları seçib qoşulduğu sözlərlə birlikdə yazın və məna növləri üzrə qruplaşdırın. Sonra onların hər birinin ismin hansı halında işlənən sözlərə qoşulduğunu müəyyənləşdirin.

1) Bir azdan komissar özü eşiyə çıxdı və Həzini görən kimi tanıdı. 2) Adil dərsdən sonra birbaşa Vəlinin nənəsigilə getdi. 3) Axşama can dərslərini hazırlayıb qurtarmalı idi. 4) Meşəyə doğru getmək istədi, ancaq qorxub geri qayıtdı. 5) Su içməküçün bulağın yanına gəldi. 6) Cəmilə xala əlini gözünün üstünə qoyub kəndə tərəf boylandı. 7) Türkün türkdən başqa, dostu yoxdur.

❁ Cümlələrdən ikisində qoşmaların yazılışında səhvə yol verilib. Həmin cümlələri seçib səsləndirin və səhvləri tapıb düzəldin.

**11.** Səs tonu, temp və fasiləni gözləməklə şeiri oxuyun.

## Azərbaycan qadını

Ağır yollardan keçib,
Azərbaycan qadını.
Çox tufanlardan keçib
Azərbaycan qadını.

Nizamiyə süd verib,
Babəkə öyüd verib,
Nə qədər igid verib
Azərbaycan qadını.

Həm şəfqətli, həm məğrur,
Baxışında şəfəq, nur.
Hər şeydən üstün tutur
Şərəfini, adını
Azərbaycan qadını.

**Sözlük**

şəfqətli məğrur

**12.** Şeirin məzmununu nəsrə çevirib yazın. Yazarkən hansı köməkçi nitq hissələrini artırmağa ehtiyac duydunuz? Həmin sözləri altından xətt çəkməklə fərqləndirin.

**13.** Şeirdə **"ağır yollar"**, **"çox tufanlar"** dedikdə şair nəyi nəzərdə tutur? Nitqinizdə ahəng qanununa uyğun şəkilçi variantlarından düzgün istifadə etməklə Azərbaycan qadınının keçib gəldiyi tarixi yol barəsində qısaca danışın. Unutmayın ki, danışarkən bildiyiniz faktlardan, aforizmlərdən, şeirlərdən istifadə etsəniz, nitqiniz maraqlı olar.

**14.** Şeirdə çıxışlıq halda işlənmiş sözləri tapıb səsləndirin. Necə bilirsiniz, bu sözlərdən hansı yazılışından fərqli tələffüz olunur? Öyrəndiyiniz qaydanı yadınıza salın və fikrinizi əlavə misallardan istifadə etməklə əsaslandırın.

**15.** Şeirdə iki tarixi şəxsiyyətin adı çəkilir. Siz bu şəxsiyyətləri tanıyırsınız: bunlardan biri şair, digəri isə qəhrəmandır. Necə bilirsiniz, şeirdə nə məqsədlə məhz bu iki ad xatırladılır? Müzakirəyə qoşulun.

**16.** Şeirin hansı bəndində bağlayıcı işlənmişdir? Həmin bağlayıcını tapıb səsləndirin və onunla eyni qrupa aid olan bir neçə bağlayıcı deyin. Söylədiyiniz bağlayıcıların dildə rolunu və yazılış qaydasını izah edin.

**17.** Şərəfli ömür tarixçəsi olan fədakar Azərbaycan qadınlarından kimləri tanıyırsınız? Bu suala cavab vernək üçün tarixi keçmişimizə nəzər salın və tanıdığınız tanınmış bir qadın barəsində bildiklərinizi qısaca yazın.

**18.** "Azərbaycan qadını dünən və bu gün" mövzusunda inşa yazın.

**19.** Nöqtələrin yerinə qəhrəman qadınlardan uyğun gələninin adını qoyaraq, aşağıdakı mətnləri oxuyun və öyrəndiyiniz köməkçi nitq hissələrini seçib yazılış qaydalarını izah edin.

1) Dünyada ilk diplomat azərbaycanlı qadın olan ... XV əsrdə hakimiyyətə gələn Ağqoyunlu hökmdarı Uzun **Həsənin** **anası** və Şah İsmayıl **Xətainin** ana **nənəsidir**. Uzun Həsən bütün xarici siyasət **məsələlərini** onunla məsləhətləşir, ən məsul diplomatik danışıqlar üçün onu göndərirdi. O nəinki xarici ölkələrin ayrı-ayrı diplomatları ilə, həmçinin teymuri hökmdarı Əbu Səid, Osmanlı **imperatoru** II Mehmed kimi dövlət başçıları ilə də diplomatik **danışıqlar** aparmış, Ağqoyunlu **dövlətinin** mənafeyini müvəffəqiyyətlə müdafiə etmişdi. Uzun Həsən, xüsusilə xarici siyasətlə əlaqədər ən çətin **məsələlərin həllini** ... etibar edirdi.

2) 1776-cı ildə Dərbənd şəhərini idarə etmək Quba xanı Fətəli **xanın** **arvadı** ... tapşırılmışdı. O, **ərinin** döyüşdə **öldürüldüyü** haqqındakı şayiələrə inanmamış və şəhəri axıra qədər müdafiə etmiş, 9 ay düşməni Dərbəndə yaxın buraxmamışdır.

***Köməkçi:*** Nigar, Həcər, Nüşabə, Sara xatun, Tomris, Xurşudbanu Natəvan, Tuti Bikə

- Qara hərflərlə verilmiş sözlərə şəkilçilərin artırılmasında ahəng qanununun tələblərinə düzgün əməl olunduğunu nümunələr üzrə əsaslandırın.
- Qara hərflə verilmiş sözlərə artırılan şəkilçilərdən hansıların mənsubiyyət şəkilçisi olduğunu müəyyənləşdirin.
- Altından xətt çəkilmiş sözlərə artırılan şəkilçilərin qrammatik vəzifəsini izah edin.

**20.** Yaxın keçmişimizdə, o cümlədən Qarabağ savaşında fərqlənmiş qəhrəman qadınlar haqqında nə bilirsiniz? Bildiklərinizi yoldaşlarınızla bölüşün.

**21.** Nöqtələrin yerinə ahəng qanununa uyğun şəkilçilər artırmaqla mətni oxuyun və məzmununu danışın.

Salatın əziz qızı Əsgərova Azərbaycanın Milli Qəhrəmanıdır. O, 1961-ci il dekabr ayı... 16-da Bakıda anadan olub. Jurnalistlik fəaliyyəti... Salatın "Bakı" qəzetində başlayıb. 1990-1991-ci illərdə o, Dağlıq Qarabağ... reportajlar hazırlayır, tez-tez döyüş bölgəsi... gedirdi. 1991-ci ilin 9 yanvarında Salatın Əsgərovanın da içərisində olduğu maşın laçın... Şuşaya gedən yolda, Qaladərəsi kəndi yaxınlığında erməni silahlı qüvvələri... mühasirəsinə düşür. Erməni quldurları maşın... yaxın məsafə... atəşə tuturlar. Salatın və üç hərbçi qəhrəmancasına həlak oldular. Azərbaycan Respublikası Prezidenti...

sərəncamı ilə Salatın Əsgərova 1992-ci ildə ölümün... sonra Azərbaycanın Milli Qəhrəman... adına layiq görülmüşdür. Bakı şəhər... onun adına küçə var. Bakı buxtasın... olan katerlərdən biri onun adını daşıyır. Salatının yaxınlığında öldürüldüyü kənd onun şərəf... "Salatınkənd" adlanır.

- Altından xətt çəkilmiş sayları sözlə yazın.
- Mətnin məzmunu üzrə yeddi sual tərtib edib yazın.

**22.** Aşağıdakı söz birləşmələrin cümlələrdə işlədin.

jurnalistlik fəaliyyəti, hərbi əməliyyat, erməni quldurları, ölümündən sonra, 29 yaşında

**23.** Aşağıdakı atalar sözlərində yol verilmiş səhvləri müəyyənləşdirib, düzgün şəklini yazın.

1) İgid el ilə tanınar. 2) Qaçanı vurmazıar, yıxılanı qovmazlar. 3) Qələm poza bilməz qılınc yazanı. 4) Hər şeyin köhnəsi, dostun təzəsi. 5) Mərdin gözü ac olar, namərdin gözü tox. 6) Qonağın özü ruzusundən qabaq gələr. 7) Arının özünü gördüm, balından əl çəkdim. 8) Sağ əl gərək bilməsin sol əl verəni.

**24.** Nöqtələrin yerinə qəhrəman qadınlardan uyğun gələninin adını qoyaraq, aşağıdakı mətni köçürün. Mətndə işlənmiş qoşma və bağlayıcıların altından xətt çəkib, qrammatik mənalarını izah edin.

E.ə. 570 – 520-ci illərdə Massaget **hökmdarı** ... <u>qoşununin</u> və oğlunun aqibətindən xəbər tutan kimi Kirin yanına **çapar** göndərir. Çapar deyir: "Qaniçən Kir! Öz hünərinlə <u>öyünma</u>! Əgər hiylə ilə qələbə <u>çalmasaydiniz</u>, **şərəfli döyüşdə** silah gücünə heç nə eləyə bilməzdiniz. İndi gəl massagetlərin **<u>üçüncu</u>** hərbi hissəsini yenəndən sonra **xoşluqla** mənim məsləhətimə qulaq as: <u>oğlumi</u> qaytar və necə gəlmisənsə, eləcə də sağ-salamat çıx get. Əgər bunu etməsən, and olsun bütün massagetlərin pənahı olan Günəş allahına ki, mən, doğrudan da, səni qan <u>gölünda</u> boğaram".

***Köməkçi:*** Nigar, Həcər, Nüşabə, Tomris, Xurşudbanu Natəvan, Sara xatun, Tuti Bikə

- Necə bilirsiniz, mətndəki bir neçə sözün altından nə üçün xətt çəkilmişdir? Səbəbini izah edin və yol verilmiş səhvləri düzəldin.
- Mətndə qara şriftlə verilmiş sözləri köçürün. Hər birinin quruluşunu müəyyənləşdirin və hansı nitq hissəsinə aid olduğunu qarşısında qeyd edin.

**25.** Tərcümeyi-halın yazılma ardıcıllığını yadınıza salın və öz təcümeyi-halınızı yazıb, yoldaşlarınıza oxuyun. Tərcümeyi-halınızda köməkçi nitq hissələrindən istifadə etməyə çalışın.

**26.** Aşağıdakı mətndə nöqtələrin yerinə hansı söz yazılmalıdır? Düzgün variantı göstərin.

"Molla Nəsrəddin" lətifələri Şərq xalqlarının ... irsidir. Bu irs Xoca Nəsrəddin, Nəsrəddin Əfəndi, Əfəndi və başqa adlarla Şərqdən Qərbədək böyük bir ərazidə məşhurdur. ***O nə coğrafi, nə də zaman sərhədi tanıyır.*** Bu lətifələrin bəziləri Əmir Teymur dövrü, bəziləri isə ayrı tarixi dövrlərlə səsləşir. O həmişə xalqla birgə yaşayır. Xalq öz etirazını, narazılığını, qəzəbini gülüşlə, kinayə ilə, rişxəndlə ifadə etmək istədiyi anda mütləq Molla Nəsrəddin zahir olur.

Cəlil Məmmədquluzadə də öz jurnalını məhz bu səbəbdən "Molla Nəsrəddin" adlandırmışdır. Onun ilk nömrəsi 1906-cı il aprelin 7-də çapdan çıxmışdır.

A) kinayəli  B) müştərək  C) şərikli
D) birlikdə  E) ömürlük

❁ Mətndə kursivlə fərqləndirilmiş cümlədə bağlayıcının hansı növü işlədilmişdir?

❁ Mətndə altından xətt çəkilmiş sözlərdən hansı həm də köməkçi nitq hissəsi kimi işlənə bilər?

A) böyük  B) bu  C) öz  D) başqa  E) ilk

❁ Mətndəki cümlələrdən birində iki qeyri-müəyyən əvəzlik işlədilmişdir. Həmin cümləni seçib səsləndirin və müəyyənləşdirdiyiniz əvəzliyə aid əlavə misallar söyləyin.

**27.** Aşağıdakı variantlardan hansında sinonim sözlər verilmişdir?

A) etiraz, qəzəb  B) narazılıq, kinayə  C) kinayə, rişxənd
D) gülüş, kinayə  E) etiraz, gülüş

**28.** Aşağıdakı cümlələrin bəzilərində "o", "bu" əvəzliklərindən sonra vergül işarəsi səhv qoyulub. Həmin cümlələri səsləndirin və fikrinizi əsaslandırın.

1) Kimdə hünər varsa, bu, qızılları alsın, gedib ayını öldürsün, qoy camaatın canı bu, ayıdan qurtarsın. 2) O, qızılı ver aparım, uşaqlar xərcləyib dolansınlar. 3) Dedilər ki, bax o hündür qayanın üstünə çıx. 4) Bu, kişi ki, belə cürətlə danışır, o bu, silahla məni öldürəcək, yaxşısı budur ki, bu padşahın torpağından uzaqlaşım. 5) Ayı fikirləşdi ki, bu, silah növünü elə bu kişidən soruşsam, bilər. 6) Əmi, bu nə silah növüdür? Sən bu silahı tanıyırsanmı? 7) Ayı bu sözləri deyib götürüldü.

## ÖZÜNÜZÜ YOXLAYIN IV

**1.** Kərəm kimdir? O hansı mətnin qəhrəmanıdır? Bu mətndə Kərəm bəyzadə oğlana nə üçün atın haqqını deyil, saat bağışlayır?

Cümlələri bir-biri ilə düzgün əlaqələndirməklə həmin mətnin məzmununu qısaca danışın.

**2.** Hacıəli kişi ilə hansı mətndə tanış olmusunuz? Həmin mətnin ideyası barədə fikirlərinizi yoldaşlarınızla bölüşün.

❁ Necə bilirsiniz, Hüseynəli xan nə üçün Hacıəli kişini axtarırdı?

**3.** “Böyük çarşı” Qız qalasından azca yuxarıda – karvansaranın düz qabağında idi” cümləsində fərqləndirilmiş sözü aşağıdakı variantlardan hansı ilə əvəz etmək olar?

A) məhz B) lap C) ancaq D) elə E) ən

**4.** “Elin malı eldə qalar” atalar sözü oxuduğunuz mətnlərdən hansının məzmunu ilə səsləşir? Fikrinizi həmin mətnə istinad etməklə əsaslandırın.

**5.** Aşağıdakı misralarda nöqtələrin yerinə hansı söz yazılmalıdır?

Qorumaqdan ötrü Azərbaycanı
Qüdrəti torpaqdan aldı ...

A) qəhrəmanlar B) igidlər C) şəhidlər
D) əsgərlər E) gənclər

**6.** Aşağıda verilmiş bağlayıcıları məna növləri üzrə qruplaşdırın.

amma, ya, gah da, lakin, və, nə, nə də, ya da, ancaq, həm, hətta, ilə, da, yaxud, ya da ki

**7.** “Qələbənin sirri” mətnində hansı idman növündən söhbət gedir? Düzgün cavabı göstərin və həmin idman növü barədə bildiklərinizi danışın.

A) boks B) cüdo C) güləş
D) karate E) qaydasız döyüş

**8.** Ulu öndərimizin söylədiyi “Öz ana dilini bilməyənlər şikəst adamlardır!” aforizmi oxuduğunuz hansı şeirin məzmunu ilə səsləşir? Həmin şeirdən yadınızda qalan hissəni əzbərdən deyin.

❁ “Öz ana dilini bilməyənlər şikəst adamlardır!” aforizmi üzrə debat təşkil edin, fikrinizi tutarlı dəlillərlə əsaslandırın.

**9. “Türkün köpəyinə bax da. Gör bir necə dayanıb!”** – misraları hansı mətndəndir? Həmin mətnin əsas ideyası nədir? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

**10.** Aşağıdakı cümlələrdə qara şriftlə fərqləndirilmiş sözlər hansı nitq

hissəsinə aiddir? Düzgün cavabı göstərin və fikrinizi əlavə misallarla əsaslandırın.

1) Türkün köpəyinə bax **da. Gör bir** necə dayanıb!

A) feil B) ədat C) qoşma D) əvəzlik E) nida

**11.** Aşağıdakı sualların cavabı hansı mətndədir? Həmin mətnin məzmununu yadınıza salın və sualları cavablandırın.

1) Teatr institutunun tələbələrinin hazırladığı "Məkr və məhəbbət" tamaşası niyə oynanılmadı?

2) Bu tamaşada Ledi Milfordun mürəkkəb xarakterini kim canlandırmalı idi?

❁ Mətnin məzmunu üzrə beş sual tərtib edib yoldaşlarınıza oxuyun.

**12.** "İki ana" mətnində müəllif nə üçün ceyranla ananı qarşılaşdırır? Fikrinizi əsaslandırın və "Ceyran" şeirindən yadınızda qalan hissələri əzbərdən deyin.

❁ "Ceyran" şeirindən götürülmüş aşağıdakı misralarda "o" əvəzliyindən sonra vergül işarəsinin işlədilməsinə ehtiyac varmı? Fikrinizi faktlara istinad etməklə əsaslandırın.

O qara **gözlərin** düşdü dillərə,
**Dişlərin** oxşayır mərcana, ceyran!

Ovçu, insaf elə, <u>keçmə</u> bu düzdən!
O çöllər qızını <u>ayırma</u> bizdən!

❁ Qara şriftlə verilmiş sözlərə artırılan şəkilçilər nə bildirir? Fikrinizi əsaslandırın və həmin sözlərin əvvəlinə lazım olan sözü artırıb birləşmələri səsləndirin.

❁ Altından xətt çəkilmiş sözlərin feilin hansı formasında olduğunu və şəxsini müəyyənləşdirib deyin. Sonra həmin feilləri feilin digər şəkillərində də işlədin.

**13.** "Ceyran" şeirindən götürülmüş aşağıdakı misraların sonunda durğu işarələri buraxılıb. Müvafiq durğu işarələrini yerinə qoymaqla misraları dəftərinizə köçürün.

... Yenə öz sürünü nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran

... Qıyma öz qanına boyana ceyran
Nə gözəl yaraşır Muğana ceyran

**14.** Novruz bayramında, adətə görə, süfrəyə "s" hərfi ilə başlayan 7 növ ərzaq qoyulur. Həmin ərzaqlar hansılardır? Onların adını yadınıza salın və dəftərinizə yazın.

**15.** Aşağıdakı cümlədə fərqləndirilmiş söz hansı nitq hissəsinə aid

edilməlidir? Fikrinizi əlavə misallarla izah edin.

**Adətə görə**, süfrəyə "s" hərfi ilə başlayan 7 növ ərzaq qoyulur.

**16.** Zirvə üstə uyuyan qəhrəmanlarımızdan biri də Çingiz Mustafayevdir. Onun haqqında nə bilirsiniz? Ahəng qanununa uyğun şəkilçi variantlarını seçməklə aşağıdakı mətni oxuyun və BİBÖ cədvəlini doldurun. Yeni nə öyrəndiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

Çingiz Mustafayev 1977-ci ildə Yasamal rayonundakı 167 nömrəli məktəb..., 1983-cü ildə Azərbaycan Tibb Universiteti... bitirib. Üç il Şabran rayonun... həkim işləyib. 1980-ci illərdə "Cəngi" birliyinin, "Ozan" rok qrupunun, 1991-ci ildə isə "215 KL" studiyası... yaradıcısı olmuşdur.

O, 1991-ci ildən Azərbaycan Dövlət televiziyasın... reportyor kimi çalışmağa başlayıb. Çingiz... Azərbaycan gerçəklikləri haqqında reportajları Amerika və Avropa... aparıcı teleagentlikləri və televiziyalarına yol tapmışdı.

Çingiz Ermənistan-Azərbaycan müharibəsi... 1992-ci ilə qədər olan dövrünün əsil salnaməsini yaratmış, səkkiz ay ərzində Qarabağ müharibə... haqqında 18 sənədli film çəkmişdir. Dünya Çingiz... daha çox Xocalıda çəkdiyi filmlə tanıyır.

1992-ci ilin iyun ayı... 15-də Ağdamın Naxçıvanik kəndində çəkiliş zamanı aldığı mərmi qəlpəsindən həlak olan Çingiz sonadək kameranı söndürməmişdi.

Çingiz Mustafayev 1993-ci il... Azərbaycan... Milli Qəhrəmanıdır.

**17.** "Bu lətifələrin bəziləri Əmir Teymur dövrü, bəziləri isə ayrı tarixi dövrlərlə səsləşir" cümləsində hansı köməkçi nitq hissələri işlənib?

A) bağlayıcı, qoşma B) ədat, qoşma C) nida, ədat
D) bağlayıcı, modal söz E) bağlayıcı, nida

**18.** Aşağıdakı cümlələrdə hansı köməkçi nitq hissələri işlənib?

Cəlil Məmmədquluzadə **də** öz jurnalını **məhz** bu səbəbdən "Molla Nəsrəddin" adlandırmışdır. Onun ilk nömrəsi 1906-cı il aprelin 7-də çapdan çıxmışdır.

A) ədat B) bağlayıcı C) qoşma D) nida E) modal söz

**19.** Temp və fasiləni gözləməklə mətni oxuyun. Necə bilirsiniz, mətndə onun məzmunu ilə əlaqəsi olmayan hissənin olduğunu söyləmək olarmı?

## SAZƏNDƏ

Ayı ovlamaqda məşhur olan qoca ovçu təpəcik üzərində oturub kamanını dınqıldadırdı. O, musiqini çox sevirdi. İstəyirdi **ki**, çalmaq öyrənsin. Qoca ovçu yaxşı çala bilmirdi, **ancaq** çaldığı özünə çox xoş gəlirdi.

Qocanın qarşısından keçən tanış həmkəndlisi ona dedi:

– **Ay** kişi, bu kamanı tulla getsin, tüfəngini götür, sənin əlində tüfəng **daha** yaxşı səslənir. Bu saat meşədə bir ayı gördüm.

Qoca kamanı bir tərəfə qoydu. Kəndlidən ayını harda gördüyünü soruşdu. Tüfəngini götürüb meşəyə getdi. Qoca meşədə ayını uzun müddət axtardı. **Ancaq** onun izinə **belə** rast gəlmədi. **Nəhayət**, yorulub bir kötüyün üstündə oturdu.

Meşədə dərin **bir** sükut vardı. Burada **nə** budaqlar tərpənir, **nə də** quşlar oxuyurdu. ***Birdən*** qoca kaman simlərindən qopan səsə oxşar bir səs eşitdi:"Dınq!" Bir qədər keçəndən **sonra** həmin səs ***yenə*** təkrar olundu:"Dınq!"

Qocanı heyrət götürdü:

– Ayı, zalım oğlunun ayısı, çıx ***bəri***, dava eləyək. Məni cürətli edən yoxsulluq yanımdadı, o məni ***bura*** gətirib. Onsuz da onun hünəri ilə mən səni öldürməliyəm.

Xoş "dınq" səsi yenə aydın eşidildi. Qoca kötüyün üstündən qalxıb, ***ehmallıca*** səs gələn tərəfə getdi.

Səs meşənin kənarından gəlirdi. Qoca, küknar ağacının arxasında gizləndi. Meşənin kənarında tufandan sınmış böyük **bir** ağac vardı. Kötüyün sınmış yerində uzun tilişkələr görünürdü. Ağacın altında **isə** bir ayı oturmuşdu. Ayı pəncəsi **ilə** tilişkəni tutub özünə **tərəf** çəkir, sonra **da** buraxırdı. Tilişkə düzələrkən titrəyir **və** havada sim **kimi** "dınq" eləyirdi. Ayı başını əyərək bu səsi ***diqqətlə*** dinləyirdi.

Qoca ovçu **da** dinləyirdi: ağac tilişkəsi yaxşı səslənirdi.

Səs kəsilən **kimi** ayı ***yenidən*** işinə davam edir, tilişkəni özünə tərəf dartır, ***sonra*** da buraxırdı.

***Axşamüstü*** həmin kəndli yenə qoca ayı ovçusunun komasının qarşısından keçirdi. Qoca yenə əlində kaman təpəcik üstündə oturmuşdu. O, barmağı **ilə** kamanın bir simini dartır, sim isə ***yavaşcadan*** "Dınq!" eləyirdi.

Kəndli qocadan soruşdu:

– **Hə**, nə oldu, ayını öldürdün**mü**?

Qoca:

– **Yox**, – deyə cavab verdi.

– **Bəs** nə üçün?

– Mən ona necə güllə ata bilərəm **ki**, o **da** mənim **kimi** sazəndədir, – deyib qoca ovçu ayının yıxılmış ağacın tilişkəsində necə çaldığını kəndliyə nağıl etdi. **Vitali Valentinoviç Bianki**

**20.** Aşağıdakı sualları oxuyun və cavablandırın. Necə düşünürsünüz, suallar mətndəki ardıcıllıqla uyğunluq təşkil edir, yoxsa yox?

1) Qoca ovçu öz sənətindən başqa daha nəyə həvəs göstərirdi?
2) Həmkəndlisi qocaya nə təklif etdi?
3) Meşədə qocanın heyrətinə səbəb olan nə idi?
4) Qoca ayını öldürməməsinin səbəbini həmkəndlisinə necə izah etdi?

**21.** Qoca ovçu: "... o da mənim kimi sazəndədir", – deyərkən nəyi nəzərdə

tutur? Fikrinizi mətnə istinad etməklə izah edin.

**22.** Necə bilirsiniz, "Meşədə kamanı kim çala bilərdi?" – cümləsi mətndə hansı cümlədən sonra işlədilə bilər?

A) Nəhayət, yorulub bir kötüyün üstündə oturdu.
B) Qocanı heyrət götürdü.
C) Ayı başını əyərək bu səsi diqqətlə dinləyirdi.
D) Qoca yenə əlində kaman təpəcik üstündə oturmuşdu.
E) Hə, nə oldu, ayını öldürdünmü?

**23.** Necə bilirsiniz, mətndə köməkçi nitq hissələrinin hamısının işləndiyini söyləmək olarmı? Fikrinizi konkret misallar üzrə əsaslandırın.

**24.** Mətni oxuyun. Sizcə, bu mətnin və oxuduğunuz hekayənin məzmunu arasında bağlılıq varmı? Fikrinizi izah edin.

**İnsan həyatında musiqinin rolu**

Darıxanda, əhvalın olmayanda qeyri-ixtiyari sevimli musiqini işə salırsan. Əvvəlcə, sadəcə, qulaq asırsan, sonra isə zümzümə etməyə başlayırsan. Əhvalın qalxır və özündə bir yüngüllük hiss edirsən. Bax elə musiqinin gücü bundadır.

Musiqi yalnız əhvali-ruhiyyəni qaldırmır, o həm də səninlə kədərli anlarını bölüşür. Bir sözlə, musiqi həyatımızda əvəzi olmayan bir dəyərdir və insan həyatında onun rolunu qiymətləndirməmək olmaz.

❁ Mətndə işlənmiş köməkçi nitq hissələrini tapın və hər birinin qrammatik mənasını izah edin.

**25.** Verilmiş tapmacaları oxuyun, cavablar üzərində düşünün. Necə bilirsiniz, cavabların oxuduğunuz hekayənin məzmunu ilə əlaqəsi varmı? Fikrinizi əsaslandırın.

Qoz ağacın oyarlar,
Üstünə tel qoyarlar,
Vaxtsız durub ağlasa,
Qulağını burarlar.

O nədi ki, yetmiş iki dil bilir?

**26.** Mətndə göy rəngdə verilmiş sözləri qrammatik mənaları üzrə qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın.

❁ Hər bir sütunda yazdığınız köməkçi nitq hissəsinin orfoqrafiyası ilə bağlı öyrəndiyiniz qaydaları yadınıza salıb izah edin.

**27.** Mətndə altından xətt çəkilmiş sözlərin tələffüzü ilə bağlı ümumi cəhət nədən ibarətdir? Fikrinizi konkret misallar üzərində izah edin. Sonra həmin sözləri dəftərinizə köçürüb, hər birinin qarşısında düzgün tələffüz şəklini qeyd edin.

**28.** Mətndə qara kursivlə fərqləndirilmiş sözlərin qrammatik mənasını

müəyyənləşdirin və onları məna növləri üzrə qruplaşdırıb ayrı-ayrı sütunlarda yazın.

❁ Yazdığınız sözlərin quruluşunu müəyyənləşdirin və onları quruluşca növləri üzrə qruplaşdırıb yazın.

**29.** Necə düşünürsünüz, mətndə qırmızı rəngdə verilmiş sözlərin hamısının feilin eyni şəklində, eyni zamanda və şəxsdə işləndiyini əsaslandıra bilərsinizmi? Özünüzü yoxlayın.

**30.** Mətndə qırmızı rəngdə verilmiş feilləri dəftərinizə köçürün və onların hər birini feilin bütün şəkillərində işlədin. Hər bir şəklin necə düzəldiyini izah edin.

**31.** "Qocanı **heyrət götürdü**" cümləsindəki fərqləndirilmiş ifadəni aşağıdakı variantlardan hansı ilə əvəz etsək, məna dəyişməz?

A) əsəbiləşdi B) təəccübləndi C) maraqlandı
D) sakitləşdi E) çaşıb-qaldı

**32.** Aşağıda verilmiş hikmətli sözləri oxuyun. Bu aforizmlərin oxuduğunuz mətnin məzmunu ilə hər hansı bir əlaqəsi varmı? Fikrinizi bildirin.

1) Mən musiqiyə qulaq asdıqdan sonra daha yaxşı işləyə bilirəm (Höte). 2) Söz qurtaran yerdə musiqi başlanır (Hofman). 3) Musiqini sevmək üçün ən əvvəl onu dinləməyi bacarmaq lazımdır (D.Şostakoviç).

❁ Aforizmlərdə işlənmiş antonim sözləri seçib səsləndirin.

❁ Necə bilirsiniz, aforizmlərdə işlənmiş "əvvəl" və "sonra" sözləri eyni, yoxsa fərqli qrammatik mənada işlənib? Fikrinizi əlavə misallarla əsaslandırın.

**33.** Mətndən seçilmiş aşağıdakı sözlərdən hansı digərlərindən fərqlənir? Düzgün cavabı səsləndirin və fikrinizi əsaslandırın.

A) ovla B) dinlə C) tulla D) güllə E) gizlə

❁ Sözlərdən hansını kök və şəkilçiyə ayırmaq olar? Həmin sözü seçib səsləndirin və onunla eyniköklü sözlər düzəldib cümlələrdə işlədin.

**34.** Aşağıdakı mətni oxuyun və birinci abzasda neçə köməkçi nitq hissəsi işləndiyini müəyyənləşdirin.

A) beş B) altı C) yeddi D) dörd E) səkkiz

İnsanlar hələ çox qədim zamanlardan bilirdilər ki, bitkilərin onlara xeyri çoxdur. Bitkilər insanları yalnız yedirib doydurmur, həm də onlara geyinmək və qızınmaq vasitəsi kimi də kömək edir. Qısa desək, bitkilər insanları yedirdir, geydirir və müalicə edir.

Ağıllı adamlar belə deyirlər: "Həkimin üç silahı var: söz, bitki və bıçaq". Qədim zamanlardan ... insanlar dərman bitkilərini yüksək qiymətləndirmişlər.

Azərbaycan torpağı da dərman bitkiləri ilə zəngindir. Dərman bitkilərinin mindən çox növü Azərbaycanda yetişir.

- Nöqtələrin yerinə hansı qoşma yazılmalıdır?

A) bu günə kimi B) bəri C) üçün D) indiyədək E) əvvəl

- Mətndə neçə qoşma işlənmişdir? Onları seçib səsləndirin.
- Mətndə ədat işlənmişdirmi? Fikrinizi əsaslandırın.
- Mətndə modal söz işlənmişdirmi? Fikrinizi əsaslandırın.

**35.** Sözlərin və ya cümlələrin təsir gücünü artıran nitq hissəsi hansıdır?
A) nida B) ədat C) modal sözlər D) qoşma E) sifət

**36.** Köməkçi nitq hissələrindən ibarət sıranı göstərin:
A) sonra, düzənlik, danışmaq, üçün, çoxlu
B) lakin, qədər, çəmənlik, və, yenə
C) daha, əvvəla, görə, çünki, bəh-bəh
D) üzmək, əlbəttə, qapı, səkkiz, ay can
E) bostan, sahildə, yalnız, bomboz, indicə

**37.** Nöqtələrin yerinə aşağıdakı variantlardan hansı yazılmalıdır?
Qoşma, bağlayıcı, ədat, ...
A) isim B) sifət C) modal söz D) əvəzlik E) say

**38.** Aşağıdakı sxemdə nöqtələrin yerinə hansı söz yazılmalıdır?

...
→ istiqamət, bənzətmə, məsafə ... bildirir
→ ismin yiyəlik, yönlük ... halı ilə işlənə bilir
→ aid olduğu sözlə birlikdə suala cavab verir

A) ədat B) bağlayıcı C) qoşma
D) nida E) modal söz

**39.** Aşağıdakı sözlərdən hansı səhv yazılmışdır?
A) nüsxə B) qabaxcıl C) qeyrətli D) ehtiyac E) bədbəxt

**40.** Hansı cərgədəki bütün sözlərin yazılışında səhvə yol verilib? Fikrinizi əsaslandırın və həmin sözləri düzgün şəkildə dəftərinizə yazın.
A) cürətli, diqqətlə, tüfəng, həm-kəndli
B) axşam-üstü, kəntli, kötüy, dinliyirdi
C) nahayət, qeyrətli, əlbəttə, səkkiz,
D) bostan, usta, dəstə, xəstə, püstə
E) sünbül, şənbə, zambaq, panbıq, könbə

- Hər bir cərgədə səhv yazılmış sözləri müəyyənləşdirib səsləndirin və düzgün şəkildə dəftərinizə yazın.

## TƏRCÜMƏ ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ ÇALIŞMALAR

**Qeyd.** Tərcümə üçün məzmunu verilmiş aşağıdakı mətnlər tədris dilində olmalıdır. Müəllimlər başqa mətnlərdən də istifadə edə bilərlər.

## GÖZƏL TƏŞƏBBÜS

⓭ Qruplara bölünün və müəllimin təqdim etdiyi mətndən biriniz F.Köçərlinin həyatı, digəriniz isə yaradıcılığı ilə əlaqədar hissəni Azərbaycan dilinə tərcümə edin, məzmununu danışın.

Firidun bəy Köçərli 1863-cü il yanvarın 26-da Dağlıq Qarabağın mərkəzində, Şuşa şəhərində dünyaya gəlmişdir. O, ailədə tək uşaq olmuşdur. Yerli rus-müsəlman məktəbini bitirdikdən sonra o, Qori şəhərindəki Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuşdur. 1885-ci ildə diplom aldıqdan sonra o, bir il Yerevan rus-müsəlman məktəbində ana dili və şəriət müəllimi işləmişdir. Sonra o, Qori Müəllimlər Seminariyasına işə dəvət olunmuş və 1918-ci ilə qədər orada dərs demişdir. 1895-ci ildə Firidun bəy özünün ilk məqaləsi olan "Azərbaycan komediyaları"nı, 1904-cü ildə isə "Ədəbiyyatımıza dair məktub"u çap etdirmişdir. 1903-cü ildə onun ilk elmi əsəri "Azərbaycan türklərinin ədəbiyyatı" işıq üzü görmüşdür. Sonrakı illərdə onun "Mirzə Fətəli Axundov" (1911), "Balalara hədiyyə" (1912) əsərləri nəşr olunmuşdur. Bunlarla bərabər, Firidun bəy rus (Puşkin, Lermontov, Çexov kimi) və Avropa müəlliflərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi ilə də məşğul olmuşdur. N.Qoqol, L.Tolstoy, A.Çexovun yaradıcılığı haqqında sevgi dolu parlaq məqalələr də onun qələminə məxsusdur.

## BURADA NƏ VAR Kİ?

❾ Müəllimin təklif etdiyi mətni Azərbaycan dilinə tərcümə edib məzmununu danışın.

1879-cu ildə Qori Seminariyasında Azərbaycan bölməsinin açılışı reallaşdıqdan sonra Aleksey Osipoviç Çernyayevski bölməyə inspektor təyin edildi. Seminariyanın direktoru Dmitri Dmitriyeviç Semyonov onu yanına çağıraraq ümidsizcəsinə deyir: "Şöbə açılsa da, ərizə verən çox azdır; belə getsə, şöbənin fəaliyyət göstərməsi sual altında qalacaq". Aleksey Osipoviç isə ümidini üzmür və şöbənin açılması üçün uşaq axtarışına çıxır. O, İrəvanda, Naxçıvanda, Gəncədə, Şamaxıda, Qubada və Dərbənddə olur, qapı-qapı gəzib qəza mərkəzlərində seminariyaya uşaq toplayırdı. O, yüz kilometrlərlə yolu faytonla, araba ilə, qatarla, bəzən də payi-piyada getməli olurdu. Çünki Azərbaycanda işıq tapacağına əmin idi. Şamaxıda kasıb rus ailəsində doğulub

böyüyən Aleksey Çernyayevski təpədən-dırnağa Azərbaycanla bağlı idi. O, bütün həyatını azərbaycanlı balalarının maariflənməsinə, təhsil almasına həsr etdi. Böyük maarifçi Firidun bəy Köçərli sonralar yazırdı: "Qori Seminariyasının Azərbaycan şöbəsində yaxşı və diqqətəlayiq nə vardısa, hamısı Çernyayevskinin adı ilə bağlıdır. Çernyayevskinin "Vətən dili" bizim məktəblərdə tamam yeni bir dövr açdı".

## ZAQAFQAZİYA MÜƏLLİMLƏR SEMİNARİYASI

Bu seminariya Zaqafqaziyada pedaqoji kadrlar hazırlayan böyük bir mərkəz idi. 4 illik, ixtisaslaşdırılmış məktəb 1876-1917-ci illərdə Qori şəhərində fəaliyyət göstərmişdir. O, ibtidai sinif müəllimi hazırlayırdı. 1879-cu ildə seminariyanın nəzdində Azərbaycan bölməsi açıldı. Onun ilk inspektoru Aleksey Osipoviç Çernyayevski təyin edildi. Azərbaycan dilində "Vətən dili" adlı ilk dərsliyin meydana gəlməsi də bilavasitə Zaqafqaziya Müəllimlər Seminariyası ilə bağlıdır. 1918-ci ildə Azərbaycan bölməsinin bazasında Azərbaycanın Qazax şəhərində Qazax Müəllimlər Seminariyası təşkil edildi. Seminariyaya ilk direktor Qori Seminariyasının məzunu Firidun bəy Köçərli təyin edildi. Seminariyanın rəsmi açılışı 1918-ci il noyabrın 10-da oldu və həmin gündən dərslər başlandı. 1918-ci ildə seminariyaya 35, 1919-cu ildə isə 24 şagird qəbul edildi.

## MARAQLI GÖRÜŞ

⑭ Ahəng qanununa uyğun şəkilçi variantlarından düzgün istifadə etməklə müəllimin təklif etdiyi mətni Azərbaycan dilinə tərcümə edin.

1918-ci ildə böyük maarifçi və ədəbiyyatşünas Firidun bəy Köçərli Qori Seminariyasının Azərbaycan bölməsini Qazaxa köçürərək, Qazax Müəllimlər Seminariyasının əsasını qoydu. Seminariya qabaqcıl maarif ocağına çevrildi. Buraya qəbul olunan kənd uşaqları arasında Səməd və Mehdixan Vəkilov qardaşları da vardı. Səməd Vəkilov hər şeylə maraqlanan, həssas, zirək və fərasətli uşaq idi. Elə təhsilin ilk günlərindən onun təbii istedadı özünü göstərirdi. Bu illərdə o, Vaqif, Vidadi, Zakir və Sabirin yaradıcılığına böyük maraq göstərir, A.S.Puşkin və M.Y.Lermontovun əsərləri ilə tanış olurdu. Allahın ona verdiyi gözəl səslə o, çox gözəl mahnı oxuyur, şeirlər deyir, bir çox həvəskar tamaşalarda iştirak edirdi. Onun ilk şeirləri də seminariyada oxuduğu illərdə yazılıb. Seminariyanın divar qəzetində çap olunan bu şeirlər lirik qoşmalar idi.

## ZƏNCİNİN ARZULARI

⑱ Ahəng qanununa uyğun şəkilçi variantları seçməklə müəllimin təklif etdiyi cümlələri Azərbaycan dilinə tərcümə edin.

1948-ci ildə Səməd Vurğun Polşanın Vrotslav şəhərində keçirilən Mədəniyyət Xadimlərinin Ümumdünya Konqresinin iştirakçısı olmuşdur. Konqresdən qayıtdıqdan sonra şair "Zəncinin arzuları" poemasını yazmışdır. Həmin il poema Polşada çap edilmişdir. Xarici səfərlərlə bağlı yazdığı şeirlərini Səməd Vurğun "Avropa xatirələri" adı ilə çap etdirmişdir.

## BAYRAĞIMIZ

❻ Ahəng qanununa uyğun düzgün şəkilçi variantları seçməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə yazılı tərcümə edin və bayrağımızın tarixi haqqında məlumatınızı artırın.

28 may 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının müstəqilliyi elan edildi. Respublikanın ilk tədbirlərindən biri dövlətçilik rəmzlərinin qəbul edilməsi oldu. ADR-in dövlət bayrağı haqqında qərar 21 iyun 1918-ci ildə qəbul edildi. Qərarda deyilirdi: "Üstündə qırmızı fonda ağ səkkizguşəli ulduz və aypara təsviri olan qumaş Azərbaycanın bayrağı kimi təsdiq edilsin". Bu bayraq Osmanlı İmperiyasının bayrağı ilə eynilik təşkil edirdi. Fərq yalnız onda idi ki, Osmanlı İmperiyasının bayrağındakı ulduz beş guşədən, Azərbaycan Cümhuriyyətinin bayrağında isə səkkiz guşədən ibarət idi.

Bir qədər sonra ADR-in bayrağını dəyişmək məsələsi qaldırıldı. Yeni layihə özündə üç ideyanı əks etdirməli idi: türkçülük, islamçılıq və müasirlik. 1918-ci ilin noyabrın 9-da Fətəli xan Xoyskinin hesabatı əsasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı haqqında qərar qəbul edildi.

## DOĞRUDAN DA, FİZİKDİR...

❼ Müəllimin təqdim etdiyi cümlələri Azərbaycan dilinə tərcümə edin, sonra onları ardıcıllıqla elə düzün ki, mətn alınsın.

1) Eynşteyn coşqun pərəstişkarı olduğu Motsartın əsərlərini öz skripkasında ifa edirdi. 2) Albert Eynşteyn 14 mart 1879-cu ildə Almaniyanın cənubundakı Ulme şəhərində çox da varlı olmayan yəhudi ailəsində anadan olmuşdur. 3) Bir neçə ildən sonra, 1934-cü ildə ABŞ-da Prinstonda olarkən Eynşteyn konsert verdi və bu konsertdən yığılan pulların hamısı faşist Almaniyasından miqrasiya etmiş alim və incəsənət xadimlərinin xeyrinə sərf olundu. 4) Albert

Eynşteyn ibtidai təhsilini Münhen şəhərindəki katolik məktəbində almışdı. 5) Sonralar da Eynşteynin musiqiyə olan aludəliyi qalırdı və onun həyatının ayrılmaz hissəsini təşkil edirdi. 6) Anasının təşəbbüsü ilə Eynşteyn 6 yaşından skripka çalmaqla məşğul olmağa başlamışdı.

## YOX, MONTYOR GƏLMƏYƏCƏK

⓬ Cümlələrin düzgün qurulmasına diqqət yetirməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin.

Mehdi Qara İvanın qəhrəmanlığı ilə xüsusilə fəxr edirdi. Tağı çox gənc idi. Onun, Bakı sakininin 20-21 yaşı ancaq olardı. Kəşfiyyatçılar qrupunun döyüşçüsü kimi o, qorxu bilmirdi. Ən çətin və mürəkkəb tapşırıqları tək yerinə yetirirdi: körpüləri partladır, faşist qarovulçularını səssizcə “yığışdırırdı”. Faşistlər Mehdinin başına olduğu kimi, Qara İvanın başına da 500 min lirə pul mükafatı verməyi vəd etmişdilər. Ancaq almanlara onu tutmaq heç cür nəsib olmadı. O, doğrudan da, çox bacarıqlı və faşistlərə qarşı amansız idi.

## KÖMƏKÇİ

⓮ Payızda tez-tez yediyimiz meyvələrin faydası haqqında nə bilirik? Müəllimin təqdim etdiyi mətnləri tərcümə edin və BİBÖ cədvəlini doldurun.

**Heyva:** Heyva Krasnodarda, Moldaviyada, Qafqazda, Orta Asiyada yetişdirilir. Heyvanın vətəni nə qədər günəşli olarsa, onun meyvələri də bir o qədər ətirli və faydalı olur. Bu dadlı və faydalı meyvə güclü müalicəvi təsirə malikdir. O, vərəm, qanazlığı, bronxial astma, sarılıq, mədə-bağırsaq xəstəliklərində faydalıdır. Heyvanın unikal antivirus xüsusiyyətləri onu qrip və soyuqdəymənin müalicəsi zamanı uğurla istifadə etməyə imkan verir. Heyva dəmir, kalium, kalsium, mis, fosfor, orqanik turşular və PP, A, B1, B2, B6, C kimi vitaminlərlə zəngindir.

**Xurma:** Xurma qanda hemoqlobinin səviyyəsini qaldıran ən yaxşı meyvədir. Onun tərkibi kalsium və dəmirlə zəngindir. Xurmada eyni zamanda B1 və B2 vitaminləri var ki, bunlar da zehni və sinir sistemini sakitləşdirir, yorğunluğu aradan qaldırır. Xurma həmçinin qan damarlarını yumşaldır və damar sərtliyinin qarşısını alır, böyrəklərin yuyulmasına yardım göstərir, onların daha yaxşı işləməsini təmin edir. Böyrək iltihabına şəfa verir. Xurmanın suyu böyrək daşlarının parçalanmasında çox faydalıdır.

Xurma meyvəsi xəstəliyə qarşı çox davamlıdır. Onun meyvələrində, demək olar ki, heç bir mikrobioloji xəstəlik müşahidə edilmir.

**Feyxoa:** Feyxoa tərkibində çoxlu miqdarda yod olduğu üçün yüksək qiymətləndirilir. Bu baxımdan onun tərkibi hətta dəniz məhsulları ilə müqayisə edilir. Ən başlıcası isə feyxoanın tərkibindəki yod orqanizm tərəfindən asan mənimsənilir. Xüsusilə Qafqazda yetişdirilən feyxoa meyvəsində C vitamini və dəmirin miqdarı daha çoxdur. Yetişmiş feyxoa meyvələrində orta hesabla 6,9 faizə qədər şəkər, 2,5 faizə qədər üzvi turşular, C vitamini var.

## QIZIL PAYIZ
## (ixtisarla)

9 Payızda yetişən bitkilərdən biri olan itburnunun faydaları haqqında nə bilirsiniz? Müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin və BİBÖ cədvəlini doldurun. Yeni nə öyrəndiniz? Bu mövzuda danışın.

**İtburnu.** Hələ qədim dövrlərdən insanlar itburnu bitkisini bir çox xəstəliklər zamanı dərman əvəzi kimi istifadə ediblər. Açıq-qırmızı rəngli bu giləmeyvə orqanizm üçün çox faydalıdır. Çünki o, B, P, K vitaminləri ilə, karotin, pektin, orqanik turşular, zülallar, minerallar, maqnezium, kalsiumla zəngindir. Tərkibindəki C vitamininin miqdarına görə o limon və qara qarağatdan geri qalmır. İtburnunun qurudulmuş və təzə meyvələrindən cövhər, məlhəm və şirə hazırlamaq üçün istifadə edilir. İtburnu çayı orqanizmi möhkəmləndirir, qan-damar sisteminin işini, qaraciyəri və mədə-bağırsaq sistemini normallaşdırır, maddələr mübadiləsini sürətləndirir, əsəb sisteminə yaxşı təsir göstərir, immuniteti gücləndirir. Böyrək xəstəliklərindən əziyyət çəkənlər üçün də itburnu bitkisi olduqca faydalıdır.

Xüsusilə qış fəslində itburnu bitkisindən müntəzəm istifadə etmək daha xeyirlidir. Bu ərəfədə orqanizmin vitaminlərə olan tələbatının bir qismini itburnu bitkisi ilə təmin etmək mümkündür.

## İLK QABAR

15 Balqabağın faydası haqqında nə bilirsiniz? Müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin və BİBÖ cədvəlini doldurun. Bu məlumatı oxuyandan sonra, yəqin ki, heç biriniz ananızın hazırladığı balqabaq şirəsindən və ya yeməyindən imtina etməyəcəksiniz.

**Balqabaq.** Balqabaq əsl təbii enerji, böyük miqdarda vitamin və minerallar mənbəyidir. Bu bitki daim əl və ayaqları soyuq olan, yaxud tez gücdən düşən insanların ən yaxşı köməkçidir.

Boranı qan-damar sisteminin işini yaxşılaşdıran dəmirlə zəngindir. Payızda

yetişən bu bitkidəki karotinin miqdarı kökdəkindən 4 dəfə çoxdur. Tərkibindəki T vitamini hesabına balqabaq maddələr mübadiləsini sürətləndirir və artıq çəkidən azad olmağa kömək edir. O, qaraciyərin fəaliyyətini bərpa edir, onu qoruyur, yumşaldıcı, sidikqovucu və tərqovucu xassəyə malikdir. Balqabaq görmə qabiliyyətini artırır, tərkibi az kalorili şəkərdən ibarət olduğu üçün diabetli xəstələrə məsləhət görülür. Bişmiş boranı qızdırma və öskürəyə yaxşı təsir göstərir.

Boranı uşaqlarda sümüklərin möhkəmlənməsi və qanazlığının aradan qaldırılması üçün əvəzolunmaz nemətdir.

## AĞA MUSA NAĞIYEV

9 Sözlərin əlaqələnməsinə diqqət yetirməklə müəllimin təklif etdiyi mətni Azərbaycan dilinə tərcümə edib dəftərinizə yazın.

Ağa Musa Nağıyev Bakının iri neft maqnatları arasında ən varlı və mötəbər insan kimi tanınırdı. Xasiyyətcə o, çox qənaətcil, hətta xəsis idi. Bir dəfə o, fəhlələrə neftin çıxarılması zamanı ürəkdən və səylə işlədiklərinə, can yandırdıqlarına görə mükafat verməyi vəd edir. Ancaq vədinə əməl etmir. O zaman oğlu İsmayıl mükafatı hər bir fəhləyə 5 manat şirinlik kimi ödəməyi qərara alır. Bunu eşidən Nağıyev mükafat almaq üçün hamıdan əvvəl oğlunun yanına qaçır. Bunu onunla izah edir ki, o da neft mədənində işləyən fəhlələrdən biridir. Ona görə də hamı kimi, ona da mükafat düşür.

## SƏRV AĞACI

11 Cümlələrin düzgün qurulmasına diqqət yetirməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin.

Həmişəyaşıl sərvin ancaq üfüqi formasıı yabanı halda Kiçik Asiyanın dağlarında, İranda və Kipr, Krit və Rodos adalarında yayılmşdır. Sərv hündürlüyü 30 metrə çatan, qısa budaqları gövdəyə sıx birləşmiş, piramidal çətirli ağacdır. Uzunmüddətli quraqlığa və qısamüddətli mənfi 20 dərəcəyə dözür. Torpağa az tələbkardır, daşlıq və əhəngli, quru və az duzlu torpaqlara uyğunlaşır, ancaq təzə və dərin torpaqları sevir. Çox rütubətli torpaqlara isə davamsızdır, küləkdə yıxılır. Şəhərin əlverişsiz şəraitinə davam gətirir, budanmanı yaxşı keçirir. Uzunömürlüdür. 5-6 ildən sonra toxum verməyə başlayır.

## QIRMIZI GİLƏLİ BUDAQLAR

⓭ Müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin. Şəkilçilərin yazılışında ahəng qanununun tələblərinə əməl etməyi unutmayın.

Qədim Yunanıstanda mərsin gözəllik və cavanlıq rəmzi sayılırdı. Mərsin yarpaqlarından hazırlanmış məhlulla yuyunur və üzlərini silirdilər. Bu, dərini təmizləyir və təravətləndirirdi. Mərsin meyvəsindən hazırlanmış araq gözəllik və sağlamlıq iksiri hesab olunurdu. Mərsin meşələri Venera ilahəsinin məbədi yaxınlığında qalxmışdı. Mərsin xəstəlikyaradıcı mikroorqanizmləri məhv edir. Bu bitkini evdə saxlamaq da çox faydalıdır. Mərsin qayğı və daimi diqqət tələb etdiyi üçün otaq şəraitində ona az hallarda rast gəlinir.

## "KOROĞLUYNAN DƏLİ HƏSƏN"QOLU
### I hissə

❺ Koroğlu haqqında əlavə məlumat almaq istəyirsinizsə, müəllimin təqdim etdiyi qısa məlumatı oxuyub Azərbaycan dilinə tərcümə edin. Ahəng qanununa uyğun şəkilçi variantlarından düzgün istifadə etməyi unutmayın.

Koroğlu Azərbaycan, türk, türkmən, özbək, qazax, qaraqalpaq, tacik, Orta Asiya ərəbləri, gürcülərin mifologiyasında döyüşçü-qəhrəman, şair, musiqiçi və xanəndə kimi tanınır. Koroğlu, əsas məzmunu Koroğlu və onun silahdaşlarının zülmkarlara qarşı mübarizəsindən bəhs edən eyniadlı eposun mərkəzi obrazıdır. Xan Koroğlunun atasının gözlərini kor edir (onun adının digər bir izahı da – "korun oğlu" bununla əlaqələndirilir) və qəhrəman, atasının intiqamını almaq arzusu ilə böyüyür. Koroğlu qeyri-adi gücə malik olur. Gənclikdə o, ildırım parçasından hazırlanmış sehirli silaha – Misri qılınca sahib olur. Kor olmuş atası, Koroğlu üçün bir çox möcüzəvi xüsusiyyətlərə malik olan qanadlı Qıratı böyüdür. Narazı Koroğlu zülmkar xanı öldürür və dağlara çəkilir. Evsiz-eşiksiz adamlar üçün sığınacaq kimi alınmaz qala tikir və hökumətə tabe olmadan öz dəstəsi ilə Çənlibeldə yaşayır.

## "KOROĞLUYNAN DƏLİ HƏSƏN"QOLU
### II hissə

❾ Cümlələrdə sözləri düzgün əlaqələndirmək və ahəng qanununa əməl etməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin və BİBÖ cədvəlini doldurun. Necə bilirsiniz, bu tərcümə "Koroğlu" dastanı ilə bağlı məlumatınızın genişlənməsinə xidmət göstərə bildimi?

"Koroğlu" eposunun Azərbaycan versiyası əsasında Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov 1932-1936 –cı illərdə "Koroğlu" operasını yazmışdır. Opera ilk dəfə 1937-ci ilin aprel ayında Bakı Opera və Balet Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Operanın ilk tamaşasına bəstəkar özü dirijorluq etmişdir. Koroğlu rolunun ilk ifaçısı məşhur Azərbaycan xanəndəsi Bülbül olmuşdur. "Koroğlu" operası 1938-ci ildə "Azərbaycan incəsənəti onilliyi" festivalı çərçivəsində Moskvada səhnəyə qoyulmuşdur. Opera ovaxtkı SSRİ rəhbəri İ.Stalinin çox xoşuna gəlmişdi. Hökumət rəhbərinin sərəncamı ilə Üzeyir Hacıbəyov Sovet İttifaqının ən yüksək mükafatlarına:1938-ci ildə Lenin mükafatına, 1941-ci ildə Stalin mükafatına və 1941-ci ildə "SSRİ-nin xalq artisti" fəxri adına layiq görülmüşdür. "Koroğlu" operası Ü.Hacıbəyov yaradıcılığının tacıdır.

## FƏTƏLİ XANIN BEŞİYİ
### I hissə

❹ Ahəng qanununa uyğun şəkilçi variantları seçmək və sözləri düzgün əlaqələndirməklə müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə etsəniz, Fətəli xan haqqında müəyyən məlumat alacaqsınız. Özünüzü sınayın.

Fətəli xan 1736-cı ildə Quba xanı Hüseynəli xanın ailəsində anadan olmuşdur. O, 1758-ci ildə atasının ölümündən sonra Quba xanlığının başına keçmişdir. Özünün hakimiyyəti dövründə Fətəli xan Azərbaycanın Şimali-Şərq hissəsini birləşdirmiş, vergi və köçürmə islahatları aparmışdır. O, bir Azərbaycan xanı kimi, Azərbaycan dövlətini birləşdirməyə can atırdı.

Müasirləri Fətəli xanı mahir və istedadlı dövlət xadimi kimi xarakterizə edirlər. Görkəmli tarixçi Abbasqulu ağa Bakıxanov yazır ki, Fətəli xan öz ağlı, səxavəti və bacarığı nəticəsində yüksəlmişdi.

## ZİRVƏ ÜSTƏ

❾ Ahəng qanununa uyğun şəkilçi variantları seçməklə 20 Yanvar faciəsi haqqında müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin. Bu barədə daha nə bilirsiniz? Fikirlərinizi yoldaşlarınızla bölüşün.

20 yanvar 1990-cı il saat 00:20-də sovet ordusunun 20 minlik heyəti Bakıya soxuldu. Ölkənin konstitusiyasının bu şəkildə pozulmasına etiraz edən yüzlərlə dinc sakin mitinqə çıxdı. Bunun nəticəsində 137 nəfər həlak oldu,

700-dən çoxu yaralandı. Ölənlərin xatirəsinə 22 yanvar 1990-cı ildə Bakı şəhərinin  təqribən bir milyon yarım sakini topların lülələri altında şəhərin mərkəzi küçələrindən keçdilər.

Qəhrəmancasına həlak olan azərbaycanlıların xatirəsinə Dağüstü parkda Şəhidlər Xiyabanı salındı. Orada 20 Yanvar qurbanları dəfn olundu və həmin gün Azərbaycanda totalitar rejim qurbanlarının xatirə günü kimi elan olundu. Hər il həmin gün minlərlə paytaxt sakini o hadisələrdə həlak olanların xatirəsini anmaq və  məzarları üzərinə gül qoymaq üçün Xiyabana gəlir.

## QOÇAQLAR HƏMİŞƏ ÜRƏKLİ OLUR!..

❻ Ahəng qanununa uyğun şəkilçi variantları artırmaqla Qaçaq Kərəm haqqında müəllimin təqdim etdiyi mətni oxuyun və məlumatınızı artırmağa çalışın.

Kərəm öz dəstəsi ilə Azərbaycanın qərb rayonlarında, Gürcüstanda, Şimali Qafqazda, İran və Türkiyədə fəaliyyət göstərirdi. Qaçaq Kərəmin dəstəsi çar çinovniklərinə, mülkədarlara qarşı mübarizə aparır, kasıb kəndlilərə kömək edirdi. Kərəmin dəstəsi ilə mübarizə aparmaq üçün çar hökuməti Şimali Qafqazdan böyük hərbi qüvvə göndərməyə məcbur olmuşdu. Lakin üsyançıları darmadağın etmək uğursuz nəticələnmişdi. Buna baxmayaraq, Kərəm öz dəstəsi ilə 1890-cı ildə Cənubi Azərbaycana (İrana) yollanır. 1909-cu ildə o, Tehranda vəfat edir.

Ölümündən sonra  Qaçaq Kərəm xalq mahnılarının və əfsanələrin məşhur qəhrəmanına çevrildi. Ona üç dastan həsr olunub.

Maksim Qorki yazırdı: “Qafqaz qaçaqları içərisində ən rəşadətlisi Kərəmdir. Kərəm əfsanə və nağıllar qəhrəmanıdır. O, ədalət mücəssəməsidir”.

## QƏLƏBƏNİN SİRRİ

❿ Paralimpiya oyunları haqqında nə bilirsiniz? Müəllimin təqdim etdiyi mətni Azərbaycan dilinə tərcümə edin və BİBÖ cədvəlini doldurun. Sonra cümlələri bir-biri ilə əlaqələndirməklə mətnin məzmununu danışın.

Paralimpiya oyunları məhdud imkanlara malik insanlar üçün beynəlxalq idman yarışıdır. Adətən, əsas Olimpiya oyunlarından sonra keçirilir. Yay Olimpiya oyunları 1960-cı ildən, qış isə 1976-cı ildən keçirilir. Fiziki qüsu-

ru olan insanların iştirak edə biləcəyi idman növlərinin yaranmasını ingilis neyrocərrah Lüdviq Qutmanın adı ilə bağlayırlar. Lüdviq Qutman fiziki qüsurlu insanlara münasibətdə əsrlərlə davam edən stereotipləri aradan qaldıraraq onurğa beyni zədələnmiş insanların reabilitasiyası prosesində idman hərəkətləri tətbiq etdi. O, praktikada sübut etdi ki, fiziki qüsurlu insanlar üçün olan idman onların uğurlu həyat fəaliyyətinə şərait yaradır. İdman psixi müvazinəti bərpa edir, fiziki qüsur olmasına baxmayaraq, tamamilə yararlı həyata qayıtmağa imkan verir.

## TAMAŞA BAŞ TUTMADI

4 Ahəng qanununa uyğun şəkilçi variantları seçməklə müəllimin təqdim etdiyi mətndə ahəng qanununun pozulduğu halları müəyyənləşdirib, düzgün variantı yazın.

Ziba Qəniyeva 20 avqust 1923-cü ildə Şamaxı şəhərində anadan olub. 16 oktyabr 1941-ci ildən könüllü olaraq müharibəyə gedib. Böyük Vətən müharibəsi zamanı o, snayper-kəşfiyyatçı olub. Leninqrad vilayətində şiddətli döyüşlər zamanı o, 20 faşisti, o cümlədən iki zabiti məhv edib. Ümumilikdə Böyük Vətən müharibəsi illərində 129 faşisti məhv edən Ziba Qəniyeva göstərdiyi qəhrəmanlıq və şücaətə görə "Qırmızı Bayraq" ordeni, "Qırmızı Ulduz" ordeni və "Moskvanın müdafiəsi uğrunda" medalı ilə təltif edilib.

Müharibədən sonra o, institut bitirib və elmi dərəcə alıb.

## Fənlərarası inteqrasiya

Fənlərarası inteqrasiya zamanı ayrı-ayrı fənlər üzrə müraciət edilmiş məzmun standartları:

**Rus dili**

2.2.1. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur.

2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir.

2.2.3. Mətndəki fikrə münasibətini əlavə fakt və məlumatlarla əsaslandırır.

4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.

4.1.3. Köməkçi nitq hissələrinin işlənmə məqamından asılı olaraq durğu işarələrindən istifadə edir.

4.1.4. Nitq hissələrinin yazılışı ilə bağlı qaydalara əməl edir.

**Azərbaycan tarixi**

1.1.1. Mühüm hadisə, proses və təzahürlərin xronoloji çərçivələrini müqayisə edir.

3.1.1. Azərbaycan feodal dövlətlərinin inkişafı, müstəqilliyini itirməsi və siyasi müstəqilliyinin bərpası səbəblərini şərh edir.

3.1.2. Azərbaycanda dövlətçilik ənənələrinin inkişafı xüsusiyyətlərini dəyərləndirir.

**Biologiya**

1.1.2. Canlıların müxtəlifliyi haqqında mülahizələrini şərh edir.

3.2.2. Müalicəvi əhəmiyyətinə görə dərman bitkilərini qruplaşdırır.

4.2.1. Yerli şəraitdə canlıların qorunmasına dair müşahidələr əsasında mülahizərini şərh edir.

**Həyat bilgisi**

1.2.1. İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir.

4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.

4.2.1. Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir.

**Fizika**

1.1.1. Mexaniki hadisələri və onların baş vermə səbəblərini şərh edir.

1.1.2. Mexaniki hərəkəti əlamətlərinə görə şərh edir.

**Musiqi**

1.2.1. Azərbaycan musiqi folkloru nümunələrinin bəstəkar yaradıcılığına təsiri barədə münasibətini bildirir.

# QİYMƏTLƏNDİRMƏ CƏDVƏLLƏRİNDƏN NÜMUNƏLƏR

## MƏZMUN XƏTLƏRİ ÜZRƏ QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ

**Şagirdin adı, soyadı** ________________________________________

**Tarix** ________________________________________

*Cədvəl 1.*

| Gözlənilən nailiyyətlər | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| **Dinləyib-anlama: Dinlədiyi fikri anladığını nümayiş etdirir:** | | | |
| 1. Dinlədiyi mətnin hissələrini müəyyənləşdirir. | | | |
| 2. Dinlədiyi mətndə əsas fakt və hadisələri qruplaşdırır. | | | |
| **Danışma: Şifahi nitq bacarıqları nümayiş etdirir:** | | | |
| 1. Ahəng qanununa uyğun şəkilçi variantı seçməklə sözləri düzgün tələffüz edir. | | | |
| 2. Nitqini uyğun səs tonu ilə tənzimləyir. | | | |
| 3. Müzakirədə deyilən müxtəlif fikirlərə münasibət bildirir. | | | |
| 4. Müvafiq nümunələrdən mətnin hissələrinə uyğun istifadə edir. | | | |
| **Oxu: Mətni mənimsədiyini nümayiş etdirir:** | | | |
| 1. Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir. | | | |
| 2. Səs tonu, temp və fasiləni gözləməklə mətni oxuyur. | | | |
| 3. Mətndəki cümlələr və abzaslar arasındakı əlaqələri müəyyənləşdirir. | | | |
| **Yazı: Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir:** | | | |
| 1. Nümunələrdən istifadə etməklə fikirlərini əsaslandırır. | | | |
| 2. Cümlələr və abzaslar arasında əlaqələri gözləməklə mətn yazır. | | | |
| 3. Nitq hissələri ilə bağlı yazılış və durğu işarələri qaydalarına əməl edir. | | | |
| 4. Müxtəlif əməli yazılar (ərizə, tərcümeyi-hal) yazır. | | | |

**Müəllim şagirdlə birlikdə qiymətləndirməni həyata keçirir.**

*Cədvəl 2. Qrupları qiymətləndirmək üçün meyarlar:*

| Qrupların №-si | Əməkdaşlıq | Dinləmə | İntizam | Əlavələr | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |

Dərsin əvvəlindən sonunadək qrupun işindən asılı olaraq hər meyarın altında "+" və ya "-" yazılır. Sonuncu sütunda "+" və ya "-"lar hesablanır.

*Cədvəl 3. Müəllim meyarlar üzrə qrupların fəaliyyətini qiymətləndirir.*

| Meyarlar / Qruplar | Müzakirədə iştirak edir | Tapşırıqları yerinə yetirir | Öz fikirlərini aydın ifadə edir | Yoldaşlarını dinləyir və suallar verir | Nəticə |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |

Dərsin əvvəlindən sonunadək müəllim təyin edilmiş ballar üzrə qrupun fəaliyyətini qiymətləndirir.

*Cədvəl 4. Şagirdin özünüqiymətləndirməsi*

| Sıra №-si | Adı, soyadı, atasının adı | Meyarlar | | | Nəticə |
|---|---|---|---|---|---|
| | | Müzakirədə iştirakı | Bir-birini dinləməsi | Mühüm fikirlərin irəli sürülməsi | |
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |

Cədvəldə hər şagird həm özünə, həm də yoldaşına 1 baldan 10 bala qədər qiymət yazır.

*Cədvəl 5. Müəllim qrupların fəaliyyətini onların dərsdə iştirak etmə səviyyəsinə görə qiymətləndirir.*

| Meyarlar | Fikrini sərbəst ifadə edir | | | | Nəticə çıxarır | | | | Mühakimə yürüdür | | | | Əməkdaşlıq edir | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Səviyyə Qrup №-si | I | II | III | IV | I | II | III | IV | I | II | III | IV | I | II | III | IV |
| 1. | | | | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | | | |
| 4. | | | | | | | | | | | | | | | | |

Müəllim qiymətləndirməni 1-10 bal əsasında aparır.

*Cədvəl 6. Şagirdin özünüqiymətləndirmə cədvəlləri:*

| Meyarlar Şagird | Təqdim edir | Cümlə qurur | Fərqləndirir | Nəticə çıxarır |
|---|---|---|---|---|
| 1. | | | | |
| 2. | | | | |
| 3. | | | | |
| 4. | | | | |

*Cədvəl 7. Birinci dərs üzrə qiymətləndirmə cədvəlinə dair nümunə.*

| Gözlənilən nailiyyətlər | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Şeirin hissələrini müəyyənləşdirə bilir. | | | |
| Müvafiq nümunələrdən şeirin hissələrinə uyğun istifadə edir. | | | |
| Səs tonu, temp və fasiləni gözləyərək şeiri oxuyur. | | | |
| Fellərdə zaman, isimlərdə hal şəkilçilərinin ahəng qanununa uyğun sözlərə artırılması qaydasına əməl edir. | | | |

Buraxılış məlumatı

# AZƏRBAYCAN DİLİ 7

Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün
Azərbaycan dili (dövlət dili)
fənni üzrə metodik vəsait

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəlliflər: | **Həvva Abdullayeva,**<br>**İradə Əfəndiyeva,**<br>**Məlahət Ələsgərova** |
| Dil redaktoru | **İsmayıl Kazımova**<br>*filologiya elmləri doktoru,*<br>*professor* |
| Naşir | **Xəlil Həsənoğlu** |
| Redaktor | **Hafiz Rüstəm** |
| Texniki redaktor | **Turqay Cəlallı** |
| Korrektor | **Billurə Ələkbərova** |
| Dizayner | **Tural Səfiyev** |

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2018-096**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018.**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Fiziki çap vərəqi 10,0. Formatı 70x100 1/16.
Səhifə sayı 160. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tirajı 540. Pulsuz. Bakı-2018.

**"KÖVSƏR" NƏŞRİYYATI**
**Bakı, AZ 1010, Dilarə Əliyeva küç., 251A/8A**

PULSUZ